# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal




№1
2024

www.genprosecutor.gov.az



**Altı ay bundan əvvəl uğurla keçirilmiş antiterror əməliyyatı beynəlxalq hüququn təntənəsidir, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsidir. Biz bir daha göstərdik ki, öz yolumuzdan dönməyəcəyik, Ermənistanın arxasında istənilən qüvvələr dursalar belə, biz öz istədiyimizə nail olacağıq və nail olmuşuq.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Talıb Cəfərov

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105-ci məhəllə.

**Tel. / Faks:** 361 14 02
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 1-ci nömrəsi*

*Yanvar - Mart (2024-cü il)*

"Media haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 17. 04. 2024
60x84 1/8 formatda 216 səhifə həcmdədir.

© "Azərbaycan Prokurorluğu", 2024

# MÜNDƏRİCAT


**I ÖLKƏDƏ**

**5** İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndidə səs veriblər
**8** İlham Əliyevin andiçmə mərasimi keçirilib
**21** İlham Əliyev Almaniyaya səfər edib
**30** İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib
**31** Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ölkəmizə səfər edib
**49** İlham Əliyev "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumunun açılış mərasimində iştirak edib
**59** NATO-nun Baş katibi Yens Stoltenberq ölkəmizə səfər edib
**62** İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb

**I PROKURORLUQDA**

**65** Baş Prokurorluqda 2023-cü ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin icrasına dair əməliyyat müşavirəsi keçirilib
**68** Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc hüquqşünasların andiçmə mərasimi keçirilib
**72** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda əməliyyat müşavirəsi keçirilib
**74** Bakı şəhər prokurorluğunun 2023-cü ilin yekunlarına dair əməliyyat müşavirəsi keçirilib
**77** Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda geniş kollegiya iclası keçirilib
**80** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində geniş əməliyyat müşavirəsi keçirilib
**83** 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar prokurorluq əməkdaşları Şəhidlər xiyabanını ziyarət edib
**84** Baş Prokurorluqda "Prokurorluq orqanları tərəfindən 2023-cü ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrə dair" Geniş Kollegiya iclası keçirilib
**90** Baş prokuror MDB PA-nın Müşahidə Missiyası ilə görüşüb
**91** Baş prokuror Kamran Əliyev BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisini qəbul edib
**92** Prokurorluq əməkdaşlarına və media qurumlarına mükafatlar təqdim olunub
**95** Keniya Respublikasının Baş prokuroru ölkəmizə işgüzar səfər edib
**100** Xocalı faciəsinin 32-ci ildönümü ilə əlaqədar Baş Prokurorluğun rəhbərliyi "Ana harayı" abidəsini ziyarət edib
**101** Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib
**103** 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Baş Prokurorluqda tədbir keçirilib
**105** Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraçı direktoru ölkəmizə səfər edib
**107** Baş Prokurorluğun əməkdaşları martın 18-də Akademik Milli Dram Teatrında yazıçı-dramaturq İlyas Əfəndiyevin pyesi əsasında hazırlanmış "Qarabağnamə" tamaşasını izləyib
**108** Rusiya Federasiyası İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfər edib
**111** Baş prokuror bölgələrdə vətəndaşları qəbul edib
**118** Prokurorluq orqanlarında qulluğa qəbulla bağlı müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər üçün icbari təlim keçirilib
**119** Baş Prokurorluğun və Mediasiya Şurasının birgə təşkilatçılığı ilə təlim keçirilib
**120** Baş Prokurorluq BMT-nin qurumu ilə birgə təlim təşkil edib
**121** Prokurorluq və gömrük orqanları arasında təcrübə mübadiləsi sahəsində əməkdaşlıq uğurla davam etdirilir
**122** "Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının təmin edilməsində prokurorluq orqanlarının rolu" mövzusunda seminar keçirilib
**123** Baş Prokurorluqda dövlət qulluqçuları üçün təlim təşkil edilib
**124** Prokurorluq işçiləri "Akademik hüquqi yazı" mövzusunda təlimə cəlb edilib
**125** Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən qurumların əməkdaşları Elm-Tədris Mərkəzində təşkil edilmiş təlimdə iştirak ediblər
**126** Baş Prokurorluqda "Dövlət qulluğunda qanunvericiliyin tətbiqi və korrupsiyaya qarşı mübarizə" mövzusunda təlim keçirilib
**127** Prokurorluq və polis əməkdaşları üçün yerlərdə seminarlar təşkil olunub
**128** Baş Prokurorluqda Dövlət Gömrük Komitəsi Akademiyasının tələbələri ilə görüş keçirilib
**130** Dövlət ittihamı fəaliyyətində səmərəliliyin artırılması istiqamətində tədbirlər davam etdirilir
**131** Prokurorluq əməkdaşları "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təşkil olunan təlimdə iştirak edib

# MÜNDƏRİCAT

**132** Bakı Dövlət Universitetinin tələbələri Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub

**133** Baş Prokurorluqda məişət zorakılığına qarşı mübarizə, eləcə də uşaq hüquqlarının müdafiəsi ilə bağlı növbəti təlim keçirilib

**134** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Maliyyə Monitorinqi Xidmətinin nümayəndələri ilə növbəti görüş keçirilib

**135** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmə tədbiri keçirilib

**137** Hərbi Prokurorluqda Xocalı soyqırımının otuz ikinci ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilib

**139** Hərbi prokuror Xanlar Vəliyev Şuşa və Xankəndidə hərbçilərlə görüşüb

**141** Hərbi Prokurorluq işçiləri Müdafiə Nazirliyinin vəzifəli şəxsləri ilə birgə Novruz bayramı ərəfəsində hərbi hissələrdə olublar

**143** Novruz bayramı ilə əlaqədar Hərbi Prokurorluq işçiləri DİN-in vəzifəli şəxsləri ilə birgə hərbi hissələrdə olublar

**145** Hərbi Prokurorluq işçiləri Dövlət Sərhəd Xidmətinin yüksəkrütbəli zabitləri ilə birgə hərbi hissələrdə görüşlər keçirib

**147** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən şagirdlər üçün maarifləndici tədbirlər təşkil edilib

**149** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşəbbüsü ilə tabe rayon (şəhər) prokurorluqlarında insan hüquqlarının müdafiəsi mövzusunda seminarlar keçirilib

**151** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun iştirakı ilə Naxçıvan Dövlət Universitetində Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilib

**151** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları UNİCEF-in təlimlərinə cəlb edilib

**152** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Ordubad şəhər internat məktəbinin şagirdlərini ziyarət ediblər

## BEYNƏLXALQ ƏLAQƏLƏR

**153** Baş Prokurorluqda ATƏT-in DTİHB Seçki Müşahidə Missiyası ilə görüş keçirilib

**154** Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir

**154** Beynəlxalq təşkilatlarla əməkdaşlıq davam etdirilir

**155** Prokurorluq əməkdaşları beynəlxalq tədbirdə iştirak edib

**155** Baş Prokurorluğun əməkdaşı BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının iclasında iştirak edib

## PROKURORLUQ VƏ CƏMİYYƏT

**156** Mətbuat xidmətinin məlumatı

**165** *Mübariz Əhmədov* – Peşə hazırlığında aktiv və interaktiv təlim modelləri

**169** *Firad Əliyev* – Xocalı soyqırımının törədilməsində təqsiri olan hər kəs mütləq cəzasını alacaq

**171** *Faiq Səfərov* – 100 yaşlı muxtariyyətin prokurorluq orqanları

## İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE

**176** *Talıb Cəfərov* – Qanunsuz miqrasiyanın təşkilinə dair cinayətlər işləri üzrə hüquqi problemlər

**179** *Yasin Mikayıllı* – Mülkiyyət əleyhinə cinayətlərlə mübarizənin müasir problemləri

## HƏMKARLARIMIZLA MÜSAHİBƏ

**183** Keniya Respublikasının Baş prokuroru Renson Mulele İnqonqanın müsahibəsi

## PROKURORLUĞUN VETERANLARI

**185** Qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçiləri təltif olunub

**186** Qarabağ Müharibəsi Veteranı olan prokurorluq işçisi son yaş həddinə çatdığına görə təqaüdə göndərilib

**187** Baş Prokurorluğun əməkdaşları prokurorluğun veteranları ilə görüşüblər

**188** Prokurorluğun veteranı Ənvər Həmidovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi

## HÜQUQİ AKTLAR

**192** Qanunvericiliyə dəyişikliklər

# İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndidə səs veriblər



Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs veriblər.

















# İlham Əliyevin andiçmə mərasimi keçirilib







Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib.

Andiçmə mərasimində birinci xanım Mehriban Əliyeva, dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları iştirak ediblər.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Azərbaycan Respublikası Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək dedi:

– Hörmətli xanımlar və cənablar.

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2024-

cü il 13 fevral tarixli qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə and içməyə dəvət olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:

– Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Sonra Prezident müqəddəs "Qurani-Şərif"ə əl basaraq and içdi:

– Əlimi "Qurani-Şərif"ə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.





Prezident İlham Əliyev təzim edərək, Azərbaycan Respublikasının Dövlət Bayrağını öpdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi.





## Prezident İlham Əliyevin nitqi



– Hörmətli xanımlar və cənablar.

İlk növbədə, prezident seçkilərində mənə yenidən böyük etimad və dəstək göstərən doğma Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirmək istəyirəm. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi.

2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik.

Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət



paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların və on minlərlə Azərbaycan gəncinin şücaəti, fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün azad Qarabağda yaşayırıq, qururuq, ərazi bütövlüyümüzü bərpa edən, öz ləyaqətini bərpa edən xalq kimi qururuq, yaradırıq, şəhər və kəndlərimizi yenidən qururuq.

İkinci Qarabağ müharibəsi şanlı tariximizdir. Ancaq müharibə olmaya bilərdi, əgər Ermənistan və onun rəhbərliyi, onun arxasında dayanan qüvvələr beynəlxalq hüquqa əməl etsəydilər, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əməl etsəydilər. Əgər böyük dövlətlər Ermənistana onun işğalçılıq siyasətinə görə sanksiyalar tətbiq etsəydilər, heç olmasa, onların işğalçılıq siyasətini pisləsəydilər, bəlkə də müharibəyə ehtiyac qalmazdı. Azərbaycan dövləti uzun illər ərzində təmkinlilik göstərirdi, eyni zamanda, aparılan danışıqlara sadiqlik göstərirdi. Baxmayaraq ki, illər keçdikcə bizim ümidlərimiz də tükənirdi, işğalçı dövlət daha da azğınlaşırdı, hesab edirdi ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilər.

O inamı onlara verənlər Ermənistan rəhbərliyi ilə bərabər bütün məsuliyyəti daşıyırlar və bölüşürlər. Mən dəfələrlə müxtəlif tədbirlərdə, eyni zamanda, Ermənistan rəhbərliyi ilə, onlara dəstək verən böyük dövlətlərin rəhbərləri ilə söhbətlər əsnasında deyirdim ki, Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. Deyirdim ki, nə qədər gec deyil, Ermənistanı inandırın və özünüz də lazımi addımlar atın ki, bu işğala son qoyulsun. Ancaq əfsuslar olsun ki, bütün çağırışlarım, bütün xəbərdarlıqlarım havada qaldı. Sanki kimsə hesab edirdi ki, Azərbaycan xalqı bu işğalla barışmalı olacaq. Biz isə döyüş meydanında göstərdik ki, nəyə qadirik. Biz döyüş meydanında cəmi 44 gün ərzində Ermənistan ordusunu tamamilə darmadağın etmişdik. Elə günə salmışdıq ki, özlərinin etirafına görə, 12 mindən çox fərarisi olmuşdur. Azərbaycan Ordusundan bir nəfər də döyüş meydanını tərk edib qaçmamışdır. Bu, bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərir. Bir daha göstərir, elə gənc nəsil yetişib ki, Vətən uğrunda, torpaq uğrunda, milli ləyaqət uğrunda ölümə getməyə hazırdır və ölümə də gedirdilər bizim gənclərimiz. Biz bütün dünyada Ermənistanın uzun illər ərzində yaratmağa çalışdığı mifləri darmadağın etdik, erməni ordusunu qorxaq və təslimçi ordu kimi təqdim etdik. Bunu bizim cəsur döyüşçülərimiz qan tökərək, irəliyə gedərək, 5-6 müdafiə xəttini aşaraq sübut etmişlər və 44 günlük Vətən müharibəsi, bir daha demək istəyirəm, bizim əyilməz ruhumuzu göstərmişdir, Azərbaycan xalqının iradəsini göstərmişdir, Azərbaycan dövlətinin gücünü göstərmişdir. Xalq bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində bütün tarixi və strateji vəzifələr təmin edildi. Bu 44 gün ərzində bir dəfə də olsun Ordumuz geriyə addım atmamışdır, ancaq irəli gedirdik. Şuşanın azad edilməsi tarixi hadisə olaraq, eyni zamanda, İkinci Qarabağ müharibəsinə son qoydu. Çünki ondan sonra Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur olmuşdur, bizim qarşımızda ağ bayraq qaldırmışdır, təslim olmuşdur və beləliklə, İkinci Qarabağ müharibəsi

başa çatdı.

Müharibədən keçən dövr ərzində biz öz prinsipial mövqeyimizi bütün məsələlərdə göstərmişdik, həm beynəlxalq vasitəçilik etməyə çalışanlarla, həm Ermənistan tərəfi ilə çoxsaylı görüşlər zamanı bildirilmişdir ki, onların üzərinə götürdükləri bütün öhdəliklər yerinə yetirilməlidir. Kapitulyasiya aktında hər şey açıq-aydın göstərilmişdir. Düzdür, bəzi öhdəliklər yerinə yetirildi, o da məcburən, qorxudan. Çünki İkinci Qarabağ müharibəsi işğalçılara elə bir sarsıdıcı zərbə vurdu ki, onlar uzun müddət ərzində özlərinə gələ bilmirdilər. Ancaq vaxt keçdikcə gördük ki, yenidən bizə qarşı ərazi iddiaları irəli sürülür, onlar yenidən o çirkin əməllərindən əl çəkmək istəmirlər. Biz isə haqlı olaraq tələb edirdik ki, bütün şərtlər və öhdəliklər icra edilməlidir. Ermənistan özü bu öhdəliklərin altında imza atmışdır. Onların arasında, ilk növbədə, qanunsuz silahlı birləşmələrin Azərbaycan ərazisindən çıxarılması və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasındakı yol bağlantısı öhdəlikləri dururdu və üç il ərzində bu öhdəliklərin yerinə yetirilməsi məsələsi öz həllini tapmamışdır. Ermənistan sanki İkinci Qarabağ müharibəsinin nəticələrini unutmuşdu. Bəlkə kimsə onlara müəyyən məsləhətlər də verirdi ki, bu öhdəliklər yerinə yetirilməsin.

Üç il ərzində biz yenə də səbir göstərmişdik, biz yeni gərginləşmə vəziyyəti yaratmaq fikrində deyildik və İkinci Qarabağ müharibəsindən antiterror əməliyyatına qədər keçən dövr ərzində bunun bütün xronoloji məqamları bir daha onu göstərir ki, Azərbaycanın mövqeyi ədalətli mövqedir. Düzdür, Ermənistan və onun arxasında duran qüvvələr bunu görmək istəmirlər. Ancaq hər şey sənədləşdirilib, bu gün heç nəyi gizlətmək mümkün deyil. Üç il ərzində nəinki Ermənistan öz silahlı qüvvələrini Qarabağ bölgəsindən çıxarmayıb, hətta əlavə silah-sursat göndərib, minalar göndərib, bizə qarşı mina terroru davam edib, daha geniş vüsət almışdır. Ermənistan sanki bütün dünyanı və o cümlədən bizi aldatmağa çalışırdı ki, Ermənistan ordusunun silahlı birləşmələri Qarabağda mövcud deyil, bu, sən demə, hansısa özünümüdafiə qüvvələridir. Bu cəfəng versiyalara inananlar Ermənistan rəhbərliyi ilə birlikdə bütün məsuliyyəti daşıyırlar.

Ona görə antiterror əməliyyatı qaçılmaz idi. Ermənistan mövqeyində təzadlı məqamlar artıq bir qayda kimi müşahidə olunur. Əgər Ermənistan tərəfindən bir həftə təzadlı, bir-birini inkar edən hər hansı açıqlama verilməsə, biz artıq şübhə etməyə başlayırıq ki, görəsən, nələr baş verir. Bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıyan və 2022-ci ilin oktyabr ayında bunu bəyan edən dövlət, digər tərəfdən bizə qarşı ərazi iddialarından əl çəkmirdi. Bunu, həm onların açıqlamaları göstərirdi, həm də onların qanunları, o cümlədən onların əsas qanunu bunu göstərir, eyni zamanda, separatçı qüvvələrə Ermənistan rəhbərliyi tərəfindən göndərilən təbrik məktubları göstərirdi. Bunu görmək istəməyənlər, bu gün Ermənistanın arxasında durmağa çalışanlar bilməlidirlər ki, heç nəyi gizlədə bilməyəcəklər.

Bizim ərazi bütövlüyümüz tam bərpa olunmalı idi və biz İkinci Qarabağ müharibəsindən sonra bu məqsədə doğru məqsədyönlü şəkildə addımlayırdıq. İndi bütün hadisələri yenidən dilə gətirməyə ehtiyac yoxdur, Azərbaycan xalqı hər şeyi bilir və hər şeyi yadda saxlayır. Hər bir addımımızın məntiqi mənası var idi, hər bir addım əvvəlki addımın məntiqi davamı idi, istər Laçın-Xankəndi yolu ilə əlaqədar, istər antiterror əməliyyatının keçirilməsi ilə əlaqədar. Mən digər addımları da qeyd etməliyəm, o cümlədən Azərbaycan və Ermənistan şərti sərhədində baş vermiş hadisələr, hesab edirəm ki, bax bugünkü reallığın əldə edilməsi üçün çox önəmli rol oynamışdı. Ola bilər o vaxt bəziləri obyektiv səbəblərə görə bunu tam dərk edə bilmirdi, ancaq bu gün keçmişə baxdıqda hər kəs görür ki, bir dənə də olsun addımımız situativ xarakter daşımırdı, avantüra xarakteri daşımırdı və mənasız deyildi. Biz, ümumiyyətlə, heç vaxt mənasız addımlar atmırıq, atmamışıq və atmayacağıq. Bu gün hansı addımlar atılırsa, o addımların hədəfə doğru getmək üçün böyük mənası var.

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salınmışdır və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur olmuşlar. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Bununla da Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi.

Bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir. Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir. Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim. Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar. Məhz Xankəndidə hələ 1980-ci illərin sonlarında xalqımıza qarşı qanlı cinayətlər başlamışdır. Məhz Xankəndidə səs verdiyim binada xalqımıza qarşı soyqırımı planlaşdırılırdı və oradan idarə olunurdu. Məhz səs verdiyim binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti bizə qarşı ərazi iddialarını irəli sürmüşdü. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilmişdi və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq idi, bunu

hər kəs bilir. Ona görə məhz orada otuz il bizim tarixi yerimizi, Pənahəli xan tərəfindən salınan o məkanı qanunsuz zəbt edən şeytanlar məhz orada da öz süqutunu özləri təsdiq etmişlər, təbii ki, məcburən. Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi.



İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü, təklif edilirdi. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi, mən hər dəfə deyirdim ki, Azərbaycan Bayrağı ərazimizin hər bir yerində dalğalanacaq.

Hələ Bayraq Meydanının açılışında demişdim ki, bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq, bizim siyasətimiz bundan ibarət idi. Biz bütün gücümüzü səfərbər edib bu hədəfə doğru gedirdik, biz hər gün, hər saat bu müqəddəs günü yaxınlaşdırırdıq.

Təbii ki, yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayırıq. Əminəm ki, bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun.

Hesab edirəm ki, növbəti illərdə qarşımızda duran əsas vəzifələrdən biri Ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atıldı və mən müxtəlif vaxtlarda bu məsələ ilə bağlı öz sözlərimi demişdim. Demişdim ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür və cəmi bir neçə saat davam edən antiterror əməliyyatı bunun bariz nümunəsidir.

Bu gün Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, lazımi silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılıb, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayı minlərlə ölçülür və bu proses davam edir. Biz elə Ordu yaratmışıq ki, – bundan sonra da bu işlər davam edəcək, – heç kim bizə sataşa bilməz və gələcəkdə də belə bir fikirdə ola bilməz. Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz. Ermənistanın nə qədər havadarları olsa da, heç kim bizi dayandıra bilməz. Bizim siyasətimiz beynəlxalq hüquqa əsaslanır. Bizim Ermənistan ərazisinə iddiamız yoxdur, ancaq onlar da öz iddialarını geri döndərməlidirlər. Bizdən əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələcək və onu yəqin ki, hər kəs görür. Beləliklə, ordu quruculuğu prosesi davam etdiriləcək. Bizim dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır.

Biz çox güclü hərbi sənaye kompleksi yaradırıq, artıq bunun birinci mərhələsi başa çatdı. İkinci mərhələsi daha genişmiqyaslı olacaq. Təkcə bu il bu məqsədlər üçün həm özəl, həm dövlət müəssisələri tərəfindən ən azı bir milyard manat sərmayə qoyulacaq və biz özümüzü bundan sonra daha böyük həcmdə silah-sursatla, texnika ilə təmin edəcəyik, daha böyük həcmdə ixrac edəcəyik və bu sahədə də müəyyən dərəcədə, deyə bilərəm ki, böyük dərəcədə xarici asılılıqdan canımızı qurtaracağıq. Necə ki, siyasi sahədə, iqtisadi sahədə bizim xarici təsirə məruz qalma şansımız sıfra bərabərdir, çünki biz müstəqil siyasət aparırıq.

Bu gün dünyada gedən prosesləri hər kəs görür. Dünya faktiki olaraq Üçüncü Dünya müharibəsinə çox yaxındır. Bəziləri hesab edir ki, artıq bu Üçüncü Dünya müharibəsi başlamışdır, müxtəlif fərziyyələr ola bilər. Təbii ki, müasir müharibələr əvvəlki müharibələrdən fərqlənir. İkinci Dünya müharibəsi ilə bugünkü müharibələri müqayisə etmək belə mümkün deyil və təbii ki, bir çox ölkələr bu gün hərbi sahəyə diqqət yetirməyə başlamışlar. Biz isə bunu artıq 20

ildən çoxdur ki edirik və bu gün bizdə əldə edilmiş təcrübə, o cümlədən döyüş təcrübəsi əvəzolunmazdır. Bizim Ordumuz təlimlərdə yox, paradlarda yox, döyüş meydanında öz gücünü göstərmişdir. Ermənistan və ona hərbi cəhətdən dəstək verənlər bilməlidirlər ki, bizi heç nə dayandıra bilməz. Əgər bizə qarşı ərazi iddialarına son qoyulmazsa, əgər Ermənistan öz qanunvericiliyini normal qaydaya salmazsa, təbii ki, sülh müqaviləsi olmayacaq. Bu, bir daha onu deməyə əsas verir ki, ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi əsas vəzifədir. Bu gün onu da bildirməliyəm ki, bir çox ölkələr üçün bu, əsas vəzifə kimi artıq qəbul olunub, onların hərbi doktrinalarında, onların büdcə xərclərində və digər addımlarda da bunu əyani şəkildə görmək olur. Bizim üstünlüyümüz ondan ibarətdir ki, Ordumuz döyüş meydanında öz gücünü göstərib, Ordumuzda çox yüksək mənəvi ruh var, bizim peşəkarlığımız artır və biz Ermənistanı döyüş meydanında məğlub etmişik. Ona görə bu amil həmişə mövcud olacaq.

Biz, eyni zamanda, sərhədlərimizi daha da güclü qorumalıyıq. Bunu da qarşıya önəmli vəzifə kimi qoyuram. Bu istiqamətdə də önəmli addımlar atılmışdır. Xüsusilə nəzərə alsaq ki, İkinci Qarabağ müharibəsindən sonra biz həm o vaxt işğal altında olan Azərbaycan-İran sərhədinə qayıtmışıq, həm də Azərbaycan-Ermənistan şərti sərhədində yerləşmişik. Əlbəttə ki, sərhəd infrastrukturunun qurulması xüsusi əhəmiyyət daşıyır və biz burada da ən müasir üsullardan istifadə edirik və edəcəyik. Sərhədimiz elə möhkəm bağlı olmalıdır ki, bir quş belə uça bilməsin. Sərhədlərimizin qorunması, eyni zamanda, bizi xarici risklərdən qoruyacaq. Çünki ölkə daxilində risklər yoxdur. Bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır. Təhlükəsizlik tədbirlərinin bundan sonra da görülməsi vacib vəzifə kimi qarşıya qoyulur. Biz özümüzü təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsi nəticəsində həm fiziki risklərdən qorumalıyıq, həm də özümüzü ideoloji risklərdən qorumalıyıq. İdeoloji risklər sərhəd tanımır, xüsusilə indiki şəraitdə. Ona görə burada əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Bu məsələyə çox ciddi yanaşmalıyıq və mən bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyuram. Gənc nəslin tərbiyə edilməsi bizim gələcəyimizin təmin edilməsi deməkdir.

Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır. Əlbəttə, bizə qarşı bundan sonra da ideoloji təxribatlar nəinki istisna deyil, bunlar qaçılmazdır və biz bunu demək olar ki, gündəlik həyatda görürük. Bizim işimizə kölgə salmaq, bizi diskriminasiyaya uğratmaq, Azərbaycan haqqında əsassız və yalançı, mənfi imic yaratmaq – biz bütün bunları gündəlik həyatda görürük, Azərbaycan xalqı görür və bundan hiddətlənir.

Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə, ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində də Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı, əsrlər boyu bizə qarşı edilən ədalətsizliklə, – təkcə son 30 il ərzində yox, – torpaqlarımızın müxtəlif dövrlərdə əlimizdən alınması ilə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır. Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur. Burada, əlbəttə ki, dövlət siyasəti də aparılır və aparılacaq. Eyni zamanda, dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük. Bu seçkilərdə göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi möhkəmləndirir və belə olan halda heç bir kənar qüvvə bizə qarşı heç bir məkrli plan həyata keçirə bilməz.

Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan Bayrağı altında birləşib. Bu Qələbədə, bu tarixi Zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi var.

Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub. Ulu Öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz – onun davamçıları isə bu müsbət meyilləri öz tərə-

fimizdən daha da gücləndiririk. Azərbaycanda yaşayan bütün xalqlar vahid, mehriban ailə kimi yaşayır. Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik. Biz hamımız şəhidlər vermişik, qan tökmüşük. Erməni işğalçılara qarşı sinəmizi qabağa verib döyüşə getmişik. Bu birlik, bu həmrəylik və bu şanlı Zəfər tarixi Azərbaycanda yaşayan bütün xalqları daha da sıx birləşdirir və bu da əsas vəzifələrdən biri kimi qarşıya qoyulur. Deyə bilərəm ki, bu sahədə çox böyük tarixi nailiyyətlər var, baxmayaraq ki, müxtəlif istiqamətlərdən bu birliyi pozmaq, bizim aramıza girmək, təxribat xarakterli uydurmaları ortaya atmaq cəhdləri kifayət qədər çox olub və olacaq. Çünki bizi istəməyən qüvvələr, bizim gücümüzü qəbul etməyən, Ermənistan üzərində parlaq Qələbəmizi həzm edə bilməyən anti-Azərbaycan qüvvələr çalışacaqlar ki, bu amildən istifadə etsinlər. Onların səyləri əbəs olacaq. Bizim birliyimiz bu səylər qarşısında bir sədd kimi durmalıdır və durur. Bu istiqamətdə bundan sonra da lazımi addımlar atılacaq. Təbii ki, cəmiyyət, vəzifəli şəxslər, dövlət qurumları burada vahid siyasət aparır və bu siyasət gündəlik həyatda özünü göstərir.

Növbəti önəmli vəzifə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Deyə bilərəm ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir. Onu da nəzərə almalıyıq ki, mənfur düşmən bizim ərazilərimizi minalayıb və 300-dən çox insan artıq həyatını, ya da ki, öz sağlamlığını itirib. Əfsuslar olsun ki, biz hər həftə belə ağır xəbərləri eşidirik. Minalardan təmizləmə prosesi gedir, 120 min hektar artıq təmizlənib, amma minalanmış ərazi qat-qat daha genişdir. Bütün bunlara baxmayaraq, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qaytarılması prosesi uğurla gedir. Bu günə qədər təxminən 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə göndərilib, orada yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq. Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlamışdır. Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bununla paralel olaraq, bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman obyektləri, infrastruktur obyektləri, yollar, 130-dan çox tunel və körpü, – 40 tunel və 90 körpü, – inşa edilir. Yəni, bu, sadəcə olaraq işin miqyasını göstərir, bütün elektrik təsərrüfatı yenidən qurulub, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılıb, üçüncüsü də Laçında açılacaq. Yəni, geniş quruculuq işləri görüləcək. Əlbəttə ki, köçkünlər üçün yeni evlər, bütün müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulacaq və tarixi şəhərlərimizin tarixi siması bərpa ediləcək.

Əlbəttə ki, bütün bunlara nail olmaq üçün iqtisadiyyatımız inkişaf etməlidir. Bu ilin yanvar ayının nəticələri ümidvericidir. Ümumi daxili məhsul 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artıb. Bu, ümidverici göstəricidir və onu göstərir ki, biz indi yavaş-yavaş öz iqtisadi templərimizi bərpa edirik. Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə bizim ümumi daxili məhsulumuz 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır. Yəni, bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. Bizim 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır və biz bu 20 il ərzində görün öz valyuta ehtiyatlarımızı nə qədər artırmışıq. Bu, bizə iqtisadi və maliyyə müstəqilliyi verən əsas amillərdən biridir. Aparılan siyasət nəticəsində birbaşa xarici borcumuz 6,4 milyard dollara düşüb, bu da ümumi daxili məhsulumuzun cəmi 9 faizini, ondan da az təşkil edir. İnkişaf etmiş ölkələrdə bu rəqəm 100 faiz, bəlkə də 140 faiz təşkil edir, bizdə isə 9 faizdən az. Yəni, bu, nəyi göstərir? Bizim sağlam maliyyə sistemimizin göstəriciləridir və bu, bizə imkan verir ki, biz müstəqil siyasət aparaq. Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır.

Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə bizim minimum əməkhaqqı, – bəlkə də çoxlarının yadında deyil, – 9 manat idi. İndi 345 manatdır. Əlbəttə ki, bu da yetərli deyil, ancaq dinamika var və dinamika davam edəcək. Minimum pensiya 2003-cü ildə 20 manat idi. Bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Əlbəttə ki, yenə də deyirəm, bu, bizi qane edə bilməz. Ancaq dinamika var, inkişaf var və ən önəmlisi, gözəl perspektivlər var. Bu gün iqtisadi sahədə aparılan islahatlar artıq Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaratmışdır. Əgər əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. Əldə edilmiş razılaşmalar, imzalanmış kontraktlar yaxın bir neçə ildə özünü elə göstərəcək, sıçrayış elə böyük olacaq ki, bunu hər kəs görəcək.

Biz əlbəttə ki, yoxsullugla bağlı və işsizliklə bağlı öz fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun. Müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir,

o cümlədən bizim üçün. Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir.

Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir. Deyə bilərəm ki, bu kateqoriyadan olan insanlara dövlət tərəfindən 14 min 800 fərdi ev və ya mənzil verilmişdir. Bu kateqoriyadan olan insanların 100 faiz evlərlə təmin edilməsi prosesi sürətlə gedir, o cümlədən bu il və gələn il bu işlər görüləcək.

Vacib vəzifələrdən biri texnoloji inkişafımızdır. Bu gün istər sənaye inkişafı sahəsində, istər hərbi sənaye kompleksi sahəsində və ümumiyyətlə, hərbi sahədə texnoloji inkişaf və üstünlük böyük əhəmiyyət daşıyır. İkinci Qarabağ müharibəsi zamanı hər kəs bunu gördü, antiterror əməliyyatı zamanı da. Təbii ki, Qələbəmizin əsas amili Azərbaycan döyüşçüsüdür. Düşməni məhv edən və Bayrağı azad edilmiş torpaqlara sancan insandır, əsgərdir, zabitdir. Ancaq texniki vasitələr az rol oynamır. Biz texniki vasitələr hesabına İkinci Qarabağ müharibəsindən minimum itkilərlə çıxmışıq. Ona görə texnoloji inkişafla bağlı hədəflər müəyyən edildi, bütün aidiyyəti qurumlara tapşırıqlar verildi və bu iş əlbəttə ki, böyük bir səfərbərlik tələb edən işdir. Sadəcə olaraq, dövlət siyasəti burada yetərli deyil. Biz əlbəttə ki, yeni texnologiyaları alırıq, texnoloji inkişafa böyük dəstək veririk, ancaq burada vacib məsələlərdən biri kadr hazırlığıdır. Deyə bilərəm ki, bu istiqamətdə son 1-2 il ərzində böyük inkişaf mövcuddur, bəlkə də ictimaiyyət o qədər də məlumatlı deyil. Ancaq kadr hazırlığı olmadan heç bir texnoloji yenilik kifayət etməyəcək. Son müddət ərzində bir neçə min Azərbaycan gənci treninqlərdən keçib, xüsusi proqramlardan keçib. Texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi – bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdırlar. Əks təqdirdə, biz geridə qalacağıq. Biz isə geridə qala bilmərik. Biz elə bir bölgədə yerləşirik, bizə qarşı elə bir qüvvələr birləşib ki, bizə ziyan vurmaq üçün fürsət axtarırlar. Biz, – İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı zamanı mən bunu artıq demişdim, – sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq, əlbəttə ki, cəmiyyət rahat yaşamalıdır. Mən Azərbaycan üçün hər hansı bir təhlükə, təhdid görmürəm. Ancaq nə üçün görmürəm, çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək. Ona görə texnoloji inkişafa nail olmasaq, burada geniş, yəni, bir neçə min yox, on minlərlə azərbaycanlı bu işdə olmasa, biz geridə qala bilərik. Ona görə hesab edirəm ki, bütün qurumlar və eyni zamanda, cəmiyyət bunu da vəzifə kimi bilməlidir və görməlidir.

Digər vacib vəzifələrdən biri bərpaolunan enerji ilə bağlıdır. Burada da biz ön sıralardayıq, artıq işlərə start verildi. Bizim planlarımıza görə 2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji növləri, yeni enerji növləri yaradılmalıdır, əsasən günəş, külək və hidro – su elektrik stansiyaları. Dediyim rəqəm tam realdır, bu, artıq imzalanmış kontraktlar əsasında olacaqdır. Niyyət protokolları isə daha böyük rəqəm haqqında bəhs edir, təqribən 10 min meqavat. Beləliklə, biz böyük həcmdə təbii qazımızı ixrac edə biləcəyik, ona qənaət olunacaq. Elektrik enerjisinin böyük hissəsi bərpaolunan enerji hesabına istehsal ediləcək. Biz iqlim dəyişikliyi məsələlərinə də öz töhfəmizi vermiş olacağıq, xüsusilə nəzərə alsaq ki, Azərbaycan bu il COP29-a – dünya miqyasında ən böyük beynəlxalq konfransa ev sahibliyi edəcəkdir. Ona görə bərpaolunan enerji növləri ilə bağlı bizim hədəflərimiz aydındır. Onu da bildirməliyəm ki, bütün bu layihələr xarici investorlar tərəfindən icra edilir və ediləcək. Əgər belə demək mümkündürsə, biz indi xarici investorların rəqabət prosesini də görürük. Çünki o qədər çox ölkə Azərbaycanda bu sahəyə vəsait qoymaq istəyir ki, bizim bu qədər imkanımız hələ ki, yoxdur. Halbuki Dünya Bankının qolu olan Beynəlxalq Maliyyə Korporasiyası təkcə dənizdə külək potensialımızı 157 min meqavat səviyyəsində təsbit edib.

Ənənəvi yanacaq növləri – neft-qaz sahəsində işlər davam etdiriləcək. Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq. Bizə sabit neft hasilatı lazımdır və biz investorlar qarşısında bu vəzifəni qoymuşuq. Müəyyən narahatedici məqamlar olub və işgüzar qaydada təmaslar əsnasında bu məsələlərin həlli gözlənilir.

Təbii qazla bağlı. Biz artıq səkkiz ölkəyə təbii qaz ixrac edirik. Tələbat daha böyükdür, ilk növbədə, təbii ki, Avropa İttifaqı məkanından. Bizdən xahiş edənlərin sayı artır ki, biz kömək edək. Bax, bizə edilən xahişlər bu məqsədi daşıyır. Biz isə etibarlı tərəfdaş kimi həmişə ehtiyacı olanlara kömək etməyə hazırıq və bu köməyi göstəririk, bu da qiymətləndirilir. Düzdür, hər zaman qiymətləndirilməsə də, prinsip etibarilə bu vəziyyət bizi qane edir.

Gələcəkdə bizim ixrac coğrafiyamız artacaq, təbii ki, Avropa istiqaməti üzrə. Bu yaxınlarda bizim yeni resurs bazamız işə salınıb. "Şahdəniz" yatağından sonra ikinci resurs bazamız "Abşeron" qaz-kondensat yatağından ilk qaz çıxarılıb və yəqin ki, biz yaxın gələcəkdə bu yatağın işlənilməsinin ikinci mərhələsinə də başlayacağıq. Gələn il "Azəri-Çıraq-Günəşli" yatağının dərin laylarından qaz hasilatı nəzərdə tutulur. Bu da bizim resurs bazamızı artıracaq. Ondan başqa, "Ümid", "Babək", "Şəfəq", "Asiman", "Qarabağ" neft və qaz-kondensat yataqlarından hasilata başlamaq üçün bir çox xarici investorlar tərəfindən təkliflər var. Vaxtilə bizi istəməyən qüvvələr şayiə yayırdılar ki, Azərbaycanda neft yoxdur. Azərbaycan 1997-ci ildən bəri neft hasilatını yüksək səviyyədə saxlayır və bir çox ölkələrə neft ixrac edir. Sonra deyirdilər ki, Azərbaycanda qaz yoxdur. Təbii ki, bu da cəfəngiyatdır, bax, sadaladığım bu yataqlar onu əyani şəkildə göstərir.

Təbii ki, biz nəqliyyat sahəsində işləri davam etdirəcəyik. Bu gün Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir. Bizə həm Qərbdən, həm Şərqdən, həm Şimaldan, həm Cənubdan müraciətlər daxil olur. Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturu işlək vəziyyətdədir. Sadəcə olaraq bəzi dəmir yollarında modernləşdirmə işləri aparılmalıdır və biz bunu da edirik. Dünyadakı geosiyasi vəziyyətin yaxın gələcəkdə dəyişməsi, yəqin ki, mümkün deyil. Belə olan halda bizim nəqliyyat infrastrukturumuza olan ehtiyac daha da artacaq.

Bizim üstünlüyümüz ondan ibarətdir ki, biz vaxtilə bütün lazımi infrastruktur layihələrini icra etmişik, həm Xəzər dənizində, həm dəmir yolu infrastrukturunda, həm avtomobil yolları, həm dəniz limanı, gəmiqayırma zavodu, hansı ki, bu gün tam gücü ilə işləyir. İlk dəfə olaraq, o zavod işə salınanda sifarişlər onu 100 faiz işlə təmin edib.

Səkkiz beynəlxalq aeroportumuz var, doqquzuncu Laçında inşa edilir. Yəni, biz tam hazırıq. Hazır olmayanlar da öz işlərini görsünlər, öz ərazilərində çatışmayan infrastruktur layihələrini icra etsinlər. Əlbəttə ki, beynəlxalq təcrübəyə əsaslanaraq biz tranzit ölkə kimi öz imkanlarımızı təqdim edirik. Əlbəttə ki, bundan həm iqtisadi, həm siyasi dividendlər alacağıq.

Azərbaycan o ölkələrdəndir ki, açıq dənizlərə çıxışı yoxdur. Ancaq buna baxmayaraq, dediyim o səbəblərə görə bu gün biz nəqliyyat mərkəzlərindən birinə çevrilmişik. Getdikcə rolumuz artacaq, bizə müraciətlər də çoxalacaq, necə ki, bu gün xahişlə müraciət edirlər ki, "bizə qaz verin, bizə qaz verin, bizdə qaz çatmır" və sair, burada da eyni mənzərə olacaqdır.

Biz heç kimdən heç nə xahiş etmirik. Mən 20 ildən çoxdur ki, prezidentəm, bu günə qədər heç kimdən heç nə xahiş etməmişəm, çünki buna ehtiyac da olmayıb. Biz özümüzü tam təmin edən ölkəyik. Biz ikitərəfli formatda əməkdaşlığın tərəfdarıyıq və xarici siyasətimiz də buna hesablanıb – bərabərhüquqlu münasibətlər, bir-birinə hörmət, bir-birinə, necə deyərlər, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik.

Güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir. Çünki xarici siyasət, – bunu hamı bilir, – daxili siyasətin davamıdır. Ona görə bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi. Əgər belə olmasaydı, 120 ölkə bizi Qoşulmama Hərəkatına sədr seçməzdi. Əgər belə olmasaydı, dünya birliyi COP29 Konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərar qəbul etməzdi.

Bəzən eşidirik ki, hansısa ölkələr, yaxud da ki, ölkələr qrupu beynəlxalq ictimaiyyət funksiyalarını öz üzərinə götürmək istəyir və beynəlxalq ictimaiyyət adından danışmağa çalışır. Sözü olmayanda deyir ki, beynəlxalq ictimaiyyət bu məsələni yaxşı qəbul etməz, beynəlxalq ictimaiyyət o məsələni yaxşı qəbul etməz. Birincisi, bu, təvazökarlıqdan uzaq olan məsələdir. Məhdud sayda olan hər hansı 20-30 ölkə beynəlxalq ictimaiyyət adından danışa bilməz, o ki qaldı bir ölkə, ümumiyyətlə, danışa bilməz. Beynəlxalq ictimaiyyət isə bizim tərəfimizdədir və İkinci Qarabağ müharibəsi zamanı, antiterror əməliyyatı zamanı beynəlxalq ictimaiyyət bizi dəstəkləmişdir. Bu gün Azərbaycanın beynəlxalq nüfuzu hesab edirəm ki, heç kimə sirr deyil.

Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır.

Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayrıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayrıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayrıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq! Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss



un ev sahibi və sədri olacağıq, eyni zamanda, dünyada islamofobiyaya qarşı mübarizədə ön sıralarda olmalıyıq. Neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olmalıyıq. Neokolonializmi və o eybəcər tarixdən qalan amili Yer üzündən tamamilə silmək üçün öz dəstəyimizi göstəririk və göstərəcəyik. Bunu neokolonializmin başında duranlar da bilsinlər ki, onlar əbəs yerə bizimlə soyuq savaşa çıxıblar. Biz geridə qalmayacağıq, biz heç vaxt müdafiə mövqeyində olmamışıq. Bizə qarşı atılan addımlara adekvat addım atacağıq və bizə qarşı məkrli planlar hazırlayanlar, əminəm ki, peşman olacaqlar.

edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik.

İslam Əməkdaşlıq Təşkilatı da həmişə - həm işğal dövründə, həm işğaldan sonra, həm də İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı zamanı və ondan sonra Azərbaycanın yanında olub. Azərbaycan bu təşkilatın dəyərli üzvüdür. Azərbaycanda müsəlman dininə və bütün dinlərə olan münasibət bu təşkilat tərəfindən yüksək qiymətləndirilir. Bu təşkilat bütün müsəlman ölkələrini birləşdirir. Əlbəttə ki, bu təşkilatda bizim təşəbbüslərimizin qəbul edilməsi və dəstəklənməsi xüsusi məna daşıyır.

Qoşulmama Hərəkatı. Baxmayaraq ki, biz sədrliyi artıq təhvil vermişik, biz üçlükdə təmsil olunuruq. Qoşulmama Hərəkatı bizim sədrliyimiz dönəmində yeni müstəviyə qədəm qoyub, əlbəttə, imkan verə bilmərik ki, müəyyən dərəcədə tənəzzülə uğrasın. Əminəm ki, bu, olmayacaq. Biz isə öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, Qoşulmama Hərəkatı bir təsisat kimi daha da güclənsin. Əgər üzv ölkələrin qarşısında duran problemlərin həllinə kömək göstərmək lazım olarsa, əlbəttə, biz bunu edəcəyik.

Biz, ümumiyyətlə, bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan-Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir. Biz dünyanı narahat edən problemlərin həllində daha fəal olacağıq, o cümlədən iqlim dəyişikliyi ilə əlaqədar. Nəzərə alsaq ki, COP29-

Nəhayət, Azərbaycan-Ermənistan münasibətləri. Mən çıxışımın sonunda bu məsələyə təsadüfən toxunmuram. Hesab edirəm ki, bu məsələnin əhəmiyyəti süni şəkildə şişirdilir. Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək istəyirlər, öz səylərini göstərmək istəyirlər, deməli, yorğanı öz tərəflərinə çəkmək istəyirlər, vasitəçi olmaq istəyirlər. Birincisi, vasitəçi olmaq üçün sən gərək heç olmasa üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa üzdə, diplomatik qaydalara riayət etməlisən. Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək. Mən artıq dedim, bizim qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə biz onsuz da hazır olmalıyıq. Ona görə hesab edirəm ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Ona görə mən bu mövzuya, ümumiyyətlə, çox vaxt ayırmaq istəmirəm, çünki buna dəyməz. Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!

***

Bununla da təntənəli andiçmə mərasimi başa çatdı.











Fevralın 14-də andiçmə mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad ediblər.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndərin məzarı önünə gül dəstələri qoydular.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etdilər və üzərinə gül dəstələri qoydular.





Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri düzüldü.

***



Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət ediblər.

Dövlətimizin başçısı və birinci xanım Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edərək, "Əbədi məşəl" abidəsinin önünə gül dəstələri qoydular.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxt Bakının mənzərəsini seyr etdilər.

Sonra xatirə şəkli çəkdirildi.



# İlham Əliyev Almaniyaya səfər edib

Fevralın 16-da 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyanın Münxen şəhərində səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən İtaliyanın "Leonardo" şirkətinin baş həmdirektoru Lorenzo Marianinin görüşü olub.



Görüşə görə təşəkkürünü bildirən Lorenzo Mariani dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə "Leonardo" şirkəti ailəsi adından səmimi-qəlbdən təbrik etdi. Vurğuladı ki, İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıqdan irəli gələrək, şirkətin ölkəmiz ilə əməkdaşlığı uğurla inkişaf edir.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.



Prezident İlham Əliyev Azərbaycan ilə "Leonardo" şirkəti arasında əməkdaşlıqdan məmnunluğunu bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, prezident seçkilərində qələbə qazanması münasibətilə İtaliya Prezidenti tərəfindən göndərilmiş təbrik məktubunda İtaliya-Azərbaycan əlaqələrinin mükəmməl səviyyədə olduğu xarakterizə edilmişdir. Prezident İlham Əliyev də öz növbəsində Azərbaycan-İtaliya əlaqələrinin həqiqətən mükəmməl xarakter daşıdığını və strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini bildirdi.

Söhbət zamanı Azərbaycan ilə "Leonardo" şirkəti arasında müxtəlif sahələrdə, o cümlədən kibertəhlükəsizlik və kosmik sahələrdə, eyni zamanda, SOCAR ilə "Leonardo" şirkəti arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı, bu əməkdaşlıqdan məmnunluq ifadə olundu.

***





Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqun görüşü olub.

İan Borq dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı öz növbəsində Maltanın ATƏT-in fəaliyyətdə olan sədrliyi münasibətilə təbriklərini çatdırdı.

Azərbaycan Prezidenti ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin - bu xüsusda ATƏT-in Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz olan bu strukturların artıq rəsmi qaydada ləğv edilməsinin vacib olduğunu bildirərək, ATƏT çərçivəsində büdcənin də daha məqsədyönlü və vacib layihələrə istiqamətləndirilməsinin önəmini qeyd etdi.

Dövlətimizin başçısı bildirdi ki, Qarabağ münaqişəsi artıq həll olunub, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü təmin edib.

Prezident İlham Əliyev Ermənistan ilə Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli xarakter daşıdığını diqqətə çatdırdı.

Görüşdə Maltanın xarici, Avropa işləri və ticarət naziri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, Maltanın da kiçik ada ölkələrinin iqlim dəyişikliyi nəticəsində üzləşdiyi problemlərə həssaslıqla yanaşdığını və bu xüsusda Azərbaycan ilə birgə əməkdaşlığa hazır olduğunu bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan COP çərçivəsində inklüziv konsepsiyanın tərəfdarıdır və kiçik ada dövlətlərinin iqlim dəyişikliyi nəticəsində üzləşdiyi problemlərə çox həssaslıqla yanaşır.

Görüşdə Azərbaycanın sədrliyi dövründə bu məsələyə xüsusi diqqət yetiriləcəyi və bu xüsusda da Malta ilə, həmçinin ATƏT platformasından istifadə edilərək birgə əməkdaşlığa hazırlıq ifadə olundu.

***

Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Bassonun görüşü olub.





Odil Reno-Basso dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin həm Xəzər dənizində, həm də Qara dənizdə gəmi donanmasının artırılması layihələrində iştirakından məmnunluğunu ifadə etdi. Həmçinin AYİB-in Orta Dəhliz layihəsinə böyük əhəmiyyət göstərdiyini və bu çərçivədə Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirdiyini qeyd edərək, bu kimi layihələrdə iştirak etməyə hazır olduğunu bildirdi.

Odil Reno-Basso vurğuladı ki, AYİB, eyni zamanda, su resurslarının idarə edilməsi sahəsində də Azərbaycanın tərəfdaşı rolunda çıxış edir və bu istiqamətdə hökumətin həyata keçirdiyi layihələrə dəstək verməyə hazırdır. O, həmçinin COP29 çərçivəsində də AYİB–lə Azərbaycan arasında əməkdaşlıq məsələlərinin, bu xüsusda ölkəmizin bərpaolunan enerji layihələri və yaşıl keçid istiqamətində siyasətinin də AYİB tərəfindən təqdir edildiyini və dəstəkləndiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Azərbaycanla AYİB arasında əməkdaşlıqdan məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Xəzər Dəniz Gəmiçiliyi ilə, həmçinin Orta Dəhliz və su resurslarının idarə edilməsi sahələrində əməkdaşlığın mühüm əhəmiyyətini qeyd edərək, Azərbaycanda yaşıl keçid və bərpaolunan enerji resurslarının inkişaf etdirilməsi layihələrinə böyük əhəmiyyət verildiyini, artıq ölkəmizin yaxın dövrlərdə bərpaolunan enerji resurslarının ixracatçısı qismində çıxış edəcəyini vurğuladı.

Görüşdə iqlim dəyişikliyinin artıq Cənubi Qafqaz regionuna da öz təsirlərini göstərdiyi, bu xüsusda Xəzər dənizində suyun səviyyəsinin aşağı düşməsi, Azərbaycanda, həmçinin çaylarda suyun həcminin azalması və

digər fəsadların hiss olunduğu qeyd edildi. Söhbət zamanı Xəzər dənizinin suyunun şirinləşdirilməsi layihələrində də AYİB ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə toxunuldu.

***

Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun görüşü olub.

İsrail Prezidenti İsxak Hersoq dövlətimizin başçısına prezident seçkilərində qələbə qazanması münasibətilə təbriklərini çatdırdı.





Prezident İlham Əliyev təbrikə görə təşəkkürünü bildirdi və bununla bağlı İsxak Hersoqdan rəsmi məktub formasında da təbrik aldığını məmnunluqla qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə İsrail arasında müxtəlif sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı, hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu, iqtisadi-ticari, mədəni, humanitar əlaqələrə toxunuldu. Həmçinin Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin fəaliyyətə başlamasının ikitərəfli əlaqələrimizin inkişafına təkan verdiyi bildirildi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

***

Fevralın 16-da Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanın görüşü olub.





Hakan Fidan dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə təbrik etdi.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə inkişaf etdiyi bir daha vurğulandı, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.

Görüşdə Azərbaycan-Ermənistan münasibətləri, sülh sazişi ilə bağlı danışıqlar və regional təhlükəsizlik məsələləri müzakirə olundu.

***




Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerrinin görüşü olub.

Con Kerri dövlətimizin başçısını prezident seçkilərində qələbə və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, Prezident İlham Əliyev ilə görüşlərini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan COP-la əlaqədar bir daha özünün iqlim dəyişikliyi sahəsində beynəlxalq səyləri dəstəkləmək əzmini nümayiş etdirib. Azərbaycan, eyni zamanda, milli səviyyədə bərpaolunan enerji və yaşıl keçid prosesi sahəsində ciddi tədbirlər həyata keçirməkdədir, bu istiqamətdə region səviyyəsində və qlobal miqyasda olan tədbirləri yaxından dəstəkləyir. İqlim maliyyələşdirilməsi COP29-un əsas mövzusu olacaq ki, Azərbaycan da bu xüsusda qlobal həmrəyliyə, xüsusilə də qlobal Şimal və qlobal Cənub arasında həmrəyliyə nail olmaq istiqamətində səylərini davam etdirəcək. Bu xüsusda Azərbaycanın Qoşulmama Hərəkatına dörd il sədrlik edən dövlət kimi çox yaxşı təcrübəsi var. Eyni zamanda, Azərbaycan digər müxtəlif platformalarda fəal şəkildə iştirak edir ki, bundan da istifadə edərək qlobal həmrəyliyə nail olunmasına dəstək verəcəkdir.

Dövlətimizin başçısı regional səviyyədə reallaşdırılan tədbirlər kontekstində Qara dənizin dibi ilə keçən layihəni qeyd etdi, həmçinin Xəzər dənizinin dibində bərpaolunan xəttin qurulması və bu xüsusda Mərkəzi Asiya dövlətləri ilə birgə işi diqqətə çatdırdı.

Con Kerri iqlim maliyyələşdirilməsi mövzusunun gündəlikdə duran əsas məsələlərdən biri olduğunu vurğuladı. O, hazırda yaşıl keçidlə əlaqədar texnoloji inkişafın çox sürətlə getdiyini və bu istiqamətdə yaxşı nəticələrin əldə olunduğunu, Bakıda da qəbul ediləcək qərarların iqlim dəyişikliyi prosesində beynəlxalq səylərə ciddi təkan verəcəyinə ümidvarlığını bildirdi.

Prezident İlham Əliyev Con Kerrini COP29-da iştirak etmək üçün Azərbaycana səfərə dəvət etdi.

Con Kerri COP29-da məmnuniyyətlə iştirak edəcəyini diqqətə çatdırdı.

***



Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən İraq Kürdüstan Regionunun Başçısı Neçirvan Bərzaninin görüşü olub.

Neçirvan Bərzani dövlətimizin başçısına prezident seçilməsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, ondan da səmimi təbrik məktubu almasını məmnunluqla qeyd etdi.

İraq Kürdüstan Regionunun Başçısı Azərbaycana səfərini və dövlətimizin başçısı ilə keçirdiyi görüşləri məmnuniyyətlə xatırladı.

Səfər zamanı müzakirə olunmuş məsələlərin həyata keçirilməsi istiqamətində hər iki tərəfin nümayəndələrinin yaxından çalışdıqları vurğulandı. Həmçinin İraqın mərkəzi hökuməti ilə Azərbaycan arasında əlaqələr məmnunluqla qeyd olundu.



Söhbət əsnasında İraqın müxtəlif şəhərləri ilə Azərbaycan arasında birbaşa uçuşların olmasının önəmi qeyd edildi. Regionla Azərbaycan arasında iqtisadi-ticari, mədəni-humanitar əlaqələrin inkişaf etdirilməsi istiqamətində məsələlər nəzərdən keçirildi.

Neçirvan Bərzani COP29-un Azərbaycanda keçirilməsi münasibətilə də təbriklərini çatdırdı.

Dövlətimizin başçısı İraq Kürdüstan Regionunun Başçısını COP29-da iştirak etmək üçün Azərbaycana səfərə dəvət etdi.

Söhbət zamanı iqlim dəyişikliyi istiqamətində də birgə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

***

Fevralın 17-də Münxendə Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kansler Olaf Şolts ilə görüşü olub.

Görüşdə ikitərəfli əlaqələrlə bağlı fikir mübadiləsi aparılıb.

Almaniya tərəfi Ermənistanla Azərbaycan arasında sülh gündəliyinə öz dəstəyini göstərməyə və xoşməramlı əsasda Almaniyada bu istiqamətdə müvafiq görüşlərin keçirilməsinə dəstək verməyə hazır olduğunu bildirib. Olaf Şolts qeyd edib ki, COP29 əsnasında Ermənistanla Azərbaycan arasında əldə olunan





kompromislər, COP29-un Azərbaycanda keçirilməsi sülh gündəliyinin də irəli aparılması üçün əlverişli imkanlar və şərait yaradır.



Sonra Almaniya Kanslerinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kansler Olaf Şolts və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə birgə görüşü olub.

Görüşdə Almaniya Kansleri açılış nitqi ilə çıxış edib. O, Almaniyanın Ermənistanla Azərbaycan arasında sülh gündəliyini, eyni zamanda, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel tərəfindən aparılan missiyanı dəstəklədiyini vurğulayıb.

***

Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə ikitərəfli görüşü olub.

Görüşdə iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqlar, münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası məsələləri müzakirə olunub. Xarici İşlər nazirliklərinə tezliklə sülh müqaviləsi ilə bağlı görüş və sərhədlərin delimitasiyası üzrə komissiyanın iclasının keçirilməsi barədə təlimat verilib.

İki ölkə arasında COP29 əsnasında olan qarşılıqlı kompromislər və əldə edilmiş irəliləyiş müsbət qiymətləndirilib.

***

Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Ukrayna Prezidenti Volodimir Zelenskinin görüşü olub.

Prezident Volodimir Zelenski dövlətimizin başçısını seçkilərdə qələbə münasibətilə təbrik etdi, Azərbaycan Prezidentinə fəaliyyətində uğurlar arzuladı.





Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, Volodimir Zelenskidən təbrik məktubu aldığını da məmnuniyyətlə qeyd etdi.

Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əlaqələr müzakirə olundu.

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımların yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Söhbət zamanı iki ölkə arasında iqtisadi-ticari, humanitar, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

***

Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi Antoni Blinkenin görüşü olub.

Dövlətimizin başçısını salamlayan **Antoni Blinken dedi:** Hər vaxtınız xeyir, cənab Prezident. Prezident Əliyevlə görüşmək imkanını çox yüksək qiymətləndirirəm. Son bir neçə ildə bizim görüşmək və söhbət etmək üçün bir çox imkanımız olub. Hesab edirəm ki, indiki zaman kəsiyi Azərbaycanın COP rəhbərliyini öz üzərinə götürməsi baxımından çox vacibdir. Biz bu məsələni ciddi dəstəkləyirik. Bu tədbirin uğurlu olması, eyni zamanda, Azərbaycan və Ermənistan arasında davamlı və ləyaqətli sülhün təmini üçün əlimizdən gələni etmək arzusundayıq. ABŞ bu istiqamətdə faydalı işlər görmüşdür və görməyə davam edəcəkdir. Danışılacaq çoxlu mövzular var. Cənab Prezident, bu gün bizimlə görüşə vaxt ayırdığınıza görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev dedi:** Təşəkkür edirəm, cənab Dövlət katibi. Siz də qeyd etdiyiniz kimi, COP29 bizim ikitərəfli gündəliyimizin önəmli bir hissəsidir. Bu, gündəliyimizdə duran məsələlərin mövzularını genişləndirir və biz cari ildə bütün təşəbbüslərimizlə bağlı hökumətinizin dəstəyinə ümid edirik. Cənab Dövlət katibi qeyd etdiyi kimi, gündəliyimizdə daha bir məsələ var və bu da Qafqazda regional vəziyyətdir, xüsusilə Ermənistan və Azərbaycan arasında sülhün əldə olunmasının perspektivləridir. Azərbaycan sülh prosesinə sadiqdir və sülh sazişinin ən qısa zamanda bağlanması bizim milli maraqlarımıza cavab verir. Mən Amerika Birləşmiş Ştatlarına və xüsusilə cənab Dövlət katibinə bu istiqamətdə göstərdiyi səylərinə görə təşəkkür edirəm.

***

Görüşdə Azərbaycanla ikitərəfli əlaqələri çox yüksək qiymətləndirdiklərini qeyd edən Antoni Blinken ikitərəfli münasibətlərin və ölkələrimiz arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı.



Azərbaycanın ABŞ ilə ikitərəfli gündəliyi çox yüksək qiymətləndirdiyini deyən dövlətimizin başçısı İlham Əliyev öz növbəsində vurğuladı ki, ölkələrimiz arasında tərəfdaşlığın genişləndirilməsi üçün əlverişli imkanlar var.

ABŞ Dövlət katibi COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, COP çərçivəsində ABŞ-ın da Azərbaycanla əməkdaşlığa və ölkəmizi bu istiqamətdə dəstəkləməyə hazır olduğunu dedi.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev vurğuladı ki, COP29 Azərbaycanla ABŞ arasında əməkdaşlığın genişləndirilməsi və bu istiqamətdə birgə işin aparılması üçün çox yaxşı imkanlar yaradır.

Dövlətimizin başçısı ölkəmizin Ermənistanla münasibətlərin normallaşdırılmasını və sülh gündəliyini dəstəklədiyini vurğuladı, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistanın Baş naziri ilə keçirilmiş ikitərəfli görüşü qeyd etdi və sülh müqaviləsinə dair danışıqların, sərhədlərin delimitasiyası üzrə görüşlərin keçirilməsi ilə bağlı razılaşmaların əldə olunmasını müsbət addım kimi qiymətləndirdi.

Artıq regionda de-fakto sülhün olduğunu bildirən Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan-ABŞ ikitərəfli əlaqələri Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması prosesindən kənar şəkildə özlüyündə inkişaf etdirilməlidir.

Söhbət zamanı regional bağlantılar, nəqliyyat, Orta Dəhliz və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

***

Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Banqladeş Xalq Respublikasının Baş naziri xanım Şeyx Hasinanın görüşü olub.



Qoşulmama Hərəkatının Zirvə görüşü çərçivəsində ölkəmizə səfərini və Azərbaycan Prezidenti ilə görüşlərini məmnunluqla xatırladan Şeyx Hasina dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Banqladeşin Baş naziri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı və ölkəsinin də qlobal iqlim dəyişikliyindən əziyyət çəkdiyini qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın COP29 çərçivəsində inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında həmrəyliyin gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı. Azərbaycanın Qoşul-



mama Hərəkatında sədrliyinin İslam Əməkdaşlıq Təşkilatı, eyni zamanda, Avropa təsisatları ilə əlaqələrinin bu istiqamətdə həmrəyliyin gücləndirilməsi işinə töhfə verəcəyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti COP29-da iştirak etmək üçün Banqladeşin Baş nazirini ölkəmizə səfərə dəvət etdi.

Şeyx Hasina dəvəti məmnuniyyətlə qəbul etdi.

Görüşdə Banqladeşlə Azərbaycan arasında siyasi, iqtisadi, ticarət, investisiyalar, əczaçılıq, kənd təsərrüfatı və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi, əlaqələrin genişləndirilməsi üçün böyük perspektivlərin olduğu diqqətə çatdırıldı. Eyni zamanda, Azərbaycan-Banqladeş iqtisadi əməkdaşlıq üzrə işçi qrupunun yaradılmasının və iki ölkənin biznes dairələri arasında əlaqələrin qurulmasının vacibliyi vurğulandı.

Ölkələrimizin xarici işlər nazirləri və aidiyyəti dövlət qurumları arasında əlaqələrin gücləndirilməsi və siyasi məsləhətləşmələr mexanizminin yaradılması məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

***



Fevralın 18-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Münxen Təhlükəsizlik Konfransının sədri Kriştof Xoysqenin görüşü olub.

Kriştof Xoysqen Münxen Təhlükəsizlik Konfransına dəvəti qəbul etdiyinə və iştirakına görə dövlətimizin başçısına təşəkkürünü bildirdi, COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransına dəvətə görə təşəkkürünü və COP29 ilə əlaqədar təbriklərə görə minnətdarlığını ifadə etdi.

Kriştof Xoysqen qeyd etdi ki, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində təhlükəsizliyə münasibətdə əhatəli və müfəssəl bir yanaşma var, ona görə iqlim dəyişikliyi də təhlükəsizlik konsepsiyasının bir hissəsi hesab olunur. O, bu xüsusda, Münxen Təhlükəsizlik Konfransının Katibliyi olaraq Azərbaycanla COP29 çərçivəsində əməkdaşlığa və həmin sessiya zamanı ölkəmizdə birgə tədbirin keçirilməsinə hazır olduğunu vurğuladı.



Bu təklif dövlətimizin başçısı tərəfindən məmnunluqla qəbul edildi. Azərbaycanın COP Təşkilat Komitəsi tərəfindən Münxen Təhlükəsizlik Konfransının Katibliyi ilə bu istiqamətində birgə işin aparılacağı diqqətə çatdırıldı.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan COP29-un mahiyyət üzrə nəticəyönümlü sessiya olması üçün bütün beynəlxalq tərəfdaşlarla birgə işləməyə hazırdır. Hazırda COP çərçivəsində üçlük mexanizmi yaradılıb ki, bu, Birləşmiş Ərəb Əmirliklərini, Azərbaycanı və Braziliyanı bir araya gətirir.

Görüşdə, həmçinin regional məsələlər müzakirə olundu. Dövlətimizin başçısı bu xüsusda Azərbaycanın sülh gündəliyini, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsinin imzalanmasını dəstəklədiyini dedi. Bu istiqamətdə Almaniya Kansleri Olaf Şoltsun təşəbbüsü ilə təşkil olunan görüşün səmərəli və konstruktiv şəraitdə keçdiyini diqqətə çatdırdı.

***

Fevralın 18-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən ATƏT-in Baş katibi, Münxen Təhlükəsizlik Konfransı Fondu Şurasının vitse-prezidenti xanım Helqa-Mariya Şmidin görüşü olub.



ATƏT-in Baş katibi prezident seçkilərində qələbəsi və COP29-un Azərbaycanda keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı Azərbaycanla ATƏT arasında iqlim dəyişikliyi mövzusunda əməkdaşlıq, bu xüsusda birgə tədbirlərin keçirilməsi məsələlərinə toxunuldu. Həmçinin regional məsələlər barədə fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Almaniya Kanslerinin təşəbbüsü ilə təşkil olunan görüşün konstruktiv və faydalı mühitdə keçdiyini qeyd etdi, artıq Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, sərhədlərin delimitasiyası və sülh müqaviləsi üzrə danışıqların aparılması istiqamətində razılıqların əldə olunduğunu, bu xüsusda xarici işlər nazirləri səviyyəsində tezliklə görüşün keçiriləcəyinin razılaşdırıldığını diqqətə çatdırdı. Sülhün əldə edilməsinin və sülh müqaviləsinin imzalanmasının çox real olduğunu vurğulayan dövlətimizin başçısı regionda de-fakto sülhün mövcud olduğunu bildirdi. COP29-a sədrliyin Azərbaycana verilməsi prosesinin Ermənistanla Azərbaycan arasında qarşılıqlı anlaşma və kompromis şəraitində reallaşmasının özünün bütövlükdə müsbət bir addım olduğu, bu dinamikanın davam etdirilməsinin vacibliyi diqqətə çatdırıldı.

Azərbaycan Prezidenti ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin - bu xüsusda Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz strukturların artıq ləğv edilməsinin vaxtının çoxdan yetişdiyini vurğuladı. Dövlətimizin başçısı hazırda ATƏT çərçivəsində büdcə problemlərinin olduğunu nəzərə alaraq, mövcud məhdud maliyyə resurslarını daha məqsədyönlü hədəflərə doğru yönəltməyin önəmini diqqətə çatdırdı.



# İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları zamanı "Euronews" televiziyasına müsahibə verib.**



**"Euronews":** Xahiş edirik, ilk növbədə, bizə bugünkü tədbirlərin enerji sənayesi üçün əhəmiyyətindən, Cənub Qaz Dəhlizinin uğurlu istismarı və inkişafındakı nailiyyətlər və gələcək addımlar barədə danışasınız.

**Prezident İlham Əliyev:** Bilirsiniz ki, biz bu layihəyə başlayanda bunun necə olacağına dair çoxlu müxtəlif ideyalar var idi. Nikbin düşünənlər də, bədbin düşünənlər də var idi. Həmçinin elələri də var idi ki, düşünürdülər, biz bunu həyata keçirə bilməyəcəyik. Lakin biz əzmli idik və bilirdik ki, bunu etmək mümkündür. Ancaq bizim geniş beynəlxalq əməkdaşlığa ehtiyacımız var idi. Ona görə də bizə öz maliyyə imkanları ilə dəstək göstərmələri üçün aparıcı beynəlxalq maliyyə institutlarını dəvət edərək, ölkələr arasında, şirkətlər arasında bu əməkdaşlığı qurmağa başladıq. Uzunluğu 3500 kilometr olan kəmər artıq arzu deyil, reallıqdır və o, getdikcə daha çox ölkələri əhatə edir. Çünki bu gün açılış mərasimində dediyim kimi, bizim təbii qazı yeni təyinat nöqtələrinə nəql etməyə imkan verən yeni interkonnektorlarımız var. Bu, həqiqətən də enerji təchizatının, enerji təhlükəsizliyi ilə bağlı məsələlərin coğrafiyasını tamamilə dəyişir. On il bundan əvvəl başladılan təşəbbüsün yaxşı nəticələrini görəndə, əlbəttə ki, insan özünü hər zaman xoşbəxt hiss edir.

**"Euronews":** Bu il həm də çox həlledici ildir. COP29 üfüqdədir. Bu bərpaolunan enerji layihələrinin həyata keçirilməsi həqiqətən də Azərbaycanın dayanıqlı enerjinin gələcəyini necə yönləndirdiyini göstərir.

**Prezident İlham Əliyev:** Bəli, düşünürəm ki, bu, bizim ümumi yaşıl enerji gündəliyimizin və məsuliyyət hissimizin bir hissəsini təşkil edir. Çünki qazıntı yanacağı ilə zəngin ölkələr yaşıl enerjiyə keçiddə ön sıralarda olmalıdır. Biz bunu ənənəvi ehtiyatlarımız çatışmadığına görə etmirik, ona görə edirik ki, neft-qaz satışından əldə etdiyimiz maliyyədən, gəlirlərdən bərpaolunan enerjiyə sərmayə yatırmaq üçün istifadə etməklə töhfə vermək və buna ehtiyacın olduğuna dair ümumi bir anlayış yaratmaq istəyirik. Biz hər il bunu Bakıda görürük. Hər il biz Xəzər dənizinin getdikcə daha da dayazlaşmasının şahidi oluruq. Dəniz kənarında, hətta burada Bakının mərkəzində yaşayan hər kəs bunu görür. Biz iqlim dəyişikliyinin fəsadlarını, təhlükəli fəsadlarını görürük, çaylarımızda su azalır, dağlarımızda qar azalır, Xəzər dənizində suyun səviyyəsi azalır. Əgər biz enerji və əzmlə bu məsələ ilə məşğul olmasaq, hamımız əziyyət çəkəcəyik.

Azərbaycanın bərpaolunan enerji layihələri gündəliyi çox iddialıdır. Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına əsasən, Xəzər dənizinin Azərbaycan sektorunda potensialı 157 giqavat təşkil edir. Biz artıq bu mühüm yolu qət etməyə başlamışıq. Biz ola bilsin ki, 10 ilə ölkədə bərpaolunan enerjidən maksimum dərəcədə istifadə etməyi və daxili bazarda təbii qaz istehlakını azaltmağı planlaşdırırıq.

**"Euronews":** Sizin çıxışınızda bir məqam xoşuma gəldi. Siz söylədiniz ki, neft və qaza malik ölkələr günahlandırılmamalıdır. Qazıntı yanacağına sahib olmaq onların günahı deyil. Siz söylədiniz ki, onlar ətraf mühitin mühafizəsi və yaşıl enerjiyə keçid məsələsi ilə necə məşğul olduqlarına görə qiymətləndirilməlidir. Siz həqiqətən də belə hesab edirsiniz, elə deyilmi?

**Prezident İlham Əliyev:** Bəli, əlbəttə. Bu işdə bir qədər mövzu dəyişilməlidir. Çünki qazıntı yanacağına sahib olan ölkə olmaq sözsüz ki, bizim günahımız deyil. Düşünürəm ki, bu, bizim nailiyyətimizdir ki, biz neft və qaz ehtiyatları olan bir çox ölkənin üzləşdiyi "neft lənətinə" düçar olmamağı bacardıq. Biz nefti inkişafa çevirdik, sərvətin ədalətli paylanmasını təmin etməyə nail olduq. Son 20 ildə biz Azərbaycanda yoxsulluğun səviyyəsini 50 faizdən 5 faizə endirdik. Sizin Bakıda bütün gördükləriniz infrastrukturun tamamilə yeni inkişafı və insanların həyat səviyyəsinin yaxşılaşmasıdır. Əfsuslar olsun, indi deyirlər ki, qazıntı yanacağı təhlükəlidir, mənfidir və günah bu ehtiyata sahib olan ölkələrdədir. Mənim mesajım ondan ibarət idi ki, bizə gördüyümüz işə görə, gəlirlərdən insanların ehtiyaclarını təmin etmək və yaşıl enerji gündəliyinə təkan vermək üçün necə istifadə etdiyimizə görə qiymət verin. Ümidvaram ki, mesajım eşidiləcək.

**"Euronews":** Cənab Prezident, Zati-aliləri, bizə vaxt ayırdığınıza görə təşəkkür edirəm.

# Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ölkəmizə səfər edib







Azərbaycan Respublikasına dövlət səfərinə gələn Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin martın 11-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Qazaxıstan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Qazaxıstan Prezidentinə raport verdi.

Prezident Kasım-Jomart Tokayev Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Qazaxıstan Prezidentinə, Qazaxıstan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

***

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə məhdud tərkibdə görüşü olub.

***





Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib.



İclasda çıxış edən Azərbaycan **Prezidenti İlham Əliyev dedi:**

– Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli qonaqlar.

Əziz dostlar.



Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Biz indi çox maraqlı söhbət etdik, gündəliyin ikitərəfli və regional problematikası üzrə bir çox məsələləri müzakirə etdik. İndi Dövlətlərarası Şuranın birinci iclasına başlayırıq. Şuranın yaradılması qərarı özlüyündə tarixidir. Bu, münasibətlərimizin yüksək səviyyəsini və hər iki tərəfin qarşılıqlı əməkdaşlıq potensialının möhkəmləndirilməsi istəyini bir daha sübut edir. Hesab edirik ki, səfərin nəticələri və Dövlətlərarası Şuranın iclası bir çox hallarda münasibətlərimizin gələcək gündəliyini müəyyən edəcək.

Qazaxıstan və Azərbaycan iki qardaş dövlətdir. Xalqlarımız ictimai-siyasi formasiyadan asılı olmayaraq, uzun əsrlər boyu sülh, qardaşlıq, əməkdaşlıq şəraitində yaşayır. İki müstəqil dövlət olaraq isə artıq 30 ildən çoxdur ki, həm beynəlxalq strukturlarda, həm də ikitərəfli formatda fəal qarşılıqlı fəaliyyət göstərir. Son vaxtlar qarşılıqlı səfərlərimizin dinamikası çox illüstrativdir və bu, münasibətlərə yeni dinamizm verildiyini göstərir.

Qazaxıstanın uğurları bizi sevindirir. Sizi və bütün qardaş Qazaxıstan xalqını sosial-iqtisadi inkişafda, innovativ tərəqqidə çox böyük nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Qazaxıstanın iqtisadi inkişafı və ümumi daxili məhsulun artması düzgün və düşünülmüş iqtisadi siyasətdən xəbər verir. Həmçinin Sizin ölkənin modernləşdirilməsinə, iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş və artıq bir çox nailiyyətlərin əldə edildiyi islahatlarınızı tam dəstəkləyirik.

Bu gün regional problematika məsələlərini ətraflı müzakirə etdik. Mən Kasım-Jomart Kemeleviçə Azərbaycan ilə Ermənistan arasında sülh danışıqları prosesi haqqında məlumat verdim və ümidvar olduğumu bildirdim ki, bu proses sülh sazişinin imzalanması, tariximizin bu ağır və qara səhifəsinin çevrilməsi ilə başa çatacaq.

Həmçinin bizi birləşdirən layihələrdən də ətraflı danışdıq. Mən Qazaxıstan Prezidentinə Qarabağın bərpasında göstərilən qardaş köməyinə, məhz qazax xalqının Azərbaycan xalqına hədiyyəsi və Prezident

Tokayevin təşəbbüsü olan Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinə görə təşəkkürümü bildirdim. Sabah biz dostluğumuzun da mərkəzi olacaq bu Mərkəzin açılışını edəcəyik.

Azərbaycanın suverenliyinin bərpası məsələsində həmrəylik sözlərinə görə minnətdarıq. Əlbəttə, zənnimcə, Azərbaycanda hamı bilir ki, Qazaxıstan bizim etibarlı dostumuz və müttəfiqimizdir.

Bugünkü gündəliyimizdə çoxlu mövzular var. Nəqliyyat-logistika, energetika, rəqəmsallaşma, humanitar əməkdaşlıq sahələrində məsələləri aydınlaşdırmaq üçün nümayəndə heyətinin üzvlərinə söz verəcəyik. Bütün istiqamətlər üzrə işlər uğurla aparılır. Bu yaxınlarda Astanada keçirilmiş Hökumətlərarası Komissiyanın iclası Sizin dövlət səfərinizə hazırlıq xarakteri daşıyırdı. Bu səfəri məzmunca zənginləşdirmək və sonradan onların reallaşdırılmasına nəzarəti asanlaşdırmaq üçün ona çox ciddi hazırlaşırdıq. Zənnimcə, biz müvafiq tapşırıqlar verəcəyik və razılaşmalarımızın necə həyata keçirilməsi haqqında müntəzəm məlumat alacağıq.

Hörmətli Kasım-Jomart Kemeleviç, bir daha xoş gəlmisiniz. Sizi Azərbaycanda görməyimə çox şadam.

***

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dedi:**

– İlham Heydər oğlu, Qazaxıstanın ünvanına xoş sözlər söylədiyinizə görə Sizə təşəkkür edirəm. Əvvəlcə, istərdim ki, bizə göstərilən qonaqpərvərliyə görə səmimi minnətdarlığımı bildirim və fürsətdən istifadə edərək, Sizi prezident seçkilərində çox böyük inamlı qələbə münasibətilə bir daha təbrik edim. Bu qələbə yüksək etimadın, Sizin strateji kursunuza ümumxalq dəstəyinin göstəricisidir. Siz Azərbaycan xalqının hər kəs tərəfindən qəbul olunan liderisiniz və Sizi beynəlxalq arenada məhz bu cür qəbul edirlər.



Eyni zamanda, Sizin də doğru qeyd etdiyiniz kimi, Azərbaycanın tarixi Qələbəsinə, öz əraziləri ilə bağlı suverenliyinin bərpa olunmasına səmimi-qəlbdən sevinirik. Bu Qələbə mahiyyət etibarilə tarixidir və şübhəsiz ki, həm Azərbaycanın, həm də ümumdünya tarixinin salnaməsinin səhifələrinə daxil olacaq.

Qazaxıstan-Azərbaycan münasibətlərinə gəldikdə, biz ilk dəfədir ki, Ali Dövlətlərarası Şuranın iclasını keçiririk. Ümumilikdə, bu da tarixi hadisədir. Elə indicə biz iqtisadi-ticari və investisiya əməkdaşlığımızla, beynəlxalq arenada qarşılıqlı fəaliyyətimizlə bağlı demək olar ki, bütün məsələlərin müfəssəl müzakirəsini apardıq və ümumi nəticələrə gəldik. Bu, onu göstərir ki, Qazaxıstan və Azərbaycan həqiqətən strateji tərəfdaşlardır, müttəfiq dövlətlərdir. Əməkdaşlığımızda baş verənlərin mühüm sirri də məhz buradadır. Perspektivlər çox yaxşıdır və təbii ki, hökumətlər bu gün imzalanmış sənədlər, sazişlər formasında əldə olunan razılaşmaların həyata keçirilməsi ilə məşğul olacaqlar.

Əməkdaşlığın və qarşılıqlı fəaliyyətin, təmasların səviyyəsi kifayət qədər yüksəkdir. Bu gün Sizin Şanxay Əməkdaşlıq Təşkilatının sammitində, Mərkəzi Asiya Dövlətləri liderlərinin Məşvərət görüşündə iştirakınızın nəzərdə tutulduğu və ya planlaşdırıldığı barədə danışdıq.

Türk Dövlətləri Təşkilatı liderlərinin qeyri-rəsmi sammitində iştirak etməyimlə bağlı dəvəti böyük ümidlə və minnətdarlıqla qəbul edirəm. Əlbəttə, COP29 sammiti – bu da ümumilikdə Azərbaycan dövlətinin və onun diplomatiyasının tarixi nailiyyətidir. Sammit mövcud iqlim problemlərinin nizamlanması nöqteyi-nəzərindən, həm də məhz bu sahədə qlobal əməkdaşlıq baxımından birinci dərəcəli əhəmiyyətə malikdir. Şübhəsiz ki, Bakı bu vəzifənin öhdəsindən gələcəkdir. Biz Dubayda keçirilən COP28 sammitində iştirak etdik və gördük ki, bu, həqiqətən çox mühüm forumdur. Sevinirik ki, belə mühüm qlobal forumun keçirilməsi məkanı qismində məhz Bakı seçilib.

Biz Qazaxıstanın və Azərbaycanın Xəzər dənizi üzrə qonşu dövlətlər olması və bunun, təbii ki, qarşılıqlı münasibətlərimizə xüsusi xarakter verməsi barədə danışdıq. 2020-ci ildən Qazaxıstan və Azərbaycan arasında əmtəə dövriyyəsi beş dəfə artıb. Əlbəttə, mütləq rəqəmlər o qədər də böyük təəssürat yaratmaya bilər. Bu sahədə işlər davam etdirilməlidir. Ölkələrimiz böyük iqtisadi potensiala malikdir və düşünürəm ki, növbəti uğurlar çox da uzaqda deyil. Biz bu gün nəqliyyat və logistikadan tutmuş rəqəmsallaşma məsələlərinə qədər, hələ neft və qaz və digərlərini demirəm, müxtəlif məsələlərdən danışdıq.

Məmnunam ki, biz beynəlxalq arenada da uğurla əməkdaşlıq edirik. İstər Birləşmiş Millətlər Təşkilatında, yaxud başqa beynəlxalq təşkilatlarda nümayəndə heyətlərimiz uğurlu qarşılıqlı fəaliyyət göstərirlər. Zənnimcə, bu xətt davam edəcəkdir.

Müqəddəs şəhərlər olan Türküstan və Şuşa, həmçinin Uralsk və Mingəçevir, Şımkent və Gəncə arasında qardaşlıq münasibətlərini müsbət nöqteyi-nəzərdən qeyd etmək istəyirəm.

Ümumilikdə, mən ölkələrimiz arasında mədəni əlaqələrə də böyük diqqət yetirirəm. Bu, xalqlarımızın yaxınlaşması nöqteyi-nəzərindən olduqca vacibdir. Sumqayıt şəhərində Axmet Baytursınovun xatirəsinin əbədiləşdirilməsi və onun adına küçənin açılışı, Astanada Heydər Əliyevin adının əbədiləşdirilməsi də ölkələrimiz üçün əlamətdar oldu, təşəkkür edirik.

Ötən il Azərbaycanda Mədəniyyət Günləri böyük uğurla keçirildi və Sizin də dediyiniz kimi sabah Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışını edəcəyik. Bu da qarşılıqlı fəaliyyətimizin və əməkdaşlığımızın rəmzi olacaq.

Daha, necə deyərlər, əlavə ediləcək heç nə yoxdur, çünki artıq həqiqətən də əməkdaşlığımızın gündəliyində mövcud olan bütün məsələlərdən danışdıq. Təklif edirəm ki, Şuranın iclasına başlayaq.

**Prezident İlham Əliyev:**

– Kasım-Jomart Kemeleviç, çox sağ olun. Gündəlikdə artıq bir neçə məsələmiz var. İqtisadi-ticari və investisiya əməkdaşlığının inkişafı, neft-qaz sahəsində əməkdaşlıq, bərpa olunan enerji mənbələri, nəqliyyat-logistika sahələrində, rəqəmsal kommunikasiyalar üzrə əməkdaşlıq, həmçinin mədəni-humanitar sahələrdə.

***





Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Çinin Siyan terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləyiblər.

**Tədbirin aparıcısı dedi:**

– Möhtərəm Kasım-Jomart Kemeleviç.

Möhtərəm İlham Heydər oğlu.

Bu gün Sian şəhərinin Qazaxıstan-Çin terminalından birinci konteyner qatarını qarşılayırıq. Qatar Bakı şəhərinədək məsafəni on bir günə qət edib. Diqqət yetirməyinizi xahiş edirəm.

Sonra qatarın gəlməsinə dair videokadrlar nümayiş etdirildi.

Qeyd edək ki, konteyner qatarının Çinin Sian şəhərində istismara verilmiş Qazaxıstana məxsus Nəqliyyat-Logistika Mərkəzi tərəfindən yola salınması Orta Dəhlizin bütün iştirakçıları üçün böyük əhəmiyyət kəsb edir. Altmış bir konteynerdən ibarət qatar uzunluğu 7 min kilometr olan marşrutu (Siandakı Qazaxıstan terminalı-Aktau-Abşeron stansiyası) 11 günə qət edib. Multimodal daşıma zamanı konteynerlər Qazaxıstan limanında yenidən yüklənərək Xəzər dənizi ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, oradan isə Abşeron stansiyasına çatdırılıb.

Orta Dəhlizin inkişaf etdirilməsi və yeni yüklərin cəlb edilməsi baxımından bu günlərdə Çində fəaliyyətə başlamış Qazaxıstanın Nəqliyyat-Logistika Mərkəzi marşrut üzrə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılmasına hədəflənib. İlkin razılaşmaya əsasən, bu Mərkəz vasitəsilə Azərbaycana ayda 10 konteyner qatarının yola salınması planlaşdırılır.

Bununla yanaşı, Orta Dəhlizin inkişafı üçün birbaşa istehlakçılara yönəlmiş rəqəmsal DTC platforması yaradılıb, Azərbaycan və Qazaxıstan dəmir yolları “Track and Trace” (“Təqib və İzləmə”) funksiyası vasitəsilə real vaxt rejimində marşrut boyunca yüklərin izlənməsi sisteminə inteqrasiya olunub. Vahid rəqəmsal ekosistemin yaradılması və inkişaf etdirilməsi Orta Dəhlizin şəffaflığını, cəlbediciliyini getdikcə artırır.

Azərbaycan və Qazaxıstan dəmir yolları idarələrinin birgə səyləri sayəsində 2024-cü ildə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. Cari ilin yanvar-fevral aylarında “Qazaxıstan Dəmir

Yolları" Səhmdar Cəmiyyəti ilə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti arasında yükdaşımaların həcmi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 25 faiz artaraq 539,5 min ton təşkil edib.

Xatırladaq ki, əvvəllər Çindən Orta Dəhliz vasitəsilə yüklərin Qara dəniz limanlarına çatdırılması təxminən 53 gün çəkirdisə, hazırda bu müddət 18 gün təşkil edir.

**Aparıcı:** Qatar gəldi. İcazə verin, mərasimə başlayaq.

**Prezident İlham Əliyev dedi:**

– Bu əlamətdar hadisə münasibətilə nəqliyyatçıları təbrik etmək istəyirəm. Bu gün Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri çərçivəsində nəqliyyat-logistika sektoruna aid məsələlər ətraflı müzakirə olundu. Qəbul etdiyimiz qərarlar mahiyyətcə bu gözəl mərasimin keçirilməsinə kömək edir. Bu gün Qazaxıstan və Azərbaycan bütün istiqamətlər, o cümlədən tranzit nəqliyyat sahəsində – konnektivliklə bağlı sahədə qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi istiqamətində aktiv fəaliyyət göstərirlər. Bizim ikitərəfli əməkdaşlığımız həm TransXəzər nəqliyyat marşrutu, həm də Orta Dəhliz layihələrinin həyata keçirilməsi çərçivəsində çoxtərəfli əməkdaşlığımızın bir hissəsidir. Bu gün müzakirə edilən planlar ölkələrimizin dəmir yollarının boş qalmaması, belə konteyner qatarlarının isə gündəlik həyatımızın bir parçası olmasına imkan verir.

Ölkələrimiz arasında müxtəlif istiqamətlərdə nə qədər çox yük daşınarsa, əməkdaşlığımız o qədər inkişaf edəcək, Qazaxıstanla Azərbaycan beynəlxalq nəqliyyat daşımalarında daha böyük rol oynayacaqlar.

Bir daha Qazaxıstan və Azərbaycanı, həmçinin Çindəki tərəfdaşlarımızı bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Qatarın yolu açıq olsun.

***

**Prezident Kasım-Jomart Tokayev dedi:**

– Hörmətli həmkarlar, sizin hamınızı böyük əhəmiyyətə malik olan bu əlamətdar hadisə münasibətilə ürəkdən təbrik etmək istərdim. Əslində, Avrasiya kontinenti nəqliyyat-logistika karkası formalaşıb. Hesab edirəm ki, bugünkü tədbir Qazaxıstan ilə Azərbaycan arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq tarixinə qızıl hərflərlə yazılacaq. Qazaxıstan və Azərbaycan təbii strateji müttəfiq və əməkdaşlığın bütün sahələrində, əlbəttə ki, nəqliyyat-logistika üzrə tərəfdaşdırlar. Bu gün danışıqlar əsnasında məhz təkcə bizim ölkələri deyil, həm də yaxınlıqdakı bir çox dövlətləri birləşdirən bu sahədən çox bəhs etdik.

Fürsətdən istifadə edərək, xoş niyyətə və əməkdaşlığa görə Çin Xalq Respublikasının hökumətinə minnətdarlığımı ifadə etmək istərdim. Azərbaycanın hörmətli Prezidenti İlham Heydər oğlu Əliyevin sözlərinə qoşuluram.

***

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub.







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının 1-ci iclasının Qərarı"nı imzaladılar.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və Qazaxıstan Respublikasının "Damu" Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədri




Qauxar Buribayeva "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə "Damu" Sahibkarlığın İnkişafı Fondu" Səhmdar Cəmiyyəti arasında Anlaşma Memorandumu"nu imzaladılar.




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov və Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti"nin direktoru Askar Umarov "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti" Respublika Dövlət Müəssisəsi arasında Əməkdaşlığa dair Memorandum"u imzaladılar.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və Qazaxıstan Respublikasının "KazMunayQaz" Milli Şirkəti"nin İdarə Heyətinin sədri Maqzum Mirzaqaliyev "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin alqı-satqısı sahəsində strateji əməkdaşlıq haqqında Memorandum"u və "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin Azərbaycan Respublikası ərazisindən tranzit edilən həcmlərinin mərhələli artırılması haqqında Saziş"i imzaladılar.





Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov və "Samruk Kazyna" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Nurlan Jakupov "Azərbaycan İnvestisiya Holdinqi və "Samruk Kazyna" Səhmdar Cəmiyyəti arasında strateji tərəfdaşlıq Sazişi"ni imzaladılar.



Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli və Qazaxıstan Respublikasının mədəniyyət və informasiya naziri Aida Balayeva "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyi arasında 2024-2025-ci illər üçün Tədbirlər Planı"nı imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qazaxıstan Respublikasının rəqəmsal inkişaf, innovasiya və aerokosmik sənaye naziri Baqdat Musin "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Qazaxıstan Respublikasının Rəqəmsal İnkişaf, İnnovasiyalar və Aerokosmik Sənaye Nazirliyi arasında kosmosun dinc məqsədlərlə tədqiq edilməsi və istifadəsi sahəsində Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev və Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek "3 aprel 2017-ci il tarixli Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qazaxıstan Respublikasının nəqliyyat naziri Marat Karabayev "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qazaxıstan Respublikasının Nəqliyyat Nazirliyi arasında dəniz gəmilərinin heyətinin ixtisas diplomlarının qarşılıqlı tanınması haqqında Saziş"i imzaladılar.

***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə dövlətimizin başçısı mətbuata bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

– Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Əziz qonağımız Qazaxıstan Prezidentini dövlət səfəri ilə qəbul etmək bizim üçün böyük şərəfdir. Kasım-Jomart Kemeleviç, xoş gəlmisiniz.





Bu gün qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi sahəsində artıq görülmüş işlərlə bağlı ətraflı diskussiyalar apardıq, həmçinin gələcək planlarımızı geniş müzakirə etdik. Bizim üçün qardaş ölkə, strateji tərəfdaş və müttəfiq olan Qazaxıstanın Prezidentinin dövlət səfərinə böyük əhəmiyyət veririk. Münasibətlərimizin dinamikası qarşılıqlı səfərlərimizin xronologiyasından aydın görünür. Son ilyarım ərzində mən Qazaxıstana dörd dəfə səfər etmişəm, həmçinin bu dövrdə Qazaxıstan Prezidenti üçüncü dəfədir ki, ölkəmizə gəlir. Bu

gün, eyni zamanda, fikir mübadiləsi çərçivəsində cari ilin sonunadək qarşıdakı səfərlərlə bağlı razılıq əldə etdik. Yəni, belə dinamik qarşılıqlı fəaliyyət faktı özlüyündə mənzərəni aydın göstərir. Biz təkcə mühüm ikitərəfli qarşılıqlı fəaliyyət məsələlərini müzakirə etmirik, həmçinin regional problematika, regionumuzda təhlükəsizlik sistemi ilə bağlı olan məsələlərə də toxunuruq.

İlk növbədə, istərdim ki, işğaldan azad olunmuş Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin inşasına dair təşəbbüsünə görə Kasım-Jomart Kemeleviçə bir daha təşəkkürümü bildirim. Bu, Prezidentin şəxsi qərarıdır və bu qərardan həmin layihənin reallaşdırılmasına qədər çox az vaxt keçib. Sabah biz birlikdə bizim keçmiş məcburi köçkün uşaqların təhsil alacağı, həmçinin dostluğumuzun və qardaşlığımızın mərkəzi olacaq bu mərkəzi açacağıq. Bu, Qazaxıstanın Azərbaycana qardaş köməyidir, bu, Qazaxıstanın Azərbaycana hədiyyəsidir və azad edilmiş ərazilərin bərpasına dəstəyidir.

Həmçinin ərazi bütövlüyünü və suverenliyini bərpa etməkdə Azərbaycana göstərdiyi daimi dəstəyə görə Qazaxıstana minnətdarıq. Bu gün Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması məsələsini də ətraflı müzakirə etdik. Mən həmkarıma danışıqlar prosesinin hazırkı mərhələsi, sülh sazişinin imzalanması perspektivləri haqqında məlumat verdim. Azərbaycan bu məsələdə maraqlıdır və əslində, məhz Azərbaycan sülh sazişinə dair danışıqlar prosesinin əvvəlindən təşəbbüskar olub.

Bununla yanaşı, biz, həmçinin qarşılıqlı fəaliyyətin digər məsələlərini, o cümlədən beynəlxalq strukturlarda, ilk növbədə BMT və Türk Dövlətləri Təşkilatında birgə fəaliyyətimizi müzakirə etdik. Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyəti gələcəkdə də möhkəmləndirməyin zəruri olmasına dair vahid fikrə gəldik. Çünki bu təşkilat yaxın, dost, doğma ölkələri birləşdirir, həmçinin böyük potensiala, ən başlıcası inkişaf potensialına malikdir.

İkitərəfli gündəliyə gəldikdə, bu gün Ali Dövlətlərarası Şuranın birinci iclası çərçivəsində qarşılıqlı fəaliyyətimizin müxtəlif aspektləri ətraflı müzakirə olunub. Qarşılıqlı iqtisadi-ticari fəaliyyət sahəsi böyük inkişaf potensialına malikdir. Nəqliyyat-tranzit məsələsi geniş müzakirə olunub, biz Qazaxıstandan keçməklə Çin Xalq Respublikasından Azərbaycana qədər yol qət edən konteyner qatarının rəmzi qarşılanması mərasimində iştirak etmişik. Bu, TransXəzər nəqliyyat dəhlizinin artıq reallığa çevrilməsi, onun özlüyündə böyük dərəcədə regional əməkdaşlığın səviyyəsini müəyyən etməsinin rəmzlərindən biridir, çünki qonşularla yaxşı münasibət olmadan tranzit ölkə olmaq mümkün deyil. Belə olan halda həm Qazaxıstan, həm də Azərbaycan bu istiqamətdə regional əməkdaşlığa, qonşularla münasibətlərin möhkəmləndirilməsinə sadiqliyini nümayiş etdirir.

Kasım-Jomart Kemeleviçlə bu gün apardığımız fikir mübadiləsi də göstərdi ki, biz də qonşularıq. Bizi təkcə Xəzər dənizi ayırır. Amma bu gün o da əngəl deyil, əksinə, Xəzər təkcə ölkələrimiz arasında yox, həm də bir çox ölkələr arasında körpüdür, çünki TransXəzər nəqliyyat dəhlizi bu gün öz potensialını tam şəkildə açır. Hökumət üzvlərinin bir çox istiqamətlər üzrə geniş məruzələri dinlənildi.

Qarşılıqlı fəaliyyətimizin və birgə işimizin nəticələri, ən başlıcası, gələcək planlarımız həqiqətən də böyükdür.

Həmçinin neft-qaz sahəsində əməkdaşlıqla bağlı vəziyyət geniş təhlil edildi, yeni konkret layihələr müəyyənləşdirildi. Biz COP29 iqlim konfransına hazırlıq məsələlərini müzakirə etdik və qazaxıstanlı qardaşlarımıza bu çox mühüm beynəlxalq konfransa hazırlıq və onun keçirilməsi çərçivəsində əməkdaşlıq təklif etdik. Həmçinin humanitar əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu. Hər bir istiqamət geniş sahədir. Hökumət üzvlərinin məruzələrini dinləyəndə əyani şəkildə əmin olduq ki, artıq çoxlu iş görülüb, həm mədəniyyət günləri, həm müxtəlif tədbirlər, həm də xalqlarımızın görkəmli nümayəndələrinin xatirəsinin anılması, nəqliyyat, energetika əməkdaşlığı layihələrinin praktiki həlli, "yaşıl" enerji sahəsində əməkdaşlığın perspektivləri.

Biz paralel istiqamətlər üzrə irəliləyirik. Bu gün diskussiyalar çərçivəsində qeyd edildi ki, TransXəzər nəqliyyat marşrutunu meydana, deyərdim ki, dünya nəqliyyat-logistika spektrinə çıxaran indiki geosiyasi şərait möhkəm bazaya malikdir. Çünki həm Qazaxıstanda, həm də Azərbaycanda əvvəlki illərdə bu sahəyə böyük investisiyalar yatırılıb. Zəngin təbii ehtiyatlara malik olmağımıza baxmayaraq, biz nəqliyyat infrastrukturumuzun bu gün beynəlxalq standartlara tam uyğun gəlməsinə çalışdıq və buna nail olduq. Həm Qazaxıstanda, həm də Azərbaycanda dəmir yolları, aeroportlar, avtomobil yolları, dəniz limanları daxil olmaqla, irimiqyaslı nəqliyyat layihələri həyata keçirildi. Bu gün bunlara həmişəkindən daha çox ehtiyac var. Bu, bizi bir daha əmin edir ki, bütün işləri vaxtında görmək və yaxın perspektivdən bir az uzağa baxmaq lazımdır. Yalnız belə olan təqdirdə uğur qazanmaq mümkündür. Ona görə də əgər bu gün nəqliyyat infrastrukturuna investisiya qoymağa başlasaydıq, yəqin ki, indi həmin potensiala malik olmaq üçün onilliklər lazım gələrdi. İndi bu bünövrə üzərində biz nəqliyyat-tranzit imkanlarımızın, həm limanların, dəmir yollarının, həm də sinergiya yaradılmasının, vahid nəqliyyat kompleksinin qurulmasının genişləndirilməsini planlaşdırırıq. Bu kompleksdə

rəqəmsallaşma ilə bağlı layihələr də dəstəklənəcək. Bu məsələlərdə biz paralel istiqamətlər üzrə hərəkət edirik. Həm Qazaxıstanda, həm də Azərbaycanda bu sahəyə çox böyük diqqət yetirilir.

Mən həmkarımı Qazaxıstanın sosial-iqtisadi inkişafda, iqtisadiyyatın davamlı artmasında, beynəlxalq məsələlərdə nüfuzunun daim yüksəlməsində əldə olunan nailiyyətlərə görə təbrik etdim. Bu, bizim üçün çox mühümdür, qardaş xalqla qürur duyuruq. Çünki bu gün Qazaxıstan beynəlxalq arenada müdrik siyasət, düzgün seçilmiş strategiya və dövlətin inkişafına yönəlmiş dəqiq, ölçülüb-biçilmiş addımlar, həmçinin beynəlxalq arenada qarşılıqlı fəaliyyət sayəsində çox böyük nüfuza malikdir. Biz buna ürəkdən sevinirik. Qazaxıstana hər səfərdə dəyişikliklərin şahidi olursan. Mən Kasım-Jomart Kemeleviçə dedim ki, müasir, gözəl meqapolis olan Astananın salınması dünya tarixində nadir nümunələrdən biridir. Mənim hər səfərimdə, - artıq dediyim kimi, son ilyarımda dörd dəfə orada olmuşam, - inkişafın şahidi oluram. Bütün bunlar Prezident Tokayevin öz xalqının, dövlətinin rifahı naminə və dostlarının sevincinə səbəb olan islahatlarını əks etdirir. Biz münasibətlərimizi daha böyük məzmunla zənginləşdirmək üçün səmimi səylər göstəririk. Dövlət səfəri münasibətlərin ən yüksək səviyyədə nümayişidir. Səfərə hazırlıq çərçivəsində onu ciddi məzmunla zənginləşdirməyə çalışırdıq.

Bu yaxınlarda Astanada hökumətlərarası komissiyanın iclası keçirildi, sənədlər hazırlandı, nümayəndə heyətlərinin iştirakı ilə ancaq sənədlərin bir hissəsi imzalandı, digərləri işgüzar qaydada imzalanır. Gündəlik həqiqətən də genişdir, ən başlıcası konkret nəticələrə istiqamətlənib.

Dəvətimi qəbul etdiyi və Azərbaycana gəldiyi üçün Qazaxıstan Prezidentinə bir daha təşəkkürümü bildirmək istəyirəm. Artıq dediyim kimi, bu dialoqu daim saxlamaq və qərara gəldiyimiz, imzaladıqlarımızı həyata keçirmək üçün komandaların bütün üzvlərinə daimi impuls vermək məqsədilə biz yaxın vaxtlarda yeni görüşlər keçirməyi razılaşdırdıq.

Bir daha xoş gəlmisiniz.

***

Sonra Qazaxıstan Prezidenti mətbuata bəyanatla çıxış etdi.



**Prezident Kasım-Jomart Tokayevin bəyanatı**

– Hörmətli İlham Heydər oğlu, göstərilən qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirirəm.

Müqəddəs Azərbaycan torpağında olduğumuz ilk dəqiqədən ev sahibinin səmimi münasibətini hiss etdik. Bu dövlət səfəri dövlətlərimiz arasında əməkdaşlığın inkişaf perspektivləri nöqteyi-nəzərindən çox mühümdür. Gördüyünüz kimi, məni çox böyük nümayəndə heyəti müşayiət edir. Bu, onu göstərir ki, biz belə mühüm tədbirin – qardaş Azərbaycana dövlət səfərinin bütün aspektlərinə geniş hazırlıq görmüşük.

Əvvəlcə, öz səfərimə qiymət vermək istərdim. Həqiqətən səfər tam uğurlu oldu. Bu gün müvafiq sənədlərin, sazişlərin imzalanmasında iştirak etdik. Amma ən başlıcası odur ki, razılaşdığımız kimi, hökumətlərin və digər müvafiq idarələrin səyləri yüksək səviyyədə görüşlər zamanı əldə olunmuş bütün razılaşmaların tam şəkildə reallaşmasına yönəldiləcək.

Fürsətdən istifadə edərək, – mən artıq bunu Ali Dövlətlərarası Şuranın birinci iclasında da söyləmişəm, - hörmətli İlham Heydər oğlu, Sizi bir daha prezident seçkilərində çox inamlı qələbə münasibətilə təbrik etmək istərdim. Bu, Azərbaycan xalqının Sizin strateji kursunuza tam dəstəyinin göstəricisidir. Heç şübhə etmirəm ki, belə mühüm ölkəyə bu prezidentlik fəaliyyətində də bütün sahələrdə – həm siyasətdə, həm də iqtisadiyyatda böyük uğurlar qazanılacaq.

Azərbaycan Sizin rəhbərliyinizlə böyük tarixi Qələbə əldə edib. Bu, dövlət suverenliyinin bərpa olunmasıdır. Qazaxıstan xalqı bununla bağlı böyük sevinc hissi keçirib. Biz bu mövzuda danışmışıq. Mən Sizə təbrik məktubu ünvanlamışam. Zənnimcə, bu, uzun illər ərzində Sizin dövlət suverenliyinin bərpasına yönəlmiş və son nəticədə tarixi həqiqətin bərpası ilə nəticələnən səylərinizin qanunauyğun yekunudur.

Daha bir uğuru – qlobal iqlim konfransının keçirilməsini qeyd etmək istərdim. Bu mühüm tədbirin məhz Bakıda keçirilməsi faktı bir çox məqamlardan xəbər verir. Hər şeydən əvvəl, Sizin ölkənizin sosial-iqtisadi inkişaf sahəsində, həmçinin beynəlxalq arenada nailiyyətlərinin qəbul edilməsi amilidir. Həqiqətən Azərbaycanın nüfuzu durmadan artır, bu, həm iqtisadiyyatda, həm də beynəlxalq siyasətdə baş verir. Əlbəttə, Qazaxıstan

COP29-un müvafiq səviyyədə keçirilməsini dəstəkləyir və bu son məqsədə nail olmaq üçün lazımi səylər göstərəcəkdir. Hər halda mən Sizin dəvətinizlə həmin tədbirdə şəxsən iştirak etməyi planlaşdırıram.

Həqiqətən son vaxtlar yüksək səviyyədə təmaslar artıb və bu, çox müsbət məqamdır. Cari il də istisna olmayacaq. Biz yüksək səviyyəli beynəlxalq tədbirlərdə iştirak etmək üçün Sizi azı iki dəfə Qazaxıstanda gözləyirik. Mən özüm də Türk dövlətləri liderlərinin qeyri-rəsmi sammitində iştirak etmək üçün Azərbaycana yenidən səfər etməyi planlaşdırıram. Düşünürəm ki, bu təmaslar strateji tərəfdaşlığı və hətta Qazaxıstanla Azərbaycan arasında müttəfiqliyi möhkəmləndirmək üçün çox faydalıdır. Strateji tərəfdaşlıqdan danışdıqda, biz bunu sadəcə gözəl ifadə və ya diplomatik nəzakət kimi qəbul etmirik. Əslində, əməkdaşlığımızın mahiyyəti qarşılıqlı fəaliyyətimizin strateji xarakterini ehtiva edir.

Bu gün Ali Dövlətlərarası Şuranın birinci iclası əsnasında elə mühüm məsələlər müzakirə olundu ki, onların reallaşdırılması, nəzərdə tutulan planların yerinə yetirilməsi üzrə bu məsələlərin strateji istiqamətindən danışmaq həqiqətən yerinə düşür.

Nəqliyyat-logistika sahəsinə gəldikdə, bu gün qeyd etdik ki, hazırda dünyada məhz nəqliyyat-logistika imkanlarına çıxış uğrunda mübarizə kəskinləşir. Bu, strateji sahədir. Sevindirici haldır ki, həm Qazaxıstan, həm də Azərbaycan təbii tərəfdaşlar kimi bu sahədə sıx qarşılıqlı fəaliyyət göstərirlər. Sian limanından Qazaxıstan ərazisindən Azərbaycana dəmir yolu marşrutu üzrə bugünkü mərasim də çox mətləblərdən xəbər verir. Bu, həqiqətən çox mühüm tədbirdir və mənim dövlət səfərim zamanı keçirildi. Buna çox şadam.

Biz rəqəmsallaşma, süni intellektin yaradılması, Xəzərin dibi ilə optik-lif rabitə xəttinin qurulması sahələrində birgə səylər göstərilməsindən də danışdıq. Bu layihələr unikaldır. Zənnimcə, uğurlar çox da uzaqda deyil.

Strateji tərəfdaşlığımızın mədəni-humanitar tərkibi üzrə əməkdaşlığımızı da xüsusi qeyd etmək istəyirəm. Bu, xalqlarımızın yaxınlaşması baxımından çox mühümdür. Biz Azərbaycan tərəfinə Qazaxıstan mədəniyyəti günlərinin yüksək səviyyədə keçirilməsinə yaradılan lazımi şəraitə və səmimi qəbula görə minnətdarıq. Biz də Azərbaycan mədəniyyət xadimlərini ölkəmizdə səbirsizliklə gözləyirik və bu tədbirin uğurla keçəcəyi heç bir şübhə doğurmur, çünki Azərbaycan mədəniyyətinə maraq hər zaman vardır. Düzünü söyləmək lazımdır ki, Qazaxıstan xalqı sizin mədəniyyətinizdən ötrü darıxıb və Azərbaycan mədəniyyət xadimlərini böyük məmnunluqla qarşılayacaq.

Həmçinin çox mötəbər təşkilatlarda qarşılıqlı fəaliyyətimizi xüsusi qeyd etmək istəyirəm. Bu, Birləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, ATƏT, AQEM, SPECA, MDB kimi təşkilatlardır. Zənnimcə, bu, beynəlxalq qarşılıqlı fəaliyyətin çox böyük spektridir və sözügedən beynəlxalq əməkdaşlıq davam edəcək. Strateji tərəfdaşlıqdan danışırıqsa, bu da çox əhəmiyyətlidir.

Hörmətli Prezident İlham Heydər oğlu Əliyevə göstərilən qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm. Sizin torpağınızda özümüzü çox rahat hiss edirik. Gözəl Bakı şəhərinə Sizin dəvətinizlə böyük maraq və ümidlərlə gəldik. İndi isə təbii ki, Qazaxıstana qayıtdıqda dərhal müvafiq qərarların qəbul edilməsinə başlayacağıq və əldə olunmuş bütün razılaşmaların həyata keçirilməsi üçün lazımi səylər göstərəcəyik.

Təşəkkür edirəm.

***

Martın 11-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin şərəfinə dövlət ziyafəti verilib.





Ziyafətdə Azərbaycanın və Qazaxıstanın musiqi əsərlərindən ibarət konsert proqramı təqdim olunub.

***







Azərbaycan Respublikasında dövlət səfərində olan Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev martın 12-də Füzuli rayonuna gəlib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.

***

Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzuli şəhərinin Baş planı ilə tanış olublar.





Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçılarına Füzulidə görülən və həyata keçiriləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq.

Yaşayış ərazilərinin sıxlığının müəyyənləşdirilməsində proqnozlaşdırılan əhali sayı ilə yanaşı, təklif edilən digər şəhər xidmətlərinin yerləşməsi də nəzərə alınıb. Məşğulluğun və sosial xidmətlərin təmini üçün şəhərdə 9 ümumi və orta təhsil müəssisəsi, 13 məktəbəqədər təhsil müəssisəsi, peşə təhsili müəssisəsi, internat tipli musiqi məktəbi, xəstəxana, idman və sağlamlıq mərkəzi, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman kompleksinin inşası, Qələbə və Memorial park, 6 məhəllə parkı və şəhər meydanının, ərazisi 150 hektardan çox olan ekoparkın salınması planlaşdırılıb.

Xüsusi vurğulandı ki, ötən ilin avqustunda Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəbin, bu gün isə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin istifadəyə

verilməsi füzulililər üçün unudulmaz hədiyyə olmaqla yanaşı, ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının sarsılmazlığının daha bir göstəricisidir.

Diqqətə çatdırıldı ki, Baş planda Füzuli şəhərinin dayanıqlı inkişafı, ağıllı həllər əsasında qurulması və insanların sağlam həyatını təmin etmək üçün ən müasir şəhərsalma yanaşmaları tətbiq edilib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları barədə də məlumat verildi.

***

Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər.





Dövlət başçıları tədbirdə Azərbaycanın mədəniyyət və incəsənət xadimləri, Füzuli şəhər sakinləri və Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində təhsil alacaq uşaqlarla görüşüblər.

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dedi:**

– Sizi burada, müqəddəs Azərbaycan torpağında görməyimə çox şadam.

Bildiyiniz kimi, mən dünən və bu gün ölkənizdə dövlət səfərindəyəm. Çox şadam ki, bu səfər tam uğurla – dövlətlərimiz arasında çoxşaxəli əməkdaşlığın gələcək inkişafına ən ciddi təkan verəcək son dərəcə mühüm sənədlərin imzalanması ilə başa çatır. Biz qardaş xalqlarıq, müttəfiqik, strateji tərəfdaşıq. Bunlar təkcə sözlər deyil, həm də ölkələrimizin hökumətlərinin görəcəyi böyük iş həcmləridir, çünki razılaşmalar çox ciddidir, çox böyükdür və şübhəsiz, onlar iqtisadiyyatlarımızın inkişafına impuls verəcək ki, bu da çox vacibdir. Ona görə də dövlətlərimiz arasında əməkdaşlığın gələcəyinə böyük nikbinliklə baxıram.



Mədəni–humanitar sahədə əlaqələrin inkişafına, möhkəmləndirilməsinə böyük diqqət yetiririk. Burada Qazaxıstan mədəniyyət günləri böyük müvəffəqiyyətlə keçirildi. Dünən səmimi qəbula görə minnətdarlığımı bildirdim. Azərbaycanın mədəniyyət xadimlərini Qazaxıstanda gözləyirik.

Azərbaycanın hörmətli Prezidenti İlham Heydər oğlu Əliyevin Sumqayıt şəhərində bir küçəyə Qazaxıstanın məşhur maarifçisi Axmet Baytursınovun adının verilməsi qərarına görə ona çox minnətdaram. Eyni zamanda, ötən il biz hörmətli Prezidentlə paytaxtımızda dahi dövlət xadimi Heydər Əliyevin şərəfinə adlandırılmış küçənin açılışını etdik. Belə təmaslar, şübhəsiz ki, davam edəcəkdir.

Sizi bir daha müqəddəs Ramazan ayı münasibətilə təbrik edirəm. Sizə ən xoş arzularımı çatdırıram.

Bu Mərkəz Qazaxıstan xalqı adından bizim hədiyyəmizdir. Hökumətin tapşırığına və mənim şəxsi göstərişimə əsasən “BI Group” özəl şirkəti bu hədiyyəni səmimi-qəlbdən, bütün xalqın adından təqdim edir. Zənnim-

cə, bu obyekt şübhəsiz ki, ölkələrimiz arasında rifahın, bütün əlaqələrin, hərtərəfli münasibətlərin möhkəmləndirilməsinə töhfə olacaq.

Sizə uğurlar, tərəqqi arzulayıram. Heç bir şübhə yoxdur ki, Azərbaycanın müqəddəs regionu güclü inkişaf edəcək. İndicə gələcəyə dair planla tanış olduq və əlbəttə ki, o, miqyası və intensivliyi ilə bizi valeh edir. Sağ olun.

***

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

– Hörmətli Kasım-Jomart Tokayev, çox sağ olun.

Füzulililər, ictimaiyyətimiz və bütün Azərbaycan xalqı adından Sizə bu qardaş hədiyyəsinə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Azad olunmuş torpaqlarda Uşaq Yaradıcılıq Mərkəzinin yaradılması Sizin şəxsi təşəbbüsünüzdür. Ötən dəfə – ilyarım əvvəl Azərbaycana səfəriniz zamanı bu Mərkəzin təqdimatı oldu və bir il ərzində Mərkəz tikildi, bu gün onun rəsmi açılışıdır. Mərkəz qazax xalqının böyük oğlu Kurmanqazının adını daşıyır. Dünən biz Sizinlə danışırdıq ki, bu, təkcə Uşaq Yaradıcılıq Mərkəzi deyil, həm də Qazaxıstan ilə Azərbaycan arasında dostluq və qardaşlıq mərkəzi olacaq. Hər bir belə layihə Azərbaycan xalqının qəlbini riqqətə gətirir, çünki 30 il ərzində bu balaca uşaqların valideynləri, babaları və nənələri bir arzu ilə - öz torpaqlarına qayıtmaq arzusu ilə yaşayıblar. Onlar qayıtdıqda dağıdılmış, yerlə-yeksan edilmiş Qarabağı gördülər, əlbəttə, çox acı hisslər yaşadılar. Bu qayıdışın ağrılı-acılı və eyni zamanda, sevinc hissləri bir-birinə qarışmışdı. İndi qardaş Qazaxıstanın köməyi ilə Füzulidə çox gözəl Uşaq Yaradıcılıq Mərkəzi açılır. Bu təşəbbüsə görə Sizə səmimi–qəlbdən minnətdarıq. Bu, azərbaycanlıların, burada yaşayanların və yaşamayanların, buraya gələn və bu gözəl binanı görən hər kəsin yaddaşında qalacaq. Ən başlıcası, buraya gələn, əksəriyyəti Bakıdan, Sumqayıtdan və digər böyük şəhərlərdən olan uşaqlar öz qəlblərinin səsi və əcdadlarının çağırışı ilə tədbirdə iştirak edirlər. Diqqət yetirdikdə görürük ki, burada – Füzulidə yaşayan insanlar, onların əksəriyyəti Füzulinin işğalı dövründə dünyaya gəliblər, yaxud çox balaca olublar. Demək olar ki, onlar öz doğma şəhərini, öz rayonunu görməyiblər, amma bu torpağa məxsus olduqları, uğrunda mübarizə apardığımız, döyüşdüyümüz, qan tökdüyümüz və uşaqlarımızı itirdiyimiz müqəddəs Qarabağ torpaqlarına aid olduqları üçün buraya qayıdıblar.

Bu gün, Qarabağın dirçəldiyi bir vaxtda əziz qardaşımızı, Türk dünyasının ən böyük ölkəsinin, sürətli inkişafa malik, beynəlxalq arenada iri aktor olan, Azərbaycanın müttəfiqi qardaş Qazaxıstanın Prezidentini salamlamaqdan böyük şərəf hissi duyuruq. Siz yəqin ki, bizim dünənki görüşlərimizi izləmisiniz, həmçinin axşam da bizimlə birlikdə olmusunuz. Yəqin ki, bu ab-havaya nüfuz etmisiniz. Ünsiyyətimizin bütün işgüzar komponenti ilə yanaşı, məhz mənəvi bağlar bizə güc verir. Sizi təbrik edirəm və sizin adınızdan bir daha Kasım-Jomart Tokayevə təşəkkürümü bildirmək istəyirəm.

**Prezident Kasım-Jomart Tokayev:** Azərbaycanın gənc vətəndaşlarına, müqəddəs Füzuli sakinlərinə ayrıca səadət, uğurlar arzulamaq istəyirəm.

**Prezident İlham Əliyev:** Mən bizim nümayəndələri təqdim edim. Azərbaycan Yazıçılar Birliyinin sədri Anar.

**Prezident Kasım-Jomart Tokayev:** Bəli, tanıyıram.

**Prezident İlham Əliyev:** Konservatoriyanın rektoru. Xalq yazıçısı, yəqin ki, Siz onun da kitablarını bilirsiniz.

**Xalq yazıçısı Çingiz Abdullayev:** Mən onun atası haqqında yazmışam.

**Prezident Kasım-Jomart Tokayev:** Sizə təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Milli Konservatoriyanın rəhbəri. Memarlar İttifaqının sədri.

**Memarlar İttifaqının sədri Elbay Qasımzadə:** Mən qazax adı daşıyıram, adım Elbaydır. Atam mənə cəbhədə həlak olmuş dostunun adını qoyub.

**Prezident İlham Əliyev:** Məşhur kinorejissor Oqtay Mirqasımov, Rəssamlıq Akademiyasının rektoru Xalq rəssamı Natiq Əliyev, bizim gənc füzulililərimiz, istedadlarımız buradadırlar.

**Müəllim Məhin Orucova:** Hörmətli cənab prezidentlər. Sizi Azərbaycan mədəniyyətinin qədim tarixi mərkəzi olan Qarabağ torpağında salamlayırıq. Cənab Prezident İlham Əliyev, Sizə minnətdarıq ki, bizi öz torpağımıza qaytarmısınız. Biz Sizə və şanlı Ordumuza minnətdarıq.

Bu gün bizim və uşaqlarımız üçün əlamətdar gündür. Bu gün Qazaxıstan milli mədəniyyətinin böyük nümayəndəsi, qazax xalq musiqisinin patriarxı Kurmanqazı Saqırbayulının adını daşıyan Füzuli Uşaq Yaradıcılıq Mərkəzinin açılışıdır. Biz Qazaxıstan Prezidenti cənab Kasım-Jomart Tokayevə və onun simasında bütün Qazaxıstan xalqına belə gözəl Mərkəzə görə minnətdarıq. Bütün füzulililər adından uşaq yaradıcılığı fəaliyyətinə göstərilən qayğıya görə iki dövlətin liderlərinə çox təşəkkür edirik.

Bu Mərkəzdə uşaqlar təkcə Azərbaycan deyil, həm də qazax mədəniyyətini öyrənəcəklər. Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi Qazaxıstan ilə Azərbaycan arasında dostluğun rəmzi olacaq.

**Prezident Kasım-Jomart Tokayev:** Sağ olun. Həqiqətən Kurmanqazı qazax musiqisinin nəhəngidir, demək olar ki, Türk mədəniyyətinin ayrılmaz hissəsidir. Kurmanqazının adı olmadan qazax musiqisini təsəvvür etmək çətindir. Ona görə də deməliyəm ki, onun musiqisi çox dinamikdir və indiyədək çox müasirdir. Məşhur "Küy Sarı Arka" indiyədək böyük həyəcanla dinlənilir.

**Prezident İlham Əliyev:** Əlbəttə, uşaqlar burada onun yaradıcılığını öyrənəcəklər.

***



Dövlət başçıları Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdilər.

Sonra xatirə şəkli çəkdirildi.

Prezidentlər Uşaq Yaradıcılıq Mərkəzində yaradılan şəraitlə tanış oldular.

Qeyd edək ki, Prezident Kasım-Jomart Tokayevin təşəbbüsü ilə inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi qardaş qazax xalqının Azərbaycan xalqına hədiyyəsidir. Təməli 2023-cü ilin martında qoyulan Mərkəz 1,5 hektar ərazidə yaradılıb. Obyektin tikinti sahəsi 2700









kvadratmetrdir. İkimərtəbəli binada 600 uşağın bir neçə növbədə məktəbdənkənar təhsil alması üçün hər cür şərait yaradılıb. Burada mühazirə zalı, şahmat və kulinariya sinifləri, incəsənət və heykəltaraşlıq studiyası, xoreoqrafiya və idman zalı, səsyazma kabineti, musiqi və vokal sinfi, foto-video montaj, veb-dizayn və robototexnika kabinetləri, akt zalı, 3D modelləşdirmə sinfi var. Mərkəzdə IT-startaplara və Azərbaycanın milli mədəniyyətinə, o cümlədən xalçaçılıq sənətinə xüsusi diqqət yetiriləcək.

Vurğulandı ki, layihəni "BI Group" şirkəti hazırlayaraq həyata keçirib. Tikintidə qabaqcıl texnologiyalardan və şirkətin illər ərzində qazandığı təcrübədən istifadə olunub. Şirkət müasir mühəndis həlləri və təhsil obyektlərinin tikintisi nöqteyi-nəzərindən yüksək səviyyəli peşəkar təcrübəyə malikdir.

Qeyd edək ki, yeni təhsil kompleksi üçün Kurmanqazı adının seçilməsi də təsadüfi deyil. Görkəmli musiqiçinin əfsanəvi əsərləri bütün Türk dünyasının mirasına çevrilib. Mərkəzin yaradılması Azərbaycan və Qazaxıstan arasında ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə, gənclərin keyfiyyətli təhsilinə, regionda yaradıcılığın, idmanın və elmin inkişafına töhfə vermək məqsədi daşıyır.




***

**Prezident Kasım-Jomart Tokayev:** Bu avtobus bizim hədiyyəmizdir. Qazaxıstanın uşaqlara ərməğanıdır, istifadə etmələri üçündür. Üzərində "Balalar" yazılıb.




**Prezident İlham Əliyev:** Sağ olun.

**Qazaxıstan nümayəndəsi:** Qazaxıstanda yığılıb.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Prezident Kasım-Jomart Tokayev:** Çox şadam ki, Sizin xoşunuza gəldi. Bu, bizim Azərbaycan xalqına səmimi hədiyyəmizdir. Bilirəm ki, Azərbaycanın potensialı böyükdür və Siz özünüz də bütün bunları edə bilərsiniz, amma biz həmişə qardaşlıq hisslərimizi ifadə etməliyik və belə maddi formada.

**Tədbirin iştirakçıları:** Sizə təşəkkür edirik.

***

Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzulidə inşa olunacaq Mərkəzi Rayon Xəstəxanasının layihəsi ilə tanış olublar.



Səhiyyə naziri Teymur Musayev dövlət başçılarına xəstəxanada yaradılacaq şərait barədə məlumat verdi.

Bildirildi ki, Baş plan layihəsinə əsasən 180 çarpayılıq yeni xəstəxana 4,5 hektar ərazidə inşa olunacaq. Xəstəxananın inşasında Qazaxıstanın "BI Group" və bir sıra Azərbaycan şirkətləri iştirak edəcək. Bu tibb ocağında inzibati bina, qəbul, terapiya, kardiologiya, nevrologiya, cərrahiyyə, travmatologiya-ortopediya, oftalmologiya, otorinolorinqologiya, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri və əməliyyat bloku fəaliyyət göstərəcək.

Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq. Müalicə ocağı ən müasir tibbi avadanlıqlarla təchiz ediləcək.

Diqqətə çatdırıldı ki, xəstəxana ilə yanaşı, eyni ərazidə Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Yardım Stansiyası və Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzi də inşa ediləcək.

Burada rayon sakinlərinə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hər cür şərait yaradılacaq. Beləliklə, öz doğma yurdlarına qayıdacaq rayon sakinləri bu tibb ocağının istifadəyə verilməsi ilə hərtərəfli tibbi xidmətlə əhatə olunacaqlar.

***





Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Şuşa şəhərinə səfər ediblər.

Dövlət başçıları Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən güllləbaran edilmiş heykəllərinə baxdılar.







Bildirildi ki, işğal zamanı ermənilər həmin heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər Prezident İlham Əliyevin göstərişi ilə əvvəlki yerlərinə qaytarılıb.

Prezident İlham Əliyevə və Prezident Kasım-Jomart Tokayevə Şuşanın Baş planı barədə məlumat verildi.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirdi ki, şəhərin Baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunub saxlanılması əsas götürülüb. Azərbaycanın mədəniyyət paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulub. Baş planda Şuşada orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşası, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binaların və abidələrin yerləri əksini tapıb. Hazırda Baş plan əsasında Şuşada bərpa və yenidənqurma işləri davam etdirilir.



Natəvan bulağı ilə tanışlıq zamanı qeyd olundu ki, Şuşa işğaldan azad edildikdən qısa müddət sonra istifadəyə verilən "Xan qızı" bulağı şəhərin məşhur məkanlarından biridir. Xan qızı Xurşidbanu Natəvan təkcə şairə kimi deyil,

xeyirxahlığı ilə də tanınırdı. Natəvanın vaxtilə şəhərə çəkdirdiyi su xətti “Xan qızı” bulağı adı ilə məşhur idi. İşğal dövründə suyu quruyan bulaq yenidən sakinlərin və şəhərin qonaqlarının istifadəsindədir.

Prezidentlər daha sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində “Heydər Əliyev və Qarabağ” sərgisinə baxdılar.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlət başçılarına Mərkəz və sərgi barədə məlumat verdi.







Bildirildi ki, Yaradıcılıq Mərkəzi Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra ötən il mayın 10-da istifadəyə verilib. Bina ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır.

Qeyd edildi ki, “Heydər Əliyev və Qarabağ” sərgisində Ulu Öndərin Qarabağda sosial, iqtisadi, siyasi və mədəni inkişaf sahələrindəki xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Həmçinin sərgidə Ümummilli Liderin vaxtilə Qarabağa səfərlərinə, burada keçirdiyi görüşlərə, müxtəlif tədbirlərə aid fotolar yer alıb.

Məlumat verildi ki, 1969-cu ildən etibarən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev mürəkkəb tarixi şəraitdə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail oldu. 1979-cu il yanvarın 12-də Ümummilli Liderin iştirakı ilə Ağdam–Xankəndi dəmir yolu açıldı. Bu, Ulu Öndər Heydər Əliyevin Qarabağın Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi baxımından strateji addımı və böyük tarixi xidməti idi. Ulu Öndər Şuşanın inkişafına da xüsusi əhəmiyyət verir və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirirdi.

Sonra prezidentlər Saatlı məscidində oldular. Məlumat verildi ki, məscid 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında inşa olunub. XIX əsrin memarlıq abidəsi olan Saatlı məscidinin inşa edildiyi yerdə əvvəllər Molla Pənah Vaqifin dərs dediyi bir-birinə bitişik mədrəsə və məscid binaları olub. Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi, Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb və ötən ilin may ayında məscidin açılışı olub.



Dövlət başçıları daha sonra Bülbülün ev-muzeyində oldular.

Muzey barədə məlumat verən Polad Bülbüloğlu bildirdi ki, Ümummilli Lider Heydər Əliyevin göstərişi əsasında keçmiş Şuşa Şə-







hər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi 1982-ci il 31 avqust tarixli qərarı ilə Bülbülün doğulduğu və yaşadığı evin muzeyə çevrilməsi barədə qərar qəbul edib. Bina 1982-1983-cü illərdə təmir olunub, muzey ekspozisiyası qurulub və önündə inzibati bina inşa edilib. Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırıb. Şuşa işğaldan azad olunduqdan sonra isə Bülbülün ev-muzeyində də bərpa işləri aparılıb və 2021-ci il avqustun 29-da muzeyin açılışı olub.

Azərbaycan və Qazaxıstan prezidentləri Cıdır düzündə də oldular.



Ali qonağa məlumat verildi ki, Cıdır düzü Şuşanın rəmzlərindən biri, tarixən cıdır yarışlarının və Qarabağ xanlığı dövründən yerli türk əhalinin Novruz bayramını və digər el şənliklərini keçirdiyi ərazidir.

Sonra dövlət başçıları XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas tərzdə inşa edilmiş üç yaşayış binasından ibarət "Yasəmən" otelində oldular.

Bildirildi ki, Şuşa şəhərinin Köçərli küçəsində yerləşən və işğal zamanı dağıdılan həmin binalar Heydər Əliyev Fondu tərəfindən bərpa edilərək otel kimi istifadəyə verilib. Autentik üslubda bərpa edilən "Yasəmən" otelinin eksteryeri və interyeri buraya gələnləri orta əsr Şuşasına qaytarır. Otel "double", "twin" və "junior" otaqların olduğu iki korpusdan, restoran və bir neçə terrasdan ibarətdir. Qonaqlar otelin həyətində dövrünün üslubuna uyğun salınan bağçada və terrasda dincələ, şəhərin mənzərəsini seyr edə bilərlər. Terrasdan Mehmandarovların malikanə kompleksinə və ümumi şəhərə gözəl mənzərə açılır. Otelin interyeri, otaqları xüsusi dizayn edilib. Buradakı hər bir element, əşya məhz bu dizayna uyğun seçilib. Bu da qonaqlarda nostalji hisslər yaradır.

Mədəniyyət paytaxtı Şuşa ilə tanışlıq ali qonaqda dərin təəssürat doğurub.





# İlham Əliyev “Parçalanmış dünyanın bərpası” mövzusunda XI Qlobal Bakı Forumunun açılış mərasimində iştirak edib




Martın 14-də Bakıda, “Gülüstan” sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə “Parçalanmış dünyanın bərpası” mövzusunda XI Qlobal Bakı Forumu işə başlayıb.

Prezident İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Əvvəlcə xatirə fotosu çəkdirildi.

XI Qlobal Bakı Forumunu açıq elan edən **Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin** dedi:

– Zati-aliləri Prezident Əliyev.

Xanımlar və cənablar.

Mənim adım İsmail Serageldindir.

Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədriyəm və sizin hamınızı XI Qlobal Bakı Forumunda salamlayıram.

Biz “Parçalanmış dünyanın bərpası” adı altında görüşürük. Dünya həqiqətən parçalanıb, hər yerdə ciddi çağırışlar var. Əslində, biz təhlükənin hökm sürdüyü vaxtda görüşürük. Lakin bizim görüş, həmçinin vədlər dövrünə də təsadüf edir. Təhdidlər ətrafdadır, yeni dünya düzəni yarandığı bir dövrdə böyük güclər formalaşmış düzənin quruluşunu parçalayır, mövcud sülh və təhlükəsizlik qaydalarının dəyişdirilməsi prosesinə cəlb olunurlar. Yenidən ayağa qalxan Rusiya BMT Baş Assambleyasının çağırışlarına məhəl qoymayaraq Ukraynada dağıdıcı müharibəyə başlayıb. Oktyabrın 7-də HƏMAS-ın törətdiyi dəhşətli hücumdan sonra Qəzzadakı müharibəyə gəldikdə, dünya qəti şəkildə humanitar xarakterli atəşkəsi tələb edir. Lakin ondan imtina edən İsrail ABŞ tərəfindən dəstəklənir.

Münaqişələr Afrikanın bir çox hissəsini caynağına alıb. Haiti xaos doğuran zorakılıq məngənəsinə düşüb. Cinayətkarlıq, zorakılıq əksər Latın Amerikası ölkələrində bəlaya çevrilib. Dünyanın çox hissəsində müharibələr gedir. Dövlətlərdə sabit milli idarəçiliyi sual altına qoyan və hər hansı immiqrasiya növünə mənfi təsir edən etnik, dini və siyasi ayırıcı xətlər bir çox qatları təşkil edir. Bu, hazırda qaçqınların və məcburi köçkünlərin sayının hətta 100 milyonu keçdiyi halda baş verir. Nəhəng Amerikanın böyük kölgəsi göstərir ki, onun dərindən parçalanmış siyasəti ayırıcı xətlərin daim yenidən çəkilməsi ilə müşayiət olunan tektonik platformalardan ibarət bu dünyada hər hansı ardıcıl iştiraka olan inamı sarsıdır. Bununla yanaşı, gücü artan Çin formalaşan yeni dünya düzənində haqlı olaraq əsas rol oynamağa çalışır.

Dünya özünün qəbul etdiyi dayanıqlı inkişaf yolunda uğursuz olmaqla yanaşı, təhdidlər də artır. İqlim dəyişmələri, biomüxtəlifliyin pozulmasından tutmuş qiymətli su ehtiyatlarının qeyri-düzgün idarə olunmasına qədər qlobal çağırışlar bütün bəşəriyyəti əhatə edir. Dünyanı bürümüş pandemiyadan yenicə çıxdığımız dövrdə növbəti belə hadisəyə hazır olmaq üçün heç bir dərs götürmədik. Qlobal çağırışlar qlobal cavab tədbirləri tələb edir. Lakin biz, eyni zamanda, elm, texnologiya və innovasiya sahələrində inanılmaz inqilabın astanasındayıq. Süni zəka hazırda hər şeyə təsir göstərir. O, bütün sahələrdə innovasiya tempini sürətləndirir və bütün növ mürəkkəb problemlərin həllinə yardım edir. İKT inqilabı yeni biologiya sahəsində yeni inqilabla müşayiət olunur. Elmə, texnologiyaya, innovasiyaya yönələn yeniləşmə prosesi elmin perspektivlərini qavramağa, konkret olaraq xəstəliklərin müalicəsi, aclığa qarşı mübarizə, təbiətə ahəngdar




olacaq inkişafımızın yenidən müəyyən edilməsi, layiqli iş yerləri, özünüifadə üçün miqyasın yaradılması kimi məsələləri anlamağa yardım edir. Biz həmin eyni texnologiyaların təkcə dağıdıcı və məhvedici tərəflərinə diqqət yetirməli deyilik.

Zati-aliləri, xanımlar və cənablar, Qlobal Bakı Forumu məxsusi təcrübəyə və müdrikliyə malik, fərqli rəyləri söyləyən tanınmış insanları bir araya gətirən unikal azadlıq məkanıdır və orada onlar təhdidləri azaltmaq və vədləri həyata keçirmək üçün bütün həmin məsələlərlə bağlı öz fikirlərini ifadə edə bilərlər. Bütün bu və ya digər məsələləri müzakirə etmək, söhbətlərdə ümumbəşəri dəyərlərə sadiq olmaq, arqumentlərdə rasionallığı göstərmək üçün imkan yaranır və onlar öz müdrikliklərinə əsaslanaraq bilik və təcrübələrini təsdiq edirlər. Ümid edirik ki, həmin müzakirələrin nəticələri təhlillərə imkan yaradacaq və BMT-nin qarşıdan gələn sammitini və bu ilin sonunda COP29 görüşlərindəki müzakirələri zənginləşdirəcək. Cənab Prezident Əliyev həmin tədbirə ev sahibliyi edəcək.

Beləliklə, Qlobal Bakı Forumunun başlanması məqsədilə mən sözü şərəf və iftixar hissi ilə Zati-aliləri Prezident İlham Əliyevə verirəm. Zati-aliləri, buyurun.

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı




– Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz. Sizin hamınızı bu gün burada, uzun illər bundan əvvəl qlobal miqyasda aparıcı beynəlxalq konfranslardan birinə çevrilmiş ənənəvi Forumda görməkdən məmnunam. Hesab edirəm ki, Bakı Qlobal Forumu Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi aparıcı beynəlxalq forumlarla bir cərgədədir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin potensialı, iştirakçıların siyahısı baxımından biz həqiqətən də görürük ki, hər il Bakıda keçirilən müzakirələr müxtəlif mühüm beynəlxalq məsələləri daha yaxşı anlamağa imkan verir.

Dünya sürətlə dəyişir. Əfsuslar olsun ki, yeni qeyri-sabitlik və qarşıdurma ocaqları meydana çıxır. Ötən ilin martında müzakirə etdiklərimizlə bu gün müzakirə etdiklərimizi müqayisə etsək nəzərəçarpan dəyişikliklər görərik. Burada geosiyasi dəyişikliklər baş verir. Ona görə də qlobal əhəmiyyət kəsb edən məsələlərin həlli üçün bu gün dünyanın həqiqətən də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinin və iştirakçılarının təcrübəsinə, biliyinə, onların dövlət, hökumət başçıları və xarici işlər nazirləri kimi təcrübəsinə ehtiyacı var.

Zənnimcə, bu dəfə iştirakçıların sayı rekord həddədir. XI Forumda 68 ölkədən 400-dən çox qonaq iştirak edir. Beləliklə, biz coğrafiyanı da genişləndirmişik və




qonaqlarımız arasında 40-dan çox hazırkı və sabiq dövlət və hökumət başçıları var. Bu, həqiqətən də Forumun nəhəng intellektual potensialına dəlalət edir.

Dünən mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri ilə görüşdüm. Biz bir sıra məsələlər barəsində çox yaxşı və səmimi müzakirələr apardıq. Bizim Forumdan əvvəlki görüşlərimizin artıq yaxşı bir ənənəyə çevrilmək xüsusiyyəti var. Dünən mən bir daha İdarə Heyətinin üzvlərinə fəaliyyətlərinə görə minnətdarlığımı bildirdim. Çünki il boyunca Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal gündəlikdə duran ən mühüm məsələləri dünyanın müxtəlif yerlərində qərar qəbul edənlərin diqqətinə çatdırmaq üçün böyük işlər görür.

Mən bir daha şəxsən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə – xanım Vike-Freyberqaya və cənab Serageldinə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə verdikləri davamlı töhfəyə, həmsədrlər kimi mükəmməl fəaliyyətlərinə görə minnətdarlığımı bildirmək istərdim. Onlar həqiqətən də çox özəl şəxsiyyətlərdən ibarət güclü heyət yaratmağa və Mərkəzin fəaliyyətini nəticəyə yönəlmiş, bu gün qlobal miqyasda böyük hörmətə malik beynəlxalq QHT kimi qurmağa nail oldular.

Qeyd etdiyim kimi, ötən görüşümüzdən bu yana dünyada, eləcə də regionumuzda çox hadisələr baş verib. Regionumuzdakı dəyişikliklər lokal xarakterli kimi görünə bilər, əslində isə zənnimcə, onların daha geniş fəsadları var. Çünki bir il bundan əvvəl burada ötən görüşümüzdən bu yana baş verən əsas geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpasıdır. Bu, həqiqətən də çox ciddi geosiyasi dəyişiklikdir ki, fikrimcə həll olunmayan kimi görünən münaqişələrin həllinə çox müsbət təsir göstərəcək.

Uzun illər ərzində biz münaqişənin sülh yolu ilə həllini tapmaq üçün fəaliyyət göstərdik. Uzun illər ərzində, o cümlədən İkinci Qarabağ müharibəsindən əvvəl hər il burada keçirilən görüşlərimizdə biz hər zaman ədalətsizlik, işğal, beynəlxalq hüququn pozulması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl olunmaması barədə danışırdıq və bu barədə danışmağa davam edirdik, çünki bu məsələnin beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmasını istəyirdik. Biz ədalətin zəfər çalmasını istəyirdik, əfsuslar olsun ki, bu, sülh yolu ilə baş vermədi.

Keçmiş Minsk qrupunun 28 illik fəaliyyəti ərzində nəticə sıfra bərabər idi. İndi biz keçmişə nəzər salıb 28 ilin necə keçdiyini təhlil edəndə tam əmin oluruq ki, Minsk qrupunun əsas məqsədi münaqişəni həll etmək deyil, onu dondurmaq, Ermənistan işğalını əbədi etmək və işğalla barışmalı olduğumuzun qaçılmazlığı barədə bizimlə danışıqlar aparmaq olub.

Münaqişənin niyə sülh yolu ilə həll olunmamasının əsas səbəbi bu və həmçinin sözsüz ki, Ermənistan hökumətlərinin-1990-cı illərin əvvəllərindən başlayaraq bu günə kimi müxtəlif hökumətlərin qeyri-konstruktiv mövqeyi idi. Dünyanın aparıcı paytaxtlarından bizə mütəmadi olaraq göndərilən başqa bir mesaj da var idi ki, münaqişənin hərbi yolla həlli yoxdur. Dedik yaxşı, biz bununla razılaşa bilərik, bəs alternativ nədən ibarətdir. Əgər alternativ işğalla razılaşmaq, bizim beynəlxalq səviyyədə tanınan ərazilərimizin təqribən 20 faizində separatçı rejimin mövcudluğu

ilə razılaşmaqdırsa, bu, bizim razılaşa biləcəyimiz məsələ deyil.

Biz bir halda hərbi yolla həllin olmadığı ilə razılaşa bilərik ki, siz Minsk qrupu həmsədrləri, dünyanın aparıcı ölkələri, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri Ermənistan işğalçı qüvvələrini bizim torpaqlarımızdan geri çəkilməyə məcbur edəsiniz. Siz, Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qəbul edənlər bu qətnamələrə əməl olunmasını təmin etməlisiniz, əks halda münaqişə heç vaxt həll olunmayacaq.

Əfsuslar olsun ki, bizim münaqişənin sülh yolu ilə həllini tapmaq istiqamətində bütün cəhdlərimiz uğursuz oldu, səbəbini isə mən artıq izah etdim. Beləliklə, münaqişənin hərbi-siyasi yolla həlli faktiki olaraq göstərir ki, sülhə nail olmaq üçün bəzən hərbi variantdan istifadə edilməlidir. İndi baş verən də məhz budur. İndi biz Ermənistanla heç vaxt olmadığımız qədər sülhə yaxınıq. Cənubi Qafqazın müstəqillik tarixində heç vaxt sülh bu qədər yaxın olmayıb. Bu, İkinci Qarabağ müharibəsinin nəticəsidir. Bu, bizim ötən ilin sentyabrında 24 saatdan da az vaxt ərzində həyata keçirdiyimiz antiterror əməliyyatının nəticəsidir ki, Azərbaycanda separatçılığa birdəfəlik son qoyduq və suverenliyimizi, ərazi bütövlüyümüzü bərpa etdik.

Məhz buna görə son 3-4 il ərzində Azərbaycanda baş verənlərin təkcə lokal xarakter daşıyan bir məsələ olmadığını deyirəm. Bunun artıq çox müsbət təsiri var və söhbət təkcə Cənubi Qafqazdakı vəziyyətdən getmir. Hesab edirəm ki, bu, həll olunmayan kimi görünən münaqişələrin həlli üçün bir model olaraq istifadə edilə bilər. Lakin ən başlıca məsələ, əlbəttə ki, bu, beynəlxalq hüququn alilik prinsipinin tətbiq olunması ilə baş tutmalıdır. Beynəlxalq hüququn normaları bizim tərəfimizdə idi, Azərbaycan qeyri-qanuni işğala, etnik təmizləməyə və soyqırımına məruz qalmışdı. Bütün bunlar hamımıza yaxşı məlum olan tarixi faktlardır. Biz ədaləti və beynəlxalq hüququ özümüz bərpa etdik. Bizə heç kəs kömək etmədi, biz bunu özümüz etdik.

Biz güclü siyasi iradə və eyni zamanda, potensialı nümayiş etdirdik. Çünki güclü hərbi potensial və xalqın birliyi olmasa, güclü siyasi iradə uğura aparmayacaq. Beləliklə, bütün amillərin vəhdəti, bizim iqtisadi inkişafımız, bizim maliyyə imkanlarımız, müdafiə potensialımız, hərbi qulluqçularımızın təlimi, Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digərləri kimi bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqeyini tam dəstəklədikdə aktiv və proaktiv xarici siyasətin yürüdülməsi buna imkan verdi.

Münaqişənin hərbi yolla həllindən qaçmaq mümkün idimi? Bəli. Dünən biz İdarə Heyətinin üzvləri ilə bu məsələni geniş müzakirə etdik və mən azacıq olaraq pərdəarxası məqamları onlarla bölüşdüm. 2018-ci ildə Ermənistan hökumətində dəyişiklik baş verəndə razılığa gəlmək imkanı var idi. Ermənistanın yeni hökuməti bizi əmin etdi ki, onlar beynəlxalq hüquqa uyğun davranacaq və əraziləri geri qaytaracaqlar. Bizim belə gözləntilərimiz var idi və əgər o vaxt Ermənistanın yeni hökuməti indiki kimi davransaydı, onda suverenliyimizin güc yolu ilə bərpa edilməsinə ehtiyac qalmazdı.

Lakin, əfsuslar olsun ki, 2019-cu ildə Ermənistanın yeni rəhbərliyi "Azərbaycan separatçılarla danışıqlar aparmalıdır, sülh müqaviləsinin əsasını təşkil edən bu vaxta kimi olan bütün məsələlər sıfırlanmalıdır və hər şey yenidən başlanmalıdır, Ermənistan işğal olunmuş ərazilərin bir santimetrini belə qaytarmayacaq" kimi tamamilə qəbuledilməz təkliflər irəli sürdü. Bundan əlavə, Ermənistanın baş nazirinin məşhur "Qarabağ Ermənistandır" şüarı səsləndi. Birincisi, bu, beynəlxalq hüquqa tamamilə zidd idi və ikincisi, bizim torpaqları əbədi saxlayacağını hesab edən ölkə üçün həddindən artıq iddialı bir addım idi.

Beləliklə, biz 2020-ci ilin sentyabr-noyabr aylarında onlara dərs vermək məcburiyyətində olduq və düşündük ki, bu dərs onlara kifayət edəcək və onlar başa düşəcəklər ki, xarici qüvvələrə güvənərək başqa ölkənin torpaqlarını işğal altında saxlamağın vaxtı artıq bitib.

Son 3-4 ildə sülhə nail olmaq imkanı var idimi? Bəli, var idi. Bunun üçün Ermənistan sülh müqaviləsinin tərəfimizdən hazırlanmış layihəsinə konstruktiv yanaşmalı və bu sülh müqaviləsinə dırnaqarası dağlıq qarabağ respublikasının statusunun daxil edilməsi üzərində israr etməməli idi. Birincisi, belə bir respublika mövcud deyil. O, ancaq onların xülyalarında və mifologiyasında mövcuddur. İkincisi də bizim mövqeyimiz yenə də beynəlxalq hüquqa tamamilə uyğun idi. Dövlətlərarası sazişlərdə daxili siyasət məsələləri yer almamalıdır.

2020-ci il noyabrın 10-da Ermənistanın imzalamaq məcburiyyətində olduğu kapitulyasiya aktına əsasən onlar o zaman bizim nəzarətimizdə olmayan Qarabağın qalan ərazilərindən işğalçı qüvvələrini çıxarmaq öhdəliyini üzərinə götürdülər. Lakin 3 il ərzində onlar bunu etmədilər. Onlar nəinki on beş minlik hərbi kontingentini ərazidən çıxarmadı, onlar İkinci Qarabağ müharibəsindən sonra kommunikasiya yolları üzərində nəzarətimizin olmadığından faydalanaraq silah, mina və sursatları qaçaqmalçılıq yolu ilə Qarabağa göndərdilər. Kommunikasiya yolları üzərində nəzarət bizə keçdikdən sonra qaçaqmalçılıq dayandı. Buna baxmayaraq, sonuncu antiterror əməliyyatı zamanı bizim ağır texnika və zirehli maşınlar da daxil olmaqla məhv edilmiş və qənimət olaraq götürülmüş hərbi

sursatların dəyəri bir milyard dollara yaxın olmuşdur. İkinci Qarabağ müharibəsi zamanı hərbi qənimətlər və məhv edilmiş texnikanın, sursatın dəyəri 5 milyard dollara yaxın idi. Sual olunur ki, Ermənistan bütün bu pulu haradan əldə edib? Əlbəttə, aydındır ki, bizə qarşı istifadə etdikləri bütün silahlar onlara təmənnasız verilmişdir.

İndi isə Qarabağ məsələsi öz həllini tapdıqdan sonra biz sülhə çox yaxınıq. Biz belə hesab edirik. Azərbaycan sülh prosesini davam etdirməyə hazırdır. Hər iki ölkənin xarici işlər nazirləri səviyyəsində görüşlər bərpa olunub və indi biz düşünürük ki, sülhə nail olmaq mümkündür. Biz bunu istəyirik. Biz tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdik və indi regionda düşmənçiliyə son qoymaq vaxtı yetişib.

Diqqətinizə çatdırmaq istədiyim bir məsələ bizim antiterror əməliyyatı ilə bağlı beynəlxalq reaksiyadır. Əksər hallarda bu reaksiya tamamilə adekvat olmuşdur. Beynəlxalq birlik, müxtəlif ölkə və beynəlxalq təşkilatlar öz açıqlamalarında, habelə bizimlə pərdəarxası təmaslarda qeyd edirlər ki, onlar bizim bunu etmək məcburiyyətində qaldığımızı anlayırlar. Anlayış var ki, antiterror əməliyyatından öncə Ermənistan iki qırmızı xəttimizi keçib və ümumilikdə beynəlxalq birliyin buna reaksiyası tamamilə müsbət olmuşdur.

Bəzi təfərrüatlar, sentyabrın əvvəlində nələrin baş verdiyi və antiterror əməliyyatının niyə sentyabrda həyata keçirilməsi haqqında sizə məlumat vermək istəyirəm. Çünki sentyabrın əvvəlində Ermənistanın baş naziri separatçı rejimə dırnaqarası müstəqillik günü münasibətilə təbrik məktubu göndərdi. Bunu gözləmirdik və bu, bizim üçün mənfi bir sürpriz oldu. Çünki Ermənistanın həmin baş naziri 2022-ci ildə Praqadakı görüşdə ictimai şəkildə Azərbaycanın ərazi bütövlüyünü tanımışdı və bir neçə dəfə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının olmadığını vurğulamışdı.

Yaxşı, o zaman bu təbrik nəyə lazım idi? Bu təbrik separatçılara ünvanlanmışdı və bu, Azərbaycanın suverenliyinin pozulması idi, tamamilə ziddiyyətli və qəbuledilməz hərəkət idi. Daha sonra sentyabrın 9-da dediyim kimi, yalnız müəyyən insanların xülyalarında mövcud olan dırnaqarası dağlıq qarabağ respublikası dırnaqarası prezident seçkiləri təşkil etdi və bu, növbəti qırmızı xətt idi.

Beləliklə, bu, bizim son həddimiz idi və antiterror əməliyyatının həyata keçirilməsinə səbəb oldu. Bu əməliyyat bir neçə saat davam etdi və 23 saatdan sonra separatçılar təslim oldular. Mülki əhali arasında itki olmadı və separatçılar təslim olan kimi biz əməliyyatı dayandırdıq və bu, həmin tarixçənin sonudur.

Burada beynəlxalq reaksiya haqqında danışarkən mən bir ölkənin mövqeyini təəssüflə qeyd etməliyəm. Bu mövqe beynəlxalq ictimaiyyətin yanaşması ilə ziddiyyət təşkil edir. Bu ölkə Fransadır. Mən buna olduqca təəssüf edirəm, çünki 1990-cı illərin əvvəlindən Azərbaycan və Fransa arasında münasibətlər müsbət istiqamətdə inkişaf edib. Çoxsaylı yüksək səviyyəli səfərlər baş tutub, biznes sahəsində fəal təmaslar olub, iki ölkənin 13 şəhəri digəri ilə qardaşlaşma münasibətlərinə malik olub.

Lakin Fransa hökumətinin İkinci Qarabağ müharibəsinə və antiterror əməliyyatına münasibəti tamamilə qeyri-adekvat oldu. Onlar tərəfindən bu məsələlərin BMT Təhlükəsizlik Şurasına çıxarılmasına və Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsinə beş dəfə cəhd edilib – yəni, etmədiyimiz bir əmələ görə. Biz beynəlxalq hüquqa zidd olan addım atmamışıq. Beş cəhdin hər biri uğursuz oldu, çünki Təhlükəsizlik Şurasının digər üzvləri bunu dəstəkləmədi. Daha sonra Avropa İttifaqı çərçivəsində Azərbaycana qarşı sanksiyaların tətbiqinə bir neçə cəhd edildi. Həmin cəhdlər də uğursuz oldu. Avropa İttifaqı ölkələrinin əksəriyyəti bunu dəstəkləmədi.

Təəssüflər olsun ki, bundan sonra baş verənləri normal dərk etmək mümkün deyil. Fransada, Azərbaycanın şəhərlərinin biri ilə qardaşlaşmış Evian şəhərində vandalizm aktı baş verdi. Azərbaycan şairi Natəvanın heykəli vandalizmə məruz qaldı. Sizə həmin heykəli, üzərindəki qırmızı boyanı və heykəlin qırılmış burnunu təsvir edən şəkilləri nümayiş etdirmək istəyirəm. Bu hadisə Fransada baş verdi və buna səbəb BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqında Azərbaycanı cəzalandırmaq cəhdlərinin uğursuz olması idi.

Bu hadisədən sonra hakimiyyət orqanları boyanı yumaq və heykəli bərpa etmək əvəzinə onu, sadəcə,









bükdülər və heykəl belə bükülmüş vəziyyətdə bir və ya iki ay qaldı. Vandalizmi dayandırmaqla bağlı bu ölkədəki səfirliyimiz və digər kanallarla Fransa hakimiyyət orqanlarına, Evian şəhərinin meriyasına müraciətlər edildi. Çünki heykəlin belə bükülmüş vəziyyətdə saxlanılması və hətta bu boyanın yuyulmasına cəhdin belə edilməməsinin özü vandalizm aktıdır. Nə Fransa hökuməti, nə də Evian meriyasının rəsmiləri tərəfindən buna heç bir reaksiya verilmədi.

Belə olan halda biz israr etdik ki, bu heykəl oradan təxliyə edilsin. Çünki bunu özümüzə təhqir hesab etdik. Bu, bizi alçaltmaq demək idi. Bir çox hallarda özünü mənəvi lider kimi qələmə verən Fransa kimi bir ölkədə belə hallar qəbuledilməzdir. Heykəlin Evian şəhərindən Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzinin qarşısında olan bağçaya təxliyə edilməsi üçün bizə bir neçə ay lazım oldu və hazırda Natəvanın abidəsi oradadır.

Bu, suverenliyimizi bərpa etdikdən sonra üzləşdiklərimizin bir nümunəsidir. Bu, ikili standartların göstəricisidir. Ukraynaya ərazi bütövlüyünü bərpa etməyə kömək üçün qoşun göndərəcəyini bəyan edən Fransa, öz ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanı cəzalandırmağa çalışır.

Sizinlə dünən ətraflı şəkildə müzakirə etdiyimiz daha bir mövzunu diqqətinizə çatdırmaq istərdim. Bu da COP29-dur. Biz əminik ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi hazırlıq işləri və tədbirin keçirilməsi zamanı Azərbaycanın fəal tərəfdaşı olacaqdır. COP29-un Azərbaycanda keçirilməsi Azərbaycanın yaşıl keçidlə bağlı səylərinin qəbul edilməsidir. Dəfələrlə ictimai bəyanatlarda da dediyim kimi, neft və qaz sərvətlərinə sahib olmağımız bizim günahımız deyil və biz buna görə tənqid edilməməliyik. Hesab edirəm ki, bizi tənqid etməyə cəhd göstərənlər və bu qlobal tədbirə ev sahibliyi etmək şərəfinə bizi layiq görənlər anlamalıdırlar ki, bizim niyyətimiz iqlim məsələlərinə töhfə verməkdir. Artıq yaşıl keçidlə bağlı bütün gördüyümüz işlərin praktiki nəticələri var.

Ötən ilin oktyabrında biz Qafqazın və Mərkəzi Asiya regionunun 230 meqavat gücündə ən böyük günəş elektrik stansiyasının açılışını etdik. Daha iki stansiya ilə bağlı hazırlıq və tikinti işləri gedir. Biz 2030-cu ilədək 5000 meqavat bərpaolunan enerji istehsalı potensialına malik olmağı planlaşdırırıq. Bu, tamamilə real hədəfdir, çünki bunun üçün çoxsaylı müqavilələr və anlaşma memorandumları imzalanıb.

Hazırda biz Xəzər dənizindən Qara dənizə və Avropaya qədər uzanacaq yaşıl enerji elektrik kabelinin inşası ilə fəal şəkildə məşğuluq və həmin layihənin texniki əsaslandırılması demək olar ki, hazırdır.

Beləliklə, birincisi, COP29 bizə onu nümayiş etdirməyə imkan verəcəkdir ki, müstəqil yaşayan və heç kəsdən asılı olmayan bir ölkə uğurla inkişaf edə bilər. Bu, həm də Azərbaycanın son 30 ildə apardığı düzgün siyasəti nümayiş etdirir. Praktiki nöqteyi-nəzərdən isə bu, bizim üçün həmrəyliyə töhfə vermək fürsəti olacaq. Çünki bizim dördillik sədrliyimiz nəticəsində 120 üzvlə BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatında xüsusi ab-hava yarandı. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan strateji tərəfdaşlığa dair bəyannamə imzalayıb. Biz 50-dən çox ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının üzvüyük. Yəni, biz müxtəlif ölkələri bir araya gətirmək imkanına malikik və bu gün iqlim məsələlərinin həll edilməsi üçün məhz buna ehtiyac var.

Bilirəm ki, gərgin proqramınız var və bundan artıq vaxtınızı almaq istəmirəm. Çıxışımın sonunda bir daha bizimlə birlikdə burada olan bütün iştirakçılara,

xüsusilə də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkürümü bildirir və Foruma uğurlar arzu edirəm.

***

**Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa** çıxış edərək dedi:

– Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev.

Zati-aliləri, ölkə prezidentləri və sabiq prezidentlər.

Sabiq və fəaliyyətdə olan hökumət başçıları.

Xanımlar və cənablar, hörmətli qonaqlar, Nizami Gəncəvi Mərkəzinin dostları.

Çıxışımın əvvəlində son 11 il ərzində bu Bakı forumlarında geniş dünya auditoriyasına göstərdiyi səmimi qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkürümü ifadə etmək istəyirəm. Biz bu toplantılarda tam əməkdaşlıq etmişik və bu tədbirlərimizdə sayı artmaqda olan qonaqları qəbul etməyə hazırıq. Onların hamısı xoş gəlib, hamının öz fikirlərini, əziyyət çəkdiyi ağrıları və dözdüyü haqsızlıqları bölüşmək imkanı olacaq. Biz bizi narahat edən ümumi bir məsələni birlikdə müzakirə edəcəyik. Bir çox şəkildə həqiqətən parçalanmış və bölünmüş dünyanı və bu çatları ən azından azalda və ya aradan qaldıra biləcək yolları, insan fəaliyyətini müzakirə edəcəyik. Ötən il burada, Bakıda keçirilmiş sonuncu forumdan bəri xəbər kanallarını və ictimai medianı izləyəndə çox pis xəbərlərin şahidi olmuşuq. Lakin haqqında yaxşı xəbərlər olan yerlər də var və onlardan biri də Prezident Əliyevin elə indi bizə haqqında bəhs etdiyi məsələdir. Azərbaycan dünyada nadir ölkələrdəndir ki, uzun müddət davam edən, 28 il ərzində dondurulmuş münaqişəyə nəhayət ki, son qoyulub. Söhbət qonşu ölkə tərəfindən beynəlxalq hüquqa zidd olaraq əraziləri qeyri-qanuni işğal edilmiş ölkənin öz ərazilərini qaytarması, öz ərazi bütövlüyünü və ona məxsus olan torpaqlar üzərində suverenliyini bərpa etməsindən gedir. Eyni zamanda, dünyada hələ də davam etməkdə olan əlli aktiv münaqişə ocağı var. Ukrayna qeyri-qanuni işğaldan və ərazilərinin anneksasiyasından əziyyət çəkir. Bu da İkinci Dünya müharibəsinin əvvəlində Stalinin Baltikyanı ölkələrə hücum etmək və anneksasiya etmək üçün istifadə etdiyi ssenarini xatırladır. Latviya, Litva və Estoniya ilk dəfə Sovet İttifaqının ordusu tərəfindən işğal olunduqda guya bu ölkələrin xalqları ölkələrinin Sovet İttifaqının tərkibinə daxil edilməsini xahiş etmişdir və bu şəkildə anneksasiya həyata keçirilmişdir. Ukraynada onun əraziləri ilə əlaqədar olaraq baş verən hadisələr isə eyni ssenarini və anneksasiyanın arxasında duran izahatları təkrarlayır və sanki bir komediyaya bənzəyir. Bu faciə və bu qədər insan tələfatı olmasaydı, insanlar əziyyət çəkməsəydi, bu, komik olardı. Prezidentin dediyi isə odur ki, yaşadığımız parçalanmış dünyanı yaxşılaşdırmaq olar. Biz ən azından bizi ayıran o çatların dərəcəsini azalda bilərik. Əvvəlcə biz fərqli nəzər nöqtələrinin, münasibətlərin və maraqların olduğunu qəbul etməliyik. Lakin bir araya gələrək çıxış yolunu tapmaq mümkündür və bunun da tələbləri var. Ən azından xoş məram, xoş niyyət olmalıdır. Məhz bu xoş məramın və xoş niyyətin olmaması bizim dünya miqyasında müşahidə etdiyimiz faciəvi fəsadlara gətirib çıxarır. Dünyada müəyyən prinsiplər qəbul olunub və beynəlxalq miqyasda birgəyaşayışın münaqişə olmadan və zor tətbiq etmədən mümkünlüyü ilə bağlı prinsipləri irəli sürməyə çalışan əhalinin xoşməramlı səylərindən sonra Birləşmiş Millətlər Təşkilatının təsis edilməsindən bəri, nizamnaməsinə uyğun olaraq və insan hüquqlarının deklarasiyalarından sonra bu prinsiplərin nədən ibarət olduğunu, qəddar və vəhşi dünyada yox, bəşəri və sivil dünyada yaşaya bilməmiz üçün nələrə əməl etmək lazımdır kimi məsələləri formulizə etməyə çalışmışdır.

Yeri gəlmişkən, bəşəriyyətin vəhşi təbiət və yırtıcı heyvan kimi olmasını söyləmək heyvanlar aləminə münasibətdə təhqiramiz bir ifadədir. Çünki bir çox ölkələr özlərini elə aparırlar ki, onların davranışı bəzi heyvanların təbii sağqalma instinktinin pozulması və qida zəncirinin bir hissəsi olması nəticəsində əldə etdikləri xüsusiyyətlərə bənzəyir. Latviyadan bir misal çəkə bilərəm. Sovet İttifaqı dönəmində Latviyada fermalarda norka yetişdirirdilər. Buna səbəb xəz dərisi istehsalının xarici valyutada yaxşı gəlir mənbəyinin olması idi. Bu norkalardan bəziləri fermalardan qaçmış, vəhşiləşmiş və minilliklər boyunca mövcud olmuş üzən adaları olan göldə məskunlaşmışdır. Yazda köçəri quşlar bu gölə gələrək burada yuva qurardı. Həmin qaçmış norkalar quşların yuva qurduğu bu adaya gələrək bütün quşları öldürmüş və onların cəsədlərini orada buraxmışdı. Onlar quşları yeməmişdi. Bu, təbiətə qarşıdır, bu, qida zəncirində yırtıcı cinslərə şamil olunan sağqalma instinktinə qarşıdır. Düşünürəm ki, eynilə bu şəkildə hərəkət edən ölkələr var. Digər insanları öldürmək istəyi insanın təbiətinə xas olan bir şeydir və bu, öz iradəsini digərlərinə güclə qəbul etdirmək istəyən qüvvələr tərəfindən istifadə və sui-istifadə olunur. Güc, xüsusilə müdafiə üçün istifadə edildikdə legitim güc ola bilər, lakin ondan tamamilə sui-istifadə də edilir və biz bunu dünyanın bir çox yerlərində görürük.

Beynəlxalq qurumlar tərəfindən ifadə və formulizə edilmiş prinsiplər qüvvədə qalır. Apardığımız bütün müzakirələrimizdə unutmamalıyıq ki, biz nəyisə yenidən ixtira etməməliyik. Biz dünyaya nə lazım olduğunu dəqiq bilirik. Dünyada qeyd-şərtsiz olaraq bütün insanlara, kişi və qadınlara, müxtəlif irqi mənşəyi olan insanlara hörmət lazımdır. Bizə insanların inancları və nəyəsə mənsubluğu olmadan hörmət

lazımdır. Fərdlərin vətəndaş azadlıqları haqqında danışdıqda, bu məsələ heç bir əhəmiyyət kəsb etmir. Bizim dünyamız elə bir dünya olmalıdır ki, orada ölkələr kateqoriyalara bölünməməlidir. Bu Corc Oruelin təsvir etdiyi heyvan fermasına bənzəyir. Bu fermada bütün heyvanlar bərabər hüquqlara malikdir, lakin bəziləri digərləri ilə müqayisədə daha çox hüquqlara malikdir. Böyük ölkələrin avtomatik şəkildə qonşu ölkələrin bahasına istədiklərini etmək imtiyazı yoxdur. Orta məktəb proqramında hətta adlarını görmədiyimiz, heç vaxt eşitmədiyinizə baxmayaraq, kiçik ölkələrin də hüquqları var. Onlar mövcuddur. Biz bunu bilirik. BMT-nin Baş Assambleyasına nəzər saldıqda çoxlu sayda belə ölkələrin olduğunu görürük və əksəriyyətimiz heç onların adlarını da çəkə bilmir. Lakin onların hamısının, hər bir ölkənin kiçik, böyük və ya orta olmasından asılı olmayaraq yaşamaq hüququ var. Onların ölçüsü xalqların özlərini idarə etmək hüququ baxımından əhəmiyyətli olmamalıdır.

Xanımlar və cənablar, siz buraya böyük həyat təcrübəniz ilə dünyanın bir çox yerindən təşrif buyurmusunuz. İstərdim ki, siz debatlarda səmimi və açıq iştirak edəsiniz. Əlbəttə ki, başqalarını təhqir etmədən. Çünki biz burada nəzakətli bir cəmiyyəti təmsil edirik. Görünmək, eşidilmək və başa düşülmək arzusu insanın təbiətinə xas olan bir şeydir. Bu, insan təbiətinin müsbət tərəflərindən biridir. Lakin görünmək, eşidilmək və başa düşülmək istəyiriksə, biz bunu başqalarına diqqət yetirməklə də etməliyik. Başqasını görməklə, eşitməklə və başa düşməklə etməliyik.

Növbəti günlərdə hamınıza məhsuldar debatlar arzulayıram və ümid edirəm ki, irəli sürdüyünüz fikirlər reallıqda və tətbiq edildiyi zaman bəhrə verəcək. Çünki dünyada baş verənlər əsasən insan fəaliyyətinin nəticəsidir. Parçalanmalar insan fəaliyyəti nəticəsində olur, onları da insan fəaliyyəti ilə aradan qaldırmaq və düzəltmək olar. Ümid edirəm ki, Forumumuz uğurlu və çox maraqlı olacaq.

***

Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

***

Daha sonra Forumda **Albaniya Respublikasının Prezidenti Bayram Beqay** çıxış edərək dedi:

– Hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

Qlobal Bakı Forumu çərçivəsində məni qəbul etdiyinizə görə minnətdaram. Mən Prezidentə, bütün iştirakçılara, beyin mərkəzlərinə, o cümlədən müxtəlif xalqların və beynəlxalq təşkilatların təmsilçilərinə təşəkkürümü bildirirəm.

***

Forumun işinə uğurlar arzulayan **Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb üzvü Jelka Tsviyanoviç** Azərbaycanla əlaqələri yüksək qiymətləndirdiyini vurğuladı. Qlobal Bakı Forumunun bir çox məsələlərin həlli üçün vacib platforma olduğunu qeyd edən Jelka Tsviyanoviç dedi:

– Bosniya və Herseqovina Rəyasət Heyətinin serb üzvü kimi qeyd etmək istəyirəm ki, mən Azərbaycanla münasibətləri çox yüksək dəyərləndirirəm. Bu, dost münasibətləridir. Biz hesab edirik bütün bu xoş abhava, təbii ki, məxsusi xarakter daşıyır. Hesab edirəm ki, bu cür Forum əslində bütün məsələlərin müzakirəsi üçün müvafiq məkandır, multilateralizm böhranının aradan qaldırılmasına xidmət edə bilər və biz onların aradan qaldırılmasına müvəffəq ola bilərik. Ən vacibi ondan ibarətdir ki, belə tədbirlər bizim aramızda körpü sala, ünsiyyət yarada, müxtəlif ölkələr və beynəlxalq iştirakçılar arasında tərəfdaşlığı təşviq edə bilər.

***

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus** uzun illər ÜST-ə və onun məramına dəstək vermiş Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə və Azərbaycana təşəkkürünü ifadə edərək bildirdi:

– Çıxışıma Prezident İlham Əliyevin göstərdiyi səyləri alqışlamaqla başlamaq istəyirəm. Mən 3300-dən artıq tibbi xidməti əhatə edən icbari tibbi sığorta vasitəsilə universal səhiyyə paketinə doğru Azərbaycanın əldə etdiyi irəliləyişdən məmnunam. Həmçinin Azərbaycan Hökumətinə və xalqına təşəkkürümü bildirirəm ki, bu ilin sonunda COP29-a ev sahibliyi məsələsində siz öz rəhbərlik keyfiyyətlərinizi göstərdiniz.

Ümumdünya Səhiyyə Təşkilatı COP28-in tam bir gününü ilk dəfə səhiyyəyə həsr etmiş Birləşmiş Ərəb Əmirliklərinin ənənələrinə uyğun olaraq COP29-un gündəliyində səhiyyənin mühüm yerdə qalmasını təmin etmək üçün Azərbaycanın sədrliyi ilə işləməyi səmimiyyətlə arzulayıram.

***

**BMT Baş katibinin siyasət üzrə müavini Qay Rayder** COP29-un uğurla təşkil olunması istiqamətində Azərbaycanda görülən işləri yüksək dəyərləndirdiyini qeyd edərək dedi:

– Azərbaycanda keçiriləcək COP29 da qlobal miqyaslı, qeyri-adi əhəmiyyətə malik BMT tədbiridir. Biz BMT olaraq bu kimi tədbiri və ölkənizin bu sahədəki sədrliyini tam dəstəkləyirik.

***

**BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu/Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru Vinni Byanyima** Azərbaycanın Qoşulmama Hərəkatına

sədrliyi dövründə Hərəkatın beynəlxalq arenada nüfuzunun artmasında ölkəmizin rolunu xüsusi vurğulayaraq bildirdi:

– Mən bu fürsətdən istifadə edərək Zati-aliləri Prezident Əliyevə Qoşulmama Hərəkatına canlandırma gətirdiyinə görə təşəkkürümü bildirirəm. Mən Prezidentin bununla bağlı planlarını və islahatlarını alqışlayıram. O, Qoşulmama Hərəkatında bunu etdi. BMT-nin QİÇS-ə qarşı olan təşkilatı əslində sədrliyin göstərdiyi səyləri yüksək dəyərləndirdi ki, qadınlar da Qoşulmama Hərəkatında xüsusi yer tutsunlar. Bizim təşkilatımız Azərbaycan Hökumətinin ev sahibliyi etdiyi "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfransa dəstək verdi. Həmin konfransda Bakı Bəyannaməsi qəbul edildi. Bu sənəddə qadınların dayanıqlı inkişafdakı xüsusi rolu qeyd olundu və o, Qoşulmama Hərəkatının bürosu tərəfindən qəbul edildi.

***

**Forumun əhəmiyyətinə toxunan BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos** təmsil etdiyi qurumun Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə edərək dedi:

– Biz Azərbaycan ilə BMT-nin Sivilizasiyalar Alyansı arasındakı əməkdaşlıqdan qürur hissi duyuruq. Mən, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə təşəkkür edirəm ki, onlar XI Qlobal Bakı Forumunda iştirak etmək fürsətini yaratdılar. Qlobal Bakı Forumu ən tanınmış qlobal platformalardan birinə çevrilib və burada ən yaxşı beyin mərkəzləri bir araya gətirilir.

***

Tədbirdə çıxış edən **Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım** dedi:

– Mən bu Forumda böyük şərəf və iftixar hissi ilə iştirak edirəm və Türkiyə Respublikasının Prezidenti adından çıxış edirəm. İlk növbədə, mən hər il uğurla keçirilən Qlobal Bakı Forumunun təşkilatçılarını, Azərbaycanın rəhbərliyini bu il növbəti çox uğurlu tədbiri keçirdiyinə görə təbrik etmək istərdim. Biz görürük ki, Qlobal Bakı Forumu artıq ənənəyə çevrilib.



Martın əvvəlində Antalyada üçüncü Diplomatiya Forumunun təşkil edildiyini xatırladan B.Yıldırım həmin tədbirdən sonra qardaş Azərbaycanda keçirilən Qlobal Bakı Forumunun "Parçalanmış dünyanın bərpası" mövzusunun böyük fundamental məsələ olduğunu söyləyib. Deyib ki, bu, bütün beynəlxalq ictimaiyyət üçün belədir. Biz bu gün həmin reallıqda yaşayırıq. Biz belə çağırışlara, yəni, parçalanmış dünyada olan bütün maneələrə qarşı birgə mübarizə aparmalıyıq. Biz ətrafımıza baxdıqda görürük ki, regional münaqişələr davam edir və bu münaqişələr mənfi fəsadlarla nəticələnir.

Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri daha sonra deyib: "Biz Cənubi Qafqaza nəzər salsaq, cənab Prezidentin dəqiqliklə izah etdiyi kimi, son otuz il ərzində regionda nə baş verib? Nəhayət, bütün Qarabağ bölgəsi işğaldan azad olundu. İndi isə biz artıq sülhə, regionda firavanlığa yaxınıq. Tarix baxımından belə bir mühüm dövrdə görürük ki, dünya müxtəlif məqamlardan, dövrlərdən, mərhələdən keçir. Buna görə Qlobal Bakı Forumu bizə elə bir fürsət yaradır ki, bir-birimizi ilhamlandıran müzakirələr aparaq, fikirləri mübadilə edək və qlobal parçalanmanın həll variantları üzərində düşünək".

İqlim dəyişikliyi ilə bağlı çağırışlara toxunan Binəli Yıldırımın sözlərinə görə, müasir dövrdə bu elə bir məsələdir ki, müəyyən ölkələr üçün çox böyük narahatlıq doğurur və bizdən bütün dünyada mübarizə aparmağımızı tələb edir. Biz bu məsələni noyabrda Azərbaycanda keçiriləcək COP29 konfransında geniş şəkildə müzakirə edəcəyik.

Regional məsələlərin həllində qarşılıqlı əməkdaşlığın önəminə toxunan Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri vurğulayıb ki, hazırda Türkiyə qardaş, dost ölkələrlə əlaqələri genişləndirmək sayəsində bölgədəki problemlərin aradan qaldırılmasına çalışır. "Hesab edirik, prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev tərəfindən 2020-ci ilin dekabrında irəli sürülən "3+3" formatı ilə bağlı təşəbbüs çox vacib bir platformadır ki, regional anlaşma daha




çox olsun, bu və ya digər ölkələr arasında münasibətlər normallaşsın, Cənubi Qafqazda sülh və sabitlik bərqərar edilsin", – deyən B.Yıldırım bu il Türkiyənin həmin təşəbbüslə bağlı üçüncü görüşə ev sahibliyi edəcəyini diqqətə çatdırıb. Qeyd edib ki, eyni zamanda, regional təşkilatların, o cümlədən Türk Dövlətləri Təşkilatının (TDT) da imkanları gücləndirilməlidir. TDT bu sahədə aparıcı təşkilatlardan biridir ki, mədəni və tarixi birlik, həmrəylik ruhu onun mahiyyətini təşkil edir, fəaliyyəti sülhə və sabitliyə yönəlib. Bu mənada, Türk dünyasının ümumi inkişafı üçün biz qlobal sülhü və ədaləti təşviq edirik. Bu baxımdan TDT-nin Ağsaqqallar Şurasının sədri kimi bəyan edirəm: "Hesab edirik ki, rifaha və sabitliyə töhfə nəinki bizim coğrafiyamızda, onun hüdudlarından kənarda da olmalıdır. Təbii ki, biz təşkilatımız daxilində təmaslarımızı artırırıq, əməkdaşlığımızı genişləndiririk. Bu kontekstdə mən sizin diqqətinizi bir fakta yönəltmək istərdim. İyulda təşkilatımızın qeyri-rəsmi sammiti Azərbaycanın Şuşa şəhərində keçiriləcək. Şuşa, həmçinin Türk dünyası üçün mühüm məkandır. Mədəni sahədə əməkdaşlıq təşkilatımız daxilində sülhün və sabitliyin təşviq olunmasına yönələcək".

***

COP29 kimi mötəbər tədbirin Bakıda keçirilməsinin böyük əhəmiyyətə malik olduğunu qeyd edən və bu tədbirin iqlim dəyişiklikləri ilə bağlı müzakirələrə yeni nəfəs gətirəcəyini diqqətə çatdıran **Birləşmiş Krallığın Azərbaycandakı səfiri Ferqus Auld** Böyük Britaniyanın Baş naziri Rişi Sunakın Forum iştirakçılarına məktubunu oxudu.

***

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq platformaya çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır.

Bu dəfə "Parçalanmış dünyanın bərpası" ("Fixing The Fractured World") mövzusuna həsr olunan XI Qlobal Bakı Forumuna bir çox ölkələrin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri qatılıblar. Forumda 70-dən artıq ölkədən 350-dən çox qonaq iştirak etmişdir.

Martın 16-dək davam etmiş Forumda COP28-in nəticələri və COP29-a hazırlıq məqsədilə qlobal müzakirələr aparılmış, yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, parçalanmış dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salınmış, qarşıda duran çağırışların həlli yolları müzakirə olunmuş, dünyanı sarsıdan münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi problemlərinə toxunulmuşdur. Eyni zamanda, qlobal idarəetmədə hərbi və iqtisadi ittifaqların rolu, regional perspektivlər, Avropa İttifaqı və onun qonşuları ilə münasibətləri, gənclər siyasəti, qlobal çağırışlara qarşı davamlılığı artırmağın yolları, qeyri-bərabərlik, təbii ehtiyatların azlığı və miqrasiya məsələlərinə toxunulmuş, süni intellekt, dronlar və kibersilahlar dövründə yeni təhlükəsizlik nümunələri barədə müzakirələr aparılmışdır.

# NATO-nun Baş katibi Yens Stoltenberq ölkəmizə səfər edib







Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin NATO-nun Baş katibi Yens Stoltenberq ilə təkbətək görüşü olub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və NATO-nun Baş katibi Yens Stoltenberq mətbuata bəyanatla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Baş katib.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Hörmətli cənab Baş katib, xoş gəlmisiniz, Sizi Azərbaycanda görməyimə çox şadam. Mənim dəvətimi qəbul edib səfərə gəldiyinizə görə təşəkkür edirəm. İki il əvvəl Brüsseldəki son görüşümüzü xoş təəssüratlarla xatırlayıram. Bu gün isə biz dialoqumuzu davam etdiririk.

Azərbaycan-NATO tərəfdaşlığının 30 ildən artıq davam edən uzun tarixi var. Tərəfdaşlığımız müsbət olmuşdur. Azərbaycan Kosovoda və Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edib. Bu, bizim üçün böyük təcrübə olub. 2021-ci il avqustun axırında Əfqanıstanı tərk edən sonuncu müttəfiq qüvvələr bizim hərbi qulluqçularımız olmuşlar. Bu isə bir daha bizim əməkdaşlığımıza güclü sadiqliyimizi nümayiş etdirir.



Silahlı Qüvvələrimizdə aparılan islahatlar yaxşı nəticələr vermişdir. Biz müdafiə imkanlarımızı müasirləşdiririk və bu gün yüksək səviyyəli peşəkarlıq nümayiş etdiririk.

Uzun illər davam edən müzakirələrimiz zamanı biz həmişə Azərbaycan torpaqlarının Ermənistan

tərəfindən işğalı haqqında danışırdıq. İndi, artıq üç ildən çoxdur ki, bu məsələ müzakirə mövzuları sırasında yer almır. Çünki Azərbaycan 2020-ci ildə İkinci Qarabağ müharibəsi və ötən ilin sentyabrında həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Beləliklə, ölkənin ərazisi üzərində tam suverenlik bərpa edilib və bu, uzunsürən münaqişələrin necə həll edilə biləcəyinin bariz nümunəsidir. Münaqişə hərbi-siyasi yolla həll edilib. Biz BMT Nizamnaməsinə əsasən özünümüdafiə hüququmuzdan istifadə etdik.

Hazırda isə biz Ermənistanla sülh danışıqlarının fəal mərhələsindəyik. Mənim Brüsselə sonuncu səfərim zamanı mətbuat konfransında bu məsələyə toxundum və qeyd etdim ki, Azərbaycan belə bir təşəbbüs irəli sürüb və biz Ermənistanın cavabını gözləyirik. Sülh danışıqlarına başlamağın bizim təşəbbüsümüz olduğunu bir daha bildirmək istərdim. Bu günədək sülh sazişinin layihəsinə dair ermənistanlı həmkarlarla 7 dəfə şərhlərin mübadiləsi baş tutub. Xarici işlər nazirləri və sərhədlərin delimitasiyası ilə bağlı Baş nazirlərin müavinləri arasında keçirilmiş görüşlər məsələnin həlli üçün yaxşı imkanın olduğunu nümayiş etdirir. Bu yaxınlarda qeyd etdiyim kimi, biz sülhə heç vaxt olmadığımız qədər yaxınıq.

Təəssüflər olsun ki, işğal dövründə danışıqlar heç bir nəticə vermədi, 28 il ərzində ATƏT-in Minsk qrupunun fəaliyyətinin nəticəsi olmadı. Bu gün isə hesab edirəm və ümidvaram ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası nəticəsində bu mövzuda nəhayət nəticə əldə ediləcək. Zənnimcə, bu, Cənubi Qafqazda çox ciddi dəyişiklik olacaq. Bu isə o deməkdir ki, burada çoxdandır gözlənilən sülh bərqərar olacaq.

Bu gün biz cənab Baş katiblə, həmçinin enerji təhlükəsizliyi məsələsini müzakirə etdik. Mən ona məlumat verdim ki, Brüsseldəki son görüşümüzdən bəri qaz təchizatı baxımından NATO-ya üzv daha 2 dövlət bizim tərəfdaşımız oldu. Bu gün Azərbaycan 8 ölkəyə qaz nəql edir ki, onların 6-sı NATO-ya üzv, digər ikisi isə NATO-nun tərəfdaş ölkəsidir. Əminəm ki, qarşıdan gələn illərdə tərəfdaşlarımızın sayı artacaq. Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və ümumavropa qaz təchizatçısı adlandırır. Bu isə həm böyük üstünlük, həm də böyük məsuliyyətdir.

Həmçinin mən cənab Baş katibi bizim yaşıl keçid gündəliyi haqqında məlumatlandırdım. Azərbaycan yekdilliklə COP29-a ev sahibliyi edəcək ölkə seçilmişdir. Bu, bizim yaşıl keçidlə bağlı səylərimizin tanınmasının göstəricisidir. Zəngin təbii ehtiyatlara, qazıntı yanacağına malik ölkə olaraq biz tərəfdaşlarımızla birlikdə bərpaolunan enerji mənbələrinə sərmayə yatırırıq. Mən cənab Baş katibi bu ilin noyabrında vəzifəsindən asılı olmayaraq, ölkəmizə səfərə gəlməyə dəvət etdim ki, o, bu mühüm tədbirdə bizimlə birlikdə olsun.

Cənab Baş katib, səfərə gəldiyinizə görə təşəkkürümü bildirirəm və Azərbaycanda xoş vaxt keçirməyi arzu edirəm.

***

Sonra NATO-nun Baş katibi bəyanatla çıxış etdi.

## Baş katib Yens Stoltenberqin bəyanatı



– Çox sağ olun, cənab Prezident.

Cənab Prezident Əliyev, Bakıda yenidən olmaq çox xoşdur. Bu, mənim NATO-nun Baş katibi kimi Azərbaycana, Bakıya etdiyim ilk səfərdir. Lakin Bakıya ilk dəfə deyil ki, gəlirəm, çünki mən Norveçin energetika naziri kimi 1990-cı illərdə buraya dəfələrlə gəlmək şərəfinə nail olmuşam. Həmin səfərlər xatirimdədir, çünki ölkənizdə həmin vaxt enerji sektorunun çox inkişaf etdiyini və güclü olduğunu gördüm. Buna görə təhlükəsizliyimiz üçün enerjinin vacibliyini nəzərə alaraq enerji təhlükəsizliyinin müzakirəsi fürsətini əldə etmək məqsədilə buraya yenidən gəlmək çox xoşdur.

Mən Azərbaycanın bir neçə NATO müttəfiqi ilə sıx əlaqələrini inkişaf etdirməsini alqışlayıram və ölkənizin qazın çatdırılmasında, eləcə də gələcək enerjinin, yəni elektrik enerjisinin Avropada NATO-nun əsas müttəfiqlərinə ötürülməsində daha mühüm rol oynadığını görməkdən məmnunam.

Beləliklə, Siz cəmiyyətlərimizin güclənməsində mühüm rol oynayırsınız. Mən, həmçinin NATO-nun Baş katibi kimi burada, Bakıda olmağımdan məmnunam. Çünki Siz də qeyd etdiyiniz kimi, Azərbaycan NATO-nun uzunmüddətli tərəfdaşıdır. Biz uzun illərdir bir yerdə çalışırıq. Biz Kosovoda KFOR qüvvələrimizə verdiyiniz dəstəyi çox yüksək dəyərləndiririk, o cümlədən təbii ki, Prezident olduğunuz dövrdə Əfqanıstanda missiyamıza uzun illər verdiyiniz töhfə çox vacib idi. Siz tam haqlısınız. Əfqanıstanı tərk



edən ən sonuncu qüvvələrdən biri Azərbaycan hərbçiləri olub. Çünki Siz hava limanının mühafizəsinə görə cavabdeh idiniz və bu, NATO qüvvələrinin Əfqanıstandan təxliyəsində əsas məsələ idi.

Beləliklə, bu göstərir ki, tərəfdaşlığımız təkcə siyasi dialoqa yox, o cümlədən əyani əməkdaşlığa söykənir və biz bunu alqışlayırıq. Bundan əlavə, təbii ki, bu regionda sülh bölgə xalqları, ölkələri üçün çox vacibdir, o, həmçinin Qara dəniz regionu və Şimali Atlantika təhlükəsizliyi üçün əhəmiyyətlidir. Buna görə də sülh və sabitlik nəinki burada, həmçinin daha geniş miqyasda təhlükəsizlik üçün vacibdir.

Uzun illərin münaqişəsindən sonra Ermənistan ilə Azərbaycan arasında hazırda davamlı sülhə nail olmaq imkanı var. Siz söylədiyiniz kimi, sülh sazişinə heç vaxt olmadığı qədər yaxın olmağınızla bağlı sözlərinizi yüksək qiymətləndirirəm. Mən Ermənistanla dayanıqlı sülh sazişinə nail olmaq üçün həmin fürsətdən istifadə etməyinizdə Sizi dəstəkləyirəm. Bundan əlavə, həmçinin qeyd etmək vacibdir ki, əgər daha geniş regiona nəzər salsanız, Ukrayna da Qara dəniz ölkəsidir. Bu ölkə NATO-nun tərəfdaşıdır və Rusiya Ukraynaya qarşı təcavüzkar müharibəni davam etdirir. NATO müttəfiqləri hazırda gedən müharibənin fəsadlarından çox narahatdır və NATO müttəfiqləri Ukraynaya dəstək göstərirlər. Mən Azərbaycanın Ukraynaya göstərdiyi çox zəruri dəstəyi alqışlayıram. Söhbət çox zəruri olan humanitar yardımdan gedir, lakin daha çox dəstəyə ehtiyac var, çünki Ukraynadakı vəziyyət olduqca ağırdır.

Mən, həmçinin Azərbaycanda keçiriləcək növbəti COP görüşünü çox səbirsizliklə gözləyirəm. İqlim dəyişmələri təhlükəsizlik üçün vacibdir və buna görə də o, NATO üçün də əhəmiyyətlidir. İqlim dəyişmələri böhranı dərinləşdirir və biz onun fəsadlarını dünyanın hər yerində, o cümlədən burada - Azərbaycanda görürük. Beləliklə, dünya enerjiyə ehtiyac duyur, lakin, eyni zamanda, biz qlobal istiləşməyə qarşı mübarizə aparmalıyıq. Biz enerjiyə olan tələbatı ətraf mühit məsələsi ilə uyğunlaşdırmalıyıq. Azərbaycan təkcə təbii qazını ixrac etmir, hazırda Siz, həmçinin alternativ enerjiyə sərmayə yatırırsınız. Siz böyük potensial haqqında mənə məlumat verdiniz və su elektrik stansiyalarının, eləcə də külək və günəş enerjisi stansiyalarının tikintisi, elektrik enerjisinin Avropa bazarlarına çıxarılması planlarını təsvir etdiniz.

COP29 çox mühüm tədbir olacaq. Vacibdir ki, hamı iqlim dəyişmələrinə qarşı mübarizə aparsın. O, təhlükəsizliyimiz üçün vacibdir, çünki həmin məsələlər özünü aydın büruzə verir. Bu axşam və sabah məni və nümayəndə heyətimi qəbul etdiyinizə görə çox minnətdaram. Görüşləri və müzakirələri səbirsizliklə gözləyirəm.

Çox sağ olun.

***

Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin NATO-nun Baş katibi Yens Stoltenberq ilə şam yeməyi əsnasında geniş tərkibdə görüşü olub.



# İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb




Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb.

Dövlətimizin başçısı Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edib.

## Prezident İlham Əliyevin təbriki

– Əziz bacılar və qardaşlar.

Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Dördüncü dəfədir ki, bayram tonqalını mən azad edilmiş Qarabağ torpağında qalayıram. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, keçən il Talış kəndində, bu dəfə isə Xankəndi şəhərində bayram tonqalı qalanır. Bu, böyük xoşbəxtlikdir. Altı ay bundan əvvəl cəmi bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində biz öz suverenliyimizi tam bərpa etdik və bu gün Azərbaycan ərazisində ölkəmizin ərazi bütövlüyü tamamilə təmin edilmişdir.

Biz İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı nəticəsində böyük qəhrəmanlıq göstərmişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimizin, igid əsgər və zabitlərimizin fədakarlığı, peşəkarlığı, qəhrəmanlığı nəticəsində bu gün biz bu torpaqlarda qururuq, yaradırıq, bu torpaqlara həyat qayıdır. Geniş quruculuq işləri aparılaraq biz artıq keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytara bilmişik və bu il bu proses davam edəcək.

Əfsuslar olsun ki, İkinci Qarabağ müharibəsinin nəticələri Ermənistana dərs olmadı. Keçən ilin Novruz bayramı təbriklərimdə mən bu barədə danışmışdım və təəssüf hissimi bildirmişdim ki, İkinci Qarabağ müharibəsindəki onların məğlubiyyəti onlara dərs olmadı. Əgər dərs olsaydı, antiterror əməliyyatının keçirilməsinə ehtiyac olmazdı. Ermənistan İkinci Qarabağ müharibəsindən sonra keçən üç il ərzində düzgün nəticə çıxarmamışdır, öz qanunsuz silahlı birləşmələrini bizim torpağımızda əbədi saxlamaq istəyirdi, burada vaxtilə qanunsuz yaradılmış qondarma dırnaqarası Dağlıq Qarabağ respublikasını yaşatmaq istəyirdi. Bütün bunlar beynəlxalq hüquqa tamamilə zidd və ən əsası Azərbaycan xalqının iradəsinə zid-dir.

Azərbaycan İkinci Qarabağ müharibəsi nəticəsində öz ərazilərinin böyük hissəsini döyüş meydanında azad edib. Halbuki işğal dövründə dəfələrlə bir çox paytaxtlardan bizə siqnallar göndərilirdi ki, bu münaqişənin hərbi həlli yoxdur. Biz sübut etdik ki, istənilən münaqişənin hərbi həlli var. Əgər işğalçı dövlət qanunsuz olaraq digər ölkənin ərazisini işğal altında saxlayır və o torpaqlardan öz xoşu ilə çıxmaq istəmirsə, yeganə yol hərbi yoldur. Biz beynəlxalq hüquq çərçivəsində öz ərazi bütövlüyümüzü, suv-



erenliyimizi bərpa etmişik, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini özümüz döyüş meydanında bərpa etmişik.

Altı ay bundan əvvəl uğurla keçirilmiş antiterror əməliyyatı beynəlxalq hüququn təntənəsidir, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsidir. Biz bir daha göstərdik ki, öz yolumuzdan dönməyəcəyik, Ermənistanın arxasında istənilən qüvvələr dursalar belə, biz öz istədiyimizə nail olacağıq və nail olmuşuq.

Biz iyirmi il torpaqlarımızın azad olunmasına hazırlaşmışdıq. Bir çox istiqamətlər üzrə planlı şəkildə işlər gedirdi. Siyasi müstəvidə dünyada Azərbaycanın mövqeləri möhkəmləndi, dostlarımızın sayı böyük dərəcədə artmışdır. Beynəlxalq təşkilatlar bizim təşəbbüsümüzlə münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən və beynəlxalq hüquqa əsaslanan qərar və qətnamələr qəbul etmişlər və bu münaqişənin həlli üçün hüquqi və siyasi zəmin yaratmışdır. Biz iqtisadi inkişafa nail olduq, iqtisadi müstəqilliyə nail olduq və bu gün heç kimdən iqtisadi cəhətdən və təbii ki, siyasi cəhətdən asılı deyilik. Güclü iqtisadiyyat bizə imkan verdi ki, siyasi müstəvidə öz siyasətimizi müstəqil şəkildə aparaq. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, onun siyasəti tamamilə müstəqildir, ancaq və ancaq Azərbaycan xalqının maraqlarına, iradəsinə əsaslanır.

Təbii ki, əsas vəzifəmiz torpaqlarımızı işğalçılardan azad etmək idi. Bu məqsədlə hərbi gücümüzü artırmaq bizim əsas vəzifəmizdir. Ordumuzun, bütün Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artmışdır, maddi-texniki təchizat ən yüksək səviyyədə həll olunurdu və İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı bunu bütün dünyaya nümayiş etdirdi. Ən önəmlisi elə bir gənc nəsil yetişdirildi ki, bu gənc nəsil bizim xalqımız üçün əbədi qürur mənbəyi olacaq və bütün dünyaya Azərbaycan xalqının böyüklüyünü nümayiş etdirmişdir. Bizim gənclərimiz vətənpərvərlik ruhunda, milli ruhda yetişdirildi, üç il bundan əvvəl torpaqlarımızı azad etmək üçün ölümə getməyə hazır idilər və ölümə gedirdilər. Bir daha Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz bütün şəhidlərimizin, günahsız Xocalı qurbanlarının qanını döyüş meydanında aldıq və bununla fəxr edirik. İstənilən ölkə, istənilən xalq bununla fəxr edə bilər, o




cümlədən biz. Biz ərazi bütövlüyümüzü, suverenliyimizi, beynəlxalq hüququmuzu, milli ləyaqətimizi bərpa etmişik və bu gün azad xalq kimi yaşayırıq, qururuq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq.

Uzun illər ərzində bu meydan və bu bina separatçıların yuvası idi. Ermənistan tərəfindən maliyyələşdirilən və silahlandırılan separatçılar faktiki olaraq Ermənistan ordusunun bir hissəsi idi. Məhz bu meydanda xalqımıza qarşı çirkin planlar hazırlanırdı. Məhz bu binada Xocalı soyqırımının törədilməsi üçün əmrlər verilmişdir. Bu gün isə biz bu meydanda dayanmışıq. Əziz xalqıma bildirmək istəyirəm ki, bu meydana mən “Zəfər meydanı” adı vermişəm, bundan sonra bura Zəfər meydanıdır.

Xankəndi qədim Azərbaycan torpağıdır, Pənahəli xan tərəfindən salınmışdır. Ancaq əfsuslar olsun ki, keçən əsrin 20-ci illərinin əvvəllərində tamamilə əsassız, heç bir hüquqi, siyasi və demoqrafik əsası olmadan burada muxtar vilayət yaradılmışdır və ondan sonra xalqımızın problemləri də başlamışdır. Nəticə etibarilə keçən əsrin 80-ci illərinin sonlarında Ermənistan bizə qarşı müharibə elan edərək, separatçı qüvvələri dəstəkləyərək, xalqımıza qarşı soyqırımı və digər qanlı cinayətlər törədərək, əfsuslar olsun ki, o vaxt öz çirkin arzularına çata bilmişdir. Hesab edirdilər ki, bu torpaqları işğal altında əbədi saxlaya biləcəklər. Bu məsələdə onlara dəstək verən xarici qüvvələr və bu gün dəstək verən xarici qüvvələr bu qanlı məsuliyyəti onlarla bölüşürlər. Bu gün biz azad edilmiş Qarabağda başımızı dik tutaraq yaşayırıq. Bu il Xankəndiyə və digər şəhərlərə, o cümlədən Xocalıya, Şuşaya, Cəbrayıla, Kəlbəcərə keçmiş köçkünlər qayıdacaqlar, bir neçə kəndə köçkünlər qayıdacaqlar və həyat qaynayacaq.

Xankəndi sovet dövründə də Azərbaycan büdcəsi hesabına, Azərbaycan memarları və inşaatçıları tərəfindən inşa edilmişdir. Bax, arxadakı bina Vilayət Partiya Komitəsinin binası idi. Bu binanın müəllifi Azərbaycan memarı Həsən Məcidov idi. Onun yanındakı bina 1970-ci illərdə inşa edilmişdir, Vilayət İcraiyyə Komitəsinin binası idi. Bu binanın müəllifi Azərbaycan memarı Nəsrullah Kəngərli idi. Bu bina isə o vaxt mehmanxana kimi inşa edilmişdir. Ondan sonra ermənilər onun xarici görünüşünü dəyişdirmişdilər. İndi bu binanın əzəli siması ona qaytarılır və bu mehmanxananın müəllifi Azərbaycan memarı Ənvər Qasımzadə idi.

Bax, təkcə bu misallar onu göstərir ki, bu şəhəri və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində olan bütün şəhərləri, kəndləri salan, yaradan, memarlığının müəllifi olan, inşaat işlərində iştirak edən Azərbaycan xalqının nümayəndələri idi. Bu binalar bizim tarixi sərvətimizdir. Onlar qorunur, qorunacaq və gördüyünüz kimi, indi əsaslı təmir edilir. Durduğum yerdə isə separatçılar qondarma parlament binası inşa etmişdilər. Gördüyünüz kimi, artıq burada heç bir bina yoxdur. Bu, azmış kimi, onlar elə Şuşada ikinci parlament binasını inşa etməyə çalışırdılar, onun inşa işləri başlamışdır, amma çatdıra bilməmişlər və o bina söküldü. O binanın yerində indi beşulduzlu “Şuşa” oteli yerləşir. Keçmiş dırnaqarası parlament binası da söküldü və söküntü işləri fevralın 26-da başlamışdır.

Fevralın 26-da mən Xocalıda xocalılılarla birlikdə Xocalı memorial kompleksinin təməlini qoydum. Burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası – dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerlə-yeksan edildi. Separatçıların izi-tozu da qalmadı. Novruz tonqalı da son təmizləmə işlərini görür.

Əziz həmvətənlər, buradan xalqa təbriklərimizi çatdırmaq böyük xoşbəxtlikdir. Biz hamımız İkinci Qarabağ müharibəsindən sonra qürurla yaşayırıq. Biz hamımız fəxr edirik ki, biz özümüz ədaləti bərpa etdik, torpaqlarımızı işğalçılardan azad etdik, öz gücümüzü göstərdik və bundan sonra hər kəs bizimlə hesablaşmalıdır, əks təqdirdə, özü peşman olacaq.

Mən bir daha əziz xalqımı qarşıdan gələn bayram münasibətilə ürəkdən təbrik etmək istəyirəm, Azərbaycan xalqına cansağlığı, yeni uğurlar arzulayıram. Qarabağ Azərbaycandır!

# Baş Prokurorluqda 2023-cü ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin icrasına dair əməliyyat müşavirəsi keçirilib






Yanvarın 7-də Baş Prokurorluqda 2023-cü ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.

Müşavirədə çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinin Azərbaycan xalqı tərəfindən böyük coşqu ilə qeyd edildiyi 2023-cü ilin parlaq illərdən biri olduğunu qeyd edib.

Azərbaycan Respublikasının bütün ölkə ərazisi üzrə suverenliyinin bərpa edildiyini diqqətə çatdıran Baş prokuror 2023-cü ildə ardıcıl hərbi-siyasi uğurların baş verməsi, o cümlədən 2023-cü ilin aprel ayında Ermənistan və Azərbaycan sərhədində sərhəd-buraxılış məntəqəsinin qurulması, daha sonra isə 19 sentyabr 2023-cü il tarixdə 24 saatdan da az davam etmiş lokal xarakterli antiterror əməliyyatının keçirilməsi nəticəsində Respublikamızın ərazisində olan bütün terror yuvalarının tamamilə ləğv edildiyini, separatçılıq meyllərinə birdəfəlik son qoyulduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, ötən il oktyabr ayının 15-də Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur böyük tikinti meydanına çevrilib, şəhərlərimiz və kəndlərimiz yenidən qurulmaqla, 5 mindən artıq məcburi köçkün öz doğma yurd-yuvalarına qayıdıb və bu proses davam etməkdədir.

Vurğulanıb ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.




Müşavirədə diqqətə çatdırılıb ki, 2023-cü il prokurorluq orqanları üçün də uğurlu il olub. Əlavə edilib ki, 2023-cü ildə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən qəsdən adam öldürmə faktları üzrə ötən illərdən bağlı qalmış 7 iş, rayon (şəhər) prokurorluqları tərəfindən 3 iş, (Ordubad, Bakı şəhər Nizami, Sumqayıt şəhər prokurorluqları), Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsi tərəfindən isə 1 iş olmaqla, ümumilikdə 11 iş daxili işlər, dövlət təhlükəsizliyi və penitensiar xidmət orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılıb.

Azərbaycan Respublikası Prezidentinin 07 may 2021-ci il tarixli Fərmanı ilə yaradılmış “Elektron prokurorluq” informasiya sisteminin əsas modullarının ötən il aprelin 1-dən istifadəyə verildiyini qeyd edən Baş prokuror hazırda yeni modulların yazılması və işlək modulların isə təkmilləşdirilməsi işləri aparıldığını vurğulayıb.

Xüsusi ilə vurğulanıb ki, tabe qurumların infrastrukturunun yaxşılaşdırılması istiqamətində görülmüş işlər çərçivəsində 2023-cü ildə Laçın və Qəbələ rayon prokurorluqlarının yeni inzibati binaların açılışı baş tutub, hazırda isə Kürdəmir, Şəki və Bakı şəhəri Nəsimi, Nərimanov və Pirallahı rayon prokurorluqlarının yeni inzibati binalarının tikintisi davam etdirilir.

2023-cü ildə Baş Prokurorluğun digər dövlətlərin prokurorluq orqanları ilə beynəlxalq hüquqi əməkdaşlığına toxunan Baş prokuror qeyd edib ki, 2023-cü il ərzində Azərbaycan Respublikası Baş Prokurorluğunun Beynəlxalq Prokurorlar Assosiasiyası, Avropa Prokurorlarının Məşvərətçi Şurası, Avropa Birliyinin Cinayət Ədliyyəsi üzrə Əməkdaşlıq Agentliyi (Eurojust), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA), İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin baş prokurorlarının Əlaqələndirmə Şurası və digər beynəlxalq təşkilatlarla, eləcə də xarici ölkələrin hüquq mühafizə orqanları ilə əlaqələrin genişləndirilməsi istiqamətində tədbirlərin görülməsi davam etdirilib, Baş Prokurorluğun rəhbərliyinin və digər məsul şəxslərinin xarici ölkələrə 16 səfəri, xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndə heyətlərinin Baş Prokurorluqda 35 qəbulu təşkil olunub, bir sıra xarici ölkələrin prokurorluq və digər hüquq-mühafizə orqanları ilə ikitərəfli əməkdaşlıq barədə sənəd layihələrinin hazırlanması, razılaşdırılması və bağlanmasının təşkili təmin edilib.

Vurğulanıb ki, 2023-cü il sentyabrın 15-də Bakıda Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 33-cü iclası və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 4-cü görüşü keçirilib, 2024-cü ildə beynəlxalq əməkdaşlıq çərçivəsində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu konfransının və ümumi yığıncaq mərasiminin 2024-cü ilin 27 sentyabr – 02 oktyabr tarixlərində Bakı şəhərində keçirilməsi nəzərdə tutulub.

2023-cü ildə normayaratma təşəbbüsü ilə bağlı fəaliyyətə toxunan Kamran Əliyev Baş Prokurorluq tərəfindən 28 normativ hüquqi akt layihəsi hazırlanaraq göndərildiyini, ötən il ərzində Baş Prokurorluqdan Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə











6 sorğu və 8 rəy verildiyini, Baş Prokurorluq tərəfindən hazırlanmış qiyabi məhkumetmə ilə bağlı Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsinin Milli Məclis tərəfindən qəbul edildiyini nəzərə çatdırıb.

Bildirilib ki, qarşıda duran əsas vəzifələrdən biri Ermənistan silahlı qüvvələri və qanunsuz silahlı birləşmələrindən ibarət cinayətkar birlik (təşkilat) tərəfindən törədilmiş cinayət faktlarına görə Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsinin icraatında olmaqla birgə vahid istintaq qrupu tərəfindən istintaqı aparılan cinayət işinin yekunlaşdırılması və təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verilməsidir.

Əməliyyat müşavirəsində Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə 2023-cü ilin nəticələrinə görə artım müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunmaları üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Eyni zamanda, hesabat dövründə görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə ətraflı təhlil olunub.

Sonda 2023-cü ildə görülmüş işlərin vəziyyətinin ümumiləşdirilərək nəticələrinin təsdiq edilmiş cədvələ uyğun olaraq, Baş Prokurorluğun idarə və şöbələrində müzakirələrin aparılması, habelə Baş Prokurorluğun geniş kollegiya iclasının keçirilməsinə hazırlıqla əlaqədar müvafiq tapşırıqlar verilib.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi 2024-cü ildə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlərin reallaşdırılmasında, cinayətkarlığa qarşı digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunmasında zəruri tədbirlərin görülməsini təmin edəcək.

# Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc hüquqşünasların andiçmə mərasimi keçirilib





Yanvarın 15-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilmişdir.

Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşlar ilk öncə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad etmiş, daha sonra şəhidlər xiyabanını ziyarət edən gənc hüquqşünaslar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsini yad etmişlər.

Tədbirdən öncə Baş Prokurorluğun rəhbərliyi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, qazilərə şəfa dilənmişdir.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev yola saldığımız 2023-cü ilin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ilinə təsadüf etməsinin yüksək tarixi əhəmiyyətə malik olduğunu, bununla yanaşı, Ulu öndərin irsini öyrənməyin, onu təbliğ etməyin, bu irsdən faydalanmağın, onu gələcək nəsillərə çatdırmağın dövlətimizin qarşısında duran vacib məsələlərdən biri olmaqla, təkcə "Heydər Əliyev ili" çərçivəsində deyil, bütün dövrlərdə mühüm əhəmiyyət kəsb etdiyini, bu il çərçivəsində digər dövlət qurumları kimi prokurorluq orqanları tərəfindən də, dahi liderin mənalı həyatı və Azərbaycanın parlaq gələcəyinə istiqamətlənmiş mükəmməl, çoxşaxəli fəaliyyətindən bəhs edən silsilə tədbirlərin, o cümlədən müxtəlif konfransların, dəyirmi masaların, görüşlərin, açıq qapı tədbirlərinin və s. təşkil olunduğunu, film çəkildiyini və nəşrlər çap edildiyini bildirmişdir.

Qeyd olunmuşdur ki, hələ ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın böyük oğlu Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf strategiyasına uyğun olaraq respublikamızda həyata keçirilən genişmiqyaslı və gələcəyə hesablanmış məqsədyönlü tədbirlər müasir iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək müstəqilliyimizin təmin olunması üçün zəmin hazırlamışdır.

Ulu Öndərin siyasi kursunun və ideyalarının layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən ölkəmizin hərtərəfli və dayanıqlı inkişafı istiqamətində atılan addımların böyük əzm və qətiyyətlə davam etdirilərək möhtəşəm uğurlara nail olunduğu, 2024-cü ilin Azərbaycan Respublikasının Prezidenti tərəfindən 25 dekabr 2023-cü il tarixli Sərəncamla "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin ətraf mühitin qorunmasına verilmiş ən





böyük töhfə olmaqla, növbəti ildə ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransı (COP) xüsusi əhəmiyyətə malik olduğu diqqətə çatdırılmışdır.

Xüsusi vurğulanmışdır ki, dövlət başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsi nəticəsində 30 il ərzində işğal altında olan əzəli torpaqlarımız işğaldan azad edilmiş, 23 aprel 2023-cü il tarixdə Laçın-Xankəndi yolunun başlanğıcında, Ermənistanla sərhəddə Nəzarət-Buraxılış Məntəqəsinin yaradılması, daha sonra 19 sentyabr 2023-cü il tarixdə başlanıb 24 saatdan az müddətdə davam edən lokal xarakterli anti-terror əməliyyatı ilə Azərbaycanın dövlət suverenliyi bütün ölkə ərazisində bərpa edilmişdir.

Həmçinin, ötən il oktyabr ayının 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının dövlət bayrağının ucaldılması və 08 noyabr 2023-cü il tarixdə Xankəndi şəhərində keçirilən Zəfər paradı ilə dövlət başçısı cənab İlham Əliyev ərazi bütövlüyümüzün bərpası barədə Azərbaycan xalqına verdiyi sözü, Azərbaycan xalqı qarşısında özünün ən müqəddəs tarixi missiyasını yerinə yetirmişdir.

Tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazılan Vətən Müharibəsi və ondan sonrakı Zəfərlərin Azərbaycanın regionda və dünyada mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirməklə, Ölkə başçısının rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə gerçəkləşən nəhəng və sürətli tikinti-quruculuq, bərpa işləri əbədi azadlığına qovuşmuş Qarabağ və Şərqi Zəngəzura “Böyük Qayıdış”ın əsasını qoyduğu və həmin ərazilərin dirçəlməyə başladığı diqqətə çatdırılıb.

Baş prokuror bildirmişdir ki, Ulu öndər Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnamənin tələblərinə müvafiq olaraq 2002-ci ildən başlayaraq, keçirilən müsabiqələr yolu ilə qulluğa qəbul olunmuş hüquqşünasların Azərbaycan Prokurorluğunun kadr korpusunun əhəmiyyətli hissəsini təşkil etməsi, onların tutduqları vəzifələrdə səmərəli fəaliyyəti, həmin gənclərin bir çoxunun rəhbər və yuxarı təsnifatlar üzrə vəzifələrə irəli çəkilməsi ölkə həyatının bütün sahələrində gənclərin daha mühüm vəzifələrə təyin edilməsi barədə Prezident cənab İlham Əliyevin göstərişlərinin icrasının nəticələridir.

Qeyd olunub ki, son 21 ildə prokurorluğa 1203 nəfər işə qəbul edilib. Onların 1097-i kişi, 106-sı isə qadındır. Hazırda onlardan 1009 nəfəri prokurorluq orqanlarında əmək fəaliyyətini davam etdirir.

Müsabiqə yolu ilə prokurorluq orqanlarına qəbul olunmuş şəxslər prokurorluğun kadr korpusunun 89.1%-ni təşkil edir.

Bildirilib ki, onların 54-ü 2002-2019-cu il ərzində keçirilmiş 21 müsabiqə nəticəsində, 40-ı isə 2020-2023-cü ildə keçirilmiş 4 müsabiqənin nəticəsində işə qəbul edilmişdir.

"Müsabiqə yolu ilə işə qəbul edilmiş şəxslərin 9,3%-ni  faizini qadınlar təşkil edir.

Hazırda rəhbər vəzifədə işləyən 10 qadın işçidən 1-i idarə rəisi, 3-ü idarə rəisinin müavini, 1 şöbə rəisi,  4 rayon prokuroru, 1-i isə rayon prokurorunun müavini vəzifəsində işləyir.

İndiyədək 1069 prokurorluq orqanın işçisi barəsində həvəsləndirmə tətbiq edilib, 208 əməkdaş barəsində isə intizam tədbirləri tətbiq edilib.

Bildirilib ki, 208 əməkdaşdan 49-u Baş Prokurorluğun, 11-i Baş Prokuror yanında Korrupsiya qarşı Mübarizə Baş İdarəsinin, 65-i Hərbi Prokurorluğun, 3-ü Naxçıvan Respublikasının Prokurorluğunun, 80-i isə rayon və şəhər prokurorluğunda çalışıb.

Bildirilib ki, prokurorluq orqanlarında 21-25 yaş həddində 70 nəfər, 26-30 yaş həddində 241 nəfər, 31-35 yaş həddində 270 nəfər, 36-40 yaş həddində 262 nəfər, 41-45 yaş həddində 125 nəfər, 46-50 yaş həddində 34 nəfər, 51-55 yaş həddində 7 nəfər işləyir.



Qeyd olunmuşdur ki, həmin Əsasnaməyə uyğun olaraq Baş Prokurorluq tərəfindən növbəti dəfə 11 aprel 2023-cü il tarixdə elan edilmiş 25-ci müsabiqənin nəticələri üzrə namizədlərin yüksək nəzəri biliklərə, geniş dünyagörüşünə, xarici dil biliklərinə, sağlam mənəviyyata, məntiqi düşünmə qabiliyyətinə və prokurorluqda işləmək üçün zəruri olan digər keyfiyyətlərə malik olmaları, o cümlədən prokurorluqda qulluq keçmək arzuları, prokurorluq orqanlarında mövcud olan vakant ştat vahidləri nəzərə alınmaqla, 52 gənc hüquqşünas qulluğa qəbul edilmişdir.

Xüsusi qeyd edilmişdir ki, qulluğa qəbul olmuş gənclərdən 3-ü Vətən müharibəsinin iştirakçısı olmaqla, artıq prokurorluq orqanlarında şərəfli xidmətlərini davam etdirəcəklər. Eyni zamanda, qeyd edilmişdir ki, 2020-ci ildə Vətən müharibəsinin başa çatmasından sonra prokurorluq orqanlarında qulluğa qəbulla bağlı keçirilmiş 4 müsabiqənin nəticələri üzrə müvəffəqiyyət qazanmış 21 nəfər Vətən müharibəsi iştirakçısı qulluğa qəbul edilmişdir. Onlardan 2 nəfəri 2020-ci ildə, 10 nəfəri 2021-ci ildə, 6 nəfəri 2022-ci ildə, 3 nəfəri isə 2023-cü ildə elan edilmiş müsabiqə üzrə uğur qazanmışdır.

Daha sonra prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin vəzifələrə təyin edilməsi barədə Baş Prokurorluq üzrə əmr elan edilmiş, işə qəbul olunanlar təntənəli surətdə and içmiş və onlara Baş prokuror Kamran Əliyev tərəfindən xidməti vəsiqələr təqdim olunmuşdur.

Çıxış edən ADA universitetinin rektoru, professor Hafiz Paşayev işə qəbul olunan gənc əməkdaşları








təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, prokurorluq orqanlarının dövlət müstəqilliyimizin, xalqımızın və dövlətimizin cinayətkar qəsdlərdən qorunması, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində xüsusi yerə malik olduğunu bildirib.

Prokurorluq əməkdaşlarının daim ədalətin keşiyində dayandığını vurğulayan professor Hafiz Paşayev Ermənistanın Azərbaycan Respublikası ərazisində törətdiyi cinayətlərin istintaqı və beynəlxalq ictimaiyyət qarşısında ifşası naminə prokurorluq əməkdaşlarının fədakar fəaliyyətini xüsusi qeyd etmişdir.

Bundan başqa, ölkəmizdə sahibkarların investisiya təminatının gücləndirilməsi məqsədilə dövlət tərəfindən son illərdə mühüm islahatlar aparıldığını, əlverişli investisiya mühitinin formalaşdırılmasının, iqtisadiyyatın müxtəlif sahələri üzrə investisiya fəaliyyətinin təşviqi və genişləndirilməsinin daim dövlət başçısı cənab İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu qeyd edən Hafiz Paşayev prokurorluq orqanlarında buna həssaslıqla yanaşıldığını bildirmiş və işə qəbul olunan gənc əməkdaşların da bu sahədə qanunçuluğun təmin olunmasına müsbət töhfələr verəcəyinə əminliyini ifadə etmişdir.

Vurğulanmışdır ki, ADA Universiteti və Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi arasında imzalanmış birgə əməkdaşlıq haqqında memorandumun icrası uğurla davam etdirilir.

Prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərdən Aytac Əkbərova, Murad İsgəndərov və Vətən müharibəsinin iştirakçısı Orxan Məmmədov çıxış edərək gənc mütəxəssislərə göstərilən dövlət qayğısına görə ölkə başısına öz minnətdarlıqlarını bildirərək, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz vermişlər.

Tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilmişdir.

Baş prokuror Kamran Əliyev mərasimə yekun vuraraq qulluğa qəbul olunan gənc prokurorluq əməkdaşlarını təbrik etmiş, prokurorluq işçisinin şərəfini həmişə uca tutacaqlarından əminliyini ifadə etmişdir.











# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda əməliyyat müşavirəsi keçirilib






Yanvar ayının 15-də Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərliyi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhər və digər tabe rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə videoformat rejimində 2023-cü ilin yekunlarına dair əməliyyat müşavirəsi keçirilib.

Müşavirə iştirakçıları tərəfindən öncə Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmini uğrunda aparılmış mübarizədə şəhid olmuş əsgər və zabitlərimizin, vətəndaşlarımızın ruhu 1 dəqiqəlik sükutla yad edilmişdir.

Daha sonra müşavirədə Kamran Əliyev giriş nitqi ilə çıxış edərək 2023-cü ilin müstəqil və suveren Azərbaycan dövlətinin qurucusu Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə təsadüf etməsi və Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan

edilməsi, bununla əlaqədar xalqımızın yaddaşında və dövlətçilik tariximizdə xilaskar obrazında iz qoymuş müdrik siyasətçi Heydər Əliyevin həyat və yaradıcılığı, dövlət quruculuğu sahəsində olan fədakar fəaliyyəti, hüquq sisteminin təkmilləşdirilməsi, demokratik vətəndaş cəmiyyəti və hüquqi dövlətin təsis edilməsi, inkişafı istiqamətində gördüyü işlər, prokurorluq orqanlarının inkişafına verdiyi töhfələrdən danışıb.



Çıxışda həmçinin qeyd edilib ki, yola saldığımız 2023-cü il eyni zamanda Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəyə rəhbərlik etməsinin 20 illiyinin tamam olması ilə də yadda qalmışdır. Məhz bu illər ərzində dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasət ölkəmizi regionun əsas güc mərkəzinə çevirmiş, ölkənin iqtisadi rifahının tərəqqisinə, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş qismində tanınmasına rəvac vermiş, ən əsası isə on illiklər boyu işğal altında olan torpaqlarımız azad edilərək ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunmuşdur.



Baş prokuror Azərbaycan Respublikası Prezidentinin 07 dekabr 2023-cü il tarixli Sərəncamına əsasən 07 fevral 2024-cü il tarixində növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsini və 25 dekabr 2023-cü il tarixli Sərəncamla Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasını da 2023-cü ildə baş vermiş mühüm hadisələr sırasına aid etmişdir.

Daha sonra çıxışda Naxçıvan Muxtar Respublikasında cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin icrası sahəsində görülmüş işlərin vəziyyətinə toxunulmaqla əldə olunan uğurlar, habelə xidməti fəaliyyət zamanı yol verilmiş nöqsanlar müzakirə edilib.

Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev Muxtar Respublikanın prokurorluq orqanları və digər-hüquq mühafizə orqanlarının istintaq, təhqiqat və əməliyyat orqanları tərəfindən 2023-cü ildə görülmüş işlərin vəziyyəti barədə müşavirədə ətraflı məruzə ilə çıxış edərək göstərmişdir ki, 2023-cü il ərzində Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında 41 cinayət işinin ibtidai istintaqı aparılmış və həmin cinayət işlərindən 15-nin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilmiş, habelə hesabat dövründə prokurorluq orqanları tərəfindən istintaq edilmiş cinayət işləri üzrə müəyyən edilmiş 63069 manat maddi ziyanın bütünlüklə ödənilməsi təmin olunmuşdur. Bundan əlavə 2023-cü ildə Naxçıvan Muxtar Respublikası prokurorluğu orqanlarına 971 müraciət daxil olmuş, həmçinin Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 480, tabe rayon (şəhər) prokurorluqlarında isə 469 olmaqla, ümumilikdə 949 vətəndaş qəbul edilərək dinlənilmiş, müraciətlərinə müvafiq olaraq izahların verilməsi və onların həlli istiqamətində müvafiq tədbirlərin icrası həyata keçirilmişdir.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə bundan sonra da üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edərək, xidməti fəaliyyətin təkmilləşdirilməsi istiqamətində müvafiq tapşırıqlar verib.

# Bakı şəhər prokurorluğunun 2023-cü ilin yekunlarına dair əməliyyat müşavirəsi keçirilib







Yanvar ayının 17-də Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərliyi ilə Bakı şəhər prokurorluğu və Bakı şəhərinin rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə 2023-cü ilin yekunlarına dair əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirə iştirakçıları tərəfindən öncə Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyünün təmini uğrunda aparılmış mübarizədə şəhid olmuş əsgər və zabitlərimizin ruhu 1 dəqiqəlik sükutla yad edilmişdir.

Müşavirəni giriş nitqi ilə açan Baş prokuror Kamran Əliyev bildirmişdir ki, başa vurduğumuz 2023-cü il Azərbaycan dövləti və Azərbaycan xalqı üçün ən uğurlu illərdən biri olmuşdur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinin böyük təntənə ilə qeyd edildiyi 2023-cü ildə ölkəmizin həyatında bir sıra önəmli hadisələr baş vermiş, bunlardan ən önəmlisi Azərbaycan Respublikasının bütün ölkə ərazisi üzrə suverenliyinin bərpa edilməsi olmuşdur. 2023-cü ilin oktyabr ayının 15-də, ölkəyə rəhbərlik etməsinin 20 illiyinin tamam olduğu gün isə Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyev tərəfindən dövlət bayrağımız tarixi Azərbaycan torpaqları olan Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə qaldırılmışdır.

Çıxışda həmçinin qeyd edilmişdir ki, Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydanına çevrilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının





Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə şəhərlərimiz və kəndlərimiz yenidən qurulmaqla, beş mindən artıq keçmiş məcburi köçkün öz doğma yurd-yuvalarına qayıtmışdır.

Çıxışda vurğulanmışdır ki, "Yaşıl dünya naminə həmrəylik ili" olan 2024-cü ildə növbədənkənar prezident seçkilərinin keçirilməsi və COP29 beynəlxalq konfransının Bakı şəhərində keçirilməsi prokurorluq orqanlarının, o cümlədən paytaxtın prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr qoyur.

Müşavirədə çıxış edən Bakı şəhər prokuroru Elşən Abbasov hesabat dövründə paytaxtın prokurorluq orqanlarının digər hüquq mühafizə orqanları ilə birlikdə cinayətkarlığa qarşı mübarizə, vətəndaş məmnunluğunun təmin olunması, Baş prokurorun rəhbər göstərişlərinin icrası istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Qeyd olunmuşdur ki, 2023-cü il ərzində Bakı şəhərinin prokurorluq və daxili işlər orqanları üzrə cəmi 15 min 759 cinayət hadisəsi törədilmişdir ki, onların 87,4 %-nin açılması təmin olunmuşdur.

Bakı şəhərinin daxili işlər orqanları ilə birlikdə qarşılıqlı işgüzar münasibətlər qurulmaqla həyata keçirilən tədbirlər nəticəsində 2023-cü ildə törədilən 51 qəsdən adam öldürmə cinayətlərindən 50-nin və 23 qəsdən adam öldürməyə cəhd cinayətlərinin hamısının, həmçinin ötən illərdən bağlı qalan 1 qəsdən adam öldürmə cinayətinin açılması təmin edilmişdir.







Qeyd edilmişdir ki, ümumilikdə şəhərin prokurorluq orqanları tərəfindən hesabat dövründə 279 cinayət işinin ibtidai istintaqı tamamlanmış, onlardan 197 iş baxılması üçün müvafiq məhkəmələrə göndərilmişdir. Bakı şəhəri üzrə prokurorluq orqanları tərəfindən ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə dövlətə, fiziki və hüquqi şəxslərə vurulmuş 7 milyon 151 min 170 manat məbləğində maddi ziyanın 5 milyon 141 min 511 manatının və ya 71,9 %-nin ödənilməsi təmin olunmuşdur.









Həmçinin hesabat dövründə Bakı şəhərinin rayon prokurorluqlarının icraatında olan cinayət təqibi materialları üzrə qanunvericiliyə müvafiq olaraq şəxsin məsuliyyətdən azad olunması üçün dövlət büdcəsinə 442 min 748 manat pul vəsaiti ödənilmişdir.

Xidməti, icra və əmək intizamının pozulması hallarına qarşı tələbkarlıq artırılmış, şəhər prokurorluq orqanları əməkdaşlarından 6 nəfər intizam məsuliyyətinə cəlb olunmuş, onlardan 1 nəfərə töhmət, 3 nəfərə şiddətli töhmət verilmiş, 1 nəfərə irad tutulmuş, 1 nəfər tutduğu vəzifədən azad edilmişdir.

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev şəhər prokurorluğunun struktur qurumları və tabe rayon prokurorluqlarının hər birinin fəaliyyətini təhlil edərək cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti, müraciətlərə baxılması, vətəndaşların qəbulu, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi sahəsində işlərin səmərəliliyinin daha da artırılması istiqamətində konkret tapşırıqlar vermişdir.

# Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda geniş kollegiya iclası keçirilib



Yanvarın 18-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində 2023-cü il ərzində görülmüş işlərin vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir.

Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülərək, dahi insanın parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Kollegiya iclası başlamamışdan öncə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin və canlarını Vətən uğrunda fəda etmiş bütün şəhidlərin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Giriş nitqi ilə çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyev dahi tarixi şəxsiyyət, millətimizin və dövlətimizin xilaskarı Heydər Əliyevin müdrik siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə davam etdirən dövlət başçısının rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan, o cümlədən tarixi torpaqlarımızın işğaldan azad edilməsindən, həmin ərazilərdə həyata keçirilən abadlıq-quruculuq işlərindən bəhs edərək, milləti və dövləti qarşısındakı misilsiz xidmətləri ilə bütün liderlərdən seçilən möhtərəm Prezident cənab İlham Əliyevin xalqın sonsuz sevgisini qazandığını xüsusi vurğuladı.



Baş prokuror Kamran Əliyev bildirdi ki, əldə olunan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm rolu olmuşdur.









Bundan sonra, hesabat məruzəsi ilə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini–Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev, əvvəlcə, çoxsaylı ciddi qlobal problemlərə, postpandemiya mərhələsi və müharibədən sonrakı dövr olmasına baxmayaraq, dünya şöhrətli siyasətçi, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin Azərbaycanın sürətli inkişaf strategiyasını müasir müstəvidə uğurla reallaşdıran, xalqına xidmətdə digər liderlərə örnək olan möhtərəm Prezident cənab İlham Əliyevin mükəmməl siyasəti sayəsində 2023-cü il ərzində də ölkəmizin qüdrətlənməsi və əhalinin rifahının yaxşılaşdırılması prosesinin davamlılığının təmin edilməsindən, eləcə də ötən il ölkəmizin əldə etdiyi digər uğurlardan danışaraq, sentyabr ayında keçirilən uğurlu lokal antiterror tədbirlərini, ölkə rəhbərinin Xankəndi, Ağdərə, Xocavənd və Xocalı şəhərlərində, Sərsəng su anbarının ərazisində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmasını xüsusi vurğuladı. Hərbi prokuror Xanlar Vəliyev qeyd etdi ki, Vətənin çiçəklənməsinə Birinci xanım Mehriban Əliyevanın zəngin fəaliyyəti xeyli mütərəqqi töhfələr vermişdir. Xanlar Vəliyev, həmçinin, 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsini vurğulayaraq bildirdi ki, bununla əlaqədar Hərbi Prokurorluq orqanları tərəfindən böyük qürur və fərəh hissləri ilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Təhlükəsizliyi Xidmətinin yüksək rütbəli hərbi qulluqçuları, eləcə də müxtəlif dövlət qurumlarının, şəhər və rayonların rəhbər vəzifəli şəxsləri ilə birlikdə 26 tədbir keçirilmişdir. Qeyd olundu ki, əvvəlki illərdə olduğu kimi, ötən ildə də qazilərə və şəhid ailələrinə xüsusi diqqət göstərilmiş, istər Hərbi Prokurorluqda, istər yerlərdə onlarla görüşlər keçirilərək qayğıları ilə maraqlanılmışdır.

Hərbi prokuror Xanlar Vəliyev qeyd etdi ki, ötən illərdə olduğu kimi, 2023-cü ildə də Hərbi Prokurorluq orqanlarının fəaliyyəti uğurlu olmaqla Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığına, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınmasına, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına yönəldilmişdir.

Vurğulanmışdır ki, cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət düzgün qurulmuş, istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də işçilərin peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin ümumilikdə 99,8 faizi, o cümlədən bəzi qəbildən olan cinayətlərin 100 faizi açılmışdır.

Xanlar Vəliyev bildirdi ki, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, nizam-intizamın və qanunçuluğun möhkəmləndirilməsi, eləcə də cinayətkarlığa qarşı mübarizə istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar, həmçinin qeyri-hökumət təşkilatları arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin də çox böyük əhəmiyyəti olmuşdur. Belə ki, hər il olduğu kimi, 2023-cü ildə də aidiyyəti dövlət orqanları ilə birgə hazırlanmış müvafiq tədbirlər planları əsasında mütəmadi olaraq hərbi qulluqçularla görüşlər təşkil olunmuş, onların qayğı və problemləri ilə maraqlanılmış, həmçinin fərdi qəbullar keçirilmişdir.

Eyni zamanda bayramlarda və digər əlamətdar günlərdə hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanları ilə birgə hərbi qulluqçuların iştirakı ilə tədbirlər, o cümlədən bayram mərasimləri keçirilmiş və xidmətdə fərqlənənlərə hədiyyələr təqdim olunmuşdur.

Qeyd olunanlarla bərabər, Silahlı Qüvvələrdə ayrı-ayrı, xüsusən də ölümlə nəticələnən cinayətlərin qarşısının alınması məqsədilə, hər zaman olduğu kimi, hesabat dövründə də məhkəmə və istintaq təcrübəsi ümumiləşdirilərək, müxtəlif vaxtlarda Respublika Hərbi Prokurorluğunun kollegiya iclaslarında silahlı birləşmələrin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilmiş, kollegiyaların qərarlarına əsasən zəruri tədbirlərin görülməsi təmin olunmuşdur. Sözügedən istiqamətdə səmərəliliyi artırmaq məqsədilə aidiyyəti







dövlət qurumları ilə birgə bir sıra digər işlər də görülmüşdür.

Bütün bunların nəticəsində də hesabat dövründə qeydə alınmış cinayətlər ötən illə müqayisədə ümumilikdə 6,1%, hərbi xidmət əleyhinə olan cinayətlər isə 24,2% azalmışdır.

Eyni zamanda 2022-ci illə müqayisədə 2023-cü ildə qeydə alınmış Qəsdən adam öldürmə cinayətləri 40 %; Özünü öldürmə həddinə çatdırma cinayətləri 9,1 %; Tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətləri 12,9 %; Əmri icra etməmə cinayətləri 66,7 %; Hərbi xidmətdən yayınma cinayətləri 33,7 %; Hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə cinayətləri 37,9 %; Maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 26,1% və Xuliqanlıq cinayətləri 16,7 % azalmışdır.

Kollegiya iclasında, hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar da ətraflı təhlil olunmaqla, onların aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi, işin effektivliyinin daim artırılması tələb edilmişdir.

Çıxışının sonunda ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirdi ki, Hərbi Prokurorluğun kollektivi Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətinin səmərəliliyini daim artıracaq, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, cinayətkarlığa və digər qanun pozuntularına qarşı mübarizədə üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəkdir.



Sonra məruzə ətrafında çıxışlar olmuşdur. Azərbaycan Respublikası Hərbi prokurorunun müavinləri-ədliyyə general-mayoru Şəfahət İmranov, ədliyyə general-mayoru Fuad Məmmədov, ədliyyə polkovniki Mehdi Hüseynzadə, Füzuli hərbi prokuroru, ədliyyə polkovniki Elçin Hacıyev və Kəlbəcər hərbi prokuroru ədliyyə polkovniki Mahir Bayramov çıxış edərək hesabat dövründə görülmüş işlərdən danışıb, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat vermişlər.

Kollegiya iclasına yekun vuran Baş prokuror Kamran Əliyev, prokurorluq orqanları əməkdaşlarının Ulu Öndər Heydər Əliyevin millətimizin və dövlətimizin maraqlarına xidmət edən müdrik siyasətinin möhtərəm Prezidentimiz tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edəcəklərini, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunması, qanunun aliliyinin təmin edilməsi üçün əllərindən gələni əsirgəməyəcəklərini, eləcə də dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək bütün hallara qarşı barışmaz mövqe tutacaqlarını bildirdi.

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində geniş əməliyyat müşavirəsi keçirilib







Yanvarın 19-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2023-cü il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirə iştirakçıları tərəfindən əvvəlcə Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmini uğrunda aparılmış mübarizədə şəhid olmuş əsgər və zabitlərimizin ruhu 1 dəqiqəlik sükutla yad edilmişdir.

Müşavirədə giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev 2023-cü ilin müstəqil və suveren Azərbaycan dövlətinin qurucusu Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə təsadüf etməsi və Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi, bununla əlaqədar xalqımızın yaddaşında və dövlətçilik tariximizdə xilaskar obrazında iz qoymuş müdrik siyasətçi Heydər Əliyevin hüquq sisteminin təkmilləşdirilməsi, demokratik vətəndaş cəmiyyəti və hüquqi dövlətin təsis edilməsi, habelə, inkişafı istiqamətində gördüyü işlər, prokurorluq orqanlarının inkişafına verdiyi töhfələrdən danışmışdır.



Çıxışda həmçinin qeyd edilib ki, yola saldığımız 2023-cü il eyni zamanda Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəyə rəhbərlik etməsinin 20 illiyinin tamam olması ilə də yadda qalmışdır. Məhz bu illər ərzində dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasət ölkəmizi regionun əsas güc mərkəzinə çevirib, ölkənin iqtisadi rifahının tərəqqisinə, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş qismində tanınmasına rəvac vermiş, ən əsası isə on illiklər boyu işğal altında olan torpaqlarımız azad edilərək ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunmuşdur, 2023-cü ilin oktyabr ayının 15-də isə Müzəffər Ali Baş Komandan tərəfindən dövlət bayrağımız tarixi Azərbaycan torpaqları olan Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə qaldırılmışdır.

Vurğulanmışdır ki, Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydanına çevrilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaxından iştirakı





ilə şəhərlərimiz və kəndlərimiz yenidən qurulmaqla, beş mindən artıq keçmiş məcburi köçkün öz doğma yurd-yuvalarına qayıtmışdır.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov hesabat dövrü ərzində Baş İdarədə baxılmış müraciətlər, cinayət xarakterli məlumatlar, həyata keçirilmiş əməliyyat və qabaqlayıcı tədbirlər, onların müsbət nəticələri, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlıq, Baş İdarədə başlanmış, ibtidai istintaqı tamamlanmış və məhkəmələrə göndərilmiş cinayət işləri, istintaq zamanı vurulmuş ziyanın ödənilməsi ilə əlaqədar görülmüş tədbirlər barədə olan statistik məlumatları müqayisəli şəkildə təhlil etməklə müşavirə iştirakçılarının diqqətinə çatdırmışdır.

Bildirilmişdir ki, qeyd olunan dövrdə Baş İdarə tərəfindən vətəndaşların 10.897 müraciətinə baxılmışdır.

Bundan başqa, əlaqəli dövlət qurumları ilə birgə yerinə yetirilmiş tədbirlər nəticəsində vətəndaşlar tərəfindən "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərdən böyük əksəriyyətinin müsbət həll edilməsi təmin edilmiş, zəruri hallarda cinayət-hüquqi tədbirlər görülmüşdür.

Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətlərinə şərait yaradan halların aradan qaldırılması istiqamətində prokuror təsir tədbirlərinin tətbiqindən də müvafiq dövr ərzində istifadə edilmiş, yol verilmiş qanun pozuntularının səbəblərinin müəyyən edilməsi və gələcəkdə bir daha törədilməməsi üçün müxtəlif qurumlara 204 təqdimat göndərilmişdir. Həmin təqdimatlara əsasən bir sıra işçilər intizam məsuliyyətinə cəlb edilmiş və bu kimi digər zəruri tədbirlərin görülməsi təmin olunmuşdur.

Bununla yanaşı, müvafiq dövr ərzində Baş İdarədə 1524 vətəndaşın qəbul edilməsi təmin edilmişdir.





Qeyd edilən müddət ərzində Baş İdarədə 382 müraciət və digər məlumatlara cinayət xarakterli material kimi baxılmış, 301 material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, 81 material üzrə isə vurulmuş maddi ziyan məbləğlərinin ödənilməsi də nəzərə alınmaqla cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarlar qəbul edilmiş və digər prokuror təsir tədbirləri tətbiq edilmişdir.

Əməliyyat qurumları tərəfindən 158 cinayət işi başlanılmış, keçirilmiş 49 əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 56 şəxs cinayət başında yaxalanmış, habelə axtarışda olan 30 nəfər saxlanılmışdır.

Hesabat dövrü ərzində Baş İdarə tərəfindən 336 şəxs barəsində 224 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmişdir. Həmin işlərdən 80 hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraat aparılaraq, hüquqi şəxslər və rəhbərləri məhkəmə məsuliyyətinə verilmişdir. Məhkəmələrə göndərilmiş cinayət işlərinin mütləq əksəriyyəti üzrə ittiham hökmləri çıxarılmış, qalanları isə hazırda məhkəmə baxışındadır.

İstintaqı tamamlanmış cinayət işlərindən 211 şəxs barəsində 114 iş ağır cinayətlər məhkəmələrinə, 12 şəxs barəsində 8 iş hərbi, eyni zamanda 113 şəxs barəsində 102 cinayət işi isə rayon (şəhər) məhkəmələrinə göndərilmişdir.

Hesabat ili ərzində istintaqı başa çatdırılmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 91 milyon 555 min 723 manat məbləğində maddi ziyandan 36 milyon 118 min 014 manatının ödənilməsi təmin olunmuşdur.

Zərərin ödənilməsi məqsədilə istintaqı başa çatdırılmış cinayət işləri üzrə 43 milyon 180 min 362 manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunmuşdur.

Bundan başqa, ötən dövrdə icraatına xitam verilmiş cinayət işləri üzrə özgə əmlakına vurulmuş 13 milyon 926 min 714 manat məbləğində maddi ziyan tam olaraq ödənilmişdir.

Hesabat dövrü ərzində Baş İdarənin fəaliyyətinin və antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi və bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Ümumilikdə ötən illər ərzində görülmüş işlərin nəticəsi kimi Avropa Şurasının Pulların Leqallaşdırılmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə Tədbirlərinin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-korrupsiya Şəbəkəsi də daxil olmaqla bey-nəlxalq təşkilatların hesabatlarında ölkəmizdə bu istiqamətdə həyata keçirilən bir sıra tədbirlər müsbət dəyərləndirilmişdir.

Dövlət Başçısının fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmini və qarşılıqlı təcrübənin paylaşılmasının əhəmiyyətini nəzərə almaqla bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və digər dövlətlərin müvafiq orqanları ilə əlaqələrin qurulmasına, habelə daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdir.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuroru cənab Kamran Əliyev müşavirə zamanı çıxış edərək vətəndaşların müraciətlərinə baxılması, xüsusilə "161-Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyətinin daha da gücləndirilməsi, korrupsiyaya daha çox məruz qalan sahələrlə bağlı davamlı təhlillərin aparılması, digər hüquq mühafizə orqanları və Baş Prokurorluğun aidiyyəti struktur qurumları ilə birgə fəaliyyətin səmərəliliyinin artırılması istiqamətində müvafiq işlərin davam etdirilməsi, zəruri əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin diqqətdə saxlanılması, cinayət işlərinin istintaqı zamanı vurulmuş maddi ziyanın ödənilməsinin təmin edilməsi, əmlakın bərpası, qətimkan tədbirlərinin səmərəli tətbiqinə nail olunması məsələlərinə xüsusi önəm verilməsi, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi istiqamətində zəruri işlərin görülməsi, əməkdaşların müvafiq sahələr üzrə bilik və bacarıqlarının inkişaf etdirilməsi, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi sahəsində işlərin səmərəliliyinin daha da artırılması və digər bu kimi məsələlər ətrafında təhlillər apararaq növbəti dövr üçün tapşırıq və tövsiyələrini vermişdir.

# 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar prokurorluq əməkdaşları Şəhidlər xiyabanını ziyarət edib





Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərliyi və kollektivi 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edib.

Prokurorluq əməkdaşları şəhidlərimizin məzarları üzərinə gül dəstələri qoyub, ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini hörmət və ehtiramla yad edib.





# Baş Prokurorluqda "Prokurorluq orqanları tərəfindən 2023-cü ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrə dair" Geniş Kollegiya iclası keçirilib



Yanvarın 26-da Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə 2023-cü ildə prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş Geniş Kollegiya iclası keçirilib.

Tədbirdən öncə Baş Prokurorluğun Kollegiya üzvləri müasir dövlətimizin qurucusu, memarı Ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, unudulmaz xatirəsini ehtiramla yad edib.

Həmçinin, iştirakçılar tərəfindən Kollegiya iclasının başlanğıcında Ümummilli lideri Heydər Əliyevin, vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuş əsgər və zabitlərimizin, vətəndaşlarımızın ruhu bir dəqiqəlik sükutla yad edilib, qazilərimizə şəfa arzu edilib.

Kollegiya iclasında çıxış edən Baş prokuror Kamran Əliyev 2023-cü ilin Azərbaycan Respublikası üçün tarixi, siyasi və ictimai əhəmiyyət kəsb edən hadisələrlə zəngin bir il olduğunu bildirib.

Qeyd edilib ki, 2023-cü ildə müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ölkəmizdə böyük təntənə ilə qeyd edilmişdir.

Xalqımızın yaddaşında və dövlətçilik tariximizdə "xilaskar" obrazında iz qoymuş müdrik siyasətçi Heydər Əliyevin həyat və yaradıcılığı, müstəqil Azərbaycanın, onun dövlət və hüquq sisteminin qurucuçuluğunda və inkişafındakı rolu, hüquqi dövlət və vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində həyata keçirdiyi islahatlardan bəhs edərək hər bir azərbaycanlı tərəfindən Heydər Əliyevin əbədi yaşar ruhunun illər sonra da dərin ehtiramla anılacağı vurğulanıb.

Çıxışda həmçinin qeyd olunub ki, yola saldığımız 2023-cü il həm də cənab Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etməsinin 20 illiyinin tamam olması ilə də yadda qalmışdır.

Azərbaycan dövlətçiliyinin əsasını qoymaqla yanaşı, onun idarə edilməsi, daxili və xarici siyasət kursu, ictimai-mədəni tərəqqisi istiqamətində Ümummilli lider tərəfindən müəyyən edilmiş ideya və prinsiplərə ilk gündən sadiq olan və onu layiqincə davam etdirən ölkə rəhbəri Azərbaycanı dünya miqyaslı bütün yüksək tribunalarda qürurla təmsil etmiş və onun artan nüfuzunun yüksələn xətt üzrə inkişafı üçün bütün səylərini səfərbər etmişdir.

Dövlət başçısı tərəfindən həyata keçirilən siyasət ölkəmizi regionun əsas güc mərkəzinə çevirmiş, ölkənin iqtisadi rifahının tərəqqisinə, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş qismində tanınmasına rəvac vermişdir.

Çıxışda o da vurğulanıb ki, qeyd edilən dövrdə möhtərəm Prezident cənab İlham Əliyevin uğurlu si-

yasi və diplomatik bacarığı sayəsində Azərbaycan siyasi müstəvidə də əhəmiyyətli uğurlara imza atmışdır.



Müzəffər ordumuz tərəfindən həyata keçirilmiş "Fərrux", "Sarıbaba-Qırxqız" və "Qisas" əməliyyatları, Laçın rayonu ərazisində sərhəd-keçid məntəqəsinin qurulması, nəhayət 2023-cü ilin sentyabr ayının 19-20-si tarixlərində icra edilən lokal antiterror tədbirləri ilə Azərbaycan bütün əraziləri üzərində suverenliyini tam bərpa edib və 15 oktyabr 2023-cü il tarixdə Azərbaycan Respublikasının şanlı bayrağı möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən Xankəndi, Xocavənd, Xocalı və Ağdərə şəhərlərində, Xocalı rayonunun Əsgəran qəsəbəsində ucaldılıb.

Qısa müddət ərzində işğaldan azad edilmiş torpaqlarımızda cənab Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə sürətli bərpa və yenidənqurma işlərinin icra edilməsi, hər bir tarixi, mədəni və dini abidələrimizin xüsusi həssaslıqla bərpa edilməsi, qısa müddət ərzində həmin ərazilərdə evlərin, yaşayış komplekslərinin, magistral yolların, Zəngilan və Füzulidə beynəlxalq hava limanlarının inşası və istifadəyə verilməsi hər bir vətəndaşımıza qürur və sevinc, dünya dövlətlərinə isə heyrət hissi yaşatmışdır.

Zəngilan, Laçın və Füzuli rayonlarına öz doğma yurdlarından on illiklərlə didərgin düşmüş soydaşlarımızın köçürülməsi, həmin ərazilərdə bir zamanlar sönmüş həyat izlərinin yenidən bərpası xalqımıza bəxş edilmiş ən böyük sevinc hissi, dünya tarixində isə ədalətin bərpasına misal göstərilə biləcək ən böyük tarixi hadisədir.

Təəssüf hissi ilə qeyd edilmişdir ki, Ermənistan tərəfinin apardığı mina terroru nəticəsində 2023-cü ildə mina və partlamamış hərbi sursat partlayışları nəticəsində 19 nəfər həlak olmuş, 39 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. 2020-ci ilin noyabr ayından hazırki vaxtadək isə ümumilikdə 342 şəxs bu terrorun qurbanı olmuş, onlardan 65 nəfəri həlak






olmuş, 277 nəfəri müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Vurğulanıb ki, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş vətəndaşlarımızın müəyyən edilməsi istiqamətində Hərbi Prokurorluq, Dövlət Təhlükəsizliyi Xidməti, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və aidiyyəti digər qurumlarla birlikdə zəruri tədbirlər görülür. Lakin mina məsələsində olduğu kimi, bu məsələdə də Ermənistan tərəfi əməkdaşlıq etməkdən yayınır və müvafiq məlumatları təqdim etməkdən imtina edir.

Kollegiya iclasında eyni zamanda diqqətə çatdırılıb ki, 2023-cü ildə baş vermiş digər mühüm hadisələr isə Azərbaycan Respublikası Prezidentinin 07 dekabr 2023-cü il tarixli Sərəncamına əsasən 07 fevral 2024-cü il tarixinə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi və 25 dekabr 2023-cü il tarixli Sərəncamla Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi olmuşdur.

İnam hissi ilə qeyd olunub ki, cari ildə keçirilməsi nəzərdə tutulan növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkisinin qanunun aliliyi təminatında keçirilməsi istiqamətində prokurorluq orqanları öz üzərinə düşən vəzifələri layiqincə icra edəcəkdir.

Bundan əlavə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin Bakı şəhərində keçiriləcək növbəti 29-cu Konfransının dövlətimizin nüfuzuna uyğun, təhlükəsiz və sabitlik şəraitində keçirilməsi üçün prokurorluq orqanları digər hüquq-mühafizə orqanları ilə birgə əməkdaşlıq çərçivəsində bütün səylərini səfərbər edəcəkdir.

Baş prokuror Kamran Əliyev prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə Respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd edib.

Bildirilib ki, 2023-cü ildə ölkə ərazisində 36811 cinayət qeydə alınmaqla onların 87,8 faizinin açılması təmin edilmiş, ümumilikdə ölkə üzrə cəmi 21104 cinayət işinin istintaqı tamamlanmışdır ki, bunlardan 1350-i prokurorluq orqanlarında istintaq edilmişdir.

Bu müddət ərzində prokurorluq orqanları tərəfindən 902, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 16146 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilmişdir ki, ibtidai istintaqı tamamlanmış cinayət işləri və bəraətverici əsaslara rədd edilmiş materiallar üzrə ümumilikdə 509 milyon 237 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək onun 41,4 faizinin, yəni 210 milyon 936 min manat hissəsinin ödənilməsinə nail olunmuşdur.

Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşmış cinayət işləri üzrə ümumilikdə 139 milyon 150 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 54,8 faizinin, yəni 76 milyon 223 min manat hissəsinin ödənilməsinə nail olunmuş, habelə 50 milyon manatdan artıq məbləğdə əmlak üzərinə həbs qoyulmuşdur.

Xüsusi qeyd edilib ki, prokurorluqda aparılan müasir məzmunlu islahat tədbirlərinin davamı kimi

qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi, elmi-texniki nailiyyətlərdən istifadə etməklə fəaliyyətdə səmərəliliyinin artırılması işində müstəsna önəmə malik cənab Prezidentin 7 may 2021-ci il tarixli Fərmanında öz əksini tapmış "Elektron prokurorluq" informasiya sistemi artıq prokurorluq oqranlarının tam istifadəsinə verilmiş və bəzi informasiya sistemlərinə inteqrasiyası təmin edilmişdir, hazırda sistemin təkmilləşdirilməsi  və digər informasiya sistemlərinə inteqrasiya olunma istiqamətində işlər intensivliklə davam etdirilir.

Hesabat dövründə dövlət başçısının siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya, rüşvətxorluğa qarşı barışmaz mübarizənin ötən dövrlərdə olduğu kimi davam etdirilərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ölkə vətəndaşlarını ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmalarının daha geniş yayıldığı idarəçilik və xidmət sahələri aşkar edilməklə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi bildirilib.

2023-cü il ərzində Baş İdarədə fəaliyyət göstərən 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərin 71-i üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, digərləri üzrə prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlərin görülməsi təmin edilib.

Bu müddət ərzində Baş İdarənin əməliyyat qurumları tərəfindən həyata keçirilən əməliyyat tədbirləri nəticəsində 56 şəxs cinayət başında yaxalanıb, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 158 cinayət işi başlanıb.

Hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən 97 şəxs barəsində 44 cinayət işinin ibtidai istintaqı aparılmaqla baxılması üçün məhkəmələrə göndərilmiş, bunlardan 18 şəxs barəsində 7 iş qəsdən adam öldürmə faktları ilə bağlı olubdur.

Kollegiya iclasında daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə ötən illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş 10 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edilməklə hesabat dövründə onlardan 4-ü üzrə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi xüsusi vurğulanıb.

Baş prokuror ötən illərdən bağlı qalmış və hesabat ilində qeydə alınmış qeyri-aşkar cinayətlərin açılmasında, ictimai sabitliyin və təhlükəsizliyin təmin edilməsində, habelə dini radikalizmə qarşı mübarizə sahəsində daxili işlər, dövlət təhlükəsizliyi xidməti və digər qurumların fəaliyyətini xüsusi qeyd edərək, göstərilən səmərəli və peşəkar əməkdaşlığa görə təşəkkürünü bildirib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokurorlarının iştirakı ilə hesabat dövründə birinci instansiya məhkəmələrində  16811 şəxs barəsində 15344, apellyasiya instansiyası məhkəmələrində 4652 şəxs barəsində 4137, kassasiya instansiyası məhkəməsində  2643 şəxs barəsində 2297 (bütün instansiya məhkəmələri üzrə cəmi 24106 şəxs barəsində 21778 iş olmaqla) cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilib.

2023-cü ildə prokurorluq orqanları tərəfindən 1436 apellyasiya və 625 kassasiya protestləri verilmiş, 687 apelyasiya protesti və 121 kassasiya protestləri təmin olunmaqla nəticədə məhkəmə səhvlərinin aradan qaldırılması təmin olunmuşdur.

2023-ci ildə Respublika Hərbi Prokurorluğu tərəfindən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğu sahəsində tapşırıqlarının icrası ilə əlaqədar Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti və digər qurumlarla birlikdə zəruri tədbirlərin görüldüyü qeyd edilib.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Prokurorluğunda cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə uğurlu göstəricilər əldə olunduğu, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə nəzarətin gücləndirildiyi, vətəndaşların müraciətlərinə baxılmasının diqqətdə saxlanıldığı bildirilib.

Hesabat dövründə Bakı şəhər prokurorluğunun fəaliyyəti ümumən müsbət qiymətləndirilmiş, qeyri-aşkar şəraitdə törədilmiş cinayət işlərinin təxirə salınmadan açılması, maddi ziyanın ödətdirilməsi sahəsində müsbət nəticələrində əldə edilməsi təqdirə layiq hal qismində qeyd edilmişdir.

Bununla belə, Respublikanın tabe rayon və şəhər, o cümlədən Bakı şəhəri üzrə bəzi tabe rayon prokurorluqlarına fəaliyyətlərində yol verdikləri nöqsanlarla bağlı, xüsusən də CPM-nin 303 və 318-ci maddələri ilə məhkəmələr tərəfindən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirmiş prokurorlara işlərin qaytarılması və bəraət hökmlərinin çıxarılmasında say artımının qeydə alınması ilə bağlı ciddi iradlar bildirilmişdir.

2023-cü ildə istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 657 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub, habelə ibtidai araşdırmaya

prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən 206 halda ittiham aktları təsdiq edilməyərək cinayət işləri əlavə istintaq aparılması üçün qaytarılmışdır.

2023-cü il ərzində cinayət təqibindən kənar icraatlarla əlaqədar inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla 1559 inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilib.

Qeyd edilib ki, Baş Prokurorluğun "Çağrı Mərkəzi"nə 2023-cü ildə daxil olmuş müraciətlərdən 25724 müraciət üzrə vətəndaşlara onları maraqlandıran müvafiq hüquqi izahlar verilib, 3462 məlumat isə cinayət xarakterli olduğu üçün qeydə alınaraq araşdırılması aidiyyəti struktur qurumlara tapşırılmış və həmin məlumatlar üzrə cinayət işləri başlanmış, habelə müvafiq prokuror təsir aktları qəbul edilməklə zəruri tədbirlər görülmüşdür.

Kollegiya iclasında qeyd edilib ki, ötən yarımildə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb, aparılmış xidməti yoxlamalar nəticəsində müxtəlif xətalar törətdiklərinə görə 30 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib ki, onlardan 20-nə töhmət və ya şiddətli töhmət elan edilib, 7 nəfər vəzifədən azad edilib, 1 nəfərə irad tutulub, 1 nəfər isə prokurorluq orqanlarından xaric edilib, 1 nəfər rütbədən məhrum edilməklə prokurorluq orqanlarından xaric edilib.

Kollegiya iclasında xüsusi müsadirə sahəsində görülmüş işlər barədə məlumat verilərkən ilk dəfə olaraq məhkum olunmuş şəxsin xarici ölkə bankında saxlanılan 1.281.000 ABŞ dolları məbləğində pul vəsaitinin müsadirə edilməsi barədə Azərbaycan məhkəməsinin qərarının xarici ölkə məhkəməsi tərəfindən tanınması və vəsaitin ölkəyə qaytarılması barədə qərar verilməsi diqqətə çatdırılıb.

Hesabat dövründə prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlərlə 45 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib.

Həmçinin qeyd olunub ki, 2024-cü ilin sentyabr-oktyabr aylarında Bakı şəhərində dünya prokurorların təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik iclası və konfransı keçirilməsi nəzərdə tutulur.

Vurğulanıb ki, 2023-cü ildə də vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə saxlanılmış, müraciətlərə baxılması və vətəndaşların qəbulu sahəsində nöqsanların aradan qaldırılması, şəhid ailələri və qazilərin müraciətlərinə xüsusi həssaslıqla yanaşılması, informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə olunması, əməkdaşların peşə hazırlığının yüksəldilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Bu müddətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror tərəfindən Respublikanın 17 rayon və şəhərində, o cümlədən Naxçıvan şəhəri daxil olmaqla ümumilikdə 71 bölgədən 913 vətəndaş qəbul edilməklə müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun həlli barədə Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe prokurorlara müvafiq göstərişlər verilmiş, həmçinin təsərrüfat, əmlak, mülki xarakterli mübahisələrə və sosial məsələlərə dair müraciətlərin müvafiq mərkəzi, yerli icra hakimiyyəti və məhkəmə orqanlarında zəruri tədbirlərin görülməsi məqsədilə aidiyyəti üzrə göndərilməsi təmin edilib.

Hesabat dövründə Elm-Tədris Mərkəzi tərəfindən prokurorluq işçilərinin və digər hüquq mühafizə orqanlarının əməkdaşlarının peşə hazırlığının artırılması üçün təlimlər, "İlin ən yaxşı müstəntiqi" və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqələrinin keçirildiyi, bir sıra tədris-metodiki vəsaitlərin hazırlandığı diqqətə çatdırılıb.

Hesabat ilində Azərbaycan Respublikası Prokurorluğunun başlıca fəaliyyət istiqamətlərindən olan ölkəmizin hüquq ictimaiyyəti, aparıcı elm və təhsil müəssisələri, hüquq mühafizə orqanları akademiyaları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişafına töhfə verən Baş prokuror yanında Elmi-Məsləhət Şurasının iclasları keçirilməklə geniş müzakirələr və faydalı fikir mübadiləsinin aparıldığı bildirilib.

Kollegiya iclasında hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsinin keyfiyyətinin artırılması, cinayət prosesi iştirakçılarının hüquqlarının təmin olunması, habelə hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunub.

Xüsusilə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğurunda şəhid olmuş və itkin düşmüş şəxslərin ailə



üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın müraciətlərinə təxirəsalınmadan baxılmaqla, onların dərhal qəbul edilmələrinin təmin edilməsi, bu kateqoriyadan olan şəxslərə diqqət göstərilməsinin vacibliyi vurğulanıb.

Kollegiya iclasında Baş prokuror tərəfindən Azərbaycana və Azərbaycan xalqına qarşı Ermənistan Respublikası və qondarma rejim tərəfindən törədilmiş ağır və xüsusilə ağır cinayətlərlə bağlı separatçılar barəsində olan cinayət işi üzrə milli qanunvericiliyə və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlərə uyğun olaraq tam, hərtərəfli və obyektiv istintaq aparılmaqla, bütün zərərçəkmiş şəxslərin, habelə bu cinayətlər nəticəsində dövlətə və vətəndaşlara vurulmuş maddi ziyanın müəyyən edilməsi, eləcə də təqsirli şəxslərin tam dairəsinin və onların ittihamlarının həcminin dəqiqləşdirilməsi, qısa müddət ərzində cinayət işinin ibtidai istintaqının yekunlaşdırılaraq məhkəməyə göndərilməsi, habelə qeyd edilən iş çərçivəsində işğalda olmuş torpaqlarımızda qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmuş müxtəlif Avropa şirkətlərinin vəzifəli şəxslərinin milli və beynəlxalq qanunvericiliyə uyğun olaraq cinayət məsuliyyətinə cəlb edilməsi məqsədilə müvafiq tədbirlərin görülməsi barədə tapşırıq verilib.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə 2023-cü ilin nəticələrinə görə artımı müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Daha sonra Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Elçin Məmmədov, müavinləri Elmar Camalov və Heydər Məmmədov hesabat dövründə fəaliyyət, bu zaman yol verilmiş nöqsanlar və onların aradan qaldırılması istiqamətində görülməli tədbirlər barədə, Gəncə və Mingəçevir şəhər, Füzuli və Zəngilan rayon prokurorları hesabat dövründə görülmüş işlərlə bağlı, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi isə “Azərbaycan Respublikası Prokurorluğunun 2024-2026-cı illər üzrə Strateji İnkişaf Konsepsiyası”nın layihəsi ilə bağlı məruzələrlə çıxış edib, məruzələr ətrafında fikir mübadiləsi aparılmaqla qarşıda duran vəzifələrə dair tapşırıqlar verilib.

Kollegiya iclasına yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən uğurlu dövlətçilik siyasətini hərtərəfli dəstəkləyən prokurorluq orqanlarının bundan sonra da digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəyinə əminliyini ifadə edib.

# Baş prokuror MDB PA-nın Müşahidə Missiyası ilə görüşüb



Fevralın 5-də Baş prokuror Kamran Əliyev Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının Müşahidə Missiyasının rəhbəri, Qazaxıstan Senatının sədr müavini Jakip Asanovun rəhbərlik etdiyi, tərkibinə MDB PA Şurasının Baş katibi Dmitri Kobitskinin və digər rəsmi şəxslərin daxil oluqları nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə son 20 il ərzində aparılan genişmiqyaslı islahatların ölkəmizin bugünkü dinamik inkişafının nəticəsi olduğunu bildirib.









7 fevral tarixində keçiriləcək növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkilərinin tarixdə ilk dəfə ölkəmizin bütün suveren ərazisində keçiriləcəyini və xalqımız üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayan Baş prokuror, seçkilərin azad və demokratik şəraitdə keçirilməsi, seçicilərin azad şəkildə öz iradələrini ifadə etməsi məqsədi ilə görülən işlər, seçki qanunvericiliyinə riayət olunması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələr barədə danışıb.

Jakip Asanov, Dmitri Kobistki və digər görüş iştirakçıları Müşahidə Missiyasının ölkəmizdə olduğu müddətdə keçirdiyi görüşlərin əhəmiyyətindən söz açaraq, seçkilərin yüksək səviyyədə keçirilməsi üçün hər cür şəraitin yaradıldığını, seçki qanunvericiliyinin beynəlxalq standartlara uyğun olduğunu və seçkiqabağı hazırlıq prosesinin müsbət qiymətləndirdiklərini qeyd edərək bu işdə Mərkəzi Seçki Komissiyası ilə yanaşı prokurorluq orqanlarının əməyini yüksək qiymətləndiriblər.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Baş prokuror Kamran Əliyev BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisini qəbul edib




Fevralın 13-də Baş prokuror Kamran Əliyev Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi xanım Vladanka Andreyeva ilə görüşüb.

Qonaqları salamlayan Kamran Əliyev, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Birləşmiş Millətlər Təşkilatı və onun qurumları arasında münasibətlərin yüksək səviyyədə olmasını bildirib.

Baş prokuror həmçinin, dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un ölkəmizdə keçirilməsinin dünya ölkələrinin növbəti dəfə Azərbaycana olan böyük etimad və hörmətinin, o cümlədən ölkəmizin dünya miqyasında artan nüfuzu və güclü mövqelərinin göstəricisi olduğunu xüsusilə vurğulayıb.

BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva səmimi qəbula görə təşəkkürünü bildirərək, ölkəmizin sədrliyi çərçivəsində təşkil olunacaq COP29 kimi nüfuzlu beynəlxalq konfransın önəmindən və dünya dövlətlərinin üzləşdiyi qlobal ekoloji problemlərin həllinə töhfəsindən danışıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər, o cümlədən Baş Prokurorluqla BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) arasında cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq və sair məsələlər ətrafında faydalı müzakirələr aparılıb.






# Prokurorluq əməkdaşlarına və media qurumlarına mükafatlar təqdim olunub








Fevralın 16-da Baş Prokurorluqda Azərbaycan Respublikası Prezidentinin 30 sentyabr 2023-cü il tarixli Sərəncamına əsasən təltif edilmiş, həmçinin Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən həvəsləndirilmiş, habelə "İlin ən yaxşı müstəntiqi" və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqələrinin qalibi olmuş prokurorluq işçilərinə, eləcə də "Prokurorluğun dostu" mükafatına layiq görülmüş media nümayəndələrinə mükafatların təqdim olunması ilə bağlı tədbir keçirilib.

Əvvəlcə I Qarabağ, 44 günlük Vətən müharibələri və Qarabağ iqtisadi rayonunda keçirilmiş lokal xarakterli antiterror tədbirləri zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin, həlak olmuş vətəndaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev ölkə başçısı cənab İlham Əliyevin növbədənkənar prezident seçkilərində qalib gəlməsi ilə əlaqədar prokurorluq əməkdaşları və tədbir iştirakçılarını təbrik edərək fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi zamanı proqram xarakterli çıxışında ölkəmizin gələcək inkişafına hesablanmış konseptual məsələlər və həlli vacib olan proseslərlə bağlı səsləndirdiyi fikirlərin müasir dövrdə Respublikada qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, ictimai təhlükəsizlik və asayişin təmin olunması sahəsində prokurorluq




orqanları qarşısında yeni vəzifələr qoymasından bəhs edib, ölkəmizin hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması, hüquqi dövlət quruculuğu naminə bundan sonrakı fəaliyyətində də prokurorluq orqanlarının siyasi kursa sadiq qalacağını, verilən tapşırıq və tövsiyələrə dönmədən əməl edəcəyini xüsusilə vurğulayıb.

Qeyd olunub ki, xalqımızın qalib lideri cənab İlham Əliyevin rəhbərliyi və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın yaxından dəstəyi ilə uğurla həyata keçirilən dövlət gənclər siyasəti, o cümlədən gənc nəslin milli-mənəvi, vətənpərvər ruhda tərbiyəsinə dair fəaliyyət prokurorluq orqanlarında da gender bərabərliyi təmin olunmaqla prioritet məsələlər sırasında yer tutur.

Dövlət quruculuğunun Heydər Əliyev strategiyasını yeni müstəvidə və müasir məzmunda inkişaf etdirən Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən prokurorluq orqanlarına yüksək etimad, dövlət səviyyəsində hərtərəfli diqqət və qayğı göstərildiyi, onun fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görüldüyü tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Mərasim zamanı, ölkə başçısı cənab İlham Əliyevin xidməti sərəncamı ilə vəzifələrinin icrasında fərqlənmiş və peşəkarlıq göstərmiş prokurorluq əməkdaşlarına müvafiq medallar təqdim olunub.

Daha sonra "İlin ən yaxşı müstəntiqi" və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqələrinin təşkili və keçirilmə qaydası barədə Baş prokurorunun müavini Heydər Məmmədov çıxış edərək ətraflı məlumat verib.

Müsabiqələrin nəticələrinə əsasən "İlin ən yaxşı müstəntiqi" seçilmiş Baş Prokurorluğun İstintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi Tural Hümmət-zadəyə və "İlin ən yaxşı dövlət ittihamçısı" seçilmiş Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Rayon (şəhər) məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin Şirvan Apellyasiya







Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri üzrə prokuroru (Lənkəran rayon məhkəməsi üzrə) Zamil Mehralıyevə Baş prokuror tərəfindən diplom və mükafatlar təqdim olunub.

Bundan başqa, tədbir çərçivəsində "Prokurorluğun dostu" təltifinə layiq görülmüş media qurumlarına mükafatların təqdim edilməsi mərasimi keçirilib.

Diqqətə çatdırılıb ki, prokurorluq orqanları tərəfindən cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşma, o cümlədən vətəndaş məmnunluğunun və fəaliyyətdə aşkarlığın, hesabatlılığın və şəffaflığın təmin olunması məqsədilə media ilə işgüzar əlaqələrin






möhkəmləndirilməsi prioritet vəzifələrdən biri hesab edilir.

Qeyd edilib ki, həmin tədbirlər çərçivəsində 2023-cü ilin yekunlarına əsasən prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ şəkildə çatdırılması, prokurorluq orqanları ilə media arasında operativ və səmərəli kommunikasiyanın qurulmasında fərqlənən Azad Azərbaycan Müstəqil Teleradio Şirkəti, “Bakinski raboçi” qəzeti və “e-huquq.az” informasiya portalı “Prokurorluğun dostu” mükafatı ilə təltif olunub.

Mərasim çərçivəsində, xalqımızın Ümummili lideri müasir Azərbaycanın memarı böyük tarixi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş “Heydər Əliyev və prokurorluq” adlı kitabın təqdimatı olmuşdur.



Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar çıxış edərək dövlətimizin başçısı cənab İlham Əliyevin növbədənkənar Prezident seçkilərində qalib gəlməsi münasibəti ilə tədbir iştirakçılarını təbrik edərək prokurorluq orqanlarında aparılan islahatların cəmiyyət tərəfindən müsbət qarşılandığını qeyd edib və hüquqi dövlət quruculuğunda prokurorluğun iştirakının əhəmiyyətindən bəhs edib. Xalq yazıçısı prokurorluq orqanları tərəfindən ərsəyə gətirilmiş kitab barədə təəsüratlarını bölüşərək, kitabda zəngin məlumatların yer aldığını, nəşrin prokurorluq və digər hüquq-mühafizə orqanlarının işçiləri, prokurorluğun fəaliyyəti ilə maraqlanan oxucular və geniş hüquq ictimaiyyəti üçün faydalı və sanballı məlumat mənbəyi olacağından əminliyini ifadə edib.

Tədbirdə, həmçinin, 2023-cü ildə prokurorluq orqanları tərəfindən görülən işlər və əldə olunmuş nailiyyətlərə həsr olunan hesabat xarakterli videoçarx nümayiş olunub.

# Keniya Respublikasının Baş prokuroru ölkəmizə işgüzar səfər edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Baş Prokurorluq tərəfindən xarici dövlətlərin hüquq mühafizə orqanları ilə hüquqi əməkdaşlıq sahəsində əlaqələrin genişləndirilməsinə xüsusi önəm verilir.





Baş prokuror Kamran Əliyevin dəvəti ilə Keniya Respublikasının Baş prokuroru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti cari ilin fevral ayının 19-dan 24-dək ölkəmizdə işgüzar səfərdə olub.

Nümayəndə heyəti Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib. Qonaqlar, həmçinin Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini anıblar.

Baş Prokurorluqda keçirilmiş ikitərəfli görüş zamanı Baş prokuror Kamran



Əliyev qonaqları salamlayaraq, Azərbaycan və Keniya arasında dostluq və əməkdaşlıq əlaqələrinin gündən-gündən genişləndiyini deyib. Ölkələrimiz arasında bu il diplomatik münasibətlərin qurulmasının 20 illiyinin qeyd edilməsini bildirən Baş prokuror, 2022-ci ilin noyabr ayında Azərbaycanın Nayrobidəki Səfirliyinin təsis edilməsini ikitərəfli münasibətlərin yüksələn xətlə inkişafının göstəricisi olduğunu xüsusi vurğulayıb.










Ölkəmizin prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Keniyanın Baş prokuroru Renson İnqonqa göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, transmilli cinayətkarlığa, o cümlədən terrorçuluğa, terrorçuluğun maliyyələşdirilməsinə və korrupsiyaya qarşı mübarizə sahələrində, həmçinin prokurorların peşə hazırlığı və ixtisasartırma sahəsində təcrübə mübadiləsinin aparılması sahəsində Azərbaycan modelinin öyrənilməsində maraqlı olduğunu ifadə edib.

Kamran Əliyev ötən illərdə Azərbaycanın da terrora məruz qalmış ölkələrdən biri olmasını, Ermənistanın uzun müddət ərzində torpaqlarımızı işğal altında saxlamasını, lakin Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ərazilərinin otuz illik işğalına son qoyulduğunu, 2023-cü ilin sentyabr ayında isə ordumuz tərəfindən aparılmış lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu barədə həmkarını məlumatlandırıb. Baş prokuror ölkə rəhbərliyinin diqqət və qayğısı ilə işğaldan azad olunmuş ərazilərdə geniş quruculuq bərpa işlərinin aparıldığını bildirərək, keniyalı qonaqları Ağdam rayonuna səfərə dəvət edib.

Baş prokuror BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) cari ilin noyabr ayında Azərbaycanda keçirilməsini ölkəmizin beynəlxalq nüfuzunun sürətlə artdığının bariz nümunəsi olduğunu bildirib. Renson İnqonqa ətraf mühit və iqlim dəyişmələri məsələlərinin ölkəsi üçün vacib əhəmiyyət kəsb etdiyini, ötən ilin sentyabr ayında Afrika İqlim Sammitinin Keniyada keçirildiyini qeyd edərək, ölkəmizdə baş tutacaq mötəbər tədbirdə aktiv iştirak edəcəklərini vurğulayıb.

Kamran Əliyev qonaqlara prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar çərçivəsində "Elektron prokurorluq informasiya sistemi"nin fəaliyyəti barədə məlumat verib. Görüşdə cinayətkarlığa

qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq, beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, Beynəlxalq Prokurorlar Assosiasiyası çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi ətrafında müzakirələr aparılıb.

Qonaqlar Baş Prokurorluğun Tarix muzeyində ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olublar.

***

Nümayəndə heyəti Azərbaycanın işğaldan azad edilmiş Ağdam şəhərində səfərdə olub.

Birinci Qarabağ müharibəsi dövründə ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anaraq, xatirə abidəsi önünə gül dəstələri düzüblər.














Qonaqlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Heydər Əliyev fondunun Prezidenti, ölkəmizin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi və diqqəti ilə aparılan genişmiqyaslı bərpa quruculuq işlərinin onlarda böyük təəssürat yaratdığını vuğulayıblar.

Nümayəndə heyəti Qarabağ xanı Pənahəli xanın sarayı və ailə üzvlərinin məzarının yerləşdiyi İmarət kompleksində, Cümə Məscidi və Ağdam Dövlət dram





teatrında aparılan quruculuq bərpa işləri ilə tanış olublar.

Keniyalı prokurorlar yol boyu yaşayış məntəqələri və tarixi-mədəni abidələrdə erməni vandalizminin izlərinin şahidi olmuşlar.

Səfər çərçivəsində nümayəndə heyəti Bərdə rayon prokurorluğunun fəaliyyəti ilə tanış olub.

***

Keniyalı prokurorlar ölkəmizin prokurorluq orqanlarının, o cümlədən Baş Prokurorluğun yeni inzibati binasında yerləşən struktur qurumlarının, Baş pro-




















kuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və Bakı şəhər prokurorluğunun fəaliyyəti ilə tanış olublar.

Məhkəmə orqanlarının fəaliyyəti ilə tanışlıq məqsədilə nümayəndə heyəti Yasamal rayon məhkəməsində olub. 7 saylı ASAN Xidmətin fəaliyyəti ilə tanışlıq isə qonaqlarda yüksək təəssürat yaradıb.

Bundan başqa, qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanış olmuş, onlara Mərkəzdə yerləşən muzey və eksponatlar barədə ətraflı məlumat verilmişdir.

Heyət 44 günlük Vətən müharibəsi zamanı müzəffər Azərbaycan ordusunun işğalçı Ermənistan dövlətini döyüş meydanında məğlub etməsi nəticəsində ələ keçirdiyi hərbi qənimətlərin nümayiş olunduğu "Hərbi Qənimətlər Parkı"nda olmuş, qalibiyyətimizin əbədiləşdirilməsinə xidmət etməklə xalqımızın qürur mənbəyi hesab olunan Park qonaqlar tərəfindən böyük maraqla qarşılanmışdır.





# Xocalı faciəsinin 32-ci ildönümü ilə əlaqədar Baş Prokurorluğun rəhbərliyi "Ana harayı" abidəsini ziyarət edib











# Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib






Fevralın 29-da hüquq ictimaiyyəti üçün önəmli olan aktual mövzuların müzakirəsinə hər zaman üstünlük verən Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə keçirilən iclasda müxtəlif dövlət orqanları nümayəndələri, aparıcı ali təhsil müəssisələri, ixtisaslaşmış akademiya və elm ocaqlarını təmsil edən görkəmli hüquqşünaslar iştrirak edib.

Giriş nitqi ilə çıxış edən Baş prokuror fevralın 7-də keçirilən azad, ədalətli, şəffaf və bütün beynəlxalq standartlara cavab verən növbədənkənar prezident seçkiləri və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin seçkidə parlaq qələbəsindən söz açaraq bu zəfərin yeni dövrdə ölkəmizdə bütün sahələrdə elmi-texnoloji inkişafa, müasir texnologiyaların tətbiqinin genişləndirilməsinə böyük təkan olacağını diqqətə çatdırıb.

Vurğulanmışdır ki, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və dünyanın ən aktual bəşəri problemlərinin müzakirə edildiyi mühüm beynəlxalq platforma olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un Azərbaycanda keçirilməsi




ölkəmiz üçün çox əhəmiyyətli bir il olacağını göstərir.

Bundan başqa, müasir dövrün tələblərinə uyğun olaraq cinayət təqibinin üsul və vasitələri, cinayət prosesi və onun tərkib hissəsi kimi cinayət ədalət mühakiməsinin rəqəmsallaşmaya məruz qalmasını nəzərə alaraq, elektron cinayət təqibinin xüsusiyyətlərinin müzakirəsi və bu sahədə müvafiq təkliflərin hazırlanmasının zəruriliyi qeyd olunub.

Daha sonra prokurorluq əməkdaşları tərəfindən "Elektron cinayət təqibinin tətbiqi ilə bağlı qanunvericiliyin, hüquq tətbiqi təcrübəsinin hazırkı vəziyyəti və qarşıda duran vəzifələr", "Elektron cinayət təqibinin tətbiqi ilə bağlı xarici ölkələrin təcrübəsi", "Azərbaycanda elektron cinayət təqibinin tətbiqi ilə bağlı təkliflər", "Cinayət təqibi zamanı blokçeyn texnologiyalarının tətbiqi imkanları" mövzularında məruzələr edilib, digər Şura üzvlərinin rəy və təklifləri dinlənilib.

İclasda, həmçinin, Baş Prokurorluğun müvafiq idarələri tərəfindən hazırlanmış "Cinayət aktivlərinin aşkarlanması, izlənməsi və bərpası", eləcə də, "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar qanunvericlik və istintaq təcrübəsi" adlı metodik vəsaitlərin təqdimatı keçirilib.












Sonda, Azərbaycan Respublikası Baş Prokurorluğunun "Azərbaycan Prokuroru" elmi jurnalının ikinci buraxılışının təqdimatı keçirilib.

Qeyd olunan elmi nəşr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə və beynəlxalq standartlara uyğun şəkildə dərc olunur.

# 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Baş Prokurorluqda tədbir keçirilib








Martın 7-də Baş Prokurorluqda 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev qadın prokurorluq işçilərini, dövlət qulluqçularını və veteran xanımları bayram münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzu edib.

Baş prokuror, 8 Mart Beynəlxalq Qadınlar Gününün uzun illərdən sonra ilk dəfə bütün ölkə ərazisində, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdə qeyd edildiyini, bunun böyük bir tarixi hadisə olduğunu bildirib.

Vurğulanıb ki, 19 sentyabr 2023-cü il tarixdə keçirilmiş lokal xarakterli anti-terror tədbirləri nəticəsində dövlət suverenliyimiz bütün Azərbaycan Respublikasında bərpa edilib, 15 oktyabr 2023-cü il tarixdə Müzəffər Ali Baş Komandan tərəfindən bayrağımızın Xocalıda, Ağdərədə, Əsgəranda, Xankəndidə qaldırılmaqla həmin ərazilərdə Azərbaycan Respublikasının dövlət qurumlarının, o cümlədən prokurorluq orqanlarının fəaliyyəti bərpa edilib.

Cari il fevral ayının 7-də növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri zamanı xalqımızın növbəti dəfə öz müdrikliyini göstərdiyi və Azərbaycan xalqına müasir tarixinin ən böyük nailiyyətini bəxş etmiş Müzəffər sərkərdəsinin gördüyü işlərə cavab verərək layiqli Liderini yenidən seçdiyi xüsusilə qeyd edilib.

Bu tarixi nailiyyətlərin əldə edilməsində Azərbaycan qadınının müstəsna rolundan danışan Kamran Əliyev, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründən başlayaraq Azərbaycanda qadınların ictimai fəallığının yüksək səviyyədə olduğunu, qadınlar dövlət idarəçiliyinin müxtəlif səviyyələrində, parlamentdə, hökumətdə, hakimiyyət orqanlarında, elm, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sahələrdə fəal rol oynadığını diqqətə çatdırıb.

Ümummilli liderimiz tərəfindən əsası qoyulan bu siyasətin dövlət başçısı cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirildiyi qeyd edilərək, bunun nəticəsində ölkəmizdə qadın hüquqlarının yüksək səviyyədə qorunduğu, qadınlarımızın bütün strukturlarda ön sıralarda fəaliyyət göstərdikləri bildirilib.

Xüsusi qeyd olunub ki, ölkəmizin tərəqqisində və əldə olunan uğurlarda, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında dövlət başçısı cənab İlham Əliyevin ən sadiq silahdaşı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın zəngin və yorulmaz fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Qadınların ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində də yüksək sədaqət və peşəkarlıq göstərdikləri, onların peşəkar hüquqşünas və qanun keşikçiləri






olmaqla yanaşı, hüquq sistemində pozitiv dəyişikliklərin baş verməsində mühüm rol oynadıqları bildirilib.

Hazırda prokurorluq işçisi olan qadınlardan 105 nəfərin müsabiqə yolu ilə işə qəbul edildiyi vurğulanaraq diqqətə çatdırılıb ki, onlardan 10 nəfər rəhbər vəzifədə, o cümlədən 1-i idarə rəisi, 3-ü idarə rəisinin müavini, 1-i şöbə rəisi, 4-ü rayon prokuroru və 1-i isə rayon prokurorunun müavini vəzifəsində işləyir.

Prokurorluq orqanlarında uzun müddət fəaliyyət göstərmiş Əntiqə Qonaqova və Dövlət ittihamının müdafiəsi üzrə idarənin prokuroru Elfanə Bayramova çıxış edərək, göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ictimai həyatın bütün sahələrində gender bərabərliyinin inkişaf etdirilməsi üçün mühüm işlər görüldüyünü, həyata keçirilən gender bərabərliyi siyasətinin prokurorluq orqanlarında uğurla davam etdirilməsinin yüksək qiymətləndirildiyini vurğulayıb.

Daha sonra xidməti fəaliyyətdə fərqlənən qadın prokurorluq əməkdaşlarına və veteran xanımlara mükafatlar təqdim olunub.

Tədbir zamanı prokurorluqda çalışan xanım əməkdaşların fəaliyyətinə həsr olunan "Zərif Güc" adlı qısa film nümayiş olunub.



# Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraçı direktoru ölkəmizə səfər edib



Baş prokuror Kamran Əliyevin dəvəti ilə dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) İcraçı Direktoru Yanne Holst Hübner cari ilin mart ayının 11-dan 14-dək ölkəmizdə işgüzar səfərdə olub.



Qonağı səmimi salamlayan Baş prokuror, IAP-ın vitse-prezidenti Kamran Əliyev ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatların tərkib hissəsi kimi rəqəmsallaşma sahəsində görülən işlər barədə məlumatlandırıb.

2024-cü ilin sentyabr ayında ölkəmizin ev sahibliyi ilə keçiriləcək IAP-ın 29-cu İllik Konfrans və Ümumi Yığıncağına hazırlıq işlərinin gedişatı və bir sıra təşkilati məsələlər müzakirə edilib.

Baş prokuror həmçinin bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) barədə məlumat verərək, İAP-ın Bakıda keçiriləcək 29-cu illik konfransı zamanı dünya prokurorları arasında hüquq mühafizə orqanlarının iqlim dəyişikliyi ilə mübarizədə səfərbər olunması, habelə ekoloji cinayətlərə qarşı birgə mübarizə mövzularının təşviq və müzakirə olunmasının vacibliyini vurğulayıb.















Yanne Holst Hübner səmimi qəbula görə minnətdarlığını ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirib, milli prokurorluq orqanlarımızın rəhbərliyi tərəfindən Assosiasiyanın işinə verilən dəyərli töhfə və daimi dəstəyə görə təşəkkür edib.

Səfər çərçivəsində İcraçı Direktor Naxçıvan şəhərində olub, Heydər Əliyev muzeyini ziyarət edib, ümummilli liderin həyat və fəaliyyətinə aid fotoşəkil və eksponatlarla tanış olub. Qonaq Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti ilə tanış olaraq gənc prokurorluq əməkdaşları ilə görüş keçirib.

2024-cü ildə ölkəmizin ev sahibliyi ilə keçiriləcək BPA-nın 29-cu İllik Konfransı və Ümumi Yığıncağına hazırlıq məqsədilə yaradılmış yerli təşkilat komitəsinin iclası keçirilib, bir sıra təşkilati məsələlər müzakirə edilib.

## Baş Prokurorluğun əməkdaşları martın 18-də Akademik Milli Dram Teatrında yazıçı-dramaturq İlyas Əfəndiyevin pyesi əsasında hazırlanmış “Qarabağnamə” tamaşasını izləyib











# Rusiya Federasiyası İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfər edib











Baş prokuror Kamran Əliyevin dəvətilə martın 19-da Rusiya Federasiyası İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub.

İlk öncə nümayəndə heyəti Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib.

Daha sonra Şəhidlər Xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri düzüblər.

Azərbaycan Respublikasının Baş Prokurorluğunda keçirilmiş ikitərəfli görüşdə Baş prokuror Kamran Əliyev ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçıları cənab İlham Əliyev və cənab Vladimir Putinin birgə səyləri və siyasi iradələri sayəsində bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, ikitərəfli münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini qeyd edib.

Baş prokuror 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunduğunu, ötən ilin sentyabr ayında isə 24 saatdan az davam edən lokal xarakterli antiterror əməliyyatlarının uğurla başa çatması ilə

dövlət suverenliyinin bütün ölkə ərazisində bərpa edildiyini vurğulayıb.

Kamran Əliyev, həmçinin müharibədən sonrakı dövrdə ölkə Prezidentinin və Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi və diqqəti ilə işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinin həyata keçirilməsi, soydaşlarımızın doğma yurdlarına qayıdışı və bu istiqamətdə görülən sistemli işlərdən bəhs edib.

Baş prokuror prokurorluqda aparılan genişmiqyaslı islahatlar çərçivəsində Elektron prokurorluq informasiya sisteminin fəaliyyəti barədə qonaqlara məlumat verib.

Dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçiriləcəyini bildirən Baş prokuror, istintaq orqanlarının ekoloji sahədə törədilən hüquqpozmalara qarşı gördüyü tədbirlərin önəmini vurğulayıb.

Azərbaycan Respublikasının prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Aleksandr Bastrıkin göstərilən yüksək qonaqpərvərliyə görə dərin minnətdarlığını bildirib. İki dost və tərəfdaş dövlətin istintaq orqanları arasında uzunmüddətli sıx əlaqələrin olduğunu bildirən qonaq, prokurorluq orqanlarının müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin təqdirəlayiq olduğunu vurğulayıb.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılıb.

Nümayəndə heyəti üzvləri daha sonra Baş Prokurorluğun tarix muzeyində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə yaradılmış guşə, Azərbaycan Pro-

















kurorluğunun zəngin tarixi, prokurorluq işçilərinin geyim formaları və fərqlənmə nişanlarının nümayiş olunduğu bölmə, eləcə də digər sənəd və eksponatlarla tanış olublar.

Əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Rusiya Federasiyasının İstintaq Komitəsi arasında 2024-2026-cı illər üçün Əməkdaşlıq Proqramı imzalanıb. İmzalanma mərasimi çərçivəsində Aleksandr Bastrıkin Baş prokuror Kamran Əliyevi “Vəzifə borcuna sadiqliyə görə” medalı ilə, Baş prokuror isə həmkarını “Azərbaycan Prokurorluğunun 100 illiyi” yubiley medalı ilə təltif edib.

Ölkəmizə işgüzar səfəri çərçivəsində A.Bastrıkin Baş Prokurorluğun, eləcə də digər istintaq qurumlarının rəhbərləri və əməkdaşları, həmçinin Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvlərinin və vəkillərin qatıldığı Baş Prokurorluğun yeni inzibati binasında təşkil olunmuş “İstintaq təcrübəsinin aktual problemləri” mövzusuna həsr olunmuş elmi-praktik konfransda iştirak edib. İstintaq Komitəsinin sədri konfransda geniş mühazirə ilə çıxış edərək, tədbir iştirakçılarının suallarını cavablandırıb.

# Baş prokuror bölgələrdə vətəndaşları qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.***

**BEYLƏQAN**








Yanvarın 16-da Baş prokuror Kamran Əliyev Beyləqan rayon prokurorluğunun inzibati binasında Beyləqan, Ağcabədi, Füzuli, İmişli, Laçın, Xocavənd rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 71 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan












cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

### XƏZƏR

Yanvarın 30-da Baş prokuror Kamran Əliyev Xəzər rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Xəzər, Pirallahı rayonları və Respublikanın digər bölgələrindən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 34 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun












pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələrə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Bundan başqa, Baş prokuror Kamran Əliyev Pirallahı rayon prokurorluğunun tikilməkdə olan yeni inzibati binasına baxış keçirərək inşaat işləri ilə yerində tanış olub.



### SAATLI

Fevralın 9-da Baş prokuror Kamran Əliyev Saatlı rayon prokurorluğunun inzibati binasında Saatlı, Sabirabad, Biləsuvar, Cəbrayıl rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 86 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli
















mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## QARADAĞ








Fevralın 28-də Baş prokuror Kamran Əliyev Qaradağ rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Qaradağ rayonu və Respublikanın digər bölgələrindən olan vətəndaşları qəbul edib.




Qəbulda iştirak edən 36 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələrə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## CƏLİLABAD

Martın 5-də Baş prokuror Kamran Əliyev Cəlilabad rayon prokurorluğunun inzibati binasında Cəlilabad, Masallı, Yardımlı rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.




Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.
















Qəbulda iştirak edən 75 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## SURAXANI











Martın 15-də Baş prokuror Kamran Əliyev Suraxanı rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Suraxanı və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 49 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

**Qəbullardan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.**

# Prokurorluq orqanlarında qulluğa qəbulla bağlı müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər üçün icbari təlim keçirilib















Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq orqanlarına qulluğa qəbulla əlaqədar 2023-cü ildə elan edilmiş müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər üçün icbari təlim təşkil edilib.

Ötən ilin dekabr ayının 11-dən əyani şəkildə davam edən icbari təlim cari ilin yanvar ayının 9-da yekunlaşıb.

İlkin peşə vərdişlərinin formalaşdırılmasına xidmət edən təlim cinayət hüququ, cinayət prosesi ilə yanaşı, əməliyyat-axtarış fəaliyyəti, kriminologiya, inzibati hüquq, kriminalistika, prokuror nəzarətinin təşkili, habelə Baş Prokurorluqda işin təşkili məsələlərini əhatə edən ümumilikdə 80-dən çox mühazirə və praktiki məşğələləri özündə ehtiva edib.




Praktiki biliklərin əhəmiyyətini nəzərə alaraq, təlim çərçivəsində namizədlər Bakı şəhərinin tabe rayon prokurorluqlarında keçirilən istintaq hərəkətlərini real şəraitdə müşahidə edib, Ədliyyə Nazirliyinin Bakı İstintaq Təcridxanası, eləcə də Səhiyyə Nazirliyi “Məhkəmə-tibbi ekspertiza və patoloji anatomiya birliyi”nin fəaliyyəti ilə yaxından tanış olublar.

Gənc hüquqşünasların vətənpərvər, milli-mənəvi dəyərlərimizə sadiq ruhda yetişdirilməsinin zəruriliyini nəzərə alaraq, təlimdə bir çox mədəni-maarifləndirici tədbirlərə üstünlük verilmiş, Ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini təbliğ edən Heydər Əliyev Mərkəzi, Baş Prokurorluğun muzeyi, Tarixi-memorial qalereyası və kitabxanası ilə tanışlığa xüsusi diqqət ayrılıb.

İcbari təlimi müvəffəqiyyətlə başa çatdırmış namizədlərə müvafiq şəhadətnamələr təqdim edilib.

# Baş Prokurorluğun və Mediasiya Şurasının birgə təşkilatçılığı ilə təlim keçirilib














Yanvarın 17-də Azərbaycan Respublikası Baş Prokurorluğu və Mediasiya Şurasının birgə təşkilatçılığı ilə Baş Prokurorluqda "Əsas insan hüquq və azadlıqlarının qorunmasında prokurorluq orqanlarının rolu" mövzusunda təlim keçirilmişdir.

Təlimdə iştirak edən ümumilikdə 64 nəfər mediatora Baş Prokurorluğun əməkdaşları tərəfindən prokurorluq orqanlarının ümumi fəaliyyəti barədə məlumat verilmiş, mediasiya haqqında qanunvericiliyin pozulması, inzibati xətalar və cinayət qanunvericiliyi normalarının tətbiqi halları, ağır və xüsusilə ağır cinayət hadisələri barədə məlumat vermə mexanizmi, yetkinlik yaşına çatmayanlar və qadınların hüquqlarının müdafiə edilməsi, məişət zorakılığı hallarının aşkar edilməsi, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, korrupsiya və vəzifə cinayətləri mövzuları ətrafında seminarlar keçirilmişdir.

Təlimdə həmçinin qarşılıqlı fikir mübadiləsi əsasında mediasiya haqqında qanunvericiliyin inkişafı perspektivi, mediasiya prosesinin rəqəmsallaşdırılması sahəsində Baş Prokurorluğun təcrübəsinin tətbiqi məsələləri müzakirə edilmişdir.

Təlimin sonunda iştirakçılara Baş Prokurorluğun sertifikatları təqdim edilmişdir.

# Baş Prokurorluq BMT-nin qurumu ilə birgə təlim təşkil edib













Baş Prokurorluq və Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsinin (UNODC) birgə təşkilatçılığı ilə Baş Prokurorluqda "İnsan alverinə qarşı mübarizə sahəsində qurumlararası əməkdaşlıq və əsas strateji tərəfdaşlarla mübadilə" mövzusunda təlim keçirilib.

Tədbirin açılış mərasimində Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Natiq Abdullayev çıxış edərək ölkəmizdə insan alverinə qarşı mübarizəyə və cinayət qurbanlarının reabilitasiyasına xüsusi önəm verilməsi, bu sahədə görülmüş işlər və qəbul edilmiş qanunvericilik və normativ aktlar, Milli Fəaliyyət planları, istintaq olunan cinayət işləri barədə iştirakçılara məlumat verib.

Sözügedən seminara hakimlər, prokurorluq, daxili işlər orqanlarında insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən əməkdaşlar və BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin ekspertləri cəlb olunub.

Tədbir çərçivəsində BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının və həmin Konvensiyaya əlavə "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolunun səmərəli həyata keçirilməsi üzrə potensialının artırılması, o cümlədən insan alveri cinayətlərinə qarşı mübarizənin daha da təkmilləşdirilməsi və cinayət işləri kontekstində beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində qarşılıqlı təqdimatlarla çıxışlar edilib, mövzu ətrafında səmərəli müzakirələr aparılıb.

# Prokurorluq və gömrük orqanları arasında təcrübə mübadiləsi sahəsində əməkdaşlıq uğurla davam etdirilir







Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirin tətbiqi institutu sahəsində prokurorluq və gömrük orqanları arasında təcrübə mübadiləsinin aparılması məqsədilə Dövlət Gömrük Akademiyası və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən kompleks işlər görülür.

Tədbirlərin davamı olaraq, cari ilin 26-31 yanvar tarixlərində Dövlət Gömrük Komitəsinin müstəntiq və təhqiqatçıları Baş Prokurorluğun əməkdaşları ilə "Hüquqi şəxslər barəsində cinayət təqibinin aparılması xüsusiyyətləri" mövzusunda tədris tədbirlərində iştirak edib.

Təcrübə mübadiləsi zamanı iştirakçılar hüquqi şəxslərin cinayət təqibinin müxtəlif aspektləri, o cümlədən xarakterik sübutetmə metodları, əməllərin tövsifi qaydaları, tipologiyalar, bu institutun beynəlxalq standartlar və milli hüquq prizmasında nəzəri aspektləri, habelə digər aktual məsələləri əhatə edən tədris tədbirlərində iştirak edib.

Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsinin, eləcə də Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin inzibati binalarında təşkil edilmiş tədrisə hər iki qurumun məsul və təcrübəli əməkdaşları təlimçi qismində cəlb edilib.

Tədbirin sonuncu günündə Dövlət Gömrük Komitəsinin nümayəndələri Baş Prokurorluğun Zəfər muzeyi, kriminalistik laboratoriyası və digər guşələri ilə tanış olublar.







# “Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının təmin edilməsində prokurorluq orqanlarının rolu” mövzusunda seminar keçirilib








Yanvarın 31-də Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi tərəfindən tabe rayon (şəhər) prokurorluqlarının işçiləri üçün "Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının təmin edilməsində prokurorluq orqanlarının rolu" mövzusunda distant formada seminar keçirilmişdir.

Seminarda mühazirəçi kimi iştirak edən Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin prokuroru Pərvanə Bayramova tərəfindən dinləyicilərə seçki hüququnun konstitusion əsasları, seçki sisteminin sosial-siyasi mahiyyəti, seçki mübahisələrinin həll olunması üsulları, vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) şikayətlər üzrə müvafiq prokurorluq orqanlarına müraciət edilmə halları və qaydası, eləcə də seçki subyektlərinin toxunulmazlıq və təhlükəsizlik məsələləri barədə ətraflı məlumat verilmişdir.

# Baş Prokurorluqda dövlət qulluqçuları üçün təlim təşkil edilib








Fevralın 13-də Baş Prokurorluqda "Dövlət qulluğunda qanunvericiliyin tətbiqi və korrupsiyaya qarşı mübarizə" mövzusunda təlim keçirilib.

Hibrid formatda keçirilmiş təlimdə Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi Natiq Hüseynov açılış nitqi ilə çıxış edərək, Azərbaycan prokurorluğunda həyata keçirilən müasir məzmunlu kadr siyasəti çərçivəsində dövlət qulluqçularının fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də reallaşdırılan digər tədbirlər barədə iştirakçılara geniş məlumat verib.

Təlim zamanı "Hüquqi dövlət quruculuğunda Heydər Əliyevin irsi", "Korrupsiyaya qarşı mübarizə sahəsində dövlət qulluqçularının vəzifə və öhdəlikləri", "Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi qaydaları" və "Dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi" mövzularında çıxış və təqdimatlar edilib.




# Prokurorluq işçiləri "Akademik hüquqi yazı" mövzusunda təlimə cəlb edilib









Prokurorluğun elmi potensialının gücləndirilməsi, təcrübədə rast gələnən problemlərə sistemli, elmi-əsaslandırılmış həlli yollarının tapılması, prokurorlar arasında peşəkar elmi debatların təşfiq edilməsi daim diqqət mərkəzində saxlanılır.

Prokurorluq işçilərinin elmi yazı qabiliyyətlərininin formalaşdırılması məqsədilə cari ilin fevral ayının 21-də Baş Prokurorluqda hibrid formatda təşkil olunmuş tədbirə Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının professoru, hüquq elmləri doktoru Əmir Əliyev və İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru Gülnaz Rzayeva təlimçi qismində cəlb olunub.

Təlim çərçivəsində 55 nəfərdən ibarət dinləyici auditoriyasına (25 nəfər əyani, 30 nəfər distant) "Uğurlu akademik yazının hazırlanması mərhələləri" "Akademik yazı üçün vacib şərtlər", "Akademik yazının səciyyəvi xüsusiyyətləri" və sair mövzularda mühazirələr tədris edilərək, dinləyicilərin sualları cavablandırılmışdır.

# Əməliyyat-axtarış fəaliyyətini həyata keçirən qurumların əməkdaşları Elm-Tədris Mərkəzində təşkil edilmiş təlimdə iştirak ediblər







Baş Prokurorluğun Elm-Tədris Mərkəzində cari ilin 20–22 fevral tarixlərində əməliyyat-axtarış fəaliyyətini həyata keçirən daxili işlər, gömrük, sərhəd orqanlarının və digər qurumların əməkdaşları üçün "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər üzrə əməliyyat-axtarış fəaliyyətinin xüsusiyyətləri və aktual problemləri" mövzusunda təlim təşkil edilib.

Tədris tədbirinə təlimçi qismində Baş Prokurorluğun, Daxili İşlər Nazirliyi Polis Akademiyasının və Dövlət Gömrük Komitəsi Akademiyasının müvafiq sahədə nəzəri və praktiki biliklərə malik təcrübəli işçiləri cəlb edilib.

İştirakçılara narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər üzrə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin taktiki xüsusiyyətləri, bu qəbildən olan cinayətlər üzrə istifadə edilən müasir informasiya texnologiyaları və kriminalistik vasitələr, yol verilən nöqsanlar və onların ibtidai araşdırma üzrə sübutetməyə təsiri, habelə əməliyyat-axtarış fəaliyyətinə prokuror və məhkəmə nəzarəti eləcə də, digər praktiki əhəmiyyət kəsb edən aktual mövzular tədris edilib.

Mühazirə, təqdimat, təcrübə mübadiləsi və sair formada həyata keçirilmiş təlim çərçivəsində iştirakçıları maraqlandırılan suallar ətraflı cavablandırılıb.






# Baş Prokurorluqda “Dövlət qulluğunda qanunvericiliyin tətbiqi və korrupsiyaya qarşı mübarizə” mövzusunda təlim keçirilib
















Martın 5-də Baş Prokurorluğun Kadrlar idarəsi və Elm-Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə prokurorluq orqanlarında xüsusi rütbəsi olmayan, dövlət qulluğunda çalışan işçilər üçün “Dövlət qulluğunda qanunvericiliyin tətbiqi və korrupsiyaya qarşı mübarizə” mövzusunda təlim keçirilib.

Qarışıq formatda keçirilən və 229 nəfərin dinləyici qismində cəlb olunduğu təlimin məqsədi Baş Prokurorluqda dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi qaydaları, dövlət qulluğunda etik dəyərlər, habelə korrupsiyaya qarşı mübarizə sahəsində dövlət qulluqçularının vəzifə və öhdəlikləri ilə bağlı müvafiq maarifləndirmə işinin aparılmasından ibarət olub.

Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi Natiq Hüseynov tədbirin açılışını edərək, müasir Azərbaycan prokurorluğunda dövlət qulluqçularının rolu barədə iştirakçılara geniş məlumat verib. Daha sonra çıxış edən Baş Prokurorluğun əməkdaşları “Hüquqi dövlət quruculuğunda Heydər Əliyevin irsi”, “Korrupsiyaya qarşı mübarizə sahəsində dövlət qulluqçularının vəzifə və öhdəlikləri”, “Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi qaydaları” və “Dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi” mövzularından bəhs ediblər.

# Prokurorluq və polis əməkdaşları üçün yerlərdə seminarlar təşkil olunub











İbtidai istintaqın keyfiyyəti və səmərəliyinin artırılması üçün hüquq mühafizə orqanları əməkdaşlarının peşə vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə 2024-cü ilin fevral ayının 12-dən mart ayının 6-dək Azərbaycan Respublikası Baş prokurorunun müvafiq Sərəncamına uyğun olaraq Daxili İşlər Nazirliyinin aidiyyəti idarələrinin, Bakı, Gəncə, Sumqayıt və Şirvan şəhər, eləcə də Bərdə və Yevlax rayon prokurorluqlarının əməkdaşları üçün qarışıq formatda seminarlar keçirilib.

Qeyd olunan qurum və ərazilərdə fəaliyyət göstərən 53 prokurorluq işçisi və 119 polis əməkdaşı üçün təşkil olunmuş seminarlarda təlimçi qismində Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin, Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin və Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin aidiyyəti əməkdaşları iştirak edib.

Müasir informasiya-kommunikasiya texnologiyalardan, habelə təhlil-tədqiqat materiallarından geniş istifadə etməklə keçirilmiş seminarlar çərçivəsində Cinayət Prosessual Məcəlləsinin 303, 318-ci maddələrinə əsasən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlara qaytarılmış, həmçinin bəraət hökmləri çıxarılmış cinayət işləri üzrə sübutetmə problemləri və onların hüquqi nəticələri tədris edilmiş, bu kateqoriya işlərin ibtidai istintaqı zamanı yol verilmiş nöqsanlar, eləcə də məhkəmənin hazırlıq iclası və məhkəmə baxışı zamanı aşkar edilmiş prosessual pozuntular müzakirə predmeti olmuşdur.

# Baş Prokurorluqda Dövlət Gömrük Komitəsi Akademiyasının tələbələri ilə görüş keçirilib




Gənc hüquqşünasların hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə olan marağını nəzərə alaraq mart ayının 6-7-si tarixlərində Baş Prokurorluqda Dövlət Gömrük Komitəsi Akademiyasının hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri ilə görüş təşkil edilib.

Tədbirin birinci günündə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin müvafiq sahədə zəruri bilik və təcrübəyə malik əməkdaşları tərəfindən Baş İdarənin strukturu və funksiyaları ilə bağlı təqdimat keçirilib, habelə Baş İdarənin idarə və şöbələrinin fəaliyyəti barədə tələbələrə geniş məlumat verilib. Görüş zamanı gənc hüquqşünaslar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binası ilə tanış olub, onlara “161-Qaynar xətt Əlaqə Mərkəzi”, “Giriş-çıxış və qeydiyyat” İdarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemindən (İAMAS) istifadə, kitabxana, vətəndaşların qəbulu və mobil kriminalistik laboratoriyalı avtomobillərdən istifadə ilə bağlı əyani şəkildə məlumat verilib.





Tədbirin növbəti günündə tələbələr Baş Prokurorluğun inzibati binalar kompleksi ilə, prokurorluq əməkdaşları üçün



yaradılmış iş şəraiti, istifadədə olan kriminalistik texnika, habelə müvafiq idarələrin fəaliyyəti ilə tanış olublar.

Daha sonra tarixi-memorial qalereya, kitabxana, istintaq otaqları, tədris auditoriyaları, iclas zalları, həmçinin kriminalistik otaqlar və kriminalistika avtomobilləri ilə tanış olublar.





# Dövlət ittihamı fəaliyyətində səmərəliliyin artırılması istiqamətində tədbirlər davam etdirilir




Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin tapşırığına əsasən dövlət ittihamı fəaliyyətinin səmərəliliyinin artırılması və bu sahədə işin müasir tələblər səviyyəsində qurulması məqsədilə Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin regional iclaslarının keçirilməsinə başlanmışdır.





Martın 9-da Sumqayıt şəhər prokurorluğunun inzibati binasında Sumqayıt Apellyasiya məhkəməsinin yurisdiksiyasında olan rayon (şəhər), ağır cinayətlər və apellyasiya məhkəmələrinin dövlət ittihamçılarının iştirakı ilə keçirilmiş regional iclasda dövlət ittihamçılarının fəaliyyəti ilə əlaqədar qarşıda duran vəzifələr, vahid məhkəmə təcrübəsi və cəza siyasətinin formalaşdırılmasında dövlət ittihamçılarının rolu, istintaq qurumları ilə səmərəli qarşılıqlı əməkdaşlığın qurulması, Cinayət-Prosessual Məcəlləsinin 303-cü maddəsinə əsasən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılmış cinayət işlərinin təhlili, istintaq qurumlarının fəaliyyətində bəraət hökmlərinin qəbul edilməsi ilə nəticələnən pozuntu və çatışmazlıqlar, habelə məhkəmə səhvləri, bəraət hökmləri, protestlərin verilməsi təcrübəsi kimi məsələlər ətrafında geniş müzakirələr aparılmış, Baş prokuror Kamran Əliyevin tapşırıq və tövsiyələri iclas iştirakçılarının nəzərinə çatdırılmışdır.

Eyni zamanda, dövlət ittihamçıları tərəfindən "Elektron Prokurorluq" informasiya sistemi, o cümlədən "Elektron Dövlət İttihamı" proqramlarından istifadə vəziyyəti ilə yerində tanış olunmaqla, bu sahədə konkret tələblər və qarşıda duran vəzifələr müəyyən edilmişdir.

# Prokurorluq əməkdaşları “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində təşkil olunan təlimdə iştirak edib

Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamına əsasən, 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar ölkəmizdə çoxşaxəli və əhəmiyyətli tədbirlər keçirilir.



Tədbirlərin davamı olaraq, martın 12-də Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının təşkilatçılığı ilə “Prezident İlham Əliyevin yeni dövlətçilik texnologiyaları: COP29-a aparan yol” mövzusunda təlim keçirilib.



Mərkəzi və yerli icra hakimiyyəti orqanlarının təlim mərkəzləri ilə yanaşı, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin də dəvət olunduğu təlimdə prokurorluq əməkdaşları onlayn formatda iştirak edib.




Təlim zamanı Akademiyanın rektoru, akademik Urxan Ələkbərov təqdimatla müşayiət olunan çıxış edib, daha sonra isə faydalı fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini Talıb Cəfərov dəvətə, əhatəli təqdimata və əldə edilmiş nəzəri biliklərə görə təlimin təşkilatçılarına minnətdarlığını bildirməklə bu qəbildən olan tədbirlərin əhəmiyyətindən bəhs edib.

# Bakı Dövlət Universitetinin tələbələri Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub





Gənc hüquqşünasların prokurorluq orqanlarının fəaliyyəti və tarixinə olan marağını nəzərə alaraq, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin təşkilatçılığı ilə martın 13-də Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri Baş Prokurorluğun Tarix muzeyi ilə tanış edilib.

Tanışlıq zamanı Muzeyin yaradılması, prokurorluğun fəaliyyətini əks etdirən müxtəlif guşələrdəki eksponatlarla bağlı tələbələrə ətraflı məlumat verilib.

Bununla yanaşı tələbələr ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə yaradılmış guşə, Muzeyin zalları, prokurorluq işçilərinin geyim formaları və fərqlənmə nişanlarının nümayiş olunduğu xüsusi hazırlanmış bölmə, eləcə də digər sənəd və eksponatlarla tanış olublar.

Tədbirin sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb.





# Baş Prokurorluqda məişət zorakılığına qarşı mübarizə, eləcə də uşaq hüquqlarının müdafiəsi ilə bağlı növbəti təlim keçirilib




















Baş Prokurorluğun Elm-Tədris Mərkəzində cari ilin mart ayının 28 və 29-da "Məişət zorakılığına qarşı mübarizə: qanunvericilik və onun tətbiqi təcrübəsi" mövzusunda təlim keçirilib.

Təlimə prokurorluq və daxili işlər orqanlarının əməkdaşları olmaqla, ümumilikdə 50 nəfər dinləyici cəlb olunub.

Tədris tədbirində Baş Prokurorluğun əməkdaşları ilə yanaşı Daxili İşlər Nazirliyinin Polis Akademiyasının, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət, "Təmiz Dünya" qadınlara yardım ictimai birliyinin məsul əməkdaşları, eləcə də bu sahədə zəruri nəzəri bilikləri və tədqiqat təcrübəsi olan Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya kafedrasının müəllimləri təlimçi qismində iştirak edib.

Təlim çərçivəsində məişət zorakılığına qarşı mübarizə sahəsində həyata keçirilən dövlət proqramları, bu əməllərə qarşı cinayət və inzibati hüquqi mübarizənin xüsusiyyətləri, gender bərabərliyi və məişət zorakılığına qarşı mübarizə sahəsində vətəndaş cəmiyyətinin rolu, bu qəbildən olan əməllərin qurbanı olmuş azyaşlılarla davranışın psixoloji aspektləri və zərərçəkmişlərin psixoloji reabilitasiyası barədə dinləyicilərə ətraflı məlumatlar verilib.

Həmçinin, təlim zamanı insan alverinə qarşı mübarizə sahəsində hüquq mühafizə orqanlarının vəzifələri, cinayətdən zərər çəkmiş, cinayətin şahidi olmuş qadınların və uşaqların müdafiəsi, məişət zorakılığının qarşısının alınması sahəsində daxili işlər orqanlarının fəaliyyəti, insan alverinə qarşı mübarizə sahəsində aidiyyəti dövlət orqanlarının vəzifələri və digər aktual mövzular tədris olunub, iştirakçıları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Maliyyə Monitorinqi Xidmətinin nümayəndələri ilə növbəti görüş keçirilib





Cari ilin 14 fevral tarixində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Maliyyə Monitorinqi Xidmətinin nümayəndələri ilə görüş keçirilib.

Qarşılıqlı fikir mübadiləsi formatında keçirilən tədbirin məqsədi "Çirkli Pulların Yuyulmasına və Terrorizmin Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi"nin (MONEYVAL) ölkəmiz üzrə qəbul edilmiş 5-ci raund qiymətləndirmə hesabatının təhlili, habelə növbəti monitorinq mərhələsinə hazırlıq çərçivəsində görüləcək işlərin müzakirəsi olub.









Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Baş prokurorunun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov ölkəmizdə bu sahədə həyata keçirilən işlərdə prokurorluq orqanlarının mühüm rolundan bəhs edib, Baş İdarədə həmin növ cinayətlərin istintaqı ilə bağlı formalaşmış təcrübəyə toxunmaqla, gələcəkdə həmin istiqamətdə cinayət təqibinin keyfiyyətinin daha da artırılmasından, habelə bu növ hüquqpozmaların müasir dövrə xarakterik yeni tipologiyalarından söz açıb.

Daha sonra çıxış edən Maliyyə Monitorinqi Xidmətinin (MMX) İdarə Heyətinin sədri Zaur Fətizadə son beş il ərzində Azərbaycanda çirkli pulların yuyulması sahəsində görülmüş işlər və əldə edilmiş nailiyyətlərin MONEYVAL Komitəsi tərəfindən məqbul qiymətləndirilməsini dövlət orqanlarının qarşılıqlı səmərəli fəaliyyətindən irəli gəldiyini qeyd etməklə, bu müsbət tendensiyanın davam etdirilməsi üçün zəruri olan bir sıra hüquqi və praktiki məsələlərdən danışıb, mövcud çətinliklərin yaxın perespektivdə həlli yollarını diqqətə çatdırıb.

Tədbirdə müvafiq sahə üzrə ixtisaslaşmış prokurorluq və MMX əməkdaşları tərəfindən cinayət təqibinin effektivliyinin artırılması, şübhəli maliyyə əməliyyatlarına dair istintaq orqanına təqdim olunmuş məlumatlardan səmərəli istifadə imkanları, qurumlararası koordinasiyalı fəaliyyətin daha da möhkəmləndirilməsi və digər aktual məsələlər ətrafında fikirlər səsləndirilib, bir sıra səmərəli təkliflər irəli sürülüb.

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmə tədbiri keçirilib







Cari ilin 23 fevral tarixində Azərbaycan Respublikasının Baş Prokurorluğu, Gənclər Fondu və Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının Azərbaycan Milli Nümayəndəliyinin (ELSA Azərbaycan) təşkilatçılığı ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında "Antikorrupsiya sahəsində Hüquq Akademiyası" adlı təlimə start verilmişdir.

Üç gün davam etməsi nəzərdə tutulmaqla Vəkillər Kollegiyası və Gənclər Fondunun səlahiyyətli nümayəndələri, o cümlədən, Bakı Dövlət Universiteti, Azərbaycan Diplomatiya Akademiyası, Dövlət İdarəçilik Akademiyası, Polis Akademiyası və Milli Aviasiya Akademiyası kimi ali təhsil müəssisələrinin Hüquq fakültələrinin müəllim və tələbə heyətinin dinləyici, müvafiq sahədə zəruri bilik və təcrübəyə malik prokurorluq əməkdaşlarının təlimçi qismində iştirak etdiyi tədbirin başlıca məqsədi korrupsiya və qulluq mənafeyi əleyhinə olan cinayətlər, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və digər əlaqəli hüquqpozmalara qarşı mübarizə sahəsi üzrə ölkəmizdə görülmüş işlərə dair gənclərin maarifləndirilməsi, habelə, qeyd edilən sferalarda aparılan mübarizə tədbirlərinin həyata keçirilməsi prosesində gənc nəslin iştirakının təmin edilməsi ilə bağlı onların həvəsləndirilməsi olmuşdur.

Qarşılıqlı müzakirələr formatında baş tutmuş tədbirin ilk günündə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin təcrübəli əməkdaşları tərəfindən "Korrupsiyanın yaranma tarixi və təzahür formaları", "Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq mexanizmlər" və "Özəl və dövlət sektorunda korrupsiya" mövzuları üzrə mühazirələr oxunmuş, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş

effektiv islahatlara dair çıxışlar həyata keçirilməklə ətraflı məlumat verilmiş, habelə, dinləyicilər tərəfindən verilmiş suallar təlimçilər tərəfindən cavablandırılmışdır.

Təlimin davamında gənc hüquqşünaslar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binası və fəaliyyəti ilə tanış olmuşlar, habelə, onlara qurumun struktur və funksiyaları barədə ətraflı məlumat verilmişdir.











# Hərbi Prokurorluqda Xocalı soyqırımının otuz ikinci ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilib



22.02.2024-cü il tarixdə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun inzibati binasında yerləşməklə onun nəzdində fəaliyyət göstərən Soyqırımı Memorial Muzeyində Xocalı soyqırımının otuz ikinci ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilib.



Tədbirdə Hərbi Prokurorluğun işçiləri, Xocalı Rayon İcra Hakimiyyətinin əməkdaşları, millət vəkilləri, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin və Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin üzvləri, Xocalı sakinləri, habelə ictimaiyyət və mətbuat nümayəndələri iştirak etmişlər.

Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək, nəhəng tarixi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Konfrans iştirakçıları Memorial Soyqırımı Muzeyini ziyarət edib, onlara muzey və orada saxlanılan tarixi həqiqətləri, o cümlədən Xocalı soyqırımı haqqında reallığı özündə əks etdirən eksponatlar barədə ətraflı məlumat verilib, Xocalı soyqırımı qurbanlarına həsr edilmiş slayd nümayiş etdirilib.

Bundan sonra, konfransı açıq elan edən Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev 2024-cü il 7 fevral tarixdə keçirilmiş Prezident seçkilərində dahi şəxsiyyət Heydər Əliyevin ən layiqli davamçısı İlham Əliyevin parlaq və mütləq qələbəsinin Azərbaycan xalqının ən böyük uğuru olduğunu xüsusi vurğulayaraq, son 20 ildə ölkəmizin əldə etdiyi misli görünməmiş nailiyyətlərdən, o cümlədən tarixi torpaqlarımızın işğaldan azad edilməsindən, həmin ərazilərdə həyata keçirilən abadlıq-quruculuq işlərindən bəhs etdi. Hərbi prokuror Xanlar Vəliyev bildirdi ki, əldə olunan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm rolu olmuşdur.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev konfrans iştirakçılarının diqqətini Xocalı soyqırımına yönəltməklə, o müdhiş gecədə baş verənlərdən, hadisələrin necə cərəyan etməsindən ətraflı danışaraq, bütün bunların Hərbi Prokurorluqda istintaq olunan cinayət işinin materiallarında toplanmış mötəbər dəlillərlə sübuta yetirildiyini bildirib.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına ilk dəfə siyasi və hüquqi qiymət verildiyini vurğulayan Xanlar Vəliyev, tarixi torpaqlarımızın işğal olunması, Azərbaycan xalqına qarşı törədilən deportasiyalar, soyqırımlar, terrorlar və insanlığa sığmayan vəhşiliklərlə törədilmiş digər cinayətlər barədə konfrans iştirakçılarına ətraflı məlumat verməklə, qeyd edib ki, bu barədə tarixi reallıqların dünya ictimaiyyətinə çatdırılması, onlara beynəlxalq səviyyədə obyektiv və ədalətli, yəni həqiqətə və milli maraqlarımıza uyğun münasibət bildirilməsinə müvəffəq olunması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin həyata keçirdiyi mükəmməl siyasətin, o cümlədən uğurlu





xarici siyasətin, eləcə də dövlət başçısının müstəsna xidmətlərinin, müdrik liderin səlis cümlələrlə və tarixi faktlara əsaslanan məntiqli fikirlərlə zəngin çıxışlarının və müsahibələrinin nəticəsidir.

Ötən əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının son dərəcə mühümlüyünü qeyd edən ədliyyə general-leytenantı Xanlar Vəliyev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətdə görülən nəhəng işlər, o cümlədən Heydər Əliyev Fondunun səmərəli fəaliyyəti barədə tədbir iştirakçılarına geniş məlumat verib.

Hərbi Prokuror Xanlar Vəliyev Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın həyata keçirdiyi "Xocalıya Ədalət!" kampaniyasından, o cümlədən Xocalı soyqırımı haqqında doğru və dolğun məlumatların bütün dünyaya yayılması ilə bağlı yorulmaz fəaliyyətindən söz açıb.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev qeyd edib ki, Azərbaycan Respublikasının işğalda olmuş ərazilərində törədilmiş sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq cinayətlərinin, o cümlədən Xocalı soyqırımının və digər cinayətlərin istintaqı və onlara hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş şəxslərin müəyyən edilib mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb edilməsi, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədilə istintaq-əməliyyat qrupu yaradılmış, 05.05.2005-ci il tarixdən isə təşəbbüsü əsasında həmin cinayət işinin istintaqı ibtidai araşdırmaya prosessual rəhbərlik Respublika Hərbi prokuroruna həvalə edilməklə, Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna tapşırılıb.

Cinayət işi üzrə ümumilikdə 81.000-dən artıq istintaq hərəkəti icra edilmiş, o cümlədən 29.000-dən artıq şəxs zərərçəkmiş şəxs və zərərçəkmiş şəxsin hüquqi varisi qismində tanınaraq dindirilmiş, 30.000-dən artıq şəxs şahid qismində dindirilmiş, 18.000-dən artıq şəxs isə mülki iddiaçı qismində tanınmış, 4.000-ə yaxın müxtəlif növ ekspertizalar keçirilmiş, 34.000-ə yaxın prosessual qərarlar qəbul edilmiş və digər çoxsaylı zəruri istintaq hərəkətləri yerinə yetirilmişdir.

Cinayət işinin istintaqı zamanı konkret olaraq Xocalı epizodu üzrə sülh və insanlıq əleyhinə cinayətlər törətmələri sübuta yetirilmiş 40 nəfər şəxsin barəsində onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü (Soyqırımı), 107-ci (Əhalini deportasiya etmə və ya məcburi köçürmə), 113-cü (İşgəncə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul edilib, barələrində məhkəmə qərarlarına əsasən həbs qətimkan tədbiri seçilib və axtarışlarının təmin edilməsi üçün sənədlər İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosuna və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə göndərilib. Təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxslərin sırasında sabiq müdafiə naziri Ohanyan Seyran Muşeqoviç də vardır. Hazırda hərtərəfli istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bundan sonra, millət vəkilləri Sevinc Fətəliyeva, Sevinc Hüseynova, Məşhur Məmmədov, Mahir Abbaszadə, Emin Hacıyev, Azərbaycanın Milli Qəhrəmanı, şəhid Füzuli Rüstəmovun bacısı Fiqurə Rüstəmova və digər şəxslər də bəşəriyyətin ən böyük faciələrindən biri olan Xocalı soyqırımı barədə çıxışlar edib və ətraflı fikir mübadiləsi aparıblar.

Daha sonra Azərbaycan Respublikası Hərbi Prokurorluğunun təşəbbüsü ilə hazırlanmış soyqırımı haqqında "Əsrin faciəsi" rəqəmsal videodiski nümayiş etdirilib.

# Hərbi prokuror Xanlar Vəliyev Şuşa və Xankəndidə hərbçilərlə görüşüb







Novruz bayramı ərəfəsində, 14.03.2024-cü il tarixdə Baş prokurorun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev Müdafiə Nazirliyinin yüksək rütbəli vəzifəli şəxsləri ilə birlikdə Şuşa və Xankəndidə yerləşən hissə və bölmələrdə hərbi qulluqçularla görüşərək, bayram tədbirləri keçiriblər.

Tədbir iştirakçıları Vətən və millət qarşısında misilsiz xidmətləri olan xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Hərbçiləri Novruz bayramı münasibətilə təbrik edən Hərbi prokuror Xanlar Vəliyev çıxışında bildirib ki, müasir Azərbaycanın memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin zəngin elmi bilikləri, yüksək erudisiyası, mükəmməl siyasi strategiyası, sarsılmaz qətiyyəti və yorulmaz fəaliyyəti ilə xalqın müdrik düşüncəsi və əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə rəğmən, dövlətimiz qüdrətlənir, işğaldan azad olunmuş ərazilər də daxil olmaqla regionlarımız hərtərəfli inkişaf edir və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. Ədliyyə general-leytenantı Xanlar Vəliyev qeyd edib ki, ölkəmizin sürətli tərəqqisində və qazanılan uğurlarda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

Respublikamızın dinamik inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də rəvac verdiyini vurğulayan









ədliyyə general-leytenant Xanlar Vəliyev bildirib ki, son illər Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, arsenalı ən müasir silah-sursat, hərbi texnika və digər avadanlıqlarla bir qədər də zənginləşib, həmçinin hərbçilərin sosial vəziyyəti davamlı olaraq yaxşılaşıb, mənəvi-psixoloji hazırlıq səviyyəsi və döyüş əhvali-ruhiyyəsi yüksəlib, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşıb. Vətən müharibəsindən və antiterror tədbirlərindən bəhs edən Xanlar Vəliyev, Müzəffər Ali Baş Komandan İlham Əliyevin mahir diplomatiyasından və yüksək sərkərdəlik məharətindən, Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyindən, xalqımızın əzmkarlığından, Silahlı Qüvvələrin misilsiz rəşadətindən, hərbçilərimizin qəhrəmanlığından danışaraq əldə olunan möhtəşəm tarixi Qələbəni, tarixi torpaqlarımızın azad olunmasını Prezident-Xalq birliyinin şərtləndirdiyini xüsusi vurğulayıb.

Digər çıxış edənlər də xalq-dövlət-ordu həmrəyliyinin möhtəşəm gücündən danışıblar. Ardınca hüquqi maarifləndirici mövzularda çıxışlar edilib, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb. Hərbi prokuror əsgər və zabitlərin qayğı və problemləri ilə maraqlanıb, onlarla birlikdə nahar edib. Hərbi hissələrə müxtəlif bayram sovqatları, üzərinə düşən vəzifələri nümunəvi icra etməklə xidmətdə fərqlənənlərə isə qiymətli hədiyyələr təqdim olunub.

Tədbirin yekununda cari ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar müxtəlif ağaclar əkilib.



# Hərbi Prokurorluq işçiləri Müdafiə Nazirliyinin vəzifəli şəxsləri ilə birgə Novruz bayramı ərəfəsində hərbi hissələrdə olublar





Cari ilin mart ayının 11-dən 19-dək Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mərkəzi Aparatının və ərazi hərbi prokurorluqlarının rəhbər vəzifəli şəxsləri Müdafiə Nazirliyinin yüksəkrütbəli zabitləri, hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların yerli icra hakimiyyəti orqanlarının rəhbərləri ilə birgə Vətənin müxtəlif bölgələrində, o cümlədən işğaldan azad edilmiş tarixi torpaqlarımızda yerləşən hərbi hissə və bölmələrdə hərbi qulluqçularla görüşüblər.

Görüş iştirakçıları Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Bundan sonra, Ulu Öndər Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələblərinə uyğun davam etdirən Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün istiqamətlər üzrə qazandığı uğurlardan, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımızın hərtərəfli inkişafından, Azərbaycanın əzəmətinin daha da artaraq dünya ölkələri sırasında böyük nüfuz və söz sahibinə çevrilməsindən, Silahlı Qüvvələrimizin qüdrətindən bəhs olunaraq, qazanılan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-









prezidenti Mehriban xanım Əliyevanın zəngin fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilib. Eyni zamanda, Vətən müharibəsində əldə olunan möhtəşəm Qələbə və lokal xarakterli antiterror tədbirləri xüsusi vurğulanmaqla qürur dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Ardınca qonaqlar hüquqi maarifləndirici mövzularda çıxışlar edib, hərbi qulluqçuların suallarını cavablandırıb, onların qayğı və problemləri ilə maraqlanıblar. Həmçinin hərbi hissələrə müxtəlif bayram sovqatları, üzərinə düşən vəzifələri nümunəvi icra etməklə xidmətdə fərqlənənlərə isə qiymətli hədiyyələr təqdim olunub.

Sonda 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar müxtəlif ağaclar əkilib.






# Novruz bayramı ilə əlaqədar Hərbi Prokurorluq işçiləri DİN-in vəzifəli şəxsləri ilə birgə hərbi hissələrdə olublar





Cari ilin mart ayının 11-dən 19-dək Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mərkəzi Aparatının və ərazi hərbi prokurorluqlarının əməkdaşları Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yüksəkrütbəli zabitləri və hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların yerli icra hakimiyyəti orqanlarının rəhbərləri ilə birgə Vətənin müxtəlif bölgələrində, o cümlədən işğaldan azad edilmiş tarixi torpaqlarımızda yerləşən hərbi hissə və bölmələrdə hərbi qulluqçularla görüşüblər.

Görüş iştirakçıları Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Sonra Ulu Öndər Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələblərinə uyğun davam etdirən Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün istiqamətlər üzrə qazandığı











uğurlardan, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımızın hərtərəfli inkişafından, Azərbaycanın əzəmətinin daha da artaraq dünya ölkələri sırasında böyük nüfuz və söz sahibinə çevrilməsindən, Silahlı Qüvvələrimizin qüdrətindən bəhs olunaraq, qazanılan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın zəngin fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub. Eyni zamanda, Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə və lokal xarakterli antiterror tədbirləri xüsusi vurğulanmaqla qürur dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Ardınca qonaqlar hüquqi maarifləndirici mövzularda çıxışlar edib, hərbi qulluqçuların suallarını cavablandırıb, onların qayğı və problemləri ilə maraqlanıblar. Həmçinin hərbi hissələrə müxtəlif bayram sovqatları, üzərinə düşən vəzifələri nümunəvi icra etməklə xidmətdə fərqlənənlərə isə qiymətli hədiyyələr təqdim olunub.

Sonda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar müxtəlif ağaclar əkilib və Novruz tonqalları alovlandırılıb.



# Hərbi Prokurorluq işçiləri Dövlət Sərhəd Xidmətinin yüksəkrütbəli zabitləri ilə birgə hərbi hissələrdə görüşlər keçirib

Novruz bayramı münasibətilə cari ilin mart ayının 11-dən 19-dək Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mərkəzi Aparatının və ərazi hərbi prokurorluqlarının əməkdaşları Dövlət Sərhəd Xidmətinin yüksəkrütbəli zabitləri, hərbi hissələrin dislokasiya olunduğu müvafiq ərazilərin yerli icra hakimiyyəti orqanlarının rəhbərləri ilə birgə Vətənin müxtəlif bölgələrində, o cümlədən işğaldan azad edilmiş tarixi torpaqlarımızda yerləşən hərbi hissə və bölmələrdə hərbi qulluqçularla görüşüblər.

Tədbir iştirakçıları Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Bundan sonra, Ulu Öndər Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələblərinə uyğun davam etdirən Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün istiqamətlər üzrə qazandığı uğurlardan, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımızın hərtərəfli inkişafından, Azərbaycanın əzəmətinin daha da artaraq dünya ölkələri sırasında böyük nüfuz və söz sahibinə çevrilməsindən, Silahlı Qüvvələrimizin qüdrətindən bəhs olunaraq, qazanılan uğurlarda Azərbay-













can Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın zəngin fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilib. Eyni zamanda, Vətən müharibəsində əldə olunan möhtəşəm Qələbə və lokal xarakterli antiterror tədbirləri xüsusi vurğulanmaqla qürur dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Ardınca qonaqlar hüquqi maarifləndirici mövzularda çıxışlar edib, hərbi qulluqçuların suallarını cavablandırıb, onların qayğı və problemləri ilə maraqlanıblar. Həmçinin hərbi hissələrə müxtəlif bayram sovqatları, üzərinə düşən vəzifələri nümunəvi icra etməklə xidmətdə fərqlənənlərə isə qiymətli hədiyyələr təqdim olunub.

Sonda 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar müxtəlif ağaclar əkilib və Novruz tonqalları alovlandırılıb.



# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən şagirdlər üçün maarifləndici tədbirlər təşkil edilib







Cari ilin yanvar ayının 26-dan mart ayının 15-dək Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları Muxtar Respublikanın ümumtəhsil məktəblərində "Erkən nikah ilə faciəsinin təməlidir" mövzusunda maarifləndici tədbirlər keçirib.

Dəyirmi masa formatında keçirilən tədbirlərdə qeyd olunub ki, cəmiyyətin təməli olan ailənin əsasını qadın və kişi arasında müəyyən qaydada bağlanmış nikah təşkil edir. Beləliklə, bəşəriyyətin əvəzolunmaz sərvəti sayılan insanın biri digərində öz həyatının tamamlayıcısını tapır.

Nikaha daxil olan vətəndaşlar ailə qurmaqda təkcə bir-birləri qarşısında deyil, eyni zamanda cəmiyyət qarşısında yeni hüquq və vəzifələr əldə edir, məsuliyyət daşıyırlar. Nikah, qanunla müəyyən edilmiş qayda və şərtlərə riayət etməklə bağlanılan, ər-arvad arasında şəxsi əmlak hüquq və vəzifələrini doğuran qadınla kişinin azad, könüllü və bərabərhüquqlu ittifaqıdır. Qanunla müəyyən olunmuş qayda və şərtlər dedikdə, Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən nikaha daxil olan tərəflərin, yəni qadın və kişinin 18 yaşı olması nəzərdə tutulur. Bəzən elə hallar olur ki, tərəflər yaşlarının rəsmi nikah üçün müəyyən olunmuş yaş həddindən aşağı olmasına baxmayaraq qeyri-rəsmi nikaha daxil olurlar. Belə nikahlar erkən nikah hesab olunur. Erkən nikahlar özündə uşağın rifahına qarşı ciddi təhlükə daşıyır. Bu formada olan nikahlar həm qızlara, həm də oğlanlara təsir edir, evli uşağın sağlam yaşamaq və inkişaf etmək kimi başlıca fundamental hüquqlarını əlindən alır. Evlənməkdə və ərə getməkdə əsas məqsəd ailə həyatı qurmaq, birlikdə xoşbəxt yaşamaq və dünyaya sağlam övlad gətirməkdir. Ancaq təcrübə bunu göstərir ki, erkən yaşda qurulan ailələrdə bunların heç birindən söhbət gedə bilməz.

Erkən nikah ailə məsələlərində ciddi məqamlardan biridir, ailənin və ailə üzvlərinin taleyinə birbaşa təsir edir. Bu absurd nikah əsasında qurulan ailələrdə nikahın pozulması, məişət zorakılığı, xəstə uşaqların







dünyaya gəlməsi, fiziki-psixoloji çətinliklər, təhsildən kənarlaşma və şəxsi azadlıqların itirilməsi kimi mənfi nəticələr qaçılmazdır. Bu yaşda qurulan ailələr çox vaxt ailə funksiyasını yerinə yetirə bilmir, nəsil artımında böyük çətinliklərlə üz-üzə qalmış olur. Erkən yaşda oğlan və qızların ailə qurması həm həkimlər, həm də psixoloqlar tərəfindən düzgün hesab edilmir. Çünki onların fiziki və psixi cəhətdən formalaşması, inkişaf etməsi yetkinlik yaşına çatdıqdan sonra reallaşır.

Tədbirlər çərçivəsində qeyd olunub ki, erkən nikaha daxil olmuş qadının öz şəxsi həyatına, ictimai inkişafına təsir imkanları azalır və ya tamamilə yox olur. Erkən nikahlar təhsil artırmaq həvəsini və imkanlarını azaldır, savadsızlığın artmasına səbəb olur. Çünki, erkən nikaha daxil olan qızların əksəriyyəti, nəinki ali təhsil, hətta tam orta təhsili başa vura bilmir. Bu daha bir problemin təməlini qoyur. Belə ki, təhsilin yetərincə olmaması cəmiyyətin inkişafında qadınların rolunu məhdudlaşdırır, balans pozulur. Ailənin dayaq nöqtəsi olan ana üçün hər hansı bir sədd keçilməz olur, yaranacaq problemlərin çözülməsində aciz qalır, ali savadlı bir xanım kimi hər hansı bir işlə təmin olunmur, iqtisadi asılılığın qurbanına çevrilir.

Qeyd edilən maarifləndici tədbirlərin sonunda yetkinlik yaşına çatmayanların sualları ətraflı cavablandırılıb.





# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşəbbüsü ilə tabe rayon (şəhər) prokurorluqlarında insan hüquqlarının müdafiəsi mövzusunda seminarlar keçirilib

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin təşkilatçılığı ilə cari ilin fevralın 20-də Babək, Culfa və Ordubad rayon prokurorluqlarında, fevralın 21-də Naxçıvan şəhər və Şahbuz rayon prokurorluqlarında, fevralın 22-də isə Şərur, Kəngərli və Sədərək rayon prokurorluqlarında polis əməkdaşlarının iştirakı ilə şəxsin tutulması və həbs edilməsi zamanı insan hüquqlarının pozulması, işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar, vəzifədən sui-istifadə və digər bu kimi hallarla bağlı beynəlxalq hüquqi sənədlərin və qanunvericiliyin tələblərinin öyrənilməsi ilə bağlı seminarlar keçirilib.

Seminarlarda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi Faiq Səfərov tədbir iştirakçılarına bildirib ki, "İşgəncələrin və qeyri-insani, yaxud insan ləyaqətini alçaldan rəftarın və ya cəzaların qarşısının alınması haqqında Avropa Konvensiyasının tətbiqinə dair" Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili İşlər Nazirliyi ilə 14.10.2023-cü il tarixli 09-40/3-13/Ə598/2023 №-li birgə əmri imzalanmışdır. Həmin əmrlə ibtidai araşdırma zamanı işgəncə vermə, döyülmə, yaxud digər formada qeyri-insani rəftar və ya fiziki və psixi zor göstərilməklə müşayiət olunan təzyiqlər tətbiq edilməsi barədə məlumat daxil olarsa, hər fakt üzrə ayrıca icraat açılmalı, dərhal məhkəmə-tibb ekspertizası təyin

















edilərək məlumat yoxlanılmalıdır. Habelə məhkəmə-tibb ekspertiza ilə bağlı şəxsin müayinəsində müdafiəçinin iştirakı, eləcə də araşdırmanın tam, hərtərəfli və obyektiv aparılması təmin edilməlidir. Məlumat təsdiq olunarsa, həmin fakt üzrə cinayət işi başlanıb istintaq aparılması, belə hərəkətlərə yol vermiş vəzifəli şəxs barəsində qanunla nəzərdə tutulmuş tədbirlərin görülməsi tələb edilir.

Seminarlar çərçivəsində vurğulanıb ki, "İnsan hüquqları haqqında" Ümumi Bəyannaməyə, "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı" BMT-nin Konvensiyasına, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Roma Konvensiyasına, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına, eləcə də "Mülkı və sıyası hüquqlar haqqında" Beynəlxalq Pakta əsasən heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsində də təsbit olunub ki, heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.

Seminarlarda bu sahəni tənzimləyən digər normativ hüquqi aktlar müzakirə obyekti olaraq, tədbir iştirakçılarını maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun iştirakı ilə Naxçıvan Dövlət Universitetində Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilib





Cari ilin fevral ayının 23-də Naxçıvan Dövlət Universitetində Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş "Soyqırım cinayəti: hüquq müstəvisində" adlı panel müzakirə keçirilib.

Panel müzakirənin moderatoru Naxçıvan Dövlət Universitetinin əməkdaşı, qonaqları isə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Prokurorluğunun əməkdaşları, habelə Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvləri olub.

Panel müzakirədə Xocalı qurbanlarının xatirəsini bir daha yad edərək, çıxış edən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov tədbir iştirakçılarına "İnsan hüquqları haqqında" Ümumi Bəyannamədə təsbit olunmuş hər kəsin yaşamaq hüququ, Avropa İnsan Hüquqları Konvensiyasında təsbit olunmuş yaşamaq, azadlıq və toxunulmazlıq hüququ, BMT-nin icra edə bilmədiyi və Azərbaycan Respublikasının özünün icra etdiyi BMT-nin 4 qətnaməsi haqqında məlumat verib. Eyni zamanda çıxışında Faiq Səfərov xalqımıza qarşı törədilən sülh və insanlıq əleyhinə olan cinayətlər, o cümlədən soyqırımlar barədə, eləcə də XX əsrin ən böyük faciəsi olan Xocalı soyqırımı haqqında tarixi həqiqətləri tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbir çərçivəsində tələbələrin sualları ətrafında geniş müzakirələr aparılıb.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları UNİCEF-in təlimlərinə cəlb edilib




BMT-nin Uşaq Fondu olan UNİCEF-in Azərbaycan Nümayəndəliyi Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə Naxçıvan Muxtar Respublikasında cari ilin mart ayının 11-dən 15-dək təlimlər keçirib.

"Yuvenal ədliyyə və uşaq ədliyyəsində beynəlxalq standartlar, mülki və cinayət prosedurlarında uşaqyönümlü ünsiyyət və yanaşmanın tətbiqi" mövzusunda keçirilən bu təlimlərdə prokurorluq işçiləri ilə yanaşı, məhkəmə, icra və probasiya orqanlarının, eləcə də Ombudsman Aparatının əməkdaşları iştirak edib.



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri və Yuvenal Ədliyyə Mərkəzinin rəhbəri çıxış edərək "Uşaq hüquqları haqqında" BMT-nin Konvensiyasının müddəalarının tələblərinə uyğun həyata keçirilən dövlət siyasətindən, Azərbaycanda Yuvenal Ədliyyə Sistemi sahəsində qazanılmış təcrübə və görülmüş işlər haqqında məlumat veriblər.

Təlimlərdə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, UNİCEF-in təlimçi-eksperti hüquq-mühafizə orqanlarında çalışan əməkdaşların uşaqlarla ünsiyyət və davranışından danışıb, "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin sədri "Uşaqların inkişaf dövrləri və yaş xüsusiyyətləri uşaqların ümdə maraqlarının qorunmasında əhəmiyyətli proses kimi" mövzusunda təlim keçirib, Yuvenal Ədliyyə Mərkəzinin psixoloqu "Cinayətdən zərər çəkən və cinayətə şahid olan uşaqların viktimizasiyası və onun aradan qaldırılması" mövzusunda çıxış edib.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Ordubad şəhər internat məktəbinin şagirdlərini ziyarət ediblər




Cari ilin mart ayının 15-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illik yubileyi və Novruz bayramı münasibəti ilə Məhəmməd Füzuli adına Ordubad şəhər tam orta internat məktəbinin şagirdlərini ziyarət ediblər, şagirdlərlə söhbət aparıblar, onların qayğı və problemləri ilə maraqlanıblar.

Görüş zamanı şagirdlərə məktəb ləvazimatları, ərzaq məhsulları, bir qrupuna isə geyim dəstləri hədiyyə edilib. Sonda şagirdlərlə birgə xatirə şəkli çəkdirilib.

# Baş Prokurorluqda ATƏT-in DTİHB Seçki Müşahidə Missiyası ilə görüş keçirilib









Yanvarın 31-də Baş prokurorun birinci müavini Elçin Məmmədov ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının rəhbəri Ouen Mörfinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Cari ilin fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkilərinin azad və demokratik şəraitdə keçirilməsi, seçicilərin azad şəkildə öz iradələrini ifadə etməsi məqsədi ilə görülən işlərdən danışan Elçin Məmmədov seçki qanunvericiliyinin pozulması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələr barədə ətraflı məlumat verib.

Ouen Mörfi ölkəmizdə olduğu müddətdə keçirdiyi görüşlərin əhəmiyyətindən söz açaraq azad seçki mühitinin və seçki ilə əlaqədar şikayətlərə vaxtında hüquqi qiymət verilməsinin önəmini vurğulayıb. Missiya rəhbəri Mərkəzi Seçki Komissiyası ilə yanaşı prokurorluq orqanlarının maarifləndirmə sahəsindəki əməyini yüksək qiymətləndirib.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir



Cari ilin 22-23 yanvar tarixlərində Fransanın Strasburq şəhərində "Korrupsiya risklərinin qiymətləndirilməsi və idarə olunması üsulları" mövzusunda təşkil edilmiş regional seminar keçirilib.




Tədbir çərçivəsində regionda korrupsiya risklərinin qiymətləndirilməsi və idarə olunması metodlarının təkmilləşdirilməsinin mümkün yolları barədə müzakirələr, həmçinin müsbət təcrübələrin mübadiləsi aparılıb.

Seminarda iştirak edən Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Nicat Nağıyev, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Murad Bayramlı və Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin baş məsləhətçisi Şəhla İmanovadan ibarət heyət tərəfindən 2020-2022-ci illər üzrə "Açıq hökumətin təşviqinə dair" və 2022—2026-cı illəri əhatə edən "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair" Milli Fəaliyyət Planları çərçivəsində qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, dövlət orqanlarının fəaliyyətində korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınmasına dair metodologiya və qaydaların hazırlanması istiqamətində görülmüş işlər və gələcək planlar barədə tədbir iştirakçılarına ətraflı məlumat verilərək, maraq doğuran suallar cavablandırılıb.

# Beynəlxalq təşkilatlarla əməkdaşlıq davam etdirilir





Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair qarşıya qoyulmuş hədəflərə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanları bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.

Belə ki, cari il fevral ayının 1-də "Azərbaycan İnvestisiya Holdinqi (AİH) və portfelində olan dövlət müəssisələrində korporativ idarəetmənin təhlili" layihəsi çərçivəsində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Dünya Bankının ekspertlərindən ibarət nümayəndə heyətinə rəhbərlik edən Talisa zur Hausen ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində görüş keçirilmişdir.

Layihə çərçivəsində OECD tərəfindən AİH və onun portfelində olan dövlət müəssisələrində mülkiyyət, korporativ idarəetmə və tənzimləmə məsələləri qiymətləndirilməklə beynəlxalq standartlara uyğun tövsiyələrin verilməsi nəzərdə tutulur.

Keçirilmiş görüş zamanı nümayəndələrimiz tərəfindən sözügedən sahəyə xarakterik hüquqpozmaların araşdırılması üzrə ixtisaslaşdırılmış prokurorluq orqanının təcrübəsinə istinad edilməklə xarici ekspertləri maraqlandıran suallar cavablandırılmış, habelə ölkəmizdə milli qanunvericiliyin təkmilləşdirilməsi, qabaqlayıcı tədbirlərin görülməsi, beynəlxalq əməkdaşlıq və korrupsiyaya qarşı mübarizə siyasətinin digər aspektləri ətrafında səmərəli fikir mübadiləsi aparılmışdır.

# Prokurorluq əməkdaşları beynəlxalq tədbirdə iştirak edib





Prokurorluq əməkdaşlarının beynəlxalq təcrübəni öyrənməklə peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və əldə edilmiş biliklərin təcrübədə tətbiq etməsi istiqamətində işlər davam etdirilir.

Bu məqsədlə prokurorluq əməkdaşlarının beynəlxalq təlim kurslarında, konfranslarda, seminarlarda və digər tədbirlərdə iştirakı təmin olunur.

Belə ki, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Samirə Nəcəfzadə, Qazax rayon prokuroru Rauf Gözəlov və Kəlbəcər rayon prokuroru Vüqar Əhmədlidən ibarət heyət cari ilin 28 fevral - 1 mart tarixlərində Belçikanın Brüssel şəhərində təşkil olunan "Transsərhəd mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə prokurorların beynəlxalq forumu" adlı seminarında iştirak edib.

Tədbir çərçivəsində mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində müxtəlif ölkələrin təcrübəsi, müasir çağırışlar və beynəlxalq hüquqi əməkdaşlıq məsələləri müzakirə olunub.

Nümayəndə heyəti xarici prokurorluqlardan olan həmkarları ilə qurumlararası əməkdaşlığın inkişaf etdirilməsi və qarşılıqlı hüquqi yardım və ekstradisiya haqqında sorğuların icrasının tezləşdirilməsi, həmçinin maraq doğuran digər məsələlər ətrafında faydalı fikir mübadiləsi aparıblar.

# Baş Prokurorluğun əməkdaşı BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının iclasında iştirak edib







Cari il mart ayının 18-22 tarixlərində Vyana şəhərində BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının 67-ci sessiyasının iclası keçirilib.

İclasda Azərbaycan Respublikasının Baş Prokurorluğunu Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev təmsil edib.

Komissiyanın iclasları zamanı narkotiklərə nəzarət üzrə beynəlxalq müqavilələrin və narkotik siyasəti üzrə öhdəliklərin həyata keçirilməsi, dünyada narkotik probleminin həlli və ona qarşı mübarizədə qurumlararası əməkdaşlıq və səylərin əlaqələndirilməsi, o cümlədən komissiyanın yardımçı orqanlarının tövsiyələri ilə bağlı məsələlər müzakirə edilib, həmçinin 23 yeni narkotik vasitə, psixotrop maddə və onların prekursorları qadağan edilmiş maddələrin siyahısına əlavə olunub və 4 yeni qətnamə qəbul edilib.

# Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatları

### "Respublika Perinatal Mərkəzi" Publik Hüquqi Şəxsində baş vermiş yanğınla bağlı 3 vəzifəli şəxs cinayət məsuliyyətinə cəlb edilib 10.01.2024




Yanvarın 9-da "Respublika Perinatal Mərkəzi" PHŞ-nin inzibati binasında baş vermiş yanğınla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin 225.3 (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılmışdır.

İlkin istintaq tədbirləri nəticəsində tibb müəssisəsinin 3 vəzifəli şəxsinin qanunsuz əməlləri ifşa edilmişdir. Belə ki, toplanmış sübutlarla Mərkəzin direktoru Mehriban Abasquliyeva tərəfindən müəssisədə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi işinin düzgün təşkil olunmaması, hadisənin baş verdiyi Mərkəzin Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsinin Yenidoğulmuşların intensiv terapiya bölməsinin yerləşdiyi dördüncü mərtəbədəki palatasında tibbi avadanlıqların düzgün istismar olunmaması, palatada normadan artıq tibbi avadanlıqların istifadə edilməsi, habelə elektrik qidalandırıcılarda əvvəlki günlərdən yaranmış nasazlığın vaxtında aradan qaldırılmasını təmin etməməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Həmçinin, istintaqla Mərkəzin Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsinin müdiri Hamlet Mustafayev və Dəstək Xidmətləri şöbəsinin müdiri Elnur Əhmədlinin yanğın təhlükəsizliyinin təmin edilməsinə dair qaydaları pozmaları nəticəsində müəssisədə standartlara uyğun olmayan elektrik cihazlarından istifadə edilməsi, habelə istismara yararsız olan və qəza törədə bilən elektrik cihazlarındakı nöqsanların vaxtında aradan qaldırılmaması, bundan başqa çoxsaylı tibbi avadanlıqların elektrik xəttlərinin gücü və dözümlülüyü nəzərə alınmadan davamlı və nizamsız şəkildə xəstələrin müalicə alındığı palatalarda yerləşdirilməsi və istismarına əsaslı şübhələr müəyyən edilmişdir.

Qeyd olunanlar nəticəsində infant inkubator körpə küvezi və yeni doğulmuş körpələrin müalicəsi üçün nəzərdə tutulmuş digər tibbi avadanlıqlarından təhlükəli şəkildə və standartlara uyğun olmadan istifadə edilmiş, yanğın xəbərdarlığı vasitələri işlək vəziyyətdə olmamış, elektrik xətlərində baş vermiş normadan artıq yüklənmədən törəyən yanğın otağa yayılmış, bununla da, 4 körpə ölmüş və müəssisəyə ciddi əmlak ziyanı dəymişdir.

İş üzrə Hamlet Mustafayev və Elnur Əhmədli Cinayət Məcəlləsinin 225.3-cü, Mehriban Abasquliyevaya isə həmin Məcəllənin 314.3-cü maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara həmin maddələrdə nəzərdə tutulan ittiham elan edilmiş, məhkəmənin qərarı əsasında hər üç təqsirləndirilən şəxs barəsində ev dustaqlığı və vəzifədən kənarlaşdırma növündə qətimkan tədbirləri seçilmişdir.

Hazırda təqsirləndirilən şəxslərin digər qanunazidd əməllərinin, iş üzrə qanun pozuntularına yol vermiş digər şəxslərin dairəsinin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları, habelə bu kimi yanğının baş verməsinin səbəb və şəraitinin müəyyən edilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

İstintaqın gedişatı və nəticələri barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.

### Çoxsaylı vətəndaşa qarşı dələduzluq edilməsi faktları ilə bağlı cinayət işi məhkəməyə göndərilib 12.01.2024

İşə düzəltmək və pensiya təyin edilməsi adı altında çoxsaylı vətəndaşın pulunun ələ keçirilməsi faktı ilə bağlı cinayət işinin istintaqı tamamlanıb. Belə ki, Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən regionlarda keçirilmiş vətəndaş qəbulu zamanı zərərçəkmiş şəxslərin müraciətləri nəzarətə götürülərək cinayət işinin ibtidai istintaqının davam etdirilməsi Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib və istintaqın gedişində ayrı-ayrı istintaq qurumları tərəfindən başlanmış dələduzluq faktları üzrə başlanmış 8 cinayət işi bir icraata birləşdirilib.




İstintaqla Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Şirvan rayon bölməsinin sabiq sədri Ülviyyə Balayeva və Azərbaycan Respublikası Şəhid ailələri, Əlilləri, Müharibə Veteranlarının Müdafiəsi İctimai Birliyinin Gədəbəy rayon şöbəsinin sədri vəzifəsində işləyən İbrahim Əliyevin qabaqcadan əlbir olan bir qrup şəxs halında 32 nəfər şəxsə işə düzəltmək və pensiya təyin edilməsinə dair yalan vədlər verməklə müxtəlif vaxtlarda onlara məxsus ümumilikdə 163 min manatdan artıq pul vəsaitini dələduzluq yolu ilə keçirmələrinə əsaslı şübhələr müəyyən edilib.

İş üzrə Ülviyyə Balayeva və İbrahim Əliyev Cinayət Məcəlləsinin 178.2.1, 178.2.2, 178.2.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə təkrar dələduzluq) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində müvafiq olaraq həbs və polisin nəzarəti altına vermə növündə qətimkan tədbirləri seçilib.

Cinayət işi üzrə ittiham aktı təsdiq edilərək baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib.

**#hüquqimaariflәndirmә #cinayәtprosessualhüquq – Xüsusi ittiham qaydasında işlәr**
**18.01.2024**




Xüsusi ittiham dedikdə, yalnız zərərçəkmiş şəxsin (onun nümayəndəsinin) məhkəməyə yazılı şikayəti əsasında başlanan və məhkəmə müşavirə otağına gedənədək zərər çəkmiş şəxs təqsirləndirilən şəxslə barışdıqda icraatına xitam verilən işlər başa düşülür. Nəzərə almaq lazımdır ki, xüsusi ittiham qaydasında cinayət təqibindən imtina yalnız zərər çəkmiş şəxsin iradəsindən asılıdır və bu icraat məhkəmədə prokuror tərəfindən deyil, məhz zərərçəkmişin özü (onun nümayəndəsi) tərəfindən həyata keçirilir.

Bu kateqoriya işlər üzrə cinayət təqibi Cinayət Məcəlləsinin 147 (böhtan), 148 (təhqir), 165.1 (müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozma) və 166.1-ci (İxtiraçılıq və patent hüquqlarını pozma) maddələri üzrə aparılır və məhkəmə müşavirə otağına gedənədək zərər çəkmiş şəxs təqsirləndirilən şəxslə barışdıqda ona xitam verilir.

Xüsusi ittiham qaydasında cinayət təqibi məhkəmə tərəfindən xüsusi ittiham qaydasında şikayətin öz icraatına qəbul edilməsi və ya məhkəmə baxışına təyin edilməsi haqqında qərar qəbul etdiyi andan başlanır. Həmin andan etibarən məhkəməyə xüsusi ittiham qaydasında şikayət vermiş şəxs xüsusi ittihamçı, barəsində şikayət verilən isə təqsirləndirilən şəxs hesab olunur.

**Beynәlxalq axtarışda olan daha bir şәxs ölkәmizә ekstradisiya olunub**
**19.01.2024**




Baş prokurorluğun vəsatəti əsasında Gürcüstanın Baş Prokurorluğu tərəfindən «Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında» 22.01.1993-cü il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası vətəndaşı Hüseynli Cavid Sabir oğlunun ekstradisiyası haqqında qərar qəbul olunub. Belə ki, Sumqayıt şəhər polis idarəsində ibtidai istintaqı aparılan cinayət işi üzrə Cavid Hüseynlinin Cinayət Məcəlləsinin 221.3-cü (silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə xuliqanlıq) maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətməsinə əsaslı

şübhələr müəyyən edildiyindən, təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilməklə barəsində beynəlxalq axtarış elan edilib.

Cavid Hüseynli yanvarın 18-də Gürcüstan ərazisində saxlanılaraq Ədliyyə Nazirliyi Penitensiar Xidmətin xüsusi konvoyunun müşayiəti ilə Azərbaycana gətirilib.

**Baş Prokurorluq və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə məlumatı**
**22.01.2024**




Hərbi xidmətə çağırışdan boyun qaçırma hallarına qarşı dövlət qurumları tərəfindən birgə mübarizə davam etdirilir və bu istiqamətdə prokurorluq orqanları tərəfindən kəsərli tədbirlər həyata keçirilir. Belə ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən prokurorluq orqanlarına 2023-cü il ərzində müddətli həqiqi hərbi xidmətə çağırışdan boyun qaçırma halları ilə bağlı daxil olmuş materiallar əsasında araşdırma aparılıb.

Qeyd edilən faktlarla bağlı 20 halda Cinayət Məcəlləsinin 321.1 və 321.2-ci (hərbi xidmət keçməkdən boyun qaçırma) maddələri ilə cinayət işləri başlanılaraq ibtidai istintaq aparılıb, həmin işlərdən 6-sı baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilib, digərləri üzrə isə ibtidai istintaq davam etdirilir.

Bundan başqa, hazırkı vaxtda 125 nəfərin müddətli həqiqi hərbi xidmətə göndərilməsi üçün SHXÇDX-nin müvafiq idarə və şöbələrinin sərəncamına verilmələri təmin edilib, digər materiallar üzrə isə araşdırmalar davam etdirilir.

Müddətli həqiqi hərbi xidmətə çağırışdan boyun qaçırma hallarına qarşı kompleks mübarizə tədbirləri bundan sonra da davam etdiriləcəkdir.

**#hüquqibilikləriniartır – 19 yanvar 2023-cü il tarixdə qüvvəyə minmiş Azərbaycan Respublikasının Qanunu ilə Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilmişdir**
**22.01.2024**

19 yanvar 2023-cü il tarixdə qüvvəyə minmiş Azərbaycan Respublikasının Qanunu ilə Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən Cinayət Məcəlləsinə yeni - 281-1-ci və 284-2-ci maddələr əlavə edilmişdir.




Məcəllənin Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn atributları və ya simvolları nümayiş etdirmə, yayma, hazırlama, əldə etmə, saxlama, daşıma və ya gəzdirmə adlanan 281-1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn atributları və ya simvolları nümayiş etdirmə və ya yayma, yaxud nümayiş etdirmək və ya yaymaq məqsədilə hazırlama, əldə etmə, saxlama, daşıma və ya gəzdirmə beş ilədək müddətə

azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Həmin əməllər qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən və ya xarici təşkilatların və onların nümayəndələrinin tapşırığı ilə törədildikdə daha ağır məsuliyyətə səbəb olur.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatları yayma adlanan 284-2-ci maddəyə əsasən isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatları yayma, müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə və bu Məcəllənin 274-cü (dövlətə xəyanət), 276-cı (casusluq) və ya 284-cü (dövlət sirrini yayma) maddələrində nəzərdə tutulmuş əməllərin əlamətləri olmadıqda üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər ağır nəticələrə səbəb olduqda 5 ildən 8 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Maddənin Qeyd hissəsinə əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətə açıqlanan məlumatların yayılması hallarına həmin maddənin qüvvəsi şamil edilmir.

19 yanvar 2023-cü il tarixdə qüvvəyə minmiş Qanunla həmçinin İnzibati Xətalar Məcəlləsinə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların yayılması adlanan yeni – 614-1-ci maddə əlavə edilmişdir. Həmin maddəyə əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların mediada, o cümlədən internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində hərbi qulluqçular və ya toplanışa çağırılmış hərbi vəzifəlilər tərəfindən yayılması inzibati xəta hesab edilir və əmələ görə on gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"nin 2-ci maddəsinə edilmiş dəyişikliklə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların (dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətə açıqlanan məlumatlar istisna olmaqla) yayılmaması hərbi qulluqçunun vəzifələrindən biri kimi müəyyən edilmişdir.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa isə yeni 13-2.3.3-1-cü maddə əlavə edilmiş və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatlar (dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətə açıqlanan məlumatlar istisna olmaqla) internet informasiya ehtiyatında (informasiya-telekommunikasiya şəbəkəsində) yayılması qadağan edilən informasiya kimi təsbit edilmişdir.

## #SORĞUYACAVAB – Araik Arutyunyan, Qukasyan, Saakyan və digərlərinin həbs müddəti 4 ay uzadılıb

**25.01.2024**




Baş Prokurorluğun Mətbuat xidmətinə daxil olmuş sorğulara cavab olaraq bildirilir ki, Qarabağda qondarma separatçı rejimin "prezidentləri" olmuş Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq "xarici işlər naziri" David Babayan, eləcə də "parlament sədri" David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan barəsində seçilmiş həbs qətimkan tədbirlərinin müddətinin uzadılması ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsinin vəsatətlərinə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatlarına baxılıb.

İstintaqı Baş Prokurorluğun rəhbərlik etdiyi, Hərbi prokurorluq, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd Xidmətləri, Daxili İşlər Nazirliyi və digər istintaq qurumlarının peşəkar əməkdaşlarından ibarət birgə istintaq qrupu tərəfindən aparılan cinayət işi üzrə separatçı rejimin ümumilikdə 15 nəfər üzvü məsuliyyətə cəlb olunub.

Məhkəmənin qərarına əsasən, qeyd olunan şəxslərin barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti 4 ay uzadılıb.

### 5 nəfər ailə üzvünü qəsdən öldürməkdə şübhəli bilinən şəxs tutulub
**13.02.2024**




Fevralın 13-də 1999-cu il təvəllüdlü Əhməd Əhmədovun aralarında yaranmış mübahisə zamanı ata, ana və azyaşlı qardaşını qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Xətai rayon prokurorluğunda cinayət işi üzrə aparılan istintaq tədbirləri ilə Əhməd Əhmədovun qeyd olunan cinayət əməlini törətməzdən əvvəl başqa bir ünvanda isə bacısı - 1997-ci il təvəllüdlü Elmira Əhmədovanı və onun azyaşlı qızını qətlə yetirməsinə əsaslı şübhələr müəyyən edilib.

Hazırda ibtidai istintaq davam edir.

### #hüquqimaarifləndirmə #cinayətprosessualhüquq - Prosessual qərarların preyudisial əhəmiyyəti
**13.02.2024**




Cinayət prosesini həyata keçirən orqanın ləğv edilməmiş qərarı həmin məsələ üzrə yeni qərar çıxarılmasına yol vermir.

Cinayət prosesini həyata keçirən orqanın qərarı, şəxsin cinayət təqibini istisna edən qərarlardan başqa, hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarılması ilə əlaqədar məcburi qüvvəyə malik deyildir.

Cinayət prosesini həyata keçirən orqan üçün məcburi qüvvəyə malik olmayan və yeni hallar aşkar edilərsə və ya əvvəlki hallar aradan qalxarsa, onlara ləğv edilmədən yenidən baxıla bilən qərarlar aşağıdakılardır:

– şəxslərin cinayət prosesinin iştirakçısı qismində tanınması və bu qisimdə onların cinayət prosesində iştirakına xitam verilməsi haqqında;

– qətimkan tədbirinin seçilməsi və ya digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi haqqında;

– cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiə tədbirlərinin tətbiqi və onlara xitam verilməsi haqqında;

– sübutların və cinayət təqibi üzrə icraatın digər materiallarının axtarılıb tapılması, toplanması, əlavə edilməsi, tədqiqi məsələləri haqqında;

– prosessual hərəkətlərin icraatının növbəliliyi və vaxtı haqqında.

Məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarlarının bütün dövlət orqanları, fiziki və hüquqi şəxslər üçün məcburiliyi məhkəmə hökmünün və digər qərarının kassasiya qaydasında və yeni açılmış hallar üzrə yoxlanılmasına, ləğv edilməsinə və dəyişdirilməsinə mane olmur.

Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı mülki işə, kommersiya və ya inzibati mübahisəyə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir. İddianın təmin edilməsi hüququnu təsdiq edən məhkəmənin qanuni qüvvəyə minmiş hökmü mülki işə baxılarkən məhkəmə üçün bu hissədə məcburidir.

Məhkəmə cinayət təqibinə xitam verilməsi haqqında təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarını məhkəmə nəzarəti funksiyalarını həyata keçirərkən ləğv edə bilər, məhkəmə baxışı nəticəsində isə həmçinin xüsusi qərar çıxara bilər.

Birinci və apellyasiya instansiyası məhkəməsi üçün şəxsin əvvəllər məhkum edilməsinə və ya bəraət almasına dair qanuni qüvvəyə minmiş hökm şərtsiz məcburidir.

Məhkəmənin mülki iş, kommersiya və ya inzibati mübahisə üzrə qanuni qüvvəyə minmiş qərarı cinayət prosesini həyata keçirən orqan və cinayət işinə baxan məhkəmə üçün yalnız hadisənin olub-olmaması hissəsində məcburidir.

**3 nəfəri qəsdən öldürməkdə, 1 nəfəri öldürməyə cəhd etməkdə təqsirləndirilən şəxs barəsində cinayət işi məhkəməyə göndərilib**
**15.02.2024**




Ötən il iyulun 3-də Abşeron rayonu ərazisində 4 nəfərə balta ilə xəsarət yetirilməsi faktı üzrə rayon prokurorluğunda başlanmış cinayət işinin istintaqı tamamlanıb.

(https://genprosecutor.gov.az/az/post/6496)

İbtidai istintaqla 1974-cü il təvəllüdlü Sərxan Həşimovun Abşeron rayonu, Digah qəsəbəsi, Q.Qarayev küçəsi ərazisində qisas niyyəti ilə əmisi Hicran Həşimov, əmisinin arvadı Zümrüd Haşımova və əmisi qızı Xəyalə Kərimovaya balta ilə çoxsaylı xəsarətlər yetirməklə onları xüsusi amansızlıqda qəsdən öldürməsi, daha sonra Mehdiabad qəsəbəsi ərazisində qəsəbə sakini Ələsgər Hüseynova həmin balta ilə çoxsaylı xəsarətlər yetirməklə xuliqanlıq niyyətilə qəsdən öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Sərxan Haşımova Cinayət Məcəlləsinin 120.2.4, 120.2.7, 29,120.2.2, 29,120.2.4 və 29,120.2.10-cu (xüsusi amansızlıqla iki və ya daha çox şəxsi öldürmə və xuliqanlıq niyyəti ilə, xüsusi amansızlıqla təkrarən qəsdən adam öldürməyə cəhd) maddələri ilə yekun ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi baxılması üçün Sumqayıt Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

**#hüquqikazus #cinayətprosessualhüquq #uşaqhüquqları – Qiyabi icraat aparıla bilərmi?**
**19.02.2024**




**Kazus: A** Cinayət Məcəlləsinin 182.1-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə təqsirləndirildiyi cinayət işi üzrə dəfələrlə istintaqa çağırılmasına, barəsində axtarış elan edilməsinə baxmayaraq istintaqdan qaçıb gizlənmiş, görülmüş bütün tədbirlər müsbət nəticə vermədiyindən A-nın təqsirləndirilməsinə dair cinayət işi üzrə müstəntiqin vəsatəti, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə qiyabi icraat başlanmış və istintaq tamamlanaraq cinayət işi ittiham aktı ilə birlikdə təsdiq edilməsi üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim edilmişdir.

Cinayət işi ittiham aktı ilə birlikdə prokurora təqdim edildikdən 3 gün sonra A könüllü gələrək istintaqda iştirak etmək istədiyini bildirmişdir. Müstəntiq bu barədə prokurora məlumat vermişdir.

Prokuror ittiham aktını təsdiq etməkdən imtina etmiş və cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi barədə qərar qəbul edərək ibtidai istintaqın aparılması üçün cinayət işini öz göstərişləri ilə müstəntiqə qaytarmışdır.

**Sual:** Cinayət təqibi üzrə qiyabi icraata xitam verilərək işin müstəntiqə qaytarılması barədə qərar qanunidirmi?*

**Cavab:** Belə ki, Cinayət-Prosessual Məcəllənin 467-14.1-ci maddəsinə əsasən cinayət işinə ittiham aktı ilə birlikdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən baxılarkən təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə prokuror dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi və ibtidai istintaqın aparılması üçün cinayət işinin müstəntiqə qaytarılması barədə qərar qəbul edir.

**Güzəştli mənzil almaq adı ilə vətəndaşların pulunu ələ keçirən şəxs məsuliyyətə cəlb olunub**
**23.02.2024**

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Mirdaməd Əzizovun qanunsuz hərəkətləri ilə bağlı keçirilmiş əməliyyat tədbiri nəticəsində cinayət işi başlanıb.




İstintaq-əməliyyat tədbirləri ilə Mirdaməd Əzizovun özünü Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) vəzifəli şəxsi kimi təqdim edərək sözügedən qurum tərəfindən inşa olunan binalardan mənzillərin alınması ilə bağlı ona müraciət etmiş çoxsaylı vətəndaşlara güzəştli şərtlərlə mənzil almalarını təmin edəcəyi barədə yalan vədlər verib saxta sənədlər təqdim etməklə həmin şəxslərin külli miqdarda pul vəsaitini dələduzluq yolu ilə ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış ilkin sübutlar əsasında Mirdaməd Əzizov Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə onun barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə ibtidai istintaq davam etdirilir. Qeyd edilən şəxsin qanunazidd əməllərinə məruz qalmış vətəndaşlardan Baş Prokurorluğun "961" Çağrı mərkəzinə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161-Qaynar xətt" əlaqə mərkəzinə, eləcə də sosial şəbəkələrdəki səhifələrinə müraciət etmələri xahiş olunur.

### "Avro Qrand" MMC-nin vəzifəli şəxsləri barəsində cinayət işi məhkəməyə göndərilib
### 07.03.2024




"Avro Qrand" Məhdud Məsuliyyətli Cəmiyyətinin vəzifəli şəxslərinin qanunsuz yollarla vətəndaşların pulunu ələ keçirmələri faktı ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılmış cinayət işinin ibtidai istintaqı yekunlaşıb.

İstintaqla qeyd olunan hüquqi şəxsin təsisçisi və faktiki rəhbəri Xanlar Cəfərov, satış üzrə meneceri Xəzər Əliyev və sonuncunun tanışı Elgiz İsmayılovun qabaqcadan əlbir olaraq saxta sənədlər təqdim etməklə Abşeron rayonu, Xırdalan şəhəri, H.Aslanov küçəsi, 21-ci məhəllədə yerləşən yaşayış binasında faktiki sahibi olan mənzillərin dələduzluq yolu ilə təkrarən digər vətəndaşlara satılmasına nail olmalarına, bu yolla külli miqdarda pul vəsaitini ələ keçirmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

Toplanmış sübutlar əsasında Xanlar Cəfərov Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui istifadə), 313-cü (vəzifə saxtakarlığı) və digər maddələri ilə, Elgiz İsmayılov və Xəzər Əliyev isə həmin Məcəllənin 178.3.2 və 320.1-ci (hüquq verən rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara həmin maddələrlə ittiham elan edilib.

Xanlar Cəfərov və Elgiz İsmayılov hazırda azadlıqdan məhrum etmə növündə cəza çəkdiklərindən istintaq dövründə barələrində qətimkan tədbiri seçilməyib, Xəzər Əliyev barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri tətbiq olunub.

Cinayət işi baxılması üçün aidiyyatı üzrə Bakı Ağır Cinayələt Məhkəməsinə göndərilib.

### Rüşvət müqabilində dövlət mülkiyyətində olan mənzilləri istifadəyə verən vəzifəli şəxs ifşa edilib
### 14.03.2024

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Mənzil İstismar Departamentinin Ağdam Rayon Mənzil kommunal istismar sahəsinin rəisi Valeh Abdullayevin qanunsuz hərəkətləri ilə bağlı keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb.

Əməliyyat-istintaq tədbirləri ilə Valeh Abdullayevin müxtəlif şəxslərin işlə təmin olunması, təqaüd yaşına çatanların işdən çıxarılmaması, faktiki olaraq işə gəlməyən şəxslərə əmək haqqı verilməsinə şərait yaradılması, təmsil etdiyi qurumun balansında olan mənzillərin başqa şəxslərin istifadəsinə verilməsi və




digər bu kimi qanunsuzluqlar müqabilində onlardan təkrarən rüşvət istəməsinə əsaslı şübhələr müəyyən edilib. Valeh Abdullayev tələb etdiyi pul vəsaitlərini vətəndaşlardan alarkən cinayət başında yaxalanıb.

Sadalanan qanunsuz əməllər əməliyyat-axtarış tədbirləri zamanı qeydə alınan videogörüntülər, Valeh Abdullayevin xidməti otağına keçirilmiş baxış nəticəsində götürülmüş sənədlər və digər sübutlarla təsdiqini tapıb.

İlkin sübutlar əsasında Valeh Abdullayev Cinayət Məcəlləsinin 311.3.2 (rüşvət alma təkrar törədildikdə) və 312-1.1 (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə - nüfuz alveri) maddələri ilə şübhəli şəxs qismində tutulmaqla ona həmin maddələrlə ittiham elan edilib, barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə ev dustaqlığı və vəzifədən kənarlaşdırma növündə qətimkan tədbirləri seçilib.

Hazırda qeyd edilən qanunsuz əməllərin törədilməsində hər hansı formada iştirak etmiş şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi və digər halların yoxlanılması istiqamətində əməliyyat-istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

**Baş Prokurorluq və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının birgə məlumatı
16.03.2024**




Xocalıda kütləvi məzarlıqda aşkar edilmiş insan qalıqlarının sayı 18-ə çatıb

Xəbər verildiyi kimi, işğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar olunması faktı ilə bağlı araşdırmalar aparılır.

Qeyd olunan ərazidə həyata keçirilən baxış istintaq hərəkəti nəticəsində aşkar edilmiş insan qalıqlarının müayinəsi zamanı onların ən azı 18 nəfər şəxsə məxsus olması (4 nəfərin azyaşlı olması ehtimal edilir), onların müxtəlif üsullarla işgəncə, fiziki zorakılıq və qeyri-insani rəftara məruz qalmaları, fərdi şəkildə və mənsub olduqları dinin tələblərinə uyğun qaydada dəfn olunmamaları, həmişə tapıla bilmələri üçün lazımi qaydada qorunmaları və nişanlanmalarının təmin olunmaması müəyyən edilib.

Baş Prokurorluq tərəfindən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" Publik Hüquqi Şəxsi, Azərbaycan Milli Elmlər Akademiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Nümayəndəliyinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilərək aşkar edilmiş sümük fraqmentləri üzrə zərərçəkmişlərin şəxsiyyətinin, həmçinin, iş üzrə həmiyyət kəsb edən digər halların müəyyən edilməsi məqsədilə ekspertiza və laborator müayinələr aparılır, eləcə də digər zəruri prosessual hərəkətlər həyata keçirilir.

Məhkəmə-genetik ekspertizasının hazırkı mərhələsində 8 nəfərin şəxsiyyəti müəyyən edilib.:

(Xocalı rayon sakinləri)

1. Əliyev Ağaəli Naib oğlu – 01.06.1933-cü il
2. Əliyeva Süräyya Behbud qızı – 01.06.1933-cü il
3. Mahmudov Akif Seydulla oğlu – 01.06.1962-ci il
4. Səlimov Xəzər Səyavuş oğlu – 01.09.1974-cü il
5. Səlimova Tamilla Ağamirzə qızı – 01.06.1935

(Xankəndi şəhər sakinləri)

6. Cavadov Əli Müsül oğlu – 15.06.1954-cü il
7. İsmayılov İsmayıl Bəhman oğlu – 01.08.1955-ci il
8. Məhərrəmova Bəsirə Vəli qızı – 01.06.1954-cü il

İstintaq materiallarına əsasən qeyd edilən şəxslərin hamısı 26.02.1992-ci il tarixdə Xocalı rayonu ərazisində itkin düşüb.

Toplanmış materiallar Baş Prokurorluğun İstintaq idarəsində ibtidai istintaqı aparılan cinayət işinə əlavə edilərək araşdırılır, nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.

**#hüquqimaarifləndirmə #bələdiyyəhüququ - Bələdiyyə mülkiyyəti olan torpağın icarəyə verilməsi hansı qaydada tənzimlənir?**
**29.03.2024**




Bələdiyyə torpaqları ümumi istifadəyə, habelə daimi və ya müvəqqəti istifadəyə verilir.

Bələdiyyə torpaqları üzərində icarə hüquqları və icarə haqqı yalnız açıq torpaq hərracları və ya müsabiqələri vasitəsilə əldə edilə bilər və icarə müqaviləsində təsbit olunur.

Hərraca (müsabiqəyə) çıxarılan dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaqların icarə haqqının ilkin qiyməti (qiyməti) onların təyinatından, sahəsindən, coğrafi yerləşməsindən və keyfiyyətindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş normativlər əsasında müəyyənləşdirilir. Həmin sənədlərdə torpağın normativ qiyməti, torpaq vergisi, habelə tələb və təklif nəzərə alınmalıdır.

Bələdiyyələrin ehtiyat fondunun kənd təsərrüfatı təyinatlı torpaqları yalnız məqsədli təyinatı üzrə qanunvericilikdə nəzərdə tutulmuş qaydalara əməl edilməklə icarəyə verilir.

Bələdiyyələrin ehtiyat fondundan yaşayış məntəqələrinin perspektiv inkişafı üçün ayrılan torpaqlar hüquqi və fiziki şəxslərin icarəsinə yalnız qısa müddətə verilir.

Bələdiyyə torpaqları mənfəət əldə etmək məqsədilə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərə icarə əsasında verilir.

Ümumi istifadədə olan bələdiyyə torpaqlarının bütövlükdə icarəyə verilməsinə yol verilmir.

Ümumi istifadədə olan bələdiyyə torpaqlarında yerləşən meydan, küçə, keçid, yol kənarı, sahil, park, meşə-park, xiyaban, çimərlik və əhalinin ictimai tələbatının ödənilməsinə xidmət edən digər yerlərdə sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə ticarət, məişət, ictimai-iaşə, əyləncə, idman obyektlərinin və digər zəruri tikililərin müvəqqəti quraşdırılması üçün sahələr hüquqi və fiziki şəxslərin icarəsinə bələdiyyələr tərəfindən yalnız qısa müddətə verilir (xüsusi mülkiyyətə verilə bilməz).

Bələdiyyələrin mülkiyyətində olan yaşayış məntəqələrinin yaxınlığında ümumi örüş sahələri ödənişsiz və müddətsiz olaraq məntəqə əhalisinin heyvanlarının yemlənməsi üçün istifadə olunur.

**Xocalıda insan qalıqları aşkar edilib**
**30.03.2024**



Martın 28-də işğaldan azad edilmiş Xocalı şəhərinin Qaladərəsi adlanan hissəsində yerləşən su anbarının yaxınlığında həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə insana məxsus olması ehtimal edilən sümük fraqmentləri və qalıqların aşkar olunması barədə Xocalı rayon prokurorluğuna məlumat daxil olub.

Daxil olmuş məlumat əsasında Baş Prokurorluğunun peşəkar əməkdaşları hadisə yerinə ezam olunmaqla, Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" Publik Hüquqi Şəxsi, Azərbaycan Milli Elmlər Akademiyası, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilib, aşkar edilmiş sümük fraqmentləri ekspertiza və laborator müayinələrin aparılması məqsədilə müvafiq qaydada götürülüb, eləcə də digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Hazırkı vaxtadək keçirilən prosessual hərəkətlər nəticəsində ərazidə aşkarlanmış insan qalıqlarının ən azı 3 nəfər şəxsə məxsus olması müəyyən edilib.

Hazırda hadisə yerinin tam müayinə edilməsi istiqamətində işlər davam etdirilir.

Faktla bağlı Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində araşdırma aparılır.

Axtarış işləri tam yekunlaşdıqdan və müavfiq ekspertiza nəticələri müəyyən olunduqdan sonra ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.

# Peşə hazırlığında aktiv və interaktiv təlim modelləri

Məlum olduğu kimi, təlim təlimçi ilə dinləyici arasında qarşılıqlı, məqsədyönlü və planlı fəaliyyətə əsaslanan, dinləyicilərin bilik, bacarıq və vərdişlərə yiyələndiyi ikitərəfli pedaqoji prosesdir. Burada təlimçi qismində dinləyicinin mövzu üzrə bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsi, tədris zamanı nəzəri biliklərin praktiki bacarıqlara çevrilməsi məqsədilə mövzunun dinləyicilərə çatdırılması prosesini təmin edən şəxs, dinləyici qismində isə təlim-tədris prosesində öyrənən qismində iştirak edən şəxslər çıxış edirlər.

Təlim metodu ("metod" sözü qədim yunan dilindən "μέθοδος" nəyəsə nail olmaq yolu deməkdir) – təlimin müəyyən məqsədlərinə (bilik, bacarıq və vərdişlərin ötürülməsi və mənimsənilməsi) nail olmağa yönəlmiş təlimçi ilə dinləyicinin nizamlanmış birgə fəaliyyətidir. Təlim metodu bütöv təlim prosesinin elementlərindən biridir və digər elementlərlə vəhdətdə çıxış edir. O, təlimin məqsəd və məzmununa xidmət edir, təlimin məqsəd və məzmunu dəyişdikdə, müvafiq olaraq təlim metodu da dəyişir.

Eyni zamanda pedaqogikaya dair müasir ədəbiyyatda 3 təlim modelli fərqləndirilir: passiv (ənənəvi), aktiv və interaktiv. Bu məqalə məhz aktiv və interaktiv təlim modellərini əhatə edir.

***Aktiv təlim modeli*** təlimçi ilə dinləyicilərin tədris prosesində bir-biri ilə qarşılıqlı təsir göstərdiyi və dinləyicilərin passiv "obyekt" deyil, təlim prosesinin fəal iştirakçısı, "subyekt"i (sərbəst iş, tələb edən tapşırıqların icrası) qismində çıxış etdiyi təlimçi ilə dinləyicilər arasındakı qarşılıqlı əlaqə formasıdır. Əgər passiv tədris modelində təlimçi fəaliyyət göstərən və tədris prosesini idarə edən əsas şəxs qismində çıxış edirdisə, bu modeldə təlimçi ilə dinləyici tədris prosesinin bərabər hüquqlu iştirakçıları hesab edilirlər. Beləliklə, aktiv metod passiv metoda nisbətdə daha demokratik xarakterli qarşılıqlı əlaqə tərzini nəzərdə tutur və "təlimçi = dinləyici" qarşılıqlı əlaqə sxeminə əsasən qurulur. Metodun formalaşması A. Disterveq, G. Hegel, J. Russo, D. Dyui kimi tanınmış pedaqoqların adı ilə bağlı olsa da, ilkin olaraq bu ideyaya hələ qədim filosoflarin əsərlərində  rast gəlmək olar.




***Aktiv təlim modelinin xüsusiyyətlərinə aşağıdakılar aiddir:***

- düşüncənin aktivləşməsi (dinləyici aktiv olmağa məcburdur);
- uzun müddətli fəaliyyət (dinləyici ara sıra deyil, bütün təlim prosesi boyunca fəaliyyətdədir);
- məsələnin həlli yollarının tapılmasında və formalaşdırılmasında müstəqillik;
- öyrənmək üçün motivasiya.

Ən ümumi təsnifata əsasən aktiv təlim metodları iki böyük qrupa ayrılırlar: fərdi şəkildə və qrupda tətbiq olunan aktiv təlim metodları. Bundan başqa aktiv təlim metodları aşağıdakı qruplara bölünür: müzakirələr, oyunlar, treninqlər və reytinqlər.

Tədris prosesi zamanı təlimçi bir aktiv təlim metodu seçə bilər və ya bir neçə metodun kombinasiyadan istifadə edə bilər. Müsbət nəticə seçilmiş metodların təlim prosesində həll olunmalı məsələlərə uyğun olub-olmamasından asılıdır.

***Ən çox tətbiq olunan aktiv təlim metodları***

***Keys texnologiyaları*** – ötən əsrdən bəri pedaqogikada istifadə olunan bir metoddur. Bu metod real və ya uydurulmuş situasiyaların təhlilinə və həlli yollarının axtarışına əsaslanır. Keyslərin tərtib edilməsinə dair iki yanaşma mövcuddur. Amerika məktəbi müəyyən bir problemin yeganə doğru həlli yolunu tapmağı təklif edir. Avropa məktəbi isə, əksinə, problemin bir neçə fərqli həlli yollarının təklif olunmasını və əsaslandırılmasını alqışlayır.

***Problemli mühazirə*** – ənənəvi mühazirədən fərqli olaraq problemli mühazirə zamanı biliklərin ötürülməsi passiv formada həyata keçirilmir. Təlimçi hazır tezislər vermir, yalnız suallar qoyur və problemi müəyyənləşdirir. Həlli yolları dinləyicilərin özləri tərəfindən axtarılıb tapılır. Bu üsul olduqca mürəkkəbdir və iştirakçılardan məntiqi düşünmə təcrübəsinə malik olmalarını tələb edir.

***Didaktik oyunlar*** – iş oyunlarından fərqli olaraq, didaktik oyunların qaydaları ciddi şəkildə tənzimlənir və hər hansı bir problemin həlli üçün məntiqi zəncirin inkişafını nəzərdə tutmur. Bu oyun metodlarını interaktiv təlim metodlarına da aid etmək olar. Bu konkret olaraq hansı oyunun seçimindən asılıdır. Belə ki, iştirakçıların bir-biri ilə qarşılıqlı əlaqədə olduqları məşhur viktorinalar və sair interaktiv metodların arsenalından olan üsullara aiddir.

***Səbət metodu*** – hər hansı bir vəziyyətin (situasiyanın) imitasiyasına əsaslanır. Məsələn, iştirakçılardan biri tarix muzeyində bələdçi qismində çıxış etməli və ekskursiya keçirməlidir. Onun vəzifəsi hər bir eksponat barəsində məlumat toplamaq və digər iştirakçıların diqqətinə çatdırmaqdan ibarətdir.

Aktiv təlim modeli olan ***Kouçinq metoduna*** ilk dəfə prokurorluğa qulluğa qəbul edilən şəxslərin stajorluq müddətində təyin olunduğu prokurorluqda təcrübəli müstəntiq və prokuror köməkçisi, eləcə də ərazi bölgüsü üzrə müvafiq dövlət ittihamçısının yanında təcrübə keçməsini daxil etmək olar. Bu müddət ərzində işçi fərdi planlara əsasən prokurorluğun fəaliyyət istiqamətləri üzrə təcrübə keçməklə, prokurorluğun fəaliyyət sahəsinə aid beynəlxalq hüquqi aktları, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları, Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları, Baş prokurorun əsas əmr və sərəncamları, habelə digər normativ xarakterli hüquqi sənədləri, prosessual sənədlərin tərtibi qaydasını və digər peşə biliklərini öyrənir. Bu cür metodun tətbiqində xüsusi əhəmiyyət öyrədəcək şəxsin (təcrübə rəhbəri) düzgün seçiminin edilməsidir.

***İnteraktiv təlim modeli*** ən müasir metodların tətbiqini nəzərdə tutur. Bu təlim modeli təlimçi ilə dinləyici arasında yaxşı təşkil olunmuş qarşılıqlı əlaqə və ikitərəfli məlumat mübadiləsi ilə səciyyələndirilən təlim modelidir. Qeyd edək ki, bəzi müəlliflər interaktiv təlim modeli ilə aktiv təlim modeli arasında fərq qoymur və onları eyniləşdirirlər. Lakin bir çox oxşar cəhətlərin olmasına baxmayaraq, onların arasında müəyyən fərqlər də mövcuddur. Belə ki, interaktiv təlim modeli təlimçi ilə dinləyicilər arasında qarşılıqlı fəaliyyətin elə bir formasıdır ki, tədris olunan mövzunun mənimsənilməsinə proses iştirakçılarının hər biri öz töhfəsini verir. İnteraktiv təlim prosesində aktiv təlim modelindən fərqli olaraq yalnız təlimçi ilə dinləyici deyil, həm də dinləyicilər öz aralarında söhbət və dialoq rejimində fəaliyyət göstərirlər. İnteraktiv modeldən istifadə praktiki vəziyyətlərin modelləşdirilməsini, rolların oynanılmasını, problemin birgə həllini nəzərdə tutur. Dinləyici təsir "obyekti"ndən qarşılıqlı təsir "subyekti"nə çevrilir, o təlim prosesində özünün fərdi istiqaməti üzrə fəal hərəkət edir. İnteraktiv təlim prosesində təlimçi təşkiledici, əlaqələndirici, istiqamətverici və məsləhətverici, dinləyicilər isə tədqiqatçı və yaradıcı subyektlər kimi fəaliyyət göstərirlər.




***İnteraktiv təlimin əsas prinsiplərinə aşağıdakılar aiddir:***

- bütün iştirakçıların təlim prosesinə maksimal dərəcədə cəlb olunması;
- daimi bilik və ideya mübadiləsi;
- hər bir dinləyiciyə təsir;
- materialın effektiv mənimsənilməsinə hədəflənmə;
- dinləyicilərdə fərdi fikir və vərdişlərin formalaşdırılması;
- qarşılıqlı əlaqələrin qurulması.

Beləliklə, interaktiv təlim modeli "təlimçi = dinləyici" və "dinləyici = dinləyici" qarşılıqlı əlaqə sxemlərinə əsaslanır və bu modelin tətbiqi zamanı yalnız təlimçi iştirakçıları təlim prosesinə cəlb etmir, həm də iştirakçıların özləri də bir-biri ilə qarşılıqlı əlaqədə olaraq, hər bir iştirakçının motivasiyasına təsir göstərirlər. Təlimçi isə yalnız köməkçi rolunu oynayır. Onun vəzifəsi iştirakçıların təşəbbüskarlığı üçün şərait yaratmaqdan ibarətdir.

İnteraktiv təlim metodlarının məqsədi informasiyanın müstəqil şəkildə axtarılıb tapılması və təhlili, problemin düzgün həlli yolunun müəyyən edilməsi, komandada işləmək bacarığı, digər şəxsin fikrinə hörmətlə yanaşmaq, fərqli bir mövqeyə dözümlülük (tolerantlıq) göstərilməsi, müəyyən faktlara əsaslanaraq öz fikrini formalaşdırmaq bacarığını inkişaf etdirməkdən ibarətdir. Ən çox tətbiq olunan interaktiv təlim metodlarina aşağıdakıları aid etmək olar.

***"Akvarium" metodu*** tədqiq edilən problemin müxtəlif aspektdə təhlil edilməsinə və dinləyicilərin düşünmək qabiliyyətinə yönəldilmiş təlim metodudur. Bu metod eyni vaxtda iki qrupun (aktiv və passiv işçi qruplarının) fəaliyyətini nəzərdə tutur və diskussiya vərdişlərini inkişaf etdirmək məqsədini daşıyır. Təlim prosesində 2-3 nəfərdən ibarət daxili qrup üzvləri hər hansı bir problemin (məsələnin) müzakirəsində iştirak edirlər, xarici qrup üzvləri, yəni qalan iştirakçılar isə daxili qrupda baş verənləri müşahidə edirlər.

Metodun tətbiqi üçün ilk öncə bütün iştirakçılar 2-3 və ya daha çox nəfərdən ibarət kiçik qruplara bölünür. Sonra kiçik qrupların birinin (aktiv işçi qrupunun) üzvləri zalın ortasında yerləşdirilmiş masanın ("akvariumun") arxasına əyləşirlər. Aparıcı (təlimçi) onlara tapşırıq verir və onun həll edilməsi üçün lazım olan bütün məlumatları təqdim edir. Bütün digər iştirakçılar isə (passiv işçi qruplarının üzvləri) müşahidəçi qismində çıxış edirlər.

Aktiv işçi qrupunun üzvləri tapşırığın həlli üçün ucadan tapşırığın (məsələ-situasiyanın) şərtlərini oxumalı, diskussiya metodundan istifadə edərək onu qrupda müzakirə etməli və yekun bir rəyə gəlməlidirlər. Passiv işçi qruplarının iştirakçıları isə bu mərhələdə müzakirə prosesinə müdaxilə etmədən yalnız müşahidə etməli və deyilənləri dinləməlidirlər.

Ümumi rəyi səsləndirdikdən sonra aktiv işçi qrupunun üzvləri zalda öz yerlərini tutmalı, passiv qrupun üzvləri isə aşağıdakı sualları cavablandırmalıdırlar:

- aktiv işçi qrupunun məsələ ilə bağlı səsləndirilmiş fikri ilə razısınızmı?
- səsləndirilmiş fikir kifayət qədər əsaslandırılmışdırmı?
- irəli sürülmüş arqumentlərdən hansını daha inandırıcı hesab edirsiniz?

Bundan sonra növbəti işçi qrupunun üzvləri "Akvarium"da yerlərini tutur, tapşırıq alır, onu müzakirə edib yekun fikri səsləndirirlər. Bu qaydada bütün işçi qruplar növbə ilə "Akvarium"da yer alır və onların hər birinin fəaliyyəti auditoriya tərəfindən müzakirə olunur.

***Beyin həmləsi (əqli hücum) metodu.*** Beyin həmləsi və ya əqli hücum (brainstorming) texnologiya kimi 1953-cü ildə amerikalı alim, psixoloq və iş adamı A.Osborn tərəfindən hazırlanmış və yeni orijinal ideyaların yaranması üçün kifayət qədər səmərəli hesab edilir. Beyin həmləsinin məqsədi stereotiplərdən azad olunmaqdan və tamamilə yeni ideya və yanaşmaların formalaşdırılmasından ibarətdir.

Qrup formasında diskussiyanın bu növü 3 mərhələdən ibarətdir:

- ideyanın təklif olunması (istənilən, hətta fantastik ideyalar təklif oluna bilər, fikirlərə tənqidi yanaşmaq qadağan olunur);
- təklif olunan ideyaların müzakirə olunması;
- ən yaxşı və uyğun ideyanın seçilməsi.

Məşğələ zamanı beyin həmləsi dinləyicilərin öyrənilən mövzu və ya qoyulmuş məsələnin həlli yollarına dair müxtəlif ideyaların irəli sürülməsi vasitəsi kimi istifadə olunur. Əqli hücum dinləyicilərin yeni mövzu üzrə biliklərini tez bir zamanda üzə çıxarmağa, onlarda müzakirə olunan məsələyə dair maraq oyatmağa imkan verir. Bu metodun tətbiqi iştirakçıları fəallaşdırır, verilən suala tez və düzgün cavab tapmağa, müxtəlif ideyalar irəli sürməyə həvəs yaradır.

Əqli hücum tətbiq edilərkən ilk öncə təlimçi tərəfindən həll olunmalı məsələ və ya problem elan edilir (həll edilməli məsələ lövhəyə yazıla və ya şifahi şəkildə deyilə bilər).

Bundan sonra iştirakçılar ideyalar bankının yaradılması üçün problemin mümkün olan həlli yolları ilə bağlı müxtəlif ideyalar, təkliflər irəli sürməlidirlər. İstənilən ideyalar təklif oluna bilər. Variantlar nə qədər çox olsa, bir o qədər yaxşıdır. Söylənilən bütün mülahizələr heç bir şərh verilmədən, tənqidi münasibət bildirilmədən təlimçi tərəfində qeyd olunmalıdır.

Sonra müzakirə və təhlil mərhələsi başlayır. Söylənilmiş hər bir ideya qiymətləndirilir, lehinə və əleyhinə fikirlər söylənilir. Bundan sonra isə iştirakçılar müzakirə olunan problemin həlli üçün ən orijınal və faydalı hesab etdikləri ideyaları müəyyən edirlər.

Qeyd edək ki, beyin həmləsinin müxtəlif növləri mövcuddur: klassik, kölgə, əks, fərdi, servis və sair növləri.

***Klassik beyin həmləsi*** iki varianta keçirilə bilər. Birinci variantda bütün dinləyicilər iki qrupa bölünür. Birinci qrup ideyaları irəli sürür (ideyalar bankı yaradır), ikinci qrup isə təklif olunmuş ideyaları təhlil edir. Qruplar əməkdaşlıq çərçivəsində növbələşərək işləyir. Klassik beyin həmləsinin ikinci variantında isə bütün dinləyicilər prosesdə eyni zamanda iştirak edirlər. Əvvəlcə ideyaların generatoru qismində ideyaları təklif edirlər, sonra isə tənqidçi rolunda çıxış edərək həmin ideyaları təhlil edir və yaxşılarını seçirlər.

***"Kölgə" beyin həmləsi*** tətbiq olunduqda iştirakçılar iki qrupa bölünür (aktiv və kölgə). Aktiv qrup üzvləri yeni fikir və ideyalar irəli sürürlər, kölgə qrupun üzvləri isə bu zaman onları müşahidə edir və öz fikirlərini formalaşdırırlar. Sonda təqdim olunmuş fikirlərdən ən orijinal olanı seçilir.

***"Əks" beyin həmləsi*** zamanı iştirakçılara natamam və ya düzgün icra olunmamış iş nümunəsi təqdim olunur. Müzakirənin iştirakçıları çatışmazlıqları tapmalı və onların aradan qaldırılması üçün tədbirlər müəyyən etməlidirlər. Məsələn, dinləyicilərə natamam hazırlanmış və ya düzgün tərtib edilməmiş "Cinayət işinin başlanması haqqında" qərar təqdim olunur. Onlar isə sənədi tərtib etmiş şəxsin səhvlərini tapmalı və aradan qaldırmalıdırlar.

***"Fərdi" beyin həmləsi*** iki mərhələdə keçirilir. Birinci mərhələdə dinləyicilər fərdi olaraq məsələnin həllinə dair təkliflər irəli sürürlər, ikinci mərhələdə isə bu ideyalar kollektiv şəkildə müzakirə olunur.

***"Servis" beyin həmləsi*** növü özünətənqidi yanaşmalarına görə ideyalarını reallaşdıra bilməyən insanlar üçün nəzərdə tutulub. Burada da iştirakçılar iki qrupa bölünür. Birinci qrup öz fikirlərini yazılı formada ikinci qrupa (tənqidçilərə) təqdim edir. İkinci qrup isə təqdim olunmuş ideyaları müzakirə etdikdən sonra, yenidən fikirləri birinci qrupa qaytarır. Belə fikir mübadiləsi daha yaxşı ideyaların yaranmasına imkan verir.

***"Breynraytinq" beyin həmləsinin*** klassik beyin həmləsindən fərqi ondan ibarətdir ki, burada hər bir iştirakçı öz ideyalarını bir vərəqdə yazır və digərinə ötürür. O, isə yazılanları oxuduqdan sonra fikrin davamını qeyd edir. Bu proses 15 dəqiqədən çox davam etməməlidir. Müzakirə və təhlillər isə problemlə əlaqədar sonuncu qeyd aparıldıqdan sonra başlayır.

Beyin həmləsi texnologiyasının tətbiqinin üstün cəhətləri ondan ibarətdir ki, bu metod dinləyicilərin yaradıcı və analitik düşüncə qabiliyyətini, ünsiyyət bacarıqlarını (iştirakçılar yalnız öz fikirlərini tam və aydın şəkildə ifadə etməyi deyil, həm də digər iştirakçıların sözünü kəsmədən və fikirlərinin mənasını mümkün qədər dərindən anlamağa çalışaraq dinləməyi öyrənirlər), fantaziya və təxəyyülünü, pozitiv və adekvat tənqid etmək (iştirakçılar fikirlərini ifadə etməyi və başqalarının fikirlərini qəbul etməyi öyrənirlər) bacarıqlarını inkişaf etdirir, öyrənmə motivasiyasını yüksəldir.

Metodun çatışmazlıqlarına qəliz müzakirə mövzuları üçün istifadə edilməsinin qeyri-mümkünlüyünü aid etmək olar. Prosesi idarə etmək çətindir və dinləyiciləri məsələnin müəyyən həlli yoluna yönəltmək praktiki olaraq mümkün deyildir. Bundan əlavə, bu metodda ideyaların qiymətləndirmə meyarları olmadığından, bəzən ən perspektivli və maraqlı təklifin seçilməsində çətinliklər yaranır.

***Dünya kafesi (The World Cafe) metodu.*** Dünya kafesi canlı və qeyri-rəsmi müzakirə aparılması üçün şərait yaradan bir metoddur. Bir qrup şəxs arasında informasiya toplamaq, məlumat və təcrübə mübadiləsi aparmaq, ideya və fikirlərlə bölüşmək, digər iştirakçıların məsələyə dair fikirlərini öyrənmək lazım olduqda önəmli bir vasitədir. Texnologiya "çay evini" xatırladan rahat yaradıcı bir mühit formalaşdırmaqla hər bir iştirakçını diskussiyaya cəlb etməyə imkan yaradır.

Texnologiyanın tətbiqi aşağıdakı hallarda faydalı ola bilər:

- yeni strategiya üçün ideyaların formalaşdırılması;
- problem və çətinliklərin səbəblərinin araşdırılması;
- önəmli məsələlərin həlli yollarının birgə axtarılması;
- kollektiv təcrübənin, biliklərin formalaşdırılması;
- müxtəlif mövzularda fikir mübadiləsinin aparılması;
- təcrübə mübadiləsinin həyata keçirilməsi;
- mürəkkəb kompleks problemlərin həll edilməsi;
- qeyri-standart qərarların qəbul edilməsi;
- bir neçə nöqteyi -nəzərin birləşdirilməsi və sair.

İştirakçıların sayından və həll edilməli olan problemlərdən asılı olaraq bu proses 40 dəqiqədən 3 saata qədər davam edə bilər. Təlimçinin (aparıcının) vəzifəsi vaxta nəzarət etmək və iştirakçılara təlimat verməkdən ibarətdir.

Metodun tətbiqi 5 mərhələdən ibarətdir. Birinci mərhələdə aparıcı 3-5 dəqiqə ərzində qaydalar və gözlənilən nəticələr barədə məlumat verir. İştirakçılar 3-7 nəfərdən ibarət qruplara bölünür. Görüşün məqsədi üç məsələnin həlli yollarını tapmaq olduqda, qrupların sayı üç olacaqdır. Hər qrupda "masa sahibi" seçilir. Müzakirə olunmalı məsələlər yazılı formada masanın üzərinə qoyulmuş vərəqlərdə (Flip chart) əks olunur.

İkinci mərhələdə iştirakçılara məsələnin həllinə dair müxtəlif variantda cavabların hazırlanması üçün vaxt verilir. "Masanın sahibi" bütün təklif olunan ideyaları tənqid etmədən qeyd edir. Müzakirə üçün təqdim edilən vaxt mövzunun mürəkkəblik dərəcəsindən asılıdır. Adətən 10-20 dəqiqədən az vaxt verilmir, çünki ən faydalı fikirlər bir müddət düşündükdən sonra yaranır. Lakin göstərilmiş vaxtda artıq müddətin verilməsi də qeyri-effektiv və həddən artıq yorucu ola bilər.

Üçüncü mərhələdə aparıcının göstərişi ilə iştirakçılar masalarını dəyişir, yəni digər komandanın masasına əyləşirlər (adətən saat əqrəbi istiqamətində). Masa sahibi olan iştirakçılar isə ilkin yerlərində qalır və yeni komandanı salamlayırlar. Bundan sonra o, mövzunu elan edir və əvvəlki komanda tərəfindən təklif olunmuş ideyalar barədə yeni komandanı məlumatlandırır. Yeni iştirakçılar öz ideyalarını təklif edirlər. Komandaların təklif etdiyi ideyaları fərqləndirmək üçün fərqli rəngli qələmdən istifadə etmək olar. Bu mərhələnin davam etmə müddəti də 10-20 dəqiqədir. Aparıcının göstərişi ilə növbəti yerdəyişmə aparılır. Yerdəyişmələrin sayı masaların sayından asılıdır, lakin 5-dən artıq ola bilməz. Müzakirə üçün ayrılan vaxt tədricən əvvəl 15, 7, sonda isə 5 dəqiqəyədək azaldılır.

Dördüncü mərhələdə komandalar öz ilkin masaları arxasında əyləşir, müzakirənin nəticələrini toplayır, ideyaları sistemləşdirir, yekun cavabları formalaşdırır (məsələn, 5 əsas ideya) və onları xüsusi vərəqələrdə və ya lövhələrdə təqdim edirlər.

Beşinci mərhələdə hər bir masa sahibi tərəfindən nəticələr bütün iştirakçılara təqdim edilir və müzakirə olunur.

Beləliklə, aydın bir quruluş və başa düşülən qaydalar çərçivəsində "World cafe"nin rahat dostluq mühiti formalaşdırılır ki, bu da müəyyən olunmuş müddət ərzində informasiya toplamaq, fikirlərlə bölüşmək və suallara cavab tapmaq imkanı verir.

Beləliklə, tədris prosesində bir çox müxtəlif təlim metodlardan istifadə edilə bilər. Lakin bu metodlardan heç biri universal olmadığından, təlim prosesində yüksək nəticə əldə edilməsi üçün müxtəlif metodlardan istifadə edilməsi əsas şərtlərdən biridir. Çünki effektiv təlim yalnız bir-birinə zidd olmayan bir neçə tədris metodunun ağlabatan formada birləşdirilməsi nəticəsində mümkün ola bilər. Buna görə də təlimin optimallaşdırması məsələsi birmənalı şəkildə həll olunmalı və mövcud şəraitdə ən yüksək təlim səmərəliliyini təmin edəcək metodlar seçilməlidir.

### İstifadə olunmuş mənbələr


- M.H.Əhmədov, T.M.Cəfərov, Y.M.Qasımova "Prokurorluq orqanlarında peşə hazırlığı işinin təşkili", Bakı, 2022.
- Ş.Ağayev "Tədrisdə distant təhsil", Bakı, 2020.
- 4brain.ru portalı "Müasir pedaqogika bacarıqları", Moskva, 2021.
- N.N.Suvorova "İnteraktiv təhsil: yeni yanaşmalar", Moskva, 2005.
- S.V.Sidorov "Passiv, aktiv və interaktiv təhsil modelləri", Moskva, 2015.



**Mübariz Əhmədov**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri**

# Xocalı soyqırımının törədilməsində təqsiri olan hər kəs mütləq cəzasını alacaq






Böyük qürur və fərəh hissləri ilə vurğulamaq lazımdır ki, müdrik rəhbər və yenilməz Sərkərdə Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan bayrağını dalğalandırmaqla, bütün xocalıların qisasını aldı və soyqırımı qurbanlarının ruhunu şad etdi. Eləcə də xalqımızın "Xocalı qisası ilə yanan qəlbinə su səpdi". XX əsrin ən dəhşətli və xüsusilə ağır cinayətlərindən biri olan Xocalı soyqırımını törətməkdə təqsiri olan hər kəs hüquqi müstəvidə də mütləq cəzasını alacaq.

Xalqımıza qarşı sülh və insanlıq əleyhinə, digər cinayətlər, o cümlədən Xocalı qətliamını törətmiş şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyevin rəhbərliyi ilə Hərbi Prokurorluq tərəfindən qanunvericiliyin, eləcə də beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinin tələblərinə uyğun olaraq kifayət qədər işlər görülüb.

Hərbi Prokurorluqda cinayət işinin istintaqı zamanı Xocalı soyqırımı epizodu üzrə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin keçmiş sovet ordusunun Xankəndidəki 366-cı alayının iştirakı ilə BMT-nin Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında", 1949-cu il 12 avqust tarixli "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", habelə "Hərbi əsirlərlə rəftar haqqında", "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə







konvensiyalarının, 1950-ci il noyabrın 4-də Avropa Şurası tərəfindən qəbul olunmuş "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın üçüncü maddəsinin tələblərini kobud şəkildə pozaraq Xocalı şəhərinə hücum etməsi müəyyənləşdirilib. Əvvəlcə şəhəri şiddətli artilleriya atəşinə tutub, sonra isə çoxsaylı ağır tanklar, piyadaların döyüş maşını və zirehli transportyorlar vasitəsilə şəhərə daxil olub, evlərində yatmış dinc əhalini vahiməyə salıb, qarşılarına çıxan qadınlara, uşaqlara, qocalara aman vermədən odlu silahlardan atəşlər açmaqla, tank, döyüş maşını və digər texnikaların altına salaraq əzməklə, müxtəlif işgəncələr verməklə insanları xüsusi amansızlıqla qətlə yetirib və sair vəhşiliklər törədiblər.

İstintaq materialları ilə sübuta yetirilib ki, Xocalı qətliamı zamanı 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 şəxs məhz azərbaycanlı olduqlarına görə ağlasığmaz işgəncələr verilməklə xüsusi amansızlıqla qətlə yetirilib, 487 dinc sakinə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilib. 1.275 şəxs isə əsir və girov götürülərək işgəncələrə məruz qalıb, onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyildir. Soyqırımı zamanı 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Təəssüf və kədər hissləri ilə qeyd olunmalıdır ki, azğınlaşmış erməni qatilləri azyaşlılara belə rəhm etməyib və 5 yaşlı qız uşağına 17 güllə vurublar.

Cinayət işinin istintaqı zamanı konkret olaraq Xocalı epizodu üzrə sülh və insanlıq əleyhinə cinayətlər törətmələri sübuta yetirilmiş 40 nəfərin barəsində onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü (soyqırımı), 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul edilib, barələrində məhkəmə qərarlarına əsasən həbs qətimkan tədbiri seçilib və axtarışlarının təmin edilməsi üçün sənədlər İnterpolun Azərbaycan Respublikasındakı Milli Bürosuna və Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə göndərilib. Hazırda Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin nəzarətləri ilə hərtərəfli istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq Milli Məclis tərəfindən Xocalı soyqırımına siyasi və hüquqi qiymət verilib. Tarix boyu xalqımızın başına gətirilən müsibətlər, o cümlədən həmin faciə barədə tarixi reallıqların dünya ictimaiyyətinə çatdırılması, onlara beynəlxalq səviyyədə obyektiv və ədalətli, yəni həqiqətə və milli maraqlarımıza uyğun münasibət bildirilməsi, bununla əlaqədar respublikamızda və ölkəmizdən kənarda həyata keçirilən sistemli və ardıcıl tədbirlər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin mükəmməl siyasətinin, bu sahədəki müstəsna fəaliyyətinin təcəssümüdür. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə bu sahədə görülən böyük işlər də bəhrəsini verməkdədir. Bu barədə danışarkən, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın 2008-ci ilin mayından başlayaraq həyata keçirdiyi "Xocalıya ədalət!" kampaniyasını, eləcə də Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı səmərəli fəaliyyətini xüsusi vurğulamaq lazımdır.

**Firad Əliyev**
**Azərbaycan Respublikasının Hərbi prokurorun böyük köməkçisi – Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri**

# 100 yaşlı muxtariyyətin prokurorluq orqanları




Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illik yubileyi münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 30.12.2023-cü il tarixdə "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" müvafiq Sərəncam imzalanmışdır.

Sərəncamda qeyd edilir ki, Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir.

Bəli, qədim Azərbaycan torpağı olan Naxçıvan Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biridir. Azərbaycan xalqı bu diyarda qədim və zəngin mədəniyyət yaratmışdır. Naxçıvan eyni zamanda dünyanın ən qədim mədəniyyət mərkəzlərindəndir. Bu torpaqda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır. Naxçıvanın qədim və özünəməxsus dövlətçilik ənənələri, eyni zamanda çox mühüm strateji geosiyasi mövqedə yerləşməsi, Qədim İpək yolunun və eləcə də, Transavropa yolunun da bu regiondan keçməsi bu yerləri siyasi cəhətdən əvəzsiz etdiyi kimi, mənfur düşmənlərin də siyasi və strateji hərbi maraqlarının kəsişdiyi bir nöqtəyə çevirmişdir.

Naxçıvanın özünəməxsus məhkəmə və cinayət-mühakimə sistemi o, müstəqil xanlıq olduğu dövrdən formalaşmağa başlamışdır. XVIII əsrin ortasında müstəqil Naxçıvan xanlığı yarandıqdan sonra onun başçısı olan xan qeyri-məhdud hərbi və mülki hakimiyyətə malik idi. Xan məhkəmə işlərinə, əsasən də, cinayət və böyük həcmli iddialarla müşayiət edilən mülki işlərə şəxsən baxaraq cinayət proseslərində həm hakim, həm də ittihamçı rolunda çıxış edirdi.

1828-ci ildə İrəvan və Naxçıvan xanlıqlarının Rusiya İmperiyası tərəfindən işğal edilməsi nəticəsində bütövlükdə Quzey Azərbaycanın Rusiyaya ilhaqı ilə başa çatdı. İşğal olunmuş Azərbaycanda bir müddət xanlıq üsul-idarəsi saxlanılmış, daha sonra isə komendant üsul-idarəsindən istifadə edilərək, bütün hərbi səlahiyyətlər Rusiya İmperiyası tərəfindən təyin olunmuş rus hərbi komendantın əlində cəmləşmiş, Xana isə yalnız mülki məsələlərin həlli tapşırılmışdır. Cinayət işlərinin istintaqı hərbi komendantın müvəkkil etdiyi şəxs tərəfindən aparılır, işə isə birbaşa hərbi rəhbər nəzarət və rəhbərlik edirdi. Cinayət işlərinin istintaqı qısa aparılırdı və belə proseslər ciddi qanun pozuntuları və hüquqların kütləvi surətdə pozulması ilə müşayiət olunurdu. Belə proseslər zamanı əsas rəhbər sənəd isə Rusiya İmperiyasının Cinayət qanunvericiliyi idi.

Tarixi ədəbiyyatda qeyd olunur ki, 1840-cı ildə Rusiya çarı I Nikolay "Zaqafqaziya diyarının idarə edilməsinin təsis olunması haqqında" Qanun layihəsini təsdiq etdikdən sonra bu sahədə islahatların həyata keçirilməsinə başlanıldı. 1840-cı ildə inzibati-məhkəmə islahatına görə bütün Zaqafqaziya quberniyalarında mülki və cinayət işləri üzrə məhkəmə palatası, həmçinin buna uyğun olaraq prokurorluq hissəsi yaradıldı. Qəza polis idarələri və məhkəmə orqanlarının icraatında olan işlərə nəzarət etmək üçün Qəza prokuroru təsis edildi. Qəza prokuroru Quberniya prokurorunun təqdimatı ilə Qafqazın baş hakimi-canişini tərəfindən vəzifəyə təyin və azad edilirdi.






1849-cu ildə yaradılaraq Zaqafqaziyanın vahid siyasi idarəçiliyinin tərkib hissəsinə çevrilən İrəvan quberniyasına Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzaları daxil idi. 1864-cü ildə təsdiq edilmiş Nizamnamə ilə Rusiya İmperiyası ərazisində mövcud olan məhkəmə institutlarının statusunda, instansiyasında əsaslı dəyişikliklər edildi. Azərbaycanda isə bu, Nizamnamənin tələbləri Qafqaz canişininin 1865-ci ildə təşkil etdiyi xüsusi komissiya tərəfindən hazırlanan və çar tərəfindən 1866-cı ildə təsdiq edilən Əsasnamə ilə həyata keçirilirdi.

1869-cu ildə həyata keçirilən məhkəmə islahatlarına əsasən Naxçıvanda mirovoy (barışıq) məhkəməsi təsis edilir. Məhkəmələrə rəhbərlik edən hakimlər Qafqaz canişini tərəfindən təyin olunurdu. Məhkəmələrin tərkibində müvafiq olaraq prokuror nəzarəti və ayrıca istintaq hissəsi mövcud idi. Prokuror nəzarəti prokurora və onun yoldaşlarına həvalə edilmişdir. Onlar məhkəmələrdə hakimiyyətin maraqlarının müdafiəçisi kimi çıxış edirdilər. Cənubi Qafqazda məhkəmələrin və hakimlərin fəaliyyətinə xüsusi nəzarət Qafqaz canişinin əlində cəmləşməklə ona Ədliyyə Nazirliyinin səlahiyyəti verilmişdi.

1917-ci ildə Rusiyada çarizm devrildikdən sonra imperiyanın hər yerində olduğu kimi müstəmləkə altına alınmış xalqlar arasında da milli azadlıq hərəkatları genişləndi. 28 may 1918-ci ildə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti elan edildi.

18.11.1918-ci ildən 10.03.1919-cu ilədək Naxçıvanda fəaliyyət göstərən Araz-Türk Respublikasının, daha sonra isə Azərbaycan Demokratik Respublikasının xüsusi General-qubernatorluğunun fəaliyyətinin öyrənilməsi həmin dövrə aid sənədlərin yoxluğu və ya sovetlər tərəfindən yandırılması nəticəsində mümkün olmamışdır.

Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1918-ci il 01 oktyabr tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində ilk milli prokurorluq orqanları yaradıldı.

Azərbaycan sovetləşəndən sonra Azərbaycan SSR İnqilab Komitəsinin Dekreti və Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının əmri ilə köhnə məhkəmələr, onların yanında fəaliyyət göstərən prokurorlar və məhkəmə müstəntiqləri ləğv edilərək, əvəzində Xalq məhkəmələri və İstintaq komissiyaları yaradıldı.

Naxçıvanda isə 1920-ci illərin əvvəllərində Naxçıvan İnqilab Komitəsinin nəzdində Fövqəladə İstintaq Komissiyası yaradıldı. FİK-nın ən böyük vəzifəsi daxildə sovet hakimiyyətinə qarşı çıxanlarla-əksinqilabçılarla mübarizə aparmaq, sovet dövlətinin və hakimiyyətin dayaqlarını siyasi, iqtisadi və hərbi üsullarla zəiflətmək istəyənlərə qarşı ciddi tədbirlərin görülməsi idi.

Naxçıvan İnqilab Komitəsinin 13.12.1920-ci il tarixli qərarı ilə Naxçıvanda köhnə məhkəmə sistemi ləğv edilir, Naxçıvan SSR-nın hər üç qəzasında (Naxçıvan, Şərur-Dərələyəz, Ordubad qəzalarında) Naxçıvan İnqilab Komitəsinin qərarına uyğun olaraq məhkəmələrdə ittiham və müdafiə funksiyalarının həyata keçirilməsi və mülki işlər üzrə dövləti təmsil etmək məqsədilə Qəza İnqilab Komitələrinin yanında ittihamçılar Kollegiyası təşkil edilir. Bu Kollegiyanın fəaliyyətinin əsasını isə Azərbaycan SSR İnqilab Komitəsinin Dekreti, Naxçıvan Sovet Respublikası İnqilab Komitəsinin qərarı və Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının Təlimatı təşkil edirdi. İttihamçılar Kollegiyası cinayətlərin istintaqı zamanı mövcud qanunlara əməl edilməsinə nəzarəti həyata keçirir, cinayət işləri üzrə məhkəmələrdə ittihamı müdafiə edir və məhkəmələrin qeyri-qanuni və əsassız hökmlərindən



kassasiya protesti verirdi. Beləliklə, müstəqil dövlət orqanı olmayan İttihamçılar Kollegiyasının funksiyası cinayət işləri üzrə məhkəmə icraatı sahəsi ilə məhdudlaşırdı.

Azərbaycan SSR-in "Azərbaycan Sovet Sosialist Respublikası Dövlət Prokurorluğu haqqında" Dekretinin qəbulu ilə "Məhkəmə quruculuğu haqqında" Əsasnaməyə dəyişiklik edilməklə Dövlət Prokurorluğu institutu yaradıldı. Dekretə əsasən yeni təşkil edilmiş prokurorluq təşkilati cəhətdən müstəqil dövlət orqanı deyildi və Xalq Ədliyyə Komissarlığının tərkibinə şöbə kimi daxil idi.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əsası Naxçıvan Diyar Xalq Komissarları Sovetinin 1922-ci il 5 sentyabr tarixli Dekreti ilə qoyulmuşdur. Elə həmin ildə Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının əmrinə əsasən Naxçıvan SSR Xalq Ədliyyə Komissarlığının strukturu təsdiq edilir. Beləliklə də, Xalq Ədliyyə Komissarlığında müvafiq şöbələrdən biri də Dövlət Prokurorluğu olur.

Naxçıvan Prokurorluğuna Dekretlə müəyyən olunmuş qaydada qanunçuluğa dürüst əməl etmək, istintaq və təhqiqata nəzarət etmək, məhkəmədə dövlət ittihamını müdafiə etmək və sair səlahiyyətlər verilmişdir.

Naxçıvan SSR Xalq Ədliyyə Komissarı həm də dövlət prokuroru vəzifəsini icra edirdi. Müvafiq dövlət prokurorluğu şöbəsində isə müxtəlif sahələrə nəzarəti həyata keçirən şöbə prokurorları mövcud idi. Qəzalarda isə dövlət prokurorları Qəza İcraiyyə Komitələri Ədliyyə şöbələrinin rəisləri idi. Onlar ikili tabelikdə olmaqla həm Qəza İcraiyyə Komitəsinə, həm də Naxçıvan SSR Xalq Ədliyyə Komissarlığına tabe idilər.

Naxçıvan SSR-nin Prokuroru (qeyd edək ki, Naxçıvan SSR-nin Dövlət Prokuroru rəsmən Naxçıvan Cümhuriyyət Prokuroru adlanırdı) Naxçıvan SSR Mərkəzi İcraiyyə Komitəsi qarşısında hesabat verirdi və ona tabe idi. Dövlət Prokuroru və Xalq Ədliyyə Komissarı Naxçıvan SSR MİK tərəfindən vəzifəyə təyin edilirdi. Naxçıvandakı istintaq və təhqiqat orqanları ikili tabeçilikdə-inzibati cəhətdən məhkəmə, əməliyyat-prosessual cəhətdən isə prokurorluğa tabe idilər.

Naxçıvan MSSR-in ali qanunvericilik aktları olan 18.04.1924-cü il tarixli Əsasnaməyə və 1926-cı il Konstitusiyasına Prokurorluq haqqında heç bir müddəa daxil edilməmişdir. Naxçıvan MSSR-də Dövlət Prokurorluğu 1936-cı ilədək Naxçıvan MSSR Xalq Ədliyyə Komissarlığının nəzdində fəaliyyət göstərmişdir. 1936-cı ildə müstəqil Naxçıvan MSSR-nin Prokurorluğu yaradılmışdır ki, bu da öz növbəsində Naxçıvan MSSR-nin inzibati ərazisində təşkil edilən rayon və rayonlararası prokurorluqların işinə nəzarəti həyata keçirirdi.

Naxçıvan MSSR-da Prokurorluğun müstəqil institut kimi təşəkkül tapması Muxtar Respublikanın 1936-cı ildə qəbul edilmiş Konstitusiyasında öz əksini tapmasıdır. Bu Konstitusiyanın xüsusi olaraq VII fəsli Məhkəmə və Prokurorluğa həsr edilmişdir. Konstitusiyada göstərilir ki, Naxçıvan MSSR-in prokuroru SSRİ-nin Baş prokuroru tərəfindən 5 il müddətinə vəzifəyə təyin edilir. Naxçıvan MSSR-in rayon, şəhər prokurorları Azərbaycan SSR-in prokuroru tərəfindən, SSRİ Baş prokurorunun razılığı (təsdiqi) ilə 5 il müddətinə vəzifəyə təyin edilirdi.

Naxçıvan MSSR-in 1978-ci il tarixli Konstitusiyasında da Prokurorluğun fəaliyyəti ilə bağlı xüsusi-16-cı fəsil (155-158 maddələr) nəzərdə tutulmuşdur. Konstitusiyanın 155-ci madəsində qeyd edilir ki, Naxçıvan MSSR ərazisində bütün nazirliklər, dövlət komitələri, müəssisə, idarə və təşkilatlar, yerli xalq deputatları Sovetlərinin icra və sərəncam orqanları, kolxozlar, kooperativ təşkilatları və digər ictimai təşkilatlar, vəzifələ şəxslər, habelə vətəndaşlar tərəfindən qanunların dürüst və eyni qaydada icra olunmasına ali nəzarət SSRİ Baş prokuroru, ona tabe olan Azərbaycan SSR prokuroru, Naxçıvan MSSR prokuroru və aşağı prokurorlar tərəfindən həyta keçirilir. O zaman Naxçıvanda 8 tabe rayon prokurorluğu fəaliyyət göstəriridi. Muxtar Respublika ərazisində prokurorluqlar, o cümlədən tabe rayon (şəhər) prokurorluqları bu illərdə yaradılmışdır:

| № | Prokurorluqlar | Yaranma tarixi |
|---|---|---|
| 1. | Naxçıvan Muxtar Respublikası Prokurorluğu | 05.09.1922 |
| 2. | Şərur rayon prokurorluğu | 1930-cu il |
| 3. | Culfa rayon prokurorluğu | 1930-cu il |
| 4. | Ordubad rayon prokurorluğu | 1930-cu il |
| 5. | Şahbuz rayon prokurorluğu | 1930-cu il |
| 6. | Naxçıvan şəhər prokurorluğu | 1978-ci il |
| 7. | Babək rayon prokurorluğu | 1978-ci il |
| 8. | Sədərək rayon prokurorluğu | 1990-cı il |
| 9. | Kəngərli rayon prokurorluğu | 2004-cü il |

Naxçıvan Prokurorluğu hər zaman Ulu Öndər Heydər Əliyevin diqqət mərkəzində olmuş, bu qurumun inkişafı üçün bütün vasitələrdən istidafə etmişdir. 12.03.1974-cü ildə XXX Naxçıvan Vilayət Partiya Konfransında Azərbaycan Respublikası KP MK-nın birinci katibi Heydər Əliyev çıxış edərək hüquq-mühafizə orqanlarının fəaliyyətində olan nöqsanları ciddi şəkildə tənqid etmişdir. Qeyd etmişdir ki, "Naxçıvan Muxtar Respublikası inzibati orqanlarının fəaliyyətində nöqsanlar çoxdur. Üç il ərzində törədilən cinayətlərin sayında çox da dəyişikliklər olmamışdır. Lakin bu əsas göstərici deyildir və Naxçıvan MSSR prokuroru, daxili işlər naziri, ədliyyə naziri və Ali Məhkəmənin sədri elə zənn etməsinlər ki, onların işinin nəticəsi bununla müəyyən edilir".



Ulu Öndər Heydər Əliyev Naxçıvanda yaşayıb-işlədiyi dövrlərdə bir sıra tarixi və taleyüklü qərarlar qəbul edildi. 1990-cı il 17 noyabr tarixində Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə on ikinci çağırış Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası "Naxçıvan MSSR-in adının dəyişdirilməsi", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanları haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul etdi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 21.11.1990-cı ildə Ümummilli Liderin işləyib hazırladığı "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul etdi. 14.03.1991-ci ildə "SSRİ-nin saxlanılmasına dair Ümumittifaq referendumu"nda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi barədə qərar qəbul edildi. Naxçıvan MSSR Prokurorluğu 1990-cı il 17 noyabr tarixdən etibarən Naxçıvan Muxtar Respublikası Prokurorluğu adlandırıldı.



Ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra prokurorluq orqanlarında da əsaslı hüquqi və struktur islahatlarının başlanması, onun fəaliyyətinin yeni konsepsiya və istiqamətlərinin, rəhbər prinsiplərinin hazırlanması və həyata keçirilməsi zamanın, hüquqi dövlət quruculuğunun tələblərindən irəli gəlirdi.

Ölkəmizdə prokurorluq orqanlarının dövlətçilik maraqlarına, qanunun aliliyinə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xidmət edən sivil və demokratik orqan kimi formalaşması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra ölkədə sözün əsl mənasında hüquqi dövlət quruculuğuna, məhkəmə-hüquq islahatlarına başlanıldı. Məhz ümummilli lider Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasında prokurorluğa ayrıca müddəa həsr olunması prokurorluq və onun dövlət orqanları sistemindəki yeri və rolu barədə olan bütün mübahisələrə son qoydu. Azərbaycan Respublikası Konstitusiyanın 133-cü, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində prokurorluğa ayrıca müddəanın həsr edilməklə, bu mühüm dövlət təsisatının məhkəmə hakimiyyəti sistemində müstəqil orqan kimi müəyyən edilməsi prokurorluq orqanlarına göstərilən diqqət və qayğının bariz nümunəsi olmuşdur.

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunun 14-cü maddəsi ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti tənzimlənir. Kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi və tabe prokurorluqların müstəqilliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun 24.05.2002-ci il tarixli əmri ilə Naxçıvan Muxtar Respublikasının prokuroruna mühüm səlahiyyətlər verilmişdir. Naxçıvan Muxtar Respublikası Prokurorluğunda məşvərətçi orqan olan və Naxçıvan Muxtar Respublikasının prokurorunun rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Kollegiyası yaradılmışdır.

"Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturunun təsdiq edilməsi və "Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10.06.2020-ci il Sərəncamının icrası məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda struktur islahatları həyata keçirilərək yeni idarələr yaradılmış, mövcud idarə və şöbələr yenidən formalaşdırılmış, kadr dəyişiklikləri həyata keçirilmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun sisteminə uyğun olaraq prokurorluqlarda aparılan islahatların Baş Prokurorluğun strukturuna uy-



ğunlaşdırılması zərurəti yaranmışdır. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatının strukturunun Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturuna uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikası Baş prokurorunun 06.08.2020-ci il tarixli əmri ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatının yeni strukturu təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti də Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir. Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmiş, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur rayon prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.



Yüksək dövlət qayğısını daim öz üzərlərində hiss edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də dediyi kimi: "Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olaraq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir".

**Faiq Səfərov**
**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi**

# Qanunsuz miqrasiyanın təşkilinə dair cinayətlər işləri üzrə hüquqi problemlər

Azərbaycan Respublikasında istintaq edilmiş bəzi qanunsuz miqrasiyanın təşkilinə dair cinayət işləri üzrə MDB üzv ölkələrin cinayət qanunvericiliyində boşluqların, ziddiyyətlərin mövcud olması müəyyən edilmişdir. Bu isə qanunsuz miqrasiyanın təşkili cinayətlərinin istintaqında, bu kimi əməllərin qarşısının alınmasında hüquqi problemlər yaradır. Misal kimi aşağıdakı cinayət işlərini göstərmək olar.

Belarus Respublikası İstintaq Komitəsinin Qrodno vilayəti üzrə şöbəsində istintaq edilmiş cinayət işi üzrə 19.09.2016-cı ildə Azərbaycan Respublikası vətəndaşı, Lənkəran rayonunda qeydiyyatda olan K.S.V. barəsində Belarus Respublikası Cinayət Məcəlləsinin 285-ci maddəsinin 2-ci hissəsi və 371-1-ci maddəsinin 2-ci hissəsi ilə *(hər hansı digər formada cinayətkar təşkilatda iştirak etməklə, bir qrup şəxs tərəfindən təkrarən əcnəbi vətəndaşları və ya vətəndaşlığı olmayan şəxslərin Belarus Respublikasına qanunsuz miqrasiyasının təşkili)* təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilmiş, 27.10.2016-cı ildə həbs qətimkan tədbiri seçilmiş, 04.11.2016-cı ildə isə axtarış elan edilmişdir.

Qeyd olunan cinayət işi başqa cinayət işinin materiallarından ayrılaraq, 16.07.2019-cu ildə Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmiş, cinayət işi üzrə istintaqın davam etdirilməsi Lənkəran rayon prokurorluğuna həvalə edilmiş və cinayət işi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 218.2, 318-1.2.1 və 318-1.2.3-cü maddələrinə *(cinayətkar birlikdə (təşkilatda) iştirak etməklə, mütəşəkkil dəstə tərəfindən təkrarən əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına qanunsuz gəlməsini, onun ərazisində qanunsuz qalmasını, bu ərazidən qanunsuz tranzit keçidini və ya hər hansı şəxsin Azərbaycan Respublikasından qanunsuz getməsini təşkil etmə)* tövsif edilmişdir.

2022-ci ildə K.S.V. Rusiya Federasiyasından gələn zaman Lənkəran Beynəlxalq Hava Limanında saxlanılaraq rayon prokurorluğuna təhvil verilmiş, cinayət işinin materialları azərbaycan dilində olmadığı üçün barəsində qətimkan tədbiri qismində başqa yerə getməmək barədə iltizam alınmış, tərcüməsi ilə əlaqədar icraat isə dayandırılmışdır.

01.11.2022-ci ildə iş üzrə icraat təzələnmiş və 04.11.2022-ci ildə K.S.V. Belarus Respublikası Cinayət Məcəlləsinin 285-ci maddəsinin 2-ci hissəsi və 371-1-ci maddəsinin 2-ci hissəsi ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar elan edilmişdir.

Həmin təqsirləndirilən şəxs ifadəsində bildirmişdir ki, 2007-ci ildən Rusiya Federasiyasının Moskva şəhərinə gedərək orada yaşamağa başlamış, orada özünə məxsus avtomobil ilə taksi fəaliyyəti ilə məşğul olmuşdur. 2012-ci ilin qış aylarında, səhər saatlarında Moskva metrosunun yaxınlığında dayanıb müştəri gözləyən zaman metrodan çıxan tanımadığı, üzdən Asiya millətinə oxşayan şəxs ona yaxınlaşmışdır. O, 4 dostunun Belarus Respublikasına aparmaq lazım olduğunu bildirərək, xidmət haqqının nə olacağını soruşmuşdur. K.S.V. 500 ABŞ dolları müqabilində aparacağını bildirdikdən sonra aralarında razılıq əldə olunmuşdur. Bu şəxs onun mobil nömrəsini götürərək həmin gün saat 16 radələrində zəng edərək hazırda xatırlamadığı ünvana getməsini və oradan 4 nəfər tanışlarını götürərək Belarusa aparmasını bildirmişdir. Bundan sonra K.S.V. deyilən ünvana gedərək həmin şəxsləri götürüb Belarusa getmişdir. Belarus Respublikasına çatmağa az qalmış tanımadığı nömrədən ona zəng edilərək apardığı şəxsləri Belarusda xatırlamadığı ünvana çatdırılması bildirilmişdir. Həmin ünvana müştərilərini çatdıraraq və 500 ABŞ dollarını alaraq, o yenidən Rusiya Federasiyasına qayıtmışdır. Təxminən bir həftə sonra metroda rastlaşdığı adam ona yenidən zəng edərək yenə 4 nəfər tanışını Belarus Respublikasına aparmaq lazım olduğunu bildirmiş, aralarında eyni məbləğdə razılıq əldə edilmiş, həmin şəxsləri də Belarusda deyilən ünvana aparmışdır. Daha sonra həmin şəxslərlə əlaqəsi olmamışdır.

Həmçinin K.S.V. ifadəsində göstərmişdir ki, yalnız 2019-cu ildə ailə üzvləri ilə telefon danışığı zamanı barəsində Azərbaycan Respublikasının Lənkəran rayon prokurorluğunda cinayət işinin olmasına dair xəbər almış, 2022-ci ildə isə Lənkəran Beynəlxalq Hava Limanında saxlanıldıqdan sonra barəsində məhz Belarusda qanunsuz miqrasiyasının təşkili ilə bağlı cinayət işinin araşdırılmasından məlumatlı olmuşdur.

## Azərbaycan və Belarus Respublikalarının cinayət qanunvericiliyi

Cinayət qanununun Azərbaycan Respublikası ərazisindən kənarda törədilən cinayətlərə görə qüvvəsini müəyyən edən Cinayət Məcəlləsinin 12.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının

vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri əmələ (hərəkət və ya hərəkətsizliyə) görə, **bu əməl həm Azərbaycan Respublikasının,** həm də ərazisində törədildiyi xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayılırsa və bu cinayətə görə həmin şəxslər xarici dövlətdə məhkum olunmamışlarsa, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi əsasında cinayət məsuliyyətinə cəlb edilirlər.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 12.1-1-ci maddəsinə görə, Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayətə görə xarici dövlətdə məhkum olunmamışlarsa, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilirlər.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 12.3-cü maddəsində isə müəyyən edilib ki, sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, insan alveri, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hava gəmisini qaçırma, girov götürmə, işgəncələr, dəniz quldurluğu, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, saxta pul və ya qiymətli kağızları hazırlama və ya satma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə, radioaktiv materiallarla əlaqədar cinayətlər, habelə cəzalandırılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn digər cinayətlər törətmiş Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, cinayətlərin törədilməsi yerindən asılı olmayaraq, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir və cəzalandırılır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 318-1-ci maddəsində əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasına qanunsuz gəlməsini, Azərbaycan Respublikası ərazisində qanunsuz qalmasını, Azərbaycan Respublikası ərazisindən qanunsuz tranzit keçidini və ya hər hansı şəxsin Azərbaycan Respublikasından qanunsuz getməsini təşkil etmə cinayət məsuliyyətinə səbəb olur.

Belarus Respublikasının Cinayət Məcəlləsinin 371-1-ci maddəsinə əsasən isə xarici vətəndaşların və ya vətəndaşlığı olmayan şəxslərin Belarus Respublikasına qeyri-qanuni girişi, Belarus Respublikasının ərazisində qalması, Belarus Respublikasının ərazisindən tranzit keçməsi və ya Belarus Respublikasından getməsi ilə bağlı fəaliyyətin təşkili və ya idarə edilməsi və yaxud köməklik göstərilməsi (qanunsuz miqrasiyanın təşkili) cinayət məsuliyyətinə səbəb olur.

Həmin dispozisiyalardan görünür ki, digər dövlətlərin ərazisində qanunsuz miqrasiyanın təşkil edilməsi nə Azərbaycan Respublikasının, nə də Belarus Respublikasının Cinayət Məcəllələrində cinayət əməli kimi nəzərdə tutulmadığından cinayət tərkibini yaratmır.

Odur ki, 15.11.2022-ci ildə K.S.V. barəsində Azərbaycan Respublikasında istintaq olunan cinayət işinə xitam verilmiş, qəbul edilmiş qərarın surəti Belarus Respublikasının Baş Prokurorluğuna göndərilmişdir.

Oxşar vəziyyət Samux rayon prokurorluğunda istintaq edilmiş cinayət işi üzrə baş vermişdir. Halbuki həmin iş üzrə təqsirləndirilən şəxsin qanunsuz əməli tam sübuta yetirilmişdir. Belə ki, Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Volqoqrad vilayət idarəsində aparılmış istintaq zamanı məlum olmuşdur ki, Azərbaycan Respublikasının vətəndaşı Ə.E.S. tamah məqsədi ilə tanışı V.V.E. ilə əcnəbilərin Rusiya Federasiyasına qanunsuz gəlməsini təşkil etmək barədə qabaqcadan razılaşma əldə etmişdir. Razılaşmaya əsasən V.V.E. Rusiyanın Volqoqrad şəhərində işləmək istəyən 18 nəfər Özbəkistan Respublikası vətəndaşını təyyarə vasitəsi ilə Belarus Respublikasının Minsk şəhərinə gəlməsini təşkil etmiş, Ə.E.S. isə onları 26.02.2021-ci il saat 23:50-də Minsk Beynəlxalq Hava Limanında qarşılamış, özünün iritutumlu avtomobilinə mindirib, Rusiya Federasiyasının qanunlarına zidd olaraq 27.02.2021-ci il saat 09:30-da Smolensk vilayətinə gətirmişdir. Həmin əcnəbilərin Rusiya ərazisinə qanunsuz girişini hüquq-mühafizə orqanlarından gizlətmək məqsədi ilə Ə.E.S. onlardan 8 nəfərini cinayətin törədilməsindən məlumatı olmayan şəxsin idarə etdiyi "Mersedes Bens" markalı avtomobilə yerləşdirərək, iki avtomobildə Moskva şəhəri istiqamətində yola düşmüşlər. 27.02.2021-ci il saat 10:30-da içərisində 8 nəfər əcnəbi olan "Mersedes Bens" markalı avtomobil Smolensk vilayəti üzrə Rusiya DİN-nin Baş Dövlət Yol Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılmışdır. Buna baxmayaraq, Ə.E.S. idarə etdiyi avtomobillə yolunu davam etmiş, qalan 10 nəfər əcnəbini Moskva şəhəri "Yujnıye vorota" avtovağzalına gətirmiş, orada onlar üçün Volqoqrad şəhərinə bilet alaraq onları müvafiq avtobusa mindirmişdir. Bunun müqabilində Ə.E.S. kartına 288.000 Rusiya rublu məbləğində vəsait köçürülmüşdür. Qeyd edilənlər cinayətdə iştirak etmiş şəxslərin çox saylı ifadələri ilə öz təsdiqini tapmışdır.

28.10.2021-ci ildə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti tərəfindən bu cinayətin törədildiyi aşkarlanmış, 25.01.2022-ci ildə Ə.E.S. barəsində Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 322.1-ci maddəsinin 2-ci hissəsinin "a" bəndi ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilmiş, 14.02.2022-ci ildə isə beynəlxalq axtarış elan olunmuşdur.

Daha sonra cinayət işi Ə.E.S. barəsində ayrıca icraata ayrılaraq Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmişdir. 15.11.2022-ci ildə cinayət işi üzrə istintaqın davam etdirilməsi Samux rayon prokurorluğuna həvalə edilmiş, cinayət işi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 318-1.2.1-ci maddəsinə tövsif edilmiş və cinayət işinin materiallarının rus dilindən azərbaycan dilinə tərcüməsi ilə əlaqədar icraat dayandırılmışdır.

Təqsirləndirilən Ə.E.S. 2023-cü ildə özü könüllü olaraq gəlib istintaqa təqdim olunduğu üçün qeyd olunan cinayət iş üzrə icraat təzələnmiş, ona Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 322.1-ci maddəsinin 2-ci hissəsinin "a" bəndi ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar elan edilmiş və barəsində qətimkan tədbiri qismində başqa yerə getməmək barədə iltizam alınmışdır.

İş üzrə təqsirləndirilən şəxs qismində dindirilmiş Ə.E.S. özünü təqsirli bilməmiş, həmçinin göstərmişdir ki, Minskdə 2021-ci ilin dekabr ayına kimi olduğu müddətdə bu məsələ ilə bağlı hər-hansı hüquq mühafizə orqanı tərəfindən çağırılmamış, məsələ barədə o, Azərbaycanda olarkən xəbər almışdır.

### Rusiya Federasiyasının cinayət qanunvericiliyi

Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 322.1-ci maddəsinə *(Qanunsuz miqrasiyanın təşkili)* görə xarici vətəndaşların və ya vətəndaşlığı olmayan şəxslərin Rusiya Federasiyasına qanunsuz daxil olmasının, onların Rusiya Federasiyasında qanunsuz qalmasının və ya Rusiya Federasiyasının ərazisindən qeyri-qanuni tranzit keçməsinin təşkili cinayət hesab olunur. Eyni əməllər (a) qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, (b) Rusiya Federasiyasının ərazisində cinayət törətmək məqsədi ilə, (c) şəxs öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə daha ağır cəza ilə cəzalandırılır.

Bu dispozisiyadan da görünür ki, digər dövlətlərin ərazisində qanunsuz miqrasiyanın təşkil edilməsi nə Azərbaycan Respublikasının, nə də Rusiya Federasiyasının Cinayət Məcəllələrində cinayət əməli kimi nəzərdə tutulmadığından cinayət tərkibini yaratmır.

Odur ki, 11.12.2023-cü ildə Ə.E.S. barəsində Azərbaycan Respublikasında istintaq olunan cinayət işinə xitam verilmiş, qəbul edilmiş qərarın surəti Rusiya Federasiyasının Baş Prokurorluğuna göndərilmişdir.

***Bu və digər cinayət işlərinin materiallarından görünür ki, ölkələrin cinayət qanunvericiliyində boşluqlar mövcuddur, həmin boşluqlar paradoks vəziyyət yaradır və bu fürsətdən transmilli cinayətkar təşkilatların faydalanması mümkündür.***

Məsələn, hər hansı təşkilat fəaliyyət göstərdiyi ölkənin hüdudlarından kənar ərazilərdə qanunsuz miqrasiyanın təşkili ilə məşğul olsa belə, fəaliyyət göstərdiyi dövlətdə cinayət məsuliyyətinə cəlb olunmayacaq, cəzasız qalacaqdır.

Məsələ ilə bağlı digər MDB-nin digər üzv ölkələrinin (Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Tacikistan) cinayət qanunvericiliyi nəzərdən keçirilərək məlum olmuşdur ki, yalnız Moldova Respublikasının Cinayət Məcəlləsində qanunsuz miqrasiyanın təşkili yerindən asılı olmayaraq cinayət məsuliyyətini yaradır.

Belə ki, Moldova Respublikası Cinayət Məcəlləsinin 362-1-ci maddəsinə (Qanunsuz miqrasiyanın təşkili) əsasən, birbaşa və ya dolayı yolla maliyyə və ya maddi gəliri əldə etmək məqsədi ilə vətəndaşı və rezidenti olmayan şəxsin hər hansı dövlətin ərazisinə qanunsuz daxil olmasını, orada qalmasını, oradan tranzit keçməsini və ya getməsini təşkil etmək cinayət məsuliyyətinə səbəb olur.

***Yuxarıda göstərilən hüquqi problemin aradan qaldırılması üçün MDB üzv ölkələrin cinayət qanunvericiliyi Moldova nümunəsi üzrə təkmilləşdirilməli, yaxud törədilməsi yerindən asılı olmayaraq qanunsuz miqrasiyanın təşkilinə görə şəxslərin cinayət məsuliyyətinə cəlb olunacağı və cəzalandırılacağı hər hansı beynəlxalq sazişdə şərt kimi əks olunmalıdır.***

***Qeyd edilən tədbirlər "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" BMT-nin Konvensiyasını tamamlayan "Miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı" Protokolunun tələblərinə də uyğun olardı.***

**Talıb Cəfərov**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi**

# Mülkiyyət əleyhinə cinayətlərlə mübarizənin müasir problemləri

*(Mülkiyyət əleyhinə cinayətlərin istintaqı zamanı yaranan problemlər barədə müəllifin fikirlərini əks etdirən məqalənin birinci hissəsi jurnalın 2023-cü ilin 4 №-li buraxılışında dərc edilmişdir)*

**7.** Son vaxtlar sahibi tərəfindən ictimai yerlərdə (kafe və restoranlarda, parklardakı oturacaqların üzərində və sair), ictimai nəqliyyatda, hava və dəniz limanlarında, vağzallarda unudulmuş əmlak (əsasən mobil telefon, pul kisəsi və sair) daha sonra digər şəxslər tərəfindən müşahidə edilərək götürülür, sahibinə qaytarılmayaraq və ya bu mümkün olmadıqda müvafiq qaydada dövlət orqanlarına məlumat verilməyərək faktiki ələ keçirilir. Məlum olduğu kimi Mülki Məcəllənin 186-cı maddəsinə görə itirilmiş əşyanı tapan şəxs tapıntı barədə onu itirmiş şəxsə, onun mülkiyyətçisinə, səlahiyyətli şəxsə və ya əgər mülkiyyətçi məlum deyilsə, polisə dərhal xəbər verməli və həmin əşyanı təhvil verməlidir. Əşyanı tapan şəxsə mülkiyyətçinin məlum olduğu və ya mülkiyyətçinin əşyaya hüququnun artıq polisə bildirildiyi hallar istisna olmaqla, əşyanı tapan şəxs bu barədə xəbər verdiyi vaxtdan bir illik müddət keçdikdən sonra tapıntıya mülkiyyət hüququ əldə edir. Mülkiyyət hüququnun əldə edilməsi ilə bir vaxtda həmin əşyaya bütün başqa hüquqlara xitam verilir. Səlahiyyətli şəxs tapılmış əşyanı qəbul edirsə, onu tapan şəxs tapılmış əşyanın dəyərinin beş faizinədək miqdarda bəxşiş tələb edə bilər. Bundan başqa, əşyanı tapan şəxs səlahiyyətli şəxsdən həmin əşyanın saxlanması xərclərinin əvəzini ödəməyi də tələb edə bilər. Əmlakı tapan tapıntı barədə məlumat verməmişsə və ya onu gizlətməyə cəhd göstərmişsə, bəxşiş almaq hüququ əmələ gəlmir. Əşyanı tapan şəxs mülkiyyətdən imtina edirsə, səlahiyyətli orqan bir il keçdikdən sonra əşyanı auksionda sataraq fayda götürə bilər və ya söhbət azqiymətli əşyadan gedirsə, onu pulsuz özgəninkiləşdirə bilər və ya məhv edə bilər. Əgər tapıntı heyvan və ya tez xarab olan əşyadırsa, yaxud saxlanması böyük xərc tələb edən əşyadırsa, bir illik müddət tətbiq olunmur və onların özgəninkiləşdirilməsi nəticəsində əldə edilmiş məbləğ mülkiyyətçiyə qaytarılır [6]. Lakin, tapılmış əşyanı qaytarmamağa görə mülki qanunvericilikdə onu tapan şəxsin bəxşiş almaq hüququnun itirilməsi, əşyanın sahibinin dəymiş ziyanı ondan tələb etmək hüququ istisna olunmasa da, hüquqi məsuliyyət nəzərdə tutulmamışdır. Tapılmış əşyanın qaytarılmaması ilə bağlı onu tapan şəxsin hərəkətlərinə birmənalı olaraq mülki qanunvericilik əsasında yanaşmaq fikrimizcə doğru deyildir. Müasir dövrdə insanların yuxarıda qeyd etdiyimiz müxtəlif səbəblərdən öz əşyalarını unudub çıxıb getmələri və belə əşyaları tapan şəxslərin tapdığı əşyaya vicdansız dərəcədə sahiblənməsi geniş yayılmışdır. Belə ki, konkret cinayətə meyilli şəxslər vardır ki, məhz belə yerlərdə mütəmadi olub müşahidə apararaq sahibinin unutduğu əşyanı faktiki olaraq talayırlar. Bundan əlavə, fərdi taksidə müştərinin unudub getdiyi əşyaya avtomobilin sürücüsü və ya həmin müştəridən sonra avtomobilə əyləşmiş digər müştərinin tapıb sahibləndiyi hallarda da belə hərəkətlərin gizli talama hesab edilməməsi doğru yanaşma deyildir. *Fikrimizcə bu məsələnin kifayət qədər aktuallığını və yaranmış narahatedici vəziyyəti nəzərə alaraq Ali Məhkəmə Plenumunun qərarı ilə tapılmış əşyanın vicdansızcasına sahiblənməsinin hansı hallarda oğurluq cinayətinin tərkibini yaratması ilə bağlı məsələ həllini tapmalıdır. Eyni zamanda belə əməlləri Cinayət Məcəlləsində ayrıca maddə ilə kriminallaşdırmaq da mümkündür.* Bununla bağı örnək olaraq Türk Cəza Qanununu göstərmək olar: həmin qanunun "İtirilmiş və ya səhv nəticəsində ələ keçmiş əşya üzərində sərəncam vermə" adlı 160-cı maddəsində itirilmiş olması səbəbi ilə sahibinin istifadəsindən çıxmış olan və ya səhv nəticəsində ələ keçirilən əşya üzərində geri qaytarmadan və ya səlahiyyətli orqanları xəbardar etmədən mülkiyyətçisi kimi sərəncam vermə cinayət hesab olunur və oğurluqdan fərqli olaraq yalnız şikayət olduqda cinayət təqibi aparılır [10].

**8.** İstintaq təcrübəsində müasir problemlərdən biri də qeyri-aşkar şəraitdə törədilmiş oğurluq cinayətlərinin araşdırılması zamanı oğurlanmış əmlak tapılmadığı halda onun dəyərinin müəyyən edilməsi üçün məhkəmə-əmtəəşünaslıq ekspertizası təyin edilməsi və faktiki tədqiq edilməyən əşyanın dəyəri barədə ekspert rəyi (təcrübədə belə rəy "nəzəri rəy" adlandırılır) əsas götürülməklə qərarların qəbul edilməsidir. Halbuki Cinayət-Prosessual Məcəllə və "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununa görə ekspertza tədqiqat obyektləri əsasında aparılır. CPM-in 127.1-ci maddəsinə görə ekspertin rəyi onun tərəfindən yazılı şəkildə ifadə edilmiş elm, texnika, incəsənət və ya peşə sahəsində xüsusi biliklərə əsaslanmış: cinayət prosesini həyata keçirən orqanın və ya cinayət prosesi tərəflərinin ekspert qarşısında qoyduğu suallara, habelə iş materiallarının tədqiqi zamanı ortaya çıxan onun səlahiyyətlərinə aid digər halların araşdırılmasına dair nəticələri, bu nəticələri əsaslandıran ekspertin apardığı tədqiqatın təsviridir [5]. Yuxarıda qeyd olunan Qanunun 1-ci maddəsinə görə məhkəmə ekspertizası – təhqiqat, ibtidai istintaq orqanının və ya məhkəmənin (hakimin) icraatında olan işin halları barədə informasiya daşıyan maddi obyektlər, hadisələr və proseslər haqqında xüsusi elmi biliklər əsasında aparılan tədqiqatdır. Qanunun 8-ci maddəsinə görə ekspert tədqiqatının obyektləri maddi sübutlar, sənədlər, müqayisəli tədqiqat üçün nümunələr, əşyalar, canlı insan və onun psixi vəziyyəti, heyvanlar, meyitlər və onların hissələri, həmçinin əsasında məhkəmə ekspertizası aparılması üçün zəruri olan iş materiallarıdır [12]. Ekspert faktiki ona təqdim edilməyən, tədqiq etmədiyi bir əşyanın orta bazar qiyməti barədə rəy verir, həmin rəydəki qiymət də tədqiq edilməyən əşya (və ya oxşar əşya) barədə topdan və ya pərakəndə satış elanı barədə internet

portallarından əldə edilmiş məlumatlara əsaslanır. Belə məlumatları cinayət təqibini həyata keçirən orqan da rahatlıqla əldə edə bilər. Göründüyü kimi bu şəkildə "ekspertiza tədqiqatı aparılması" və sübut mənbəyi hesab edilən rəy verilməsi ekspertizanın və sübutetmənin mahiyyətinə uyğun deyildir. *Ona görə də, təcrübədə oğurlanmış (və ya ələ keçirilmiş) əmlak tapılmadığı halda məhkəmə-əmtəəşünaslıq ekspertizası təyin edilməməli, zərərçəkmiş şəxsin həmin əmlak, o cümlədən onun dəyəri barədə verdiyi məlumatlar, eləcə də belə əmlakın satıldığı mağazalardan, istehsalçı şirkətlərdən (və ya onların ölkəmizdəki rəsmi təmsilçilərindən), pərakəndə və ya topdan satış üzrə internet portallarından əldə edilmiş məlumatlar ümumiləşdirilməklə zərərçəkmiş şəxsə vurulmuş maddi ziyanın məbləği müəyyən edilməlidir.* Təsadüfi deyildir ki, Ali Məhkəmə Plenumunun "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" 03.03.2005-ci il tarixli qərarının 27-ci bəndinin son abzasında da talanmış əmlakın qiyməti müəyyən edilərkən, cinayət törədilən vaxt həmin əmlakın faktiki dəyərinin əsas götürülməsi, qiymət barədə məlumat olmadıqda ekspert rəyi ilə müəyyən edilməsinin mümkünlüyü də nəzərdə tutulmuşdur [7].

**9.** Son dövrlərdə istintaq və məhkəmə təcrübəsində eyni zamanda, məhkəmə-əmtəəşünaslıq ekspertizalarının (o cümlədən bəzi başqa ekspertizaların) aparılması qanunsuz olaraq cinayət təqibi ilə bağlı ekspert rəyi vermək səlahiyyəti olmayan müstəqil məhkəmə ekspertizası fəaliyyəti ilə məşğul olan məhdud məsuliyyətli cəmiyyət kimi qeydiyyata alınmış özəl qurumlara həvalə edilir, alınmış heç bir hüquqi qüvvəsi olmayan «ekspert rəyi»nə istinad etməklə əsassız qərarlar qəbul edilir. Halbuki, həmin firmalar məhkəmə ekspertizası idarəsi deyil, eyni zamanda orada çalışan şəxslər özəl məhkəmə eksperti şəhadətnaməsi almamış və barələrində məlumatlar Məhkəmə Ekspertləri Reyestrinə daxil edilməmişdir. Digər tərəfdən isə "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunun 21-ci maddəsinə görə cinayət təqibi zamanı (xüsusi ittiham qaydasında həyata keçirildiyi hal istisna olmaqla) müstəntiq və təhqiqatçının qərarı əsasında ekspertiza yalnız dövlət orqanı olan məhkəmə ekspertizası idarələrinin ekspertləri tərəfindən həyata keçirilir, özəl ekspertlər cinayət işləri və araşdırma materialları üzrə ekspert rəyi vermək səlahiyyətinə malik deyildir, yalnız mülki və inzibati işlər üzrə fiziki və hüquqi şəxslərin, onların vəkilləri və nümayəndələrinin sifarişi üzrə aralarında bağlanmış müqavilə əsasında məhkəmə ekspertizasını həyata keçirə bilərlər [12]. İstintaq təcrübəsində belə səhflərin qarşısının alınması üçün zəruri tədbirlər görülür. *Lakin, bu məsələnin tamamilə aradan qaldırılması üçün məhkəmələr tərəfindən belə "rəy"lərin sübut hesab edilməməsi, həm də öz icraatlarında olan cinayət işləri üzrə təyin edilməməsi ilə bağlı da Ali Məhkəmənin Plenumu tərəfindən məhkəmələrə tövsiyyə verilməsi daha səmərəli olardı.*

**10.** Bundan əlavə, fikrimizcə yaşayiş sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla oğurluq əməlinin cinayət tərkibli olması üçün qəsdə məruz qalan əmlakın dəyərinin 100 manatdan çox olması tələbi doğru deyil. Bu tələb belə əməllərlə cinayət hüquqi mübarizəyə mənfi təsir göstərir, həm də təcrübədə neqativ halların baş verməsinə (məbləği süni surətdə aşağı endirmə və sair) şərait yaradır. İctimai təhlükəlilik səviyyəsi digər gizli talamalardan fəqləndiyindən, xüsusən də, mənzilə, digər saxlanc yerinə daxil olmaq üçün müxtəlif çətin maneələrin dəf edilməsi, orada zərərçəkmiş və ya digər şəxsin olması halında baş verə biləcək daha ağır cinayət (soyğunculuq, quldurluq, sağlamlığa ağır zərər vurma, adam öldürmə və sair) ehtimalını da nəzərə alaraq əməli törədənin peşəkarlığı və cinayətkar xarakterindən xəbər verdiyindən belə əməllərlə cinayət məsuliyyətinə cəlb etməklə mübarizə daha ədalətli və effektiv olardı. *Hesab edirəm ki, ümumiyyətlə gizli talamanın bütün formalarının, xüsusən də yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla törədilən gizli talamaların cinayət hesab edilməsi üçün əmlakın mülkiyyətçisi və ya digər sahibinə 100 manatdan yuxarı ziyanın vurulması tələbi aradan qaldırılmalı, Cinayət Məcəlləsində müvafiq əlavə və düzəliş aparılmaqla 177-ci maddənin "Qeyd" hissəsinin 1-ci bəndinin birinci cümləsindən "177.1" rəqəmi və ikinci cümləsi tamamilə çıxarılmalıdır. Fikrimizcə yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla törədilmiş cinayətlər zamanı faktiki talanmış əmlakın dəyəri və ya vurulmuş ziyanın məbləği az olduqda yüngül cəza təyin edilməsi və ya ümumiyyətlə cəza verilməməsi məsələsini məhkəmə həll etməli, cəzanın labüdlüyü prinsipi cinayət əməli törətmiş şəxsin cəzalandırılması və ya onun məhkəmədə cəza təhdidi altında mühakimə olunması ilə təmin edilməlidir.*

Qeyd etmək yerinə düşər ki, Türk Cəza Qanununun 145-ci (malin dəyərinin az olması) maddəsində qeyd edilmişdir ki, oğurluq cinayətinin predmetini təşkil edən malın dəyərinin azlığı səbəbi ilə, veriləcək cəzada endirim tətbiq edilə, cinayətin törədilmə üsulu və xüsusiyyətləri də nəzərə alınaraq cəza tətbiqindən imtina oluna bilər. Həmin qanunun 150-ci (daha az cəza tətbiq edilməli hal) maddəsinə əsasən isə yağma (soyğunçuluq və quldurluq) cinayətinin predmetini təşkil edən malın dəyərinin azlığı səbəbi ilə, veriləcək cəza üçdə birdən yarıya qədər azaldıla bilər [11].

**11.** Narahatedici məsələlərdən biri də, müasir dövrdə oğurluq cinayətlərinə cəhd, xüsusən də yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla oğurluq törətməyə cəhd cinayətləri ilə mübarizədə formalaşdırılmış mənfi təcrübədir. Təəssüf ki, təcrübədəki bu problem cinayət qanununda oğurluq cinayətinin tərkibinin yaranması üçün qəsdə məruz qalan predmetin dəyərinin 500 manatdan yuxarı (CM-in 177.2.1-177.2.3-2, 177.2.5 və 177.3.1-ci maddələrində nəzərdə tutulmuş cinayətlərdə 100 manatdan yuxarı) olması ilə bağlı

tələbin müəyyən olunması ilə bağlıdır. Əvvəllər, xüsusən yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla gizli talamaların istintaqı zamanı cinayətin predmetinin dəyəri məlum olmadıqda, yəni şəxsin konkret olaraq hansı dəyərdə olan əşyanı və ya hansı məbləğdə pulu talayacağı məlum olmadıqda da əməl CM-in 177.2.3-cü maddəsi ilə tövsif edilirdi, təbii olaraq da əməli törədənin təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərarda hansı əmlakı və ya nə qədər pul vəsaitini talamağa cəhd etməsi qeyd olunmurdu. Lakin təxminən son 15 ildən artıq müddət ərzində təcrübə belə formalaşmışdır ki, əməli törətmiş şəxsin konkret olaraq nəyi oğurlayacağı sübut olunmadığı halda yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla faktiki oğurluq cinayəti törətməyə cəhd göstərmiş şəxs barədə qanunsuz qərarlar qəbul edilir: yəni ya cinayət işi başlanmır, ya da başlanmış cinayət işi üzrə icraata bəraətverici əsaslarla xitam verilir. Bu da yaşayış sahəsi, habelə bina, anbar və ya başqa saxlanc yerlərinin sahibi, istafadəçisinin hüquqlarının kobud surətdə pozulmasıdır. Qeyd olunan yerlərdən yalnız yaşayış sahəsinə orada yaşayanın iradəsi ziddinə daxil olmağa görə CM-in 157-ci (mənzil toxunulmazlığını pozma) maddəsi ilə cinayət məsuliyyəti nəzərdə tutulsa da, məlum olduğu kimi tamah niyyəti ilə, oğurluq məqsədi ilə mənzilə daxil olma bu maddənin təsiri altına düşə bilməz. Oğurluq cinayəti tərətməyə cəhd cinayətləri ilə mübarizədə formalaşmış mənfi təcrübə cinayət etməyə cəhdin cinayət hüquqi mənasının düzgün qavranılmamasından irəli gəlməklə, cinayət qanunvericiliyinin kobud surətdə pozulması, cinayət qanununun vəzifələrinə əməl edilməməsi ilə nəticələnmişdir. CM-in 2-ci maddəsində mülkiyyəti cinayətkar qəsdlərdən qorumaq, habelə cinayətlərin qarşısını almaq bu Məcəllənin vəzifələri arasında göstərilmişdir [8]. Lakin oğurluq cinayəti etməyə cəhd faktları ilə mübarizədə cinayət qanununun nəzərə alınmaması və ya onda olan hər hansı boşluqlardan, zidiyyətlərdən bahənə olaraq istifadə olunması bu qanunun vəzifələrinin həyata keçirilməməsi, prinsiplərinin pozulmasıdır. *Qeyd olunanlar prizmasından da baxıldıqda gizli talamanın bütün formalarının, xüsusən də yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla törədilən gizli talamaların cinayət hesab edilməsi üçün talanan (və ya talamağa cəhd edilən) əmlakın dəyərinin 100 manatdan yuxarı olması tələbi aradan qaldırılmalıdır.*

**12.** Probemli məsələlərdən biri də yaxın qohumların birinin digərinə, o cümlədən övladın öz valideyininə qarşı törətdiyi mülkiyyət əleyhinə cinayət əməlləri zamanı cinayət təqibinin aparılması sahəsində mövcuddur. Qanunvericilikdə tənzimlənməməsi, eləcə də rəsmi şərh və izah xarakterli müvafiq məhkəmə qərarlarının olmaması nəticəsində təcrübədə belə faktlara cinayət təqibi orqanları tərəfindən bir çox hallarda laqeyd münasibət göstərilməsinə səbəb olmuşdur. İstintaq və məhkəmə praktikasında uşaq vaxtı ana-ata boşandıqdan sonra ana ilə qalmış, illər sonra atasını axtarıb tapmış, onun yaşadığı evin həyətindəki tikilidə yaşadığı zaman, atası və sonuncunun arvadı evdə olmadığı vaxt pəncərəni sındırıb oğurluq etmiş şəxs, başqa halda isə xalasının evindən oğurluq etmiş şəxsin zərərçəkmişlərin davamlı şikayətlərinin təsiri altında cinayət məsuliyyətinə cəlb olunaraq barələrində ittiham hökmlərinin çıxarılması kimi konkret hallar olsa da, həm qanunvericilikdəki boşluq, həm də təcrübədəki belə laqeyd münasibət vahid yanaşmanın formalaşmasına mane olmuşdur. Fikrimizcə belə qeyri-müəyyənliyin yaranmasında yuxarıda vurğuladığımız kimi CM-in mülkiyyət əleyhinə olan cinayətlər fəslindəki maddələrdə "özgə" sözünün istifadə edilməsinin də təsiri olmuşdur. Türk Cəza Qanunu isə bizdəkindən fəqli olaraq müvafiq tənzimləməni etmişdir. Türk Cəza Qanununun 167-ci maddəsindən görünür ki, soyğunçuluq və quldurluq istisna olmaqla malvarlığına qarşı cinayətlərin yaxın qohumlarının zərərinə olaraq törədildiyi halda həmin qohuma cəza verilmir. Belə qohumların dairəsi həmin maddənin özündə dəqiq şəkildə müəyyən edilmişdir. Eyni zamanda bu maddənin ikinci bəndində belə cinayətlərin haqlarında boşanma qərarı verilmiş ər-arvaddan birinin, eyni evdə birgə yaşamayan qardaş-bacılardan birinin, eyni evdə birgə yaşayan əmi, dayı, bibi, xala, qardaş və ya bacının övladlarının, ər-arvadın qardaş-bacıları və sonuncuların ər-arvadlarının, ər-arvadın baba-nənələri və onlardan birinin ər-arvadının zərərinə törədildiyi halda, əməli törədən həmin qohum barəsində şikayət olunduğu halda veriləcək cəza yarıya endirilir [11]. *Fikrimizcə vahid istintaq və məhkəmə təcrübəsinin formalaşmasını təmin etmək məqsədilə yaxın qohumlar və digər qohumlar tərəfindən törədilmiş mülkiyyət əleyhinə hüquqazidd faktların cinayət hesab edilməsi meyarları ilə bağlı bizim cinayət qanunvericiliyində də müvafiq tənzimlənmə aparılmalı və ya Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən rəsmi şərh verilməlidir.*

**13.** Son vaxtlar hüquq verən rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlamaqla, bilə-bilə belə saxta sənədlərdən istifadə edilməklə daşınmaz əmlakın (dövlət və bələdiyyə fonduna aid torpaq sahəsinin) və nəqliyyat vasitəsinin özgəninkiləşdirilməsi və ya buna cəhd edilməsi halları geniş yayılmışdır. Lakin mövcud cinayət qanunvericiliyi ictimai təhlükəliliyi daha ağır olan belə cinayətlərlə və peşəkarlığı daha yüksək olan belə cinayətkarlarla çevik və qətiyyətli mübarizəyə mane olmaqdadır. Belə ki, saxta sənəd hazırlayan şəxsin daşınmaz əmlakı ələ keçirən şəxslə cinayət əlaqəsinə girərək qabaqcadan əlbir olan bir qrup şəxsin tərkibində hərəkət etdiyi hallar istisna olmaqla, cinayət məsuliyyətinə cəlb olunmasına imkan verən CM-in 320-ci *(Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə)* maddəsi böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasına aid olmaqla kifayət qədər yüngül cəza, o cümlədən 2

ilədək azadlıqdan məhrum etmə cəzası nəzərdə tutmuş, məhkəmə təcrübəsində isə saxta sənəd hazırlayan və ya bilə-bilə saxta sənəddən istifadə edən şəxsə bir qayda olaraq azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza tətbiq edilir və ya şərti azadlıqdan məhrum edilir. Eyni zamanda 178.1 və 178.2-ci maddələrin sanksiyası da kifayət qədər yüngül olmaqla belə cinayət əməlləri üzrə tətbiq edilən cəzalar Cinayət Məcəlləsinin 41.2-ci maddəsində təsbit olunan cəzanın məqsədlərinə, yəni sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almağa nail olmağa imkan vermir. *Fikrimizcə, bu növ cinayətlərlə effektiv mübarizənin təşkil edilməsi, cinayətlərin qarşısının alınması, cəzanın məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınması kimi məqsədlərinə nail olunması üçün CM-in 178 və 320-ci maddələrində əlavə və dəyişiklik edilməklə aşağıdakı şəkildə ağırlaşdırıcı hallar nəzərdə tutulmalıdır:*

*"178.3.4.daşınmaz əmlakın və ya nəqliyyat vasitəsinin ələ keçirilməsi məqsədilə törədildikdə -"*

*"320.1-1. Bu Məcəllənin 320.1-ci maddəsində nəzərdə tutulmuş əməllər daşınmaz əmlakın və ya nəqliyyat vasitəsinin ələ keçirilməsi məqsədilə törədildikdə -*

*beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır."*

**14.** Mülkiyyət əleyhinə cinayətlər arasında əmlakı qəsdən məhv etmə və ya zədələmə əməlləri xüsusi yer tutur. Bu sahədə də qanunvericilikdə müəyyən problemlər mövcuddur. Cinayət Məcəlləsinin 186.1-cı maddəsinə əsasən əmlakı qəsdən məhv etmə və ya zədələmə əməllərinin zərərçəkmiş şəxsə xeyli miqdarda (yəni CM-in 177-ci maddəsinin Qeyd hissəsinə əsasn 5000 manatdan artıq) ziyan vurulduqda cinayət hesab edilməsi [8], fikrimizcə ədalətli və cinayətkarlığı qarşı mübarizə siyasətinə uyğun olmayan yanaşmadır. Hesab edirik ki, belə əməllərin oğurluq və dələduzluq kimi mülkiyyət əleyhinə digər cinayətlərdən kriminallığı və ictimai təhlükəliliyi daha artıqdır. Oğurluq və dələduzluq əməlləri zamanı cinayəti törədən şəxs bir qayda olaraq əşyanı ələ keçirib tamlğını pozmadan ona sahiblənir, ondan özü və ya üçüncü şəxslər faydalanır. Nəticədə bu cinayətlər üzrə cinayət təqibinin gedişində həmin əşyanı tapıb sahibinə qaytarmaq imkanı itirilmir. Lakin əmlakı qəsdən məhv etmə cinayətlərində əmlak faktiki məhv olduğundan və ya tam yararsız vəziyyətə düşdüyündən onu sahibinə qaytarmaq qeyri-mümkün olur, əmlakı qəsdən zədələmə cinayətlərində isə əmlak qismən yararsız hala düşdüyündən sahibi ondan əvvəlki kimi istifadə edə bilmir, təmir etdikdən sonra da həmin əmlak faktiki olaraq zədələnib sonradan bərpa və ya təmir olunduğundan həm maddi dəyəri aşağı düşür, bir çox hallarda da sahibinin "gözündən düşmüş" olur. CM-in 186.1 və 186.1-ci madələrinin sanksiya hissəsində də ciddi fərq, uyğunsuzluq və anlaşılmazlıq vardır. Belə ki, 186.1-ci maddədə qeyd olunmuş cinayəti törətməyə görə azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalarla yanaşı iki ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulduğu halda, 186.2-ci maddəsində göstərilən həmin cinayətin ağırlaşdırıcı hallarına görə yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzası müəyyən edilmişdir. Bir cinayət əməlinin sadə halı ilə ağırlaşdırıcı hallarının cəzaları arasında belə kəskin fərq doğru yanaşma deyil, fikrimizcə CM hazırlanərkən, eləcə də sonradan əlavə və dəyişikliklər edilərkən bu sadəcə diqqətdən yayınmışdır. Qeyd olunanları ümumiləşdirərək hesab edirik ki, CM-in 186.1-ci maddəsindən *"zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə" sözləri çıxarılmalı, 177-ci maddəsinin Qeyd hissəsinin 1-ci bəndinin 1-ci cümləsinə "186.1-ci" sözləri əlavə edilməli, 2-ci bəndində "185-187" rəqəmləri çıxarılaraq əvəzinə "185 və 187" rəqəmləri qeyd edilməli, 186-cı maddəyə aşağıdakı məzmunda yeni 186.1-1-ci maddə əlavə edilməlidir:*

*"186.1-1. Eyni əməllər zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurmaqla törədildikdə-*

*üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır."*

**İstifadə olunmuş mənbələr**


1. https://constcourt.gov.az/az/decision/1246
2. https://e-qanun.az/framework/21300
3. https://www.constcourt.gov.az/az/decision/1242
4. https://e-qanun.az/framework/2938
5. https://e-qanun.az/framework/46950
6. https://e-qanun.az/framework/46944
7. https://supremecourt.gov.az/storage/pages/551/plenum-id-26.pdf
8. https://e-qanun.az/framework/46947
9. https://supremecourt.gov.az/storage/pages/570/plenum-id-45.pdf
10. https://constcourt.gov.az/az/decision/1199
11. https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.5237.pdf
12. https://e-qanun.az/framework/91
13. https://continent-online.com/Document/?doc_id=31575252#pos=203;-60
14. https://supremecourt.gov.az/storage/pages/530/plenum-id-7.pdf
15. https://www.constcourt.gov.az/az/decision/1303
16. https://supremecourt.gov.az/storage/pages/316/plenum-id-89.pdf
17. https://www.constcourt.gov.az/az/decision/1320
18. https://constitutions.ru/?p=24969
19. https://constitutions.ru/?p=25017
20. https://matsne.gov.ge/ru/document/view/16426?publication=254
21. https://www.constcourt.gov.az/az/decision/1103
22. https://supremecourt.gov.az/storage/pages/547/plenum-id-23.pdf



**Yasin Mikayıllı**
**Daxili İşlər Nazirliyi, Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq və təhqiqat idarəsinin rəis müavini, polis polkovniki**

# Keniya Respublikasının Baş prokuroru Renson Mulele İnqonqanın müsahibəsi



**Cənab prokuror, ölkəmizə xoş gəlmisiniz. Səfərinizlə bağlı ilk təəssüratlarınızı “Azərbaycan Prokurorluğu” jurnalının oxucuları ilə bölüşməyinizi rica edirik.**

Deyə bilərəm ki, səfərim çox yaxşı keçir, qəbuldan etibarən Baş Prokurorun nümayəndə heyətimə qarşı çox gözəl münasibəti ilə əhatə olunmuşuq.

**Prokurorluq orqanlarımız arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq perspektivlərini necə qiymətləndirirsiniz?**

Hesab edirəm ki, hər iki qurumun gələcəyi parlaqdır. Bu, Keniyanın Baş prokuroru kimi buraya ilk səfərimdir və daha öncə də söylədiyim kimi, Azərbaycan ötən ilin may ayında Nayrobidə səfirlik təsis etmişdir. Bu, gələcəkdə bizi daha yaxşı şeylərin gözlədiyini göstərir və biz ən yaxşısına ümid edirik.




**Ölkəmiz bu il çox nüfuzlu COP-29 tədbirinə ev sahibliyi edəcək. Bildiyimiz qədər Keniya da ekoloji cinayətlərdən, xüsusilə də nadir heyvanların qanunsuz ovundan, meşələrin qanunsuz məhv edilməsindən əziyyət çəkib. Keniya prokurorluğunun bu növ cinayətlərə qarşı mübarizə sahəsində hansı səlahiyyətləri vardır?**

Keniyada yalnız iqlim dəyişikliyi ilə əlaqədar deyil, ətraf mühitin idarə edilməsi və yaşıl mühit ilə bağlı qanunlar vardır. Vəhşi təbiət üçün də qanunlarımız var. Və biz ətraf mühitə zərər vuranlara qarşı mübarizənin önündə olmuşuq. Keniya COP29-da təmsil olunacaqdır və bu işdə Azərbaycanın yanındadır. Məndə olan məlumata görə Azərbaycanın ətraf mühit naziri Nayrobidə keçirilən ekoloji seminar və ya konfransda iştirak etmək üçün Keniyaya səfər edəcəkdir. Beləliklə, Keniya COP29-u və Azərbaycan hökumətinin israrlı addımlarını dəstəkləyir.

**Afrika qitəsində yerləşən ölkələrin prokurorluq orqanlarının vahid beynəlxalq təşkilat çərçivəsində təşkilatlanması ilə bağlı hər hansı addımlar atılmışdır?**

Bəli, bizdə bir neçə təşkilat var, amma ən fəalı ilk növbədə Afrika Prokurorları Assosiasiyasıdır. Bu təşkilat Afrikadakı bütün prokurorluq orqanlarını əhatə edir. Bundan əlavə, Şərqi Afrika Prokurorlar Assosiasiyası var. Bu təşkilat Şərqi və Mərkəzi Afrikanı əhatə edir və ona mən sədrlik edirəm.

**Bildiyiniz kimi 21-ci əsr müasir texnologiyalar əsridir. Cinayət prosesinin rəqəmsallaşdırılması ilə bağlı Keniyanın təcrübəsini bizimlə bölüşməyinizi xahiş edirik.**

Keniyada biz proseslərimizi rəqəmsallaşdırmağa çalışırıq və ölkənin bəzi yerlərində bunu etmişik. Bütün məhkəmə orqanlarının inteqrasiya olunduğu e-müraciət sistemi vardır. Bu sistem müraciətlərin elektron şəkildə təqdim edilməsinə imkan verir. Biz həmçinin proseslərimizi daha sürətli və daha asan şəklə salmağa çalışırıq. Yeganə problem, bu sistemi bütün ölkə ərazisində tətbiq etmək üçün kifayət qədər maliyyə imkanlarımızın olmamasıdır. Lakin, biz bu istiqamətdə irəliləyirik.

**Cənab Baş prokuror, bu maraqlı və geniş müsahibə üçün bir daha təşəkkür edirik!**

## Interview by Mr. Renson Mulele Ingonga, Attorney General of the Republic of Kenya

**Distinguished Prosecutor General of Kenya, welcome again to Azerbaijan and we would appreciate if you could share your initial impressions of your visit for the readers of the “Azerbaijan Prosecutor’s Office” journal.**

My visit I can say it has been very good, from reception and the Prosecutor General has been very good to my delegation.

**How do you assess the prospects of cooperation between our prosecution bodies both bilaterally and within the framework of international organizations?**

I think the future for the two institutions is bright. This is my first visit here as the Prosecutor General of Kenya and as I had earlier said Azerbaijan established an Embassy in Nairobi last year in May and that is the sign to show that we have better things ahead of us, and we hope for the best.



**As you know, our country will host the very prestigious COP29 this year. As far as we know, Kenya has also suffered from environmental crimes, especially illegal hunting of rare animals and illegal destruction of forests. What powers does the Kenyan prosecutor's office have in the fight against such crimes?**

In Kenya we have laws that deal with the climate change, not only climate but also environmental management especially the green environment. We also have laws for wild life. And we have been on the forefront against the fight to pouching to environmental hazardous with. During COP29 Kenya will be represented and it supporting Azerbaijan during that mission. And I am aware that the Minister of Environment from Azerbaijan will be headed to Kenya for an environmental workshop or conference in Nairobi just to promote COP29. So Kenya is supportive of COP29 and the push by the Azerbaijan government.

**Have any steps been taken to organize the prosecutor's offices of the countries located on the African continent under a unified international organization?**

Yes, we have several, but the most active one first is the Africa Prosecutors Association that is for all the prosecutorial agencies in Africa, then we have the East Africa Association of Prosecutors, which is in the East and Central Africa where I am the President.

**As you know, the 21st century is the age of modern technologies. Please share with us Kenya's experience in digitalizing the criminal process.**

In Kenya, we are trying to digitalize our processes and we have done in some parts of the country, we have the e filing where we have integrated all the judiciaries so that our systems are filed electronically. We also do watching and hearing to make our processes faster and easier. The only challenge we have is that we do not have enough funds to do for the whole country but that is where we are headed.

**Mr. Prosecutor General, thank you again for the interesting and extensive interview!**



# Qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçiləri təltif olunub











Yanvarın 8-də Baş prokuror Kamran Əliyev rəhbər işçilərin iştirakı ilə “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinə əsasən prokurorluqda qulluqda olmanın yaş həddinə çatmış Azərbaycan Respublikası Baş prokurorunun köməkçisi Müqəddəs Sultanov, Samux rayon prokuroru Mayıl Hacıyev və Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin prokuroru İlham Səlimovu qulluq keçmələrinə xitam verilməsi ilə əlaqədar qəbul edib.



Görüşdə Baş prokuror tərəfindən prokurorluqda uzunmüddətli qüsursuz və səmərəli fəaliyyətlərinə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində səmərəli fəaliyyətlərinə görə onlara “Prokurorluğun fəxri işçisi” döş nişanı və Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanı təqdim edilib.

Daha sonra tədbir iştirakçıları xatirələrini bölüşərək səmimi söhbətlər edib və xatirə şəkli çəkilib.

# Qarabağ Müharibəsi Veteranı olan prokurorluq işçisi son yaş həddinə çatdığına görə təqaüdə göndərilib

Martın 4-də Baş prokurorun müavini Heydər Məmmədov Prokurorluqda qulluqda olmanın son yaş həddinə çatdığına görə qulluq keçməsinə xitam verilmiş Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokuroru Böyükağa Panəliyevi qəbul edərək ona Baş prokuror Kamran Əliyevin əmri ilə təltif olunduğu "Prokurorluğun fəxri işçisi" döş nişanını və hədiyyə təqdim edib.











Görüş zamanı çıxış edən Baş prokurorun müavini birinci Qarabağ Müharibəsi Veteranı olan Böyükağa Panəliyevin prokurorluq orqanların keçdiyi uzunmüddətli xidmət illərinə nəzər salaraq, 1993-cü ildə Qubadlı rayon prokurorluğunun əməkdaşı kimi xidməti vəzifələrinin icrası zamanı cinayətkar dəstənin fəaliyyətinin qarşısını alarkən ağır yaralanmasına baxmayaraq, prokurorluq orqanlarında səmərəli fəaliyyətini davam etdirdiyini, cinayətkarlığa qarşı mübarizədə, habelə qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində böyük töhfələr verdiyini qeyd edib, fədakar fəaliyyətinə görə ona minnətdarlığını bildirib.

Görüş zamanı, həmçinin, digər tədbir iştirakçıları Böyükağa Panəliyevlə bağlı xoş xatirələrini bölüşüb, ona uğurlar arzulayıb.

Sonda xatirə şəkli çəkilib.

# Baş Prokurorluğun əməkdaşları prokurorluğun veteranları ilə görüşüblər





Baş Prokurorluğun əməkdaşları fevralın 9-u prokurorluğun veteranı Paşa İsmayılovun 65 illik yubileyi ilə əlaqədar onunla görüşüb Azərbaycan Respublikası Baş prokurorunun və Baş Prokurorluğun kollektivinin təbriklərini və xoş arzularını çatdırmışlar.

Prokurorluğun veteranı əməkdaşlarla xatirələrini bölüşüb səmimi söhbətlər etmiş və sonda xatirə fotoşəkili çəkilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prokurorluq işçilərinə və prokurorluğun veteranlarına göstərilən diqqət və qayğının məntiqi davamı olaraq, Baş Prokurorluğun əməkdaşları Azərbaycan Prokurorluğunun veteranı Yaşar Babayevin 75 illik yubileyi ilə əlaqədar onunla görüşüb Baş Prokurorluğun kollektivinin təbriklərini və xoş arzularını çatdırmışlar.

Azərbaycan Prokurorluğunun veteranı Yaşar Babayev əməkdaşlarla xatirələrini bölüşüb səmimi söhbətlər etmiş və sonda xatirə fotoşəkili çəkilmişdir.









Baş Prokurorluğun əməkdaşları Azərbaycan Prokurorluğunun veteranı Zülfi Ağacanovun 75 illik yubileyi ilə əlaqədar onunla görüşüb Baş Prokurorluğun kollektivinin təbriklərini və xoş arzularını çatdırmışlar.

Azərbaycan Prokurorluğunun veteranı Zülfi Ağacanov əməkdaşlarla xatirələrini bölüşüb səmimi söhbətlər etmiş və sonda xatirə fotoşəkili çəkilmişdir.



Martın 20-də Azərbaycan SSR Prokuroru, prokurorluğun veteranı İlyas İsmayılovun ad günü münasibətilə Baş prokuror cənab Kamran Əliyevin tapşırığına əsasən prokurorluğun əməkdaşları onu ziyarət edərək təbrikləri çatdırmışlar.

Görüş zamanı İlyas İsmayılov gənc əməkdaşlarla xatirələrini bölüşüb səmimi söhbətlər etmiş və sonda xatirə şəkilləri çəkdirmişdir.

# Prokurorluğun veteranı Ənvər Həmidovun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi



***Həmidov Ənvər Qüdrət oğlu 1981-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirərək, 1981 Naxçıvan MSSR Prokurorluğunun baş müstəntiqi vəzifəsi üzrə stajor təyin edilmiş, 1982–1984-ci illər ərzində Naxçıvan şəhər prokurorluğunun müstəntiqi, 1984–1989-cu illərdə isə MSSR Prokurorluğunun İstintaq şöbəsinin prokuroru olmuşdur.***

***1989–1993-cü illərdə Naxçıvan MSSR Babək rayon prokuroru, 1993–1995-ci illərdə isə Xaçmaz nəqliyyat prokuroru vəzifəsində olmuşdur.***

***1995–1997-ci illərdə Bakı nəqliyyat prokurorluğunun müstəntiqi, böyük müstəntiqi, 1997–2000-ci illər ərzində isə Azərbaycan Nəqliyyat Prokurorluğunun İstintaq şöbəsinin rəisi olmuşdur.***

***2000-ci ildən 2015-ci ilədək Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi vəzifəsində çalışmışdır.***

***Ənvər Həmidov prokurorluqda işlədiyi müddət ərzində xidməti vəzifələrini nümunəvi icra etdiyi üçün, habelə qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində peşəkarlıq göstərdiyinə görə dəfələrlə həvəsləndirilmiş, baş ədliyyə müşaviri rütbəsində olmaqla təqaüdçüdür.***

**Ənvər müəllim, prokurorluqda işə başladığınız ilk günü necə xatırlayırsınız?**

İlk növbədə Baş Prokurorluğun rəhbərliyinə veteranlara göstərdiyi qayğıya və diqqətə görə təşəkkür edirəm. Mən, 1981-ci il sentyabr ayınının 29-da təyinatla Azərbaycan SSR Prokuroru Abbas Zamanovun əmri ilə Naxçıvan MSSR Prokurorluğunun baş müstəntiqi vəzifəsi üzrə stajor təyin olunaraq, oktyabr ayının 1-də əmək fəaliyyətinə başlamışam. Naxçıvanda məni həmkarlarım çox səmimi qəbul etdilər. İstər məişət məsələlərində, istər praktiki işlərdə mənə yardımçı oldular. Tez bir zamanda prokurorluq işinə alışdım.



**Peşəkar işçi kimi formalaşmağınızda hansı həmkarınızın təsirini qeyd etmək istərdiniz?**

Mənim peşəkar formalaşmağımda çoxlu prokurorluq işçilərinin əməyi olub. Onların bəzilərinin adlarını çəkmək istərdim. Mən Naxçıvanda əmək fəaliyyətinə başlayanda Naxçıvan MSSR Prokuroru Ələddin Sultanov idi. Sonralar o, Azərbaycan Respublikası Prokurorunun birinci müavini kimi fəaliyyət göstərdi. Bundan başqa, Naxçıvan MSSR Prokuroru olmuş Əyyub Ələkbərovun, Ağaməmməd İbişovun, Naxçıvan MSSR Prokurorluğunun İstintaq şöbəsinin rəisi, sonralar isə Naxçıvan MSSR Prokurorunun müavini olmuş Həmid Mustafayevin əməyini xüsusi qeyd etmək istəyirəm.

**Babək rayon prokuroru işlədiyiniz barədə, eləcə də həmin dövr ölkəmizdə baş vermiş siyasi dəyişikliklər haqqında xatirələrinizi bizimlə bölüşə bilərsinizmi?**

Mən 1989-cu ilin yanvar ayının 20-də Azərbaycan SSR Prokuroru İlyas İsmayılovun əmri ilə Babək rayon Prokuroru təyin edildim. Babək rayon Prokurorluğuna təyin olunana qədər Naxçıvan şəhər Prokurorluğunun baş müstəntiqi, Naxçıvan MSSR Prokurorluğunun İstintaq şöbəsinin prokuroru vəzifəsində işləmişəm. Mənim prokuror işlədiyim Babək rayonu coğrafi mövqeyinə görə iki xarici dövlət ilə – Ermənistan və İranla sərhəd idi. Mən prokuror təyin olanda vəziyyət çox gərgin idi. Ermənistanla vəziyyət pisləşmişdir. Babək rayonunun üç kəndini Aşağı Buzqov, Yuxarı Buzqov və Gərməçataq kəndlərinə tez-tez ermənilər tərəfindən hücum olunurdu. Dinc əhalini qətlə yetirib kəndləri yandırırdılar. Yaxşı xatırlayıram,



90-cı ilin mart ayında ermənilər Gərməçataq kəndinə hücum edib kəndi yandırdılar. Mən özüm də orada idim. O vaxtkı Naxçıvanın MSSR Kommunist partiya komitəsinin İnzibati orqanlar şöbəsinin müdiri Vəli Zeynalovu da qətlə yetirdilər. Heç bir müdafiə yox idi. Rus hərbiçiləri çıxarılmışdı. Respublikanın müdafiəsi isə təmin olunmamışdır. Bu hadisədən sonra mənə Birinci Qarabağ Müharibəsi veteranı adı verdilər. O vaxt kı, Ermənistanın indiki Vayk rayonu (Əzizbəyov) Gülüstan kəndində azərbaycanlılar yaşayırdı. Eyni zamanda Babək rayonunun Əcnəbuz kəndində isə ermənilər yaşayırdılar. Xatırlayıram, 1989-cu ilin aprel ayında Azərbaycan SSR Prokurorunun göstərişi ilə mən və rayonun bir neçə vəzifəli şəxsi təhlükəli olmasına baxmayaraq Vayk rayonuna getdik. Getməyimizdə məqsəd oradan qaçqın düşmüş soydaşlarımızın problemlərini həll etmək idi. Orada onların avtomobilləri, mülkləri və sənədləri qalmışdı. Müəyyən qədər onlara köməklik göstərə bildik. Bundan başqa, qeyd edilən məsələlərin həlli ilə əlaqədar dəfələrlə Vayk rayonunun prokuroru ilə Ermənistanın və bizim ərazilərimizdə görüşümüz olmuşdur.

Mən özümə şərəf hesab edirəm ki, Babək rayon prokuroru olanda 1990-cı ildə Ulu Öndər Naxçıvana gəldi. Onun Babək rayonunda keçirdiyi bütün görüşlərdə iştirak etmişəm. Onun uzaqgörən müdrik və ağıllı siyasətinin şahidi olmuşam. Eyni zamanda sadə insanların Ulu Öndərə olan məhəbbətini və sevgisini görmüşəm. Onun sadə insanlarla sadə davranışı, onları sonadək dinləməsi məni valeh edirdi. Ulu Öndər Naxçıvana ayaq basdığı ilk gündən əsas işi Naxçıvanı müdafiə etmək idi. Demək olar ki, Naxçıvana gələndən sonra Naxçıvana olan hücumlar xeyli azaldı. Yaxşı xatırlayıram, Ulu Öndər Naxçıvan MR-ın Ali Məclisinin sədri olanda Naxçıvan MR hökumətinin rəhbərlərindən biri mənim haqqımda həqiqətə uyğun olmayan məlumat vermişdi. Ulu Öndərin sədrliyi ilə keçirilən yığıncaqda həmin adam mənim haq-



qımda həqiqətə uyğun olmayan məlumatları təkrar etdi. Sonra mənə söz verildi. Mən etdiyim hərəkətləri qanunla əsaslandırdım. Ulu Öndər məni axıracan dinlədi və sonra iki söz dedi: “Prokuror haqlıdır”.

**Nəqliyyat prokurorluğunda işlədiyiniz dövrü necə xatırlayırsınız və həmin zaman ölkənin nəqliyyat sahəsində baş vermiş rezonanslı hadisələr hansılar olmuşdur?**

Mən 5 il Babək rayon prokuroru işlədikdən sonra 1993-cü ilin may ayından Xaçmaz Nəqliyyat prokuroru təyin olundum. 12 il prokurorluqda işləməyimə baxmayaraq, təyin olunduğum nəqliyyat sahəsi mənim üçün yeni idi. SSSR yeni dağılmışdı. Dəmir yolu demək olar Rusiya ilə işləmirdi. Buna baxmayaraq, tez-tez Dağıstan və Çeçenistandan Gürcüstana aparma adı ilə Ermənistana qaçaqmalçı yolu ilə neft məhsulları ötürülürdü. Biz



bunun qarşısını almağa çalışırdıq. Dəfələrlə qaçaqmalçılara qarşı cinayət işi başlayaraq, qaçaqmalçılıq predmeti olan içi yanacaq dolu vaqonları dövlətə təhvil vermişik. 1994-cü ildə Dağıstanın Kaspiyski şəhər vağzalında Moskvadan Bakıya gələn sərnişin qatarı partladıldı. 4 nəfər soydaşımız həlak oldu. Baxmayaraq ki, terror aktı bizim ərazimizdə törədilməmişdir, mən şəxsən özüm hadisə yerinə getdim və terror aktı ilə əlaqədar cinayət işinin başlanmasına nail olduq.



**Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin mühüm işlər üzrə böyük müstəntiqi kimi istintaq etdiyiniz ən yadda qalan cinayət işi haqqında nə deyə bilərsiniz?**

Mən 1997-ci ildə AR-ın Nəqliyyat Prokurorluğunun istintaq şöbəsinin rəisi təyin oldum. O dövrlərdə tez-tez metroda terror aktları baş verirdi. Çox hallarda həmin cinayətlərin açılmasına nail olmuşuq. 1988-ci ildə Sumqayıtda baş vermiş kütləvi iğtişaşlarla əlaqədar SSR Baş Prokurorluğunun istintaq qrupu istintaq aparmışdır. İğtişaşların bir çox iştirakçıları cinayət məsuliyyətinə cəlb olunaraq məhkəmə hökmləri ilə cəzalandırılmışdılar, işin istintaqı isə dayandırılmışdır. Cənab prezidentin göstərişi ilə həmin işin icraatı təzələnib və Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin peşəkar böyük bir istintaq qrupu yaradıldı. Mən həmin qrupun qərargah rəisi təyin olundum. İstintaqın gedişinə əlavə olaraq bir neçə erməni cinayət məsuliyyətinə cəlb olundu və beynəlxalq axtarışa verildi. Həmin istintaq 5 il davam etdi.



Ağır cinayətlərin xüsusi ilə mühüm işlər üzrə böyük müstəntiqi işləyəndə Şəmkirdə törədilmiş qəsdən öldürməyə cəhd cinayətinə görə ittiham olunaraq həbs olunmuş iki nəfər barəsində istintaq aparılması mənə tapşırıldı. İşi icraata götürən kimi onu ətraflı öyrəndim, altı ay həbsdə olan müttəhimlərlə gedib Gəncə İstintaq təcridxanasında görüşdüm və belə bir nəticəyə gəldim ki, onların cinayətdə heç bir iştirakı yoxdur. Dərhal onları həbsdən buraxdım. Bundan sonra polis əməkdaşlarının fəal köməkliyi ilə bu cinayəti törətmiş 5 nəfər əsl cinayətkar məsuliyyətə cəlb etdim və onları həbs etdim. İstintaqın gedişində həmən qrup tərəfindən törədilmiş keçmiş illərdən qalmış Gəncə, Şəmkir, Samux və Göygöl rayonlarının ərazisində törədilmiş səkkiz soyğunçuluq və quldurluq cinayətlərini aşkar etdim. Həmən cinayət






qrupunun üzvlərinə həmin cinayətlərə görə ittiham verilib məhkəməyə göndərdilər. Məhkəmənin hökmü ilə qanuni cəzalarını aldılar.

**Uzun müddət prokurorluq orqanlarında çalışmış həmkarlarımızın dediyinə görə müstəntiq nəinki peşədir, hətta bir sənətdir. Bu fikirə münasibətinizi bilmək istərdik?**

Bu barədə mənim fikrim belədir ki, prokurorluqda bütün vəzifələr peşədir, yalnız müstəntiq vəzifəsi isə sənətdir.

**Təqaüdə çıxdığınız dövrdə əmək və ya digər fəaliyyətlə məşğul olmusunuzmu?**

2015-ci ilin may ayında təqaüdə çıxmışam. Təqaüdə çıxdığım gündən də “Bakı Tikiş Evi” ASC-nin (köhnə Volodarski fabriki) hüquq şöbəsinin müdiri vəzifəsində çalışıram.

**Son illər ərzində prokurorluğun veteranlarının təşkilatlanmasına, onların müxtəlif ictimai tədbirlərə cəlb edilməsinə necə yanaşısınız?**

Mən bunu çox müsbət qarşılayıram, son illərdə prokurorluq veteranlarına göstərilən qayğı və diqqət məni çox sevindirir. Prokurorluq veteranlarının ictimai birliyinin yaradılmasını mən müsbət hal kimi qiymətləndirirəm.

**Təcrübəli prokuror işçisi kimi gənc həmkarlarınıza hansı tövsiyələri vermək istərdiniz?**

Mən gənc həmkarlarıma onu tövsiyə edirəm ki, daima öz üzərində işləsinlər, yeni qanunvericiliyi izləsinlər. Əldə olan nailiyyətlərlə kifayətlənməsinlər.

Bir dahinin dediyi sözləri xatırlatmaq istəyirəm: “Əvvəllər oxumurdum, elə bilirdim hər şeyi bilirəm. Oxumağa başlayandan sonra hiss etdim ki, heç nəyi bilmirəm”.

Gənc kadr və prokurorluq işçilərinə tövsiyəm ondan ibarətdir ki, hansı vəzifədə olmalarına baxmayaraq, prokurorluğun nüfuzunu qorusunlar. Öz hərəkətləri ilə prokurorluğun nüfuzuna xələl gəlməsin deyə istədikləri vaxt “olmaz”, “yox” deməyi bacarsınlar.



**Həyatınızda ən yüksək nailiyyətiniz kimi nəyi qəbul edirsiniz?**

Mən 34 il prokurorluq orqanlarında çalışmışam. Hansı vəzifəyə təyin olunmuşamsa, onu özümün nailiyyəti kimi qəbul etmişəm.

Mənə tapşırılan bütün vəzifələrin məsuliyyətini hiss etmişəm. Ona görə də mənə tapşırılan hər bir vəzifəni nailiyyət kimi qəbul etmişəm. Əlavə olaraq bildirmək istəyirəm ki, oğlum Qüdrət Həmidov mənim peşəmin davamçısıdır. Hazırda Xaçmaz rayonu prokurorunun müavini vəzifəsində çalışır.

**Ənvər müəllim, bir daha bu maraqlı və geniş müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk.**



# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; 2020, № 6, maddə 675, № 7, maddələr 832, 852, 856; 2021, № 6 (I kitab), maddə 541, № 7, maddə 711; 2022, № 5, maddələr 428, 436, № 8, maddə 828, № 12, maddə 1374; 2023, № 1, maddələr 23, 40, № 2, maddə 207, № 4, maddə 445) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 7.0.8-1-ci maddə əlavə edilsin:

**"7.0.8-1.** cinayət təqibi üzrə qiyabi icraat – məhkəmə tərəfindən qəbul edilmiş cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar əsasında təqsirləndirilən şəxsin iştirakı olmadan onun barəsində cinayət təqibi üzrə məhkəməyədək, həmçinin birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində aparılan icraatdır;".

**2.** 53-cü maddə üzrə:

**2.1.** 53.6-cı maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Cinayət təqibi üzrə icraat dayandırıldıqdan sonra ibtidai araşdırmanın hərtərəfli, tam və obyektiv aparılması üçün prosessual hərəkətlərin həyata keçirilməsi zərurəti yarandıqda, cinayət təqibi üzrə icraat təzələnir və həmin prosessual hərəkətlər başa çatdırıldıqdan sonra yenidən dayandırılır.";

**2.2.** 53.7-ci maddəyə "əleyhinə" sözündən sonra ", terrorçuluq, terrorçuluğu maliyyələşdirmə" sözləri əlavə edilsin.

**3.** Aşağıdakı məzmunda IV-I fəsil əlavə edilsin:

**"IV-I fəsil**
**Prosessual sənədlərin rəsmi qaydada verilməsi**

**Maddə 54-1. Prosessual sənədlərin çatdırılması**

**54-1.1.** Bu Məcəllənin 54-1.5-ci və 54-1.6-cı maddələrində müəyyən edilmiş hallar istisna olmaqla, prosessual sənədlər "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sifarişli poçt göndərişi (məktubu) ilə çatdırılır. Zəruri hallarda prosessual sənədlərin çatdırılması təhqiqatçı və ya müstəntiq tərəfindən həyata keçirilə bilər, habelə təhqiqatçı, müstəntiq, prokuror və ya hakim tərəfindən təhqiqat orqanına, eləcə də cinayət prosesini həyata keçirən müvafiq orqan tərəfindən öz əməkdaşlarına həvalə edilə bilər.

**54-1.2.** Prosessual sənəd onu göndərən orqana qaytarılmalı olan, forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş qəbzə və ya sənədin kötüyünə imza etdirilməklə, ünvan sahibinə şəxsən verilir. Hüquqi şəxsə ünvanlanmış prosessual sənəd müvafiq vəzifəli şəxsə qəbzə və ya sənədin kötüyünə imza etdirilməklə verilir. Prosessual sənədin rəsmi qaydada verilməsi cinayət prosesini həyata keçirən orqanda da həyata keçirilə bilər.

**54-1.3.** Prosessual sənədin çatdırılması vəzifəsi üzərinə düşən şəxslər bunu həmin prosessual sənədi aldıqları vaxtdan bir gündən gec olmayaraq yerinə yetirməli və bu barədə cinayət prosesini həyata keçirən orqana xəbər verməlidirlər.

**54-1.4.** Prosessual sənədin çatdırılması vəzifəsi üzərinə düşən şəxs ünvan sahibini onun yaşadığı, yaxud işlədiyi yer üzrə tapmadıqda, həmin sənəd ünvan sahibi ilə birlikdə yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə (onların razılığı ilə), onlar olmadıqda müvafiq icra hakimiyyəti orqanına, ünvan sahibinin yaşadığı yer üzrə yerli özünüidarəetmə orqanına, yaxud onun işlədiyi yer üzrə müdiriyyətə verilir. Ünvan sahibinin əvəzinə prosessual sənədi qəbul etmiş şəxs qəbzdə və ya sənədin kö-

tüyündə öz soyadını, adını, atasının adını, ünvan sahibinə münasibətini və ya tutduğu vəzifəni göstərməli və həmin sənədi mümkün olan ən qısa müddətdə ünvan sahibinə verməlidir.

**54-1.5.** "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə prosessual sənədlərin çatdırılması bu Məcəllənin 51-1-ci maddəsində müəyyən edilmiş qaydada həyata keçirilir.

**54-1.6.** Azərbaycan Respublikasının hüdudlarından kənarda olduğu üçün şəxsə prosessual sənədlərin bu Məcəllənin 54-1.1–54-1.5-ci maddələrində nəzərdə tutulmuş qaydada çatdırılması mümkün olmadıqda və şəxsin olduğu ölkə barədə etibarlı məlumatlar olduqda, prosessual sənədlər həmin şəxsə çatdırılması üçün müvafiq icra hakimiyyəti orqanı vasitəsilə Azərbaycan Respublikasının həmin ölkədəki diplomatik nümayəndəliyinə və ya konsulluğuna, yaxud cinayət işlərinə dair hüquqi yardım göstərilməsi qaydasında həmin ölkənin müvafiq səlahiyyətli orqanına göndərilir.

**54-1.7.** Tutulmuş və ya həbs edilmiş şəxslərin ünvanına daxil olan prosessual sənədlərin surətləri bu Məcəllənin 161.1.7-ci maddəsində nəzərdə tutulmuş qaydada həbs yerlərinin müdiriyyəti tərəfindən onlara çatdırılmalıdır.

**54-1.8.** Bu Məcəllənin 54-1.2-ci, 54-1.4-cü, 54-1.5-ci və 54-1.7-ci maddələrində, habelə prosessual sənədin şəxsə çatdırılması barədə yazılı məlumat cinayət prosesini həyata keçirən orqana daxil olduğu təqdirdə bu Məcəllənin 54-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda prosessual sənəd rəsmi qaydada verilmiş hesab edilir.

**Maddə 54-2. Çağırış vərəqəsi**

**54-2.1.** Çağırış vərəqəsində aşağıdakı məlumatlar göstərilməlidir:

**54-2.1.1.** cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, əlaqə məlumatları (indeks, telefon, faks və s.), təhqiqatçı, müstəntiq, prokuror və ya hakimin soyadı, adı, vəzifəsi və imzası;

**54-2.1.2.** çağırış vərəqəsinin verilməli olduğu şəxsin prosessual statusu, soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan;

**54-2.1.3.** çağırışa gəlmənin vaxtı (tarix və saat) və yeri;

**54-2.1.4.** şübhəli və ya təqsirləndirilən şəxsə münasibətdə şübhənin və ya ittihamın mahiyyəti;

**54-2.1.5.** bu Məcəllənin müvafiq maddələrinə istinad edilməklə çağırılan şəxsin prosessual hüquq və vəzifələrinin izahı;

**54-2.1.6.** çağırış vərəqəsi üzrə gəlməmənin nəticələri barədə məlumat, o cümlədən çağırılan şəxsin bu Məcəllənin 178.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda cinayət prosesini həyata keçirən orqana məcburi gətiriləcəyi barədə xəbərdarlıq;

**54-2.1.7.** təqsirləndirilən şəxsə onun barəsində bu Məcəllə ilə müəyyən edilmiş hallarda qiyabi icraatın açıla biləcəyi və qiyabi hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarıla biləcəyi barədə xəbərdarlıq, habelə həmin icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatların cinayət prosesini həyata keçirən orqana göndərməli olduğu barədə məlumat.

**54-2.2.** Çağırış vərəqəsinin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

**54-2.3.** Çağırış vərəqəsində vaxt müəyyən edilərkən çağırılan şəxsin cinayət prosesini həyata keçirən orqana vaxtında gələ bilmə imkanı nəzərə alınmalıdır.

**54-2.4.** Çağırılan şəxsin xahişi ilə çağırışın tarixi və vaxtı dəyişdirilə bilər.

**54-2.5.** Çağırılan şəxs çağırışa gəlmədikdə bu Məcəllənin 178-ci maddəsində nəzərdə tutulmuş qaydada məcburi gətirilə bilər. Çağırılan şəxs üzrlü səbəbdən çağırışa gələ bilmədikdə bu barədə dərhal cinayət prosesini həyata keçirən orqana məlumat verməli, çağırışa gəlməməsinə səbəb olan üzrlü halları təsdiq edən dəlilləri təqdim etməlidir. Bu halda cinayət prosesini həyata keçirən orqan çağırılan şəxsin iştirak edə biləcəyi tarix və vaxtı nəzərə almaqla yeni çağırış tarixi və vaxtı müəyyən edir.

**54-2.6.** Şəxs telefon, videokonfrans əlaqə sistemi və ya digər rabitə və telekommunikasiya vasitələrindən istifadə edilməklə çağırıla bilər. Bu halda çağırılan şəxsə çağırış vərəqəsinin bu Məcəllənin 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məzmunu, o cümlədən çağırılan şəxsin hüquq və vəzifələri izah edilir və bu barədə protokol tərtib olunur. Şübhəli və ya təqsirləndirilən şəxs telefon, videokonfrans əlaqə sistemi və ya digər rabitə və telekommunikasiya vasitələrindən istifadə edilməklə çağırıldıqda həmin şəxs qabaqcadan xəbərdar olunmaqla onun səsinin qeyd edilməsi təmin olunmalı, bu protokollaşdırılmalı və müvafiq elektron daşıyıcı protokola əlavə edilməlidir.

**54-2.7.** Həbs yerlərində saxlanılan şübhəli və təqsirləndirilən şəxslər həbs yerinin müdiriyyəti vasitəsilə çağırılırlar.

**54-2.8.** Fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxslər onların qanuni nümayəndələri vasitəsi ilə çağırılırlar.

**Maddə 54-3. Qəbzin məzmunu**

**54-3.1.** Bu Məcəllənin 54-1.2-ci maddəsində nəzərdə tutulmuş qəbzdə aşağıdakılar göstərilməlidir:

**54-3.1.1.** cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, təhqiqatçı, müstəntiq, prokuror və ya hakimin soyadı, adı, atasının adı, vəzifəsi;

**54-3.1.2.** prosessual sənədlərin verilməli olduğu şəxsin prosessual statusu, soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan;

**54-3.1.3.** prosessual sənədin adı;

**54-3.1.4.** prosessual sənədin verilmə vaxtı (tarix və saat), yeri, qəbul edən şəxsin soyadı, adı, atasının adı və imzası;

**54-3.1.5.** prosessual sənədin verilməməsinin səbəbləri;

**54-3.1.6.** ünvan sahibi olmadığı təqdirdə prosessual sənədin verildiyi şəxsin onu mümkün olan ən qısa müddətdə ünvan sahibinə vermək vəzifəsinə dair qeyd və onun imzası;

**54-3.1.7.** prosessual sənədin çatdırılması tapşırılmış şəxsin, yaxud rabitə orqanının nümayəndəsinin imzası.

**Maddə 54-4. Prosessual sənədləri qəbul etməkdən imtina**

Ünvan sahibi və ya digər şəxs prosessual sənədi qəbul etməkdən imtina etdikdə, onu təqdim edən şəxs ünvan sahibinin yaşadığı yer üzrə yerli özünüidarəetmə orqanı, müvafiq icra hakimiyyəti orqanı və ya iş yerinin müdiriyyətinin iştirakı ilə prosessual sənədin verilməməsinin səbəblərinə dair müvafiq qeydlər etdikdən sonra onu cinayət prosesini həyata keçirən orqana qaytarır. Bu halda prosessual sənəd rəsmi qaydada verilmiş hesab olunur.".

**4.** 91.5.42-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 91.5.43-cü maddə əlavə edilsin:

**"91.5.43.** cinayət təqibi qiyabi icraat qaydasında aparıldıqda:

**91.5.43.1.** çağırış vərəqəsini, cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərarı, habelə cinayət təqibi üzrə qiyabi icraat nəticəsində qəbul edilmiş qiyabi hökm və ya məhkəmənin digər yekun qərarını bu Məcəllənin 54-1–54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada almaq (istintaqdan və ya məhkəmədən gizlənməsi müəyyən edildiyi hallar istisna olmaqla);

**91.5.43.2.** cinayət təqibi üzrə qiyabi icraatda müdafiəçisi vasitəsilə təmsil olunmaq;

**91.5.43.3.** cinayət işinin materialları ilə tanış olmaq, istintaq və digər prosessual hərəkətlərin keçirilməsinə dair vəsatətlər vermək;

**91.5.43.4.** cinayət təqibi üzrə qiyabi icraat nəticəsində qəbul edilmiş qiyabi hökm və ya məhkəmənin digər yekun qərarı ilə bağlı bu Məcəllənin 467-17-ci maddəsində nəzərdə tutulmuş qaydada ərizə verərək, onun ləğv edilməsi və cinayət işinə yenidən baxılmasını tələb etmək.".

**5.** 92-ci maddə üzrə:

**5.1.** aşağıdakı məzmunda 92.3.15-1-ci maddə əlavə edilsin:

**"92.3.15-1.** məhkəməyədək icraat zamanı cinayət təqibi qiyabi icraat qaydasında aparıldıqda;";

**5.2.** 92.3.16-cı maddədə "Məcəllədə" sözü "Məcəllənin 51-2-ci və 311.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

**5.3.** 92.4.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 92.4.9-cu maddə əlavə edilsin:

**"92.4.9.** cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə prokurorun təqdimatına məhkəmədə baxılarkən – bu Məcəllənin 92.3.15-1-ci maddəsində nəzərdə tutulmuş halda.".

**6.** 151-ci maddə üzrə:

**6.1.** adına, 151.4-cü maddəyə və 151.5-ci maddənin birinci cümləsinə "təqsirləndirilən" sözündən əvvəl "şübhəli və ya" sözləri əlavə edilsin;

**6.2.** 151.1-ci maddədə "Təqsirləndirilən" sözü "Şübhəli və ya təqsirləndirilən" sözləri ilə əvəz edilsin.

**7.** 214.3-cü maddənin ikinci cümləsində "226" rəqəmləri "227" rəqəmləri ilə əvəz edilsin.

**8.** 226-cı maddə ləğv edilsin.

**9.** 272.2-ci maddədə "226" rəqəmləri "54-1–54-4" rəqəmləri ilə əvəz edilsin.

**10.** 278-ci maddə üzrə:

**10.1.** adında, 278.1-ci və 278.3-cü maddələrdə "Təqsirləndirilən" sözü "Şübhəli və ya təqsirləndirilən" sözləri ilə əvəz edilsin;

**10.2.** 278.2-ci maddədə "Təqsirləndirilən" sözü "Şübhəli və ya təqsirləndirilən" sözləri ilə əvəz edilsin və həmin maddəyə "olmadıqda" sözündən sonra ", yaxud şübhəli" sözləri əlavə edilsin;

**10.3.** 278.4-cü maddəyə "təqsirləndirilən" sözündən əvvəl "şübhəli və ya" sözləri əlavə edilsin.

**11.** Aşağıdakı məzmunda 290.3.3-1-ci maddə əlavə edilsin:

**"290.3.3-1.** cinayət təqibi üzrə qiyabi icraata xitam vermək və ibtidai istintaqın aparılması üçün cinayət işini öz göstərişləri ilə müstəntiqə qaytarmaq;".

**12.** 299-cu maddə üzrə:

**12.1.** 299.9.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"299.9.2.** cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsinə mane olmamaq şərtilə böyük ictimai təhlükə törətməyən cinayətin törədilməsində təqsirləndirilən şəxs ona qarşı irəli sürülmüş ittihama məhkəmədə onun iştirakı olmadan baxılması barədə vəsatət qaldırdıqda;";

**12.2.** aşağıdakı məzmunda 299.9.3-cü maddə əlavə edilsin:

**"299.9.3.** bu Məcəllənin 467-13.1-ci maddəsində nəzərdə tutulmuş halda.".

**13.** 301-ci maddə üzrə:

**13.1.** 301.2.10-cu maddədə "qanunla işə qiyabi baxılmasına yol verildiyi" sözləri "bu Məcəllənin 51-2-ci və 311.2-ci maddələrində nəzərdə tutulmuş" sözləri ilə əvəz edilsin;

**13.2.** 301.5-ci maddənin ikinci cümləsində "226-cı maddəsində" sözləri "54-1–54-4-cü maddələrində" sözləri ilə əvəz edilsin.

**14.** 311.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"311.2.** Təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmə baxışına yalnız bu Məcəllənin 299.9.2-ci və 299.9.3-cü maddələrində nəzərdə tutulmuş hallarda yol verilir.".

**15.** 317.1-ci maddənin birinci cümləsində "226.1 – 226.3-cü" sözləri "54-1–54-4-cü" sözləri ilə əvəz edilsin.

**16.** 442.2.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 442.2.3-cü maddə əlavə edilsin:

**"442.2.3.** cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə vəsatət və təqdimatlara.".

**17.** 446-cı maddə üzrə:

**17.1.** adına, 446.1-ci maddənin birinci abzasına, 446.2.4-cü, 446.2.5-ci və 446.2.7-ci maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin;

**17.2.** aşağıdakı məzmunda 446.1.2-2-ci maddə əlavə edilsin:

**"446.1.2-2.** cinayət təqibi üzrə qiyabi icraatın açılması üçün müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı;";

**17.3.** 446.2.6-cı maddəyə və 446.4-cü maddənin birinci cümləsinə "edilməsinin" sözündən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılmasının" sözləri əlavə edilsin;

**17.4.** 446.3-cü maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması," sözləri əlavə edilsin.

**18.** 447-ci maddə üzrə:

**18.1.** adına, 447.1-ci və 447.5–447.7-ci maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin;

**18.2.** 447.3-cü maddədə "və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi" sözləri ", prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri ilə əvəz edilsin.

**19.** 448-ci maddə üzrə:

**19.1.** adına və 448.1-ci maddənin birinci abzasına "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin;

**19.2.** 448.1.3-1-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 448.1.3-2-ci maddə əlavə edilsin:

**"448.1.3-2.** cinayət təqibi üzrə qiyabi icraatın açılması və ya bundan imtina edilməsi barədə.";

**19.3.** 448.4-cü maddəyə "tətbiq edilməsinə" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılmasına" sözləri əlavə edilsin;

**19.4.** aşağıdakı məzmunda 448.6-2-ci maddə əlavə edilsin:

**"448.6-2.** Cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surətinin göndərilməsi bu Məcəllənin 467-13.11-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.";

19.5. 448.8-ci maddəyə "edilməsinə" sözündən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılmasına" sözləri, "edilməsinin" sözündən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılmasının" sözləri əlavə edilsin.

**20.** 454-cü maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin.

**21.** 466.6-cı maddənin ikinci cümləsində "226" rəqəmləri "227" rəqəmləri ilə əvəz edilsin.

**22.** Aşağıdakı məzmunda LIV-II fəsil əlavə edilsin:

**"LIV-II fəsil**

**Cinayət təqibi üzrə qiyabi icraat**

**Maddə 467-12. Cinayət təqibi üzrə qiyabi icraatın xüsusiyyətləri**

**467-12.1.** Cinayət təqibi üzrə qiyabi icraat bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllədə nəzərdə tutulmuş ümumi qaydalara uyğun olaraq aparılır.

**467-12.2.** Cinayət təqibi üzrə qiyabi icraat aparıldıqda bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquqlar cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilməlidir.

**467-12.3.** Məhkəməyədək qiyabi icraat yalnız ibtidai istintaq şəklində aparılır.

**467-12.4.** Barəsində cinayət təqibi üzrə qiyabi icraat aparılan təqsirləndirilən şəxsə dair cinayət işi ayrıca icraata ayrılır.

**467-12.5.** Yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət təqibi üzrə qiyabi icraatın aparılmasına yol verilmir.

**Maddə 467-13. Cinayət təqibi üzrə qiyabi icraatın açılması**

**467-13.1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100–119, 137, 144–145, 178, 179, 182, 193-1, 204, 205, 206, 206-1, 208, 214–219-1, 228, 274–283-1, 308–314-3, 318, 318-1, 319 və 324-cü maddələri, eləcə də həmin maddələrlə yanaşı eyni bir cinayət işi çərçivəsində cinayətlərin məcmusu üzrə həmin Məcəllənin digər maddələri ilə ittiham olunan təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan və ya məhkəmədən gizləndiyi və ya çağırışa gəlməkdən qəsdən boyun qaçırdığı üçün cinayət prosesində şəxsən iştirakının təmin edilməsi mümkün olmadıqda onun barəsində cinayət təqibi qiyabi icraat qaydasında aparıla bilər.

**467-13.2.** Təqsirləndirilən şəxsin bu Məcəllənin 54-1–54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada cinayət prosesini həyata keçirən orqana çağırılması nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqandan gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxsə ittiham elan etmək üçün onun tutulması, axtarışı, eləcə də bu Məcəllə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada verilməsi (ekstradisiyası) üçün tədbirlər görülür.

**467-13.3.** Cinayət prosesini həyata keçirən orqan təqsirləndirilən şəxsin bu Məcəllənin 54-1–54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada çağırılmasını həyata keçirdikdə, eyni zamanda barəsində cinayət təqibinin qiyabi icraat qaydasında keçirilməsi imkanı barədə onu məlumatlandırır, habelə həmin icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatları cinayət prosesini həyata keçirən orqana göndərməli olduğunu bildirir.

**467-13.4.** Bu Məcəllənin 467-13.2-ci maddəsində nəzərdə tutulmuş tədbirlər nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqan təqsirsizlik prezumpsiyasına riayət etməklə, bu Məcəllənin 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məlumatları (çağırış vərəqəsinin verilməli olduğu şəxsin ünvanı istisna olmaqla) ictimai televiziya və radio vasitəsilə yayımlayır və rəsmi internet səhifəsində dərc etdirir.

**467-13.5.** Təqsirləndirilən şəxs cinayət təqibi üzrə icraatın hər hansı mərhələsində şəxsən iştirak etdikdən sonra istintaq və ya məhkəmədən gizləndikdə, onun bu Məcəllənin 467-13.4-cü maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırılması tələb edilmir və həmin şəxs cinayət təqibinin qiyabi icraat qaydasında aparılmasından məlumatlı hesab olunur.

**467-13.6.** Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun yuxarı prokurorla razılaşdırılmış təqdimatı əsasında məhkəmə nəzarətini həyata keçirən məhkəmə tərəfindən qəbul olunur. Vəsatətə bu Məcəllənin 442–454-cü maddələrində müəyyən edilmiş qaydada baxılır.

**467-13.7.** Təqsirləndirilən şəxsin özünün seçdiyi müdafiəçi barədə məlumat olmadıqda, cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılmasında müdafiəçinin iştirakı cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilir. Təqsirləndirilən şəxsə verilməli olan prosessual sənədlərin surətləri müdafiəçiyə təqdim edilir.

**467-13.8.** Məhkəmənin hazırlıq iclası və ya məhkəmə baxışı zamanı, habelə apellyasiya və kassasiya instansiyası məhkəmələrində cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələ məhkəmənin öz təşəbbüsü ilə və ya ittiham tərəfinin vəsatəti əsasında işə baxan məhkəmənin qərarı ilə həll edilir.

**467-13.9.** Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar yalnız təqsirləndirilən şəxs barəsində axtarış elan olunduğu vaxtdan 3 ay keçdikdən sonra qəbul edilə bilər.

**467-13.10.** Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılarkən məhkəmə tərəfindən aşağıdakı hallar nəzərə alınır:

**467-13.10.1.** təqsirləndirilən şəxsin bu Məcəllədə nəzərdə tutulmuş qaydada çağırılması, olduğu yerin müəyyən edilməsi və cinayət prosesini həyata keçirən orqanın sərəncamına verilməsi üçün görülən tədbirlər;

**467-13.10.2.** təqsirləndirilən şəxsin hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi;

**467-13.10.3.** təqsirləndirilən şəxsin bu Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş qaydada axtarışı və verilməsi (ekstradisiyası) üçün görülmüş tədbirlər.

**467-13.11.** Cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surəti, həmin qərar çıxarıldıqdan sonra 3 gündən gec olmayaraq vəsatəti vermiş şəxsə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, təqsirləndirilən şəxsin müdafiəçisinə və təqsirləndirilən şəxsə (istintaqdan və ya məhkəmədən gizlənməsi müəyyən edildiyi hallar istisna olmaqla) məhkəmə tərəfindən göndərilir.

**Maddə 467-14. Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi**

**467-14.1.** Müstəntiq tərəfindən ittiham aktı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə müstəntiq dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir və bu barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir. Cinayət işinə ittiham aktı ilə birlikdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən baxılarkən təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə prokuror dərhal bu Məcəllənin 290.3.3-1-ci maddəsində nəzərdə tutulmuş qərarı qəbul edir.

**467-14.2.** Bu Məcəllənin 467-14.1-ci maddəsində nəzərdə tutulmuş qərar çıxarıldığı vaxtdan cinayət təqibi üzrə icraat bu Məcəllə ilə müəyyən edilmiş ümumi qaydada davam etdirilir.

**467-14.3.** Təqsirləndirilən şəxs könüllü gəldiyi və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildiyi gün müstəntiq təqsirləndirilən şəxsə bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən bu Məcəllənin 467-14.4-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir, bu barədə protokol tərtib edir və onu bu Məcəllənin 284 – 286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış edir.

**467-14.4.** Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində təqsirləndirilən şəxs və onun müdafiəçisi təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin keçirilməsi barədə vəsatət verə bilər. Vəsatətə bu Məcəllənin 287.2-ci maddəsində nəzərdə tutulmuş qaydada və müddətdə baxılır.

**467-14.5.** Bu Məcəllənin 467-14.4-cü maddəsində nəzərdə tutulmuş vəsatət əsasında və ya müstəntiqin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, habelə əlavə istintaq və digər prosessual hərəkətlər aparıla bilər.

**Maddə 467-15. Məhkəmə icraatı zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi**

**467-15.1.** Məhkəmə hökm və ya digər yekun qərar çıxarmaq üçün müşavirə otağına gedənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya məhkəmənin sərəncamına verildikdə məhkəmə dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir. Həmin qərar qəbul edildikdən sonra məhkəmə icraatı bu Məcəllə ilə müəyyən edilmiş ümumi qaydada aparılır.

**467-15.2.** Cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar çıxarıldıqdan sonra məhkəmə təqsirləndirilən şəxsə bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən bu Məcəllənin 467-15.3-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir, bunu məhkəmə iclasının protokoluna daxil edir və onun bu Məcəllənin 284–286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış olmasını təmin edir.

**467-15.3.** Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində təqsirləndirilən şəxsin, onun müdafiəçisinin və dövlət ittihamçısının məhkəməyə aşağıdakılar barədə vəsatət vermək hüququ vardır:

**467-15.3.1.** təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin keçirilməsi;

**467-15.3.2.** cinayət işinin baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması.

**467-15.4.** Bu Məcəllənin 467-15.3-cü maddəsində nəzərdə tutulmuş vəsatət əsasında və ya məhkəmənin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, əlavə istintaq və digər prosessual hərəkətlər aparıla, habelə cinayət işinin baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması haqqında qərar qəbul edilə bilər.

**Maddə 467-16. Qiyabi hökm və ya digər yekun qərarın çıxarılması**

**467-16.1.** Qiyabi hökm və ya digər yekun qərar bu Məcəllə ilə nəzərdə tutulmuş ümumi qaydada çıxarılır və icra edilir.

**467-16.2.** Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs Azərbaycan Respublikasının hüdudlarından kənarda olduqda qiyabi hökmün və ya digər yekun qərarın icra olunması üçün bu Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş tədbirlər görülür.

**Maddə 467-17. Qanuni qüvvəyə minmiş qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi**

**467-17.1.** Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə cəzanı icra edən orqan dərhal qiyabi hökm və ya digər yekun qərarı çıxarmış məhkəməyə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə məsələlərə baxılması üçün təqdimat verir.

**467-17.2.** Təqdimatın daxil olduğu vaxtdan 10 gün müddətində məhkəmə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında iclas təyin edir. Məhkəmənin iclasında barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs, müdafiəçi və prokurorun iştirakı məcburidir.

**467-17.3.** Məhkəmə barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə vermək hüququnu izah edir, bunu məhkəmə iclasının protokoluna daxil edir, barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsə və onun müdafiəçisinə 10 gün müddətində cinayət işinin materialları ilə tanış olmaq üçün şərait yaradır. Cinayət işinin həcminin böyüklüyü ilə əlaqədar barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsin və ya onun müdafiəçisinin vəsatəti əsasında həmin müddət 30 günədək uzadılır.

**467-17.4.** Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs və ya onun müdafiəçisi qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə verməzsə, hakim qiyabi hökmün və ya digər yekun qərarın icrası barədə göstəriş verir və qiyabi hökm və ya digər yekun qərar ümumi qaydada icra olunur.

**467-17.5.** Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs və ya onun müdafiəçisi qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə verdikdə, həmin qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi barədə qərar qəbul edilir və yeni məhkəmə baxışının keçirilməsi məqsədilə bu Məcəllənin 298 – 307-ci maddələrində nəzərdə tutulmuş tədbirlər görülür.".

**23.** Aşağıdakı məzmunda 519.4-cü maddə əlavə edilsin:

**"519.4.** Qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə qiyabi hökm və ya digər yekun qərar çıxarmış məhkəmə cəzanı icra edən orqanın təqdimatı əsasında qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi məsələsinə baxır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 dekabr 2023-cü il
№ 1061-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### «Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanununun tətbiqi və «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

**1.1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-1.2-ci maddəsinin birinci cümləsində və 54-2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

**1.2.** həmin Məcəllənin 54-1.4-cü və 54-4-cü maddələrinin birinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

**1.3.** həmin Məcəllənin 54-1.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** iki ay müddətində:

**2.1.1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-1.2-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, cinayət mühakimə icraatında prosessual sənədin verilməsi barədə qəbzin formasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.1.2.** həmin Məcəllənin 54-2.2-ci maddəsinə uyğun olaraq, cinayət prosesini həyata keçirən orqana çağırış vərəqəsinin formasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.2.** «Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 yanvar tarixli 2448 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** beşinci abzasda «131-1.4-cü maddəsində» sözləri «54-1.2-ci maddəsinin birinci cümləsində, 54-2.2, 131-1.4-cü maddələrində» sözləri ilə əvəz edilsin;

**3.2.** doqquzuncu abzasa «438.3» rəqəmlərindən əvvəl «54-1.6,» rəqəmləri əlavə olunsun və həmin abzasda «müvafiq icra hakimiyyəti orqanları»nın» sözləri «müvafiq icra hakimiyyəti orqanının» sözləri ilə əvəz edilsin;

**3.3.** səkkizinci — iyirmi ikinci abzaslar müvafiq olaraq doqquzuncu — iyirmi üçüncü abzaslar hesab olunsun və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

«həmin Məcəllənin 54-1.4-cü və 54-4-cü maddələrinin birinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 yanvar 2024-cü il
№ 2457

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə

327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; 2022, № 5, maddələr 434, 437, № 7, maddə 703, № 8, maddələr 821, 828, № 12, maddələr 1363, 1373; 2023, № 1, maddə 39, № 2, maddə 207, № 4, maddə 445, № 6, maddə 755; Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1023-VIQD nömrəli Qanunu) 252-ci maddəsinin adına və 252.1-ci maddəsinə (hər iki halda) "mühitini" sözündən əvvəl "ətraf" sözü əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 dekabr 2023-cü il

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 688; 2000, № 7, maddə 494; 2002, № 8, maddə 464; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 202; 2005, № 10, maddələr 874, 876, 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddə 1, № 2, maddə 82; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 11, maddə 944; 2011, № 4, maddə 269, № 7, maddə 611, № 11, maddə 987; 2012, № 6, maddə 519; 2014, № 3, maddə 237; 2016, № 6, maddələr 1012, 1017; 2017, № 12 (I kitab), maddə 2238; 2018, № 2, maddə 146; 2020, № 7, maddə 856; 2021, № 5, maddə 432; 2022, № 8, maddə 831, № 12, maddə 1367; 2023, № 5, maddələr 616, 624) 39-cu maddəsinin dördüncü hissəsinin birinci abzasına "işçilərinin" sözündən sonra "və prokurorluq orqanlarının digər əməkdaşlarının" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 dekabr 2023-cü il
№ 1081-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1081-VIQD nömrəli Qanununun tətbiqi və «Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyul tarixli 1402 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1081-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** «Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyul tarixli 1402 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 736 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** adına və 1-ci hissəsinə «işçilərinin» sözündən sonra «və prokurorluq orqanlarının digər əməkdaşlarının» sözləri əlavə edilsin;

**1.2.** həmin Fərmanla təsdiq edilmiş «Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası» üzrə:

**1.2.1.** adına «işçilərinin» sözündən sonra «və prokurorluq orqanlarının digər əməkdaşlarının» sözləri əlavə edilsin;

**1.2.2.** 1.2-ci bəndə «işçilərinin» sözündən sonra «və prokurorluq orqanlarının digər əməkdaşlarının (bundan sonra – əməkdaşlar)» sözləri əlavə edilsin;

**1.2.3.** 3.1-ci bənd üzrə:

**1.2.3.1.** birinci abzasda «prokurorluq işçilərinin (bundan sonra – işçilər)» sözləri «əməkdaşların» sözü ilə əvəz edilsin;

**1.2.3.2.** 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərdə «işçilərin» sözü «əməkdaşların» sözü ilə əvəz edilsin;

**1.2.3.3.** 3.1.3-cü yarımbənddə «işçilər» sözü «əməkdaşlar» sözü ilə əvəz edilsin;

**1.2.4.** 3.4-cü bənddə «işçinin» sözü «əməkdaşın» sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1081-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 yanvar 2024-cü il
№ 2444

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### "Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasına Əlavə Protokol"un təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasına 2015-ci il oktyabrın 22-də Riqa şəhərində imzalanmış Əlavə Protokol Azərbaycan Respublikasının müvafiq bəyanatları ilə təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2023-cü il
№ 1085-VIQ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci, 18-ci və 20-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4 maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; 2022, № 5, maddələr 434, 437, № 7, maddə 703, № 8, maddələr 821, 828, № 12, maddələr 1363, 1373; 2023, № 1, maddə 39, № 2, maddə 207, № 4, maddə 445, № 6, maddə 755; Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1023-VIQD nömrəli və 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** aşağıdakı məzmunda 281-1-ci və 284-2-ci maddələr əlavə edilsin:

**"Maddə 281-1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn atributları və ya simvolları nümayiş etdirmə, yayma, hazırlama, əldə etmə, saxlama, daşıma və ya gəzdirmə**

**281-1.1.** Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn atributları və ya simvolları nümayiş etdirmə və ya yayma, yaxud nümayiş etdirmək və ya yaymaq məqsədilə hazırlama, əldə etmə, saxlama, daşıma və ya gəzdirmə –

beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**281-1.2.** Bu Məcəllənin 281-1.1-ci maddəsində nəzərdə tutulmuş əməllər qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə –

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**281-1.3.** Bu Məcəllənin 281-1.1-ci maddəsində nəzərdə tutulmuş əməllər xarici təşkilatların və onların nümayəndələrinin tapşırığı ilə törədildikdə –

yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**"Maddə 284-2. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatları yayma**

**284-2.1.** Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatları yayma, müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə və bu Məcəllənin 274-cü, 276-cı və ya 284-cü maddələrində nəzərdə tutulmuş əməllərin əlamətləri olmadıqda –

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**284-2.2.** Eyni əməllər ağır nəticələrə səbəb olduqda –

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətə açıqlanan məlumatların yayılması hallarına bu Məcəllənin 284-2-ci maddəsinin qüvvəsi şamil edilmir.";

**1.2.** 328-ci maddənin "Qeyd" hissəsinin 1-ci və 3-cü bəndlərində "fəslin" sözü "Məcəllənin" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik

Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381,1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703, № 8, maddələr 822, 825, 828, № 11, maddə 1236, № 12, maddələr 1364, 1399; 2023, № 1, maddələr 17, 20, 32, 39, № 2, maddələr 149, 201, 204, № 4, maddə 466, № 6, maddələr 743, 754, № 7, maddələr 905, 907, № 8 (I kitab), maddələr 1096, 1122, 1128; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1008-VIQD nömrəli və 5 dekabr tarixli 1048-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 614-1-ci maddə əlavə edilsin:

**"Maddə 614-1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların yayılması**

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların mediada, o cümlədən internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində hərbi qulluqçular və ya toplanışa çağırılmış hərbi vəzifəlilər tərəfindən yayılmasına görə –

on gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Qeyd:**

**1.** Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətə açıqlanan məlumatların yayılması hallarına bu Məcəllənin 614-1-ci maddəsinin qüvvəsi şamil edilmir.

**2.** Bu Məcəllənin 614-1-ci maddəsi həmin maddədə göstərilən əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.".

**Maddə 3.** Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 364; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 312, № 6, maddə 415; 2007, № 8, maddə 754; 2008, № 8, maddə 709; 2010, № 4, maddə 274, № 12, maddə 1056; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 9; 2018, № 1, maddə 9, № 10, maddə 1967; 2021, № 6 (I kitab), maddə 544, № 7, maddə 699; 2022, № 5, maddə 433) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"nin 2-ci maddəsində "saxlamalıdır" sözü "saxlamalı, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatları (dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətə açıqlanan məlumatlar istisna olmaqla) yaymamalıdır" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364; 2005, № 6, maddə 466; 2006, № 12, maddə 1005; 2007, № 10, maddə 938; 2011, № 3, maddə 162; 2012, № 11, maddə 1051; 2017, № 3, maddə 345; 2019, № 12, maddə 1881; 2020, № 3, maddə 225, № 6, maddə 671; 2021, № 12, maddə 1345; 2022, № 7, maddə 693; 2023, № 4, maddə 448, № 5, maddə 626) aşağıdakı məzmunda 13-2.3.3-1-ci maddə əlavə edilsin:

**"13-2.3.3-1.** Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatlar (dövlət orqanları (qurumları) tərəfindən ictimaiyyətə açıqlanan məlumatlar istisna olmaqla);".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2023-cü il
№ 1087-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

«Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I) 2-ci hissəsinin on beşinci – on səkkizinci abzasları müvafiq olaraq on doqquzuncu – iyirmi ikinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda on beşinci – on səkkizinci abzaslar əlavə edilsin:

«həmin Məcəllənin 487-5.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:

qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi bölgü üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və onun rayon (şəhər) qeydiyyat şöbələri, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalar və xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri istisna olmaqla, digər qeyri-kommersiya qurumlarına münasibətdə isə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi;

kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə, publik hüquqi şəxslərə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, habelə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti;

dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi;».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 yanvar 2024-cü il
№ 2448

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr çərçivəsində sahibkarlara kredit təşkilatları tərəfindən verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr çərçivəsində sahibkarların rezident banklar və bank olmayan kredit təşkilatlarından (bundan sonra — kredit təşkilatları) manatla aldıqları kreditlərə hesablanmış faizlər Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə subsidiyalaşdırılsın.

**2.** «Sahibkarlara kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faiz subsidiyalarının verilməsi Qaydası» təsdiq edilsin (əlavə olunur).

**3.** Müəyyən edilsin ki, subsidiya sahibkarlar tərəfindən 2024-cü il yanvarın 1-dən dekabrın 1-dək kredit təşkilatlarından manatla alınan kreditlərə hesablanmış faizlərə görə verilir.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

**5.1.** bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faizlərin subsidiyalaşdırılmasını təşkil etsin;

**5.2.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə ödəniləcək faizlərin subsidiyalaşdırılmasını təmin etmək məqsədilə tələb olunan vəsaitin 2025-ci ildən başlayaraq dövlət büdcəsində nəzərdə tutulması üçün tədbirlər görsün.

**7.** Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan təsdiqedici sənədin formasını və verilməsi qaydasını 10 (on) gün müddətində təsdiq etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 1 fevral 2024-cü il
№ 2461

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri aşağıdakı şəxslər təyin edilsinlər:

**1.1.** Azərbaycan Respublikası Baş nazirinin birinci müavini – Yaqub Abdulla oğlu Eyyubov;

**1.2.** Azərbaycan Respublikası Baş nazirinin müavini – Əli Cavad oğlu Əhmədov;

**1.3.** Azərbaycan Respublikası Baş nazirinin müavini – Şahin Abdulla oğlu Mustafayev;

**1.4.** Azərbaycan Respublikasının daxili işlər naziri – Vilayət Süleyman oğlu Eyvazov;

**1.5.** Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri – Muxtar Bahadur oğlu Babayev;

**1.6.** Azərbaycan Respublikasının elm və təhsil naziri – Emin Eldar oğlu Əmrullayev;

**1.7.** Azərbaycan Respublikasının energetika naziri – Pərviz Oqtay oğlu Şahbazov;

**1.8.** Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri – Sahil Rafiq oğlu Babayev;

**1.9.** Azərbaycan Respublikasının fövqəladə hallar naziri – Kəmaləddin Fəttah oğlu Heydərov;

**1.10.** Azərbaycan Respublikasının gənclər və idman naziri – Fərid Fazil oğlu Qayıbov;

**1.11.** Azərbaycan Respublikasının xarici işlər naziri – Ceyhun Əziz oğlu Bayramov;

**1.12.** Azərbaycan Respublikasının iqtisadiyyat naziri – Mikayıl Çingiz oğlu Cabbarov;

**1.13.** Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri – Məcnun Qadir oğlu Məmmədov;

**1.14.** Azərbaycan Respublikasının maliyyə naziri – Samir Rauf oğlu Şərifov;

**1.15.** Azərbaycan Respublikasının mədəniyyət naziri – Adil Qabil oğlu Kərimli;

**1.16.** Azərbaycan Respublikasının müdafiə naziri – Zakir Əsgər oğlu Həsənov;

**1.17.** Azərbaycan Respublikasının müdafiə sənayesi naziri – Vüqar Valeh oğlu Mustafayev;

**1.18.** Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri – Rəşad Nəbi oğlu Nəbiyev;

**1.19.** Azərbaycan Respublikasının səhiyyə naziri – Teymur Yusif oğlu Musayev;

**1.20.** Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri – Bahar Əvəz qızı Muradova;

**1.21.** Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri – Fuad Rauf oğlu Muradov;

**1.22.** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri – Şahin Soltan oğlu Bağırov;

**1.23.** Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi – Elçin İsağa oğlu Quliyev;

**1.24.** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri – Tahir Yaqub oğlu Budaqov;

**1.25.** Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri – Anar Adil oğlu Quliyev;

**1.26.** Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri – Rövşən Şükür oğlu Rzayev;

**1.27.** Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi – Vüsal Əfqan oğlu Hüseynov;

**1.28.** Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi – Əli Nağı oğlu Nağıyev;

**1.29.** Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi – Orxan Sedyar oğlu Sultanov;

**1.30.** Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi – Mürsəl Qorxmaz oğlu İbrahimov;

**1.31.** Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri – Zaur Rauf oğlu Mikayılov;

**1.32.** Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri – Fuad Hümbət oğlu Nağıyev;

**1.33.** Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri – Qoşqar İlahi oğlu Təhməzli;

**1.34.** Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi – Əsgər Adil oğlu Rəsulov.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 fevral 2024-cü il
№ 8

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

### Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun

### Q Ə R A R I

### Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII və X hissələri, 80-ci maddəsi baxımından Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 499.1 və 499.2-ci maddələrinin həmin Məcəllənin 38-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair

28 mart 2024-cü il Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov (məruzəçi-hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi F.Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Şirvan Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII və X hissələri, 80-ci maddəsi baxımından Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 499.1 və 499.2-ci maddələrinin həmin Məcəllənin 38-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlər Şirvan Apellyasiya Məhkəməsi və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin mütəxəssis mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının professoru, hüquq elmləri doktoru S.Əliyevin və həmin kafedranın dosenti, hüquq üzrə fəlsəfə doktoru N.Şükürovun rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

#### MÜƏYYƏN ETDİ:

Şirvan Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 499.1 və 499.2-ci maddələrinin əlaqəli şəkildə və İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsinin həmin Məcəllənin 38-ci maddəsinə uyğunluğu baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdən görünür ki, "REAL-QAZ" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – "REAL-QAZ" MMC) müqavilə əsasında müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilmiş malları 6 noyabr 2020-ci il tarixli gömrük bəyannaməsi ilə Gürcüstan Respublikasına göndərmiş və həmin malların 24 ay ərzində, yəni 5 noyabr 2022-ci il tarixinədək Azərbaycan Respublikasına qaytarılmasına zəmanət vermiş, həmin zəmanət müddəti gömrük bəyannaməsində də öz əksini tapmışdır. Malların bir hissəsi müəyyən edilmiş müddət ərzində ölkəyə geri qaytarılsa da, digər hissəsi qaytarılmamışdır. "REAL-QAZ" MMC-nin əməkdaşı 5 iyun 2023-cü il tarixində Bakı Baş Gömrük İdarəsinə müraciət edərək qalan malların 24 ay ərzində Azərbaycan Respublikasına gətirilməsinin mümkün olmadığını bildirmiş və onların müvəqqəti ixrac gömrük proseduru altında qalma müddətinin 12 aya qədər uzadılmasını xahiş etmişdir. Həmin müraciət əsasında Bakı Baş Gömrük İdarəsində aparılmış araşdırma zamanı malların invoys dəyərinin 3 320 ABŞ dolları təşkil edən hissəsinin 5 noyabr 2022-ci il tarixinədək Azərbaycan Respublikasının gömrük ərazisinə qaytarılmaması müəyyən edilmiş və bu səbəbdən 24 iyul 2023-cü il tarixində "REAL-QAZ" MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 499.2-ci maddəsi ilə inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilmişdir.

Lənkəran Rayon Məhkəməsinin 25 avqust 2023-cü il tarixli qərarı ilə "REAL-QAZ" MMC barəsində inzibati xəta haqqında iş üzrə icraata İnzibati Xətalar Məcəlləsinin 53.1.2-ci maddəsinə müvafiq olaraq inzibati xəta tərkibinin olmaması əsası ilə xitam verilmişdir. Bakı Baş Gömrük İdarəsinin rəisi qeyd olunan qərardan Şirvan Apellyasiya Məhkəməsinə apellyasiya şikayəti vermişdir.

Apellyasiya instansiyası məhkəməsi işə baxarkən müəyyən etmişdir ki, müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilmiş əşyalara münasibətdə inzibati xətanın aşkar olunma vaxtına və törədilmə qaydasına görə əməlin hansı hallarda İnzibati Xətalar Məcəlləsinin 499.1 və ya 499.2-ci maddələri ilə tövsif edilməsi ilə

bağlı məhkəmə təcrübəsində fərqli yanaşmalar vardır. Müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilmiş əşyaların Azərbaycan Respublikasının gömrük ərazisinə qaytarılmaması faktının aşkar olunduğu vaxt baxımından əməlin İnzibati Xətalar Məcəlləsinin 499.2-ci maddəsi ilə tövsifinin mümkünlüyü fikir ayrılığına səbəb olur. Bir qrup hüquq tətbiqedicilər hesab edirlər ki, İnzibati Xətalar Məcəlləsinin 499.1.1-499.1.5-ci maddələrində müəyyən olunmuş müddətlər keçmədən, əməl daha sərt inzibati məsuliyyət nəzərdə tutan həmin Məcəllənin 499.2-ci maddəsi ilə tövsif edilə bilməz. Çünki həmin müddət ərzində şəxsin müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilmiş əşyaları Azərbaycan Respublikasının gömrük ərazisinə qaytarmaq ehtimalı var.

Digər yanaşmaya görə, İnzibati Xətalar Məcəlləsinin 499.1 və 499.2-ci maddələri biri-birindən asılı olmayan, fərqli tərkiblərdir. Əməlin İnzibati Xətalar Məcəlləsinin 499.2-ci maddəsi ilə tövsif edilməsi üçün həmin Məcəllənin 499.1-ci maddəsində müəyyən olunmuş müddətlərin bitməsinə zərurət yoxdur.

Müraciətedənin qənaətinə görə, ikinci yanaşma tətbiq edildiyi halda müvəqqəti ixracla bağlı münasibətləri tənzimləyən qaydalarda müəyyən edilmiş müddətin bitdiyi gündən növbəti gün həm İnzibati Xətalar Məcəlləsinin 499.1, həm də 499.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətaların törədildiyi gün sayılır. İnzibati məsuliyyətə cəlb etmə müddəti bir il olduğu halda, İnzibati Xətalar Məcəlləsinin 499.1-ci maddəsi ilə müəyyən edilmiş son müddətin keçdiyi vaxtdan, yəni bir ildən sonra şəxs barəsində inzibati xəta haqqında iş üzrə icraatın başlanması həmin Məcəllənin 53.1.6-cı maddəsi baxımından mümkün olmadığı üçün, şəxs ümumiyyətlə İnzibati Xətalar Məcəlləsinin 499.2-ci maddəsi üzrə inzibati məsuliyyətdən kənarda qalır.

Bununla yanaşı İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsi özlüyündə həmin Məcəllənin 38-ci maddəsi ilə uyğunsuzluq təşkil edir. Belə ki, həmin maddəyə müvafiq olaraq inzibati məsuliyyətə cəlb etmə müddətinin yuxarı həddi bir il olduğundan, İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsi ilə təqsirli olan şəxs barəsində həmin maddə üzrə inzibati xəta haqqında iş üzrə icraat başlana bilməz.

Göstərilənlərə əsasən müraciətedən gömrük qaydaları əleyhinə olan inzibati xətalarla bağlı qanunvericiliyin eyni qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin tələblərinə əməl edilməsinin təmin olunması üçün Konstitusiya Məhkəməsinə müraciət etməyin zəruri olduğu qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıları qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 71-ci maddəsinin VIII və X hissələrinə görə, heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır. Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər. Konstitusiyanın bu tələbləri qanunçuluq prinsipinin təzahürü olmaqla, onların yerinə yetirilməsi, öz növbəsində, dövlət orqanlarının hərəkətlərinin proqnozlaşdırıla bilən olmasına və onlara məhdudiyyətsiz mülahizə üçün imkan yaratmamasına zəmanət verməklə, hər kəsin hüquq və azadlıqlarının mühüm təminatı kimi çıxış edir.

Hüququn aliliyi prinsipinə əsaslanan qanunçuluq prinsipi, digər məsələlərlə yanaşı, dövlət orqanlarının qanunla müəyyən edilmiş səlahiyyətlərinə uyğun olaraq, bu hüdudlar və müddətlər çərçivəsində hərəkət etmək vəzifəsini də nəzərdə tutur. Buna müvafiq olaraq, qanunla müəyyən edilmiş səlahiyyətverici əsas olmadan dövlət orqanı tərəfindən edilən hər hansı bir hərəkət qeyri-legitim sayılmalıdır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin və "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 4, 21 və 27-ci maddələrinin bəzi müddəalarının əlaqəli şəkildə şərh edilməsinə dair" 2021-ci il 23 fevral tarixli Qərarı).

Konstitusiyanın 80-ci maddəsinə görə isə Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur.

İnzibati Xətalar Məcəlləsinin 499-cu maddəsi malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmaması, yaxud həmin əraziyə qaytarılmaması ilə bağlı inzibati xəta tərkiblərini müəyyən etmişdir.

Bununla bağlı göstərilməlidir ki, Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (bundan sonra – Gömrük Məcəlləsi) 130.2-ci maddəsinə əsasən, malların müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilməsi qaydalarını bu Məcəllənin tələbləri nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Həmin qaydalarda malların müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilməsi şərtləri, onların bu prosedur altında qalma müddəti müəyyən edilməlidir.

Malların müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilməsi müddəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 2 sentyabr tarixli 244 nömrəli qərarı ilə təsdiq edilmiş "Malların müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilməsi Qaydaları" (bundan sonra – Qaydalar) ilə müəyyən olunmuşdur.

Qaydaların 3.1 və 3.2-ci bəndlərinə görə, müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilmiş malların bu gömrük proseduru altında qalma müddəti gömrük orqanları tərəfindən 24 (iyirmi dörd) aydan çox olmamaq şərtilə müəyyənləşdirilir. Bu müddət müvəqqəti ixrac gömrük prosedurunun məqsədi üçün kifayət etməlidir. Bu Qaydaların 3.1-ci bəndində göstərilən müddətdə müvəqqəti ixrac gömrük prosedurunun məqsədlərinə nail olunmadıqda, gömrük orqanı həmin prosedur üçün müəyyən olunmuş müddətin başa çatmasına 1 (bir) ay qalmış prosedur sahibinin əsaslandırılmış müraciəti ilə malların müvəqqəti ixrac gömrük proseduru altında qalma müddətini 12 (on iki) aya qədər uzadır.

Müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilmiş mallar üçün müəyyən edilmiş müddət başa çatanadək müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilmiş mallar təkrar idxal edilməli və ya digər

gömrük proseduru altında yerləşdirilməlidir (Qaydaların 3.6-cı bəndi).

Beləliklə, qanunvericiliklə malların müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilməsi üçün ən çoxu 24 ay müddət müəyyən edilmiş və bu müddətin ən çoxu 12 ay uzadıla biləcəyi nəzərdə tutulmuşdur. Prosedur sahibi gömrük orqanları tərəfindən müəyyən edilmiş müddətin sonuncu günündən gec olmayaraq müvəqqəti ixrac gömrük proseduru altında yerləşdirilmiş malları təkrar idxal etməli, yəni ölkəyə qaytarmalıdır ki, həmin vəzifənin yerinə yetirilməməsi də İnzibati Xətalar Məcəlləsinin 499-cu maddəsi ilə nəzərdə tutulmuş inzibati xəta tərkibinin yaranması üçün əsas təşkil edir.

İnzibati Xətalar Məcəlləsinin 3-cü maddəsinə müvafiq olaraq, yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş inzibati xətanın törədilməsində təqsirli hesab edilən və inzibati xəta tərkibinin bütün digər əlamətlərini daşıyan əməli (hərəkət və ya hərəkətsizliyi) törətmiş şəxs inzibati məsuliyyətə cəlb olunur və tənbeh edilir.

İnzibati Xətalar Məcəlləsinin 12-ci maddəsinə görə, bu Məcəllə ilə qorunan ictimai münasibətlərə qəsd edən, hüquqazidd olan, təqsirli sayılan (qəsdən və ya ehtiyatsızlıqdan törədilən) və inzibati məsuliyyətə səbəb olan əməl (hərəkət və ya hərəkətsizlik) inzibati xəta hesab olunur.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, müraciətdə qaldırılan məsələnin həlli üçün İnzibati Xətalar Məcəlləsinin 499.1 və 499.2-ci maddələrində təsbit olunan inzibati xəta tərkiblərinin əlamətləri, xüsusilə də obyektiv cəhətin zəruri və fakultativ əlamətləri nəzərdən keçirilməlidir.

Vurğulanmalıdır ki, inzibati xətanın tövsif edilməsində zəruri və fakultativ əlamətlərin müəyyən edilməsinin böyük əhəmiyyəti vardır. Zəruri əlamətlər hər bir inzibati xəta tərkibinə məxsus elə əlamətlərdir ki, onlar mövcud olmadıqda inzibati xəta tərkibi yaranmır. Fakultativ əlamətlər isə bütün inzibati xəta tərkibləri üçün zəruri olmayan və müxtəlif tərkiblərdə fərqli əhəmiyyət daşıyan əlamətlərdir. Zəruri və fakultativ əlamətlərin müəyyənləşdirilməsi oxşar inzibati xəta tərkiblərinin bir-birindən fərqləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir.

İnzibati Xətalar Məcəlləsinin 499.1 və 499.2-ci maddələrində nəzərdə tutulan inzibati xətalar da məhz obyektiv cəhətin əlamətlərinə görə bir-birindən fərqlənməklə, müvafiq olaraq hərəkət və ya hərəkətsizliklə törədilir.

İnzibati Xətalar Məcəlləsinin 499.1-ci maddəsi ilə Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılması və ya bu əraziyə qaytarılması məcburi olan, əvvəllər müvəqqəti gətirilmiş və ya aparılmış mallar və ya nəqliyyat vasitələrinin müəyyən olunmuş müddətlər pozulmaqla Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmasına və ya bu əraziyə qaytarılmasına görə məsuliyyət müəyyən edilmiş, o cümlədən həmin Məcəllənin 499.1.1-499.1.5-ci maddələri gecikdirilmənin aşağıda qeyd olunan müddətlərindən asılı olaraq məsuliyyəti diferensiallaşdırmışdır:

- on beş günədək müddətə;
- on beş gündən bir ayadək müddətə;
- bir aydan üç ayadək müddətə;
- üç aydan bir ilədək müddətə;
- bir ildən artıq müddətə gecikdirilməklə malların və ya nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılması və ya bu əraziyə qaytarılması.

Qeyd olunmalıdır ki, İnzibati Xətalar Məcəlləsinin 499.1-ci maddəsində göstərilmiş inzibati xəta obyektiv cəhətdən hərəkətlə, yəni Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılması və ya bu əraziyə qaytarılması məcburi olan, əvvəllər müvəqqəti gətirilmiş və ya aparılmış mallar və ya nəqliyyat vasitələrinin müəyyən olunmuş müddətlər pozulmaqla Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılması və ya bu əraziyə qaytarılması ilə bağlı hərəkətlərin icra edilməsiylə törədilir.

Həmçinin yuxarıda göstərilən müddətlər, qeyd edilən inzibati xəta tərkibində obyektiv cəhətin fakultativ elementi kimi çıxış edir. Bu element mallar və ya nəqliyyat vasitələrinin aparılması və ya qaytarılması üçün müəyyən olunmuş müddətlərin pozulmasında ifadə olunur. İnzibati Xətalar Məcəlləsinin 499.1.1-499.1.5-ci maddələrində təsbit olunmuş inzibati xəta tərkibləri bir-birindən məhz həmin elementə görə fərqləndirilmiş, mallar və ya nəqliyyat vasitələrinin aparılması və ya qaytarılmasının gecikdirildiyi müddətdən asılı olaraq daha sərt inzibati tənbehin tətbiqi nəzərdə tutulmuşdur.

Beləliklə, İnzibati Xətalar Məcəlləsinin 499.1-ci maddəsində təsbit olunmuş inzibati xəta tərkibinin yaranması üçün obyektiv cəhətinin zəruri elementi olan hərəkət icra edilməli, mallar və ya nəqliyyat vasitələri hökmən müəyyən edilmiş müddətlər ötürülməklə Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmalı və ya bu əraziyə qaytarılmalıdır. Qeyd edilən kənara aparılma və ya qaytarılma isə müvafiq gömrük proseduru ilə bağlı gömrük orqanları tərəfindən müəyyən edilmiş müddətlərin pozulma dərəcəsindən, yəni gecikdirmənin müddətindən asılı olaraq əməl İnzibati Xətalar Məcəlləsinin 499.1.1-499.1.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xəta tərkibini yaradır.

İnzibati Xətalar Məcəlləsinin 499.2-ci maddəsi ilə bağlı qeyd edilməlidir ki, həmin maddəyə əsasən, aparılması və ya qaytarılması məcburi olan əvvəllər gətirilmiş və ya aparılmış mallar və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmamasına və ya bu əraziyə qaytarılmamasına görə məsuliyyət müəyyən olunmuşdur. İnzibati Xətalar Məcəlləsinin 499.1-ci maddəsindən fərqli olaraq, bu maddədə nəzərdə tutulan əməl obyektiv cəhətdən hərəkətsizliklə törədilən inzibati xətadır.

Nəzərə alınmalıdır ki, qanunverici İnzibati Xətalar Məcəlləsinin 499.2-ci maddəsində malların və ya nəqliyyat vasitələrinin gətirilməsi və ya aparılması üçün gömrük orqanları tərəfindən müəyyənləşdirilmiş müddətin bitməsini birbaşa olaraq onların Azərbaycan Res-

publikasının gömrük ərazisindən kənara aparılmamasına və ya bu əraziyə qaytarılmamasına görə məsuliyyətin yaranmasına əsas verən hüquqi fakt kimi müəyyən etməmişdir. Əksinə, İnzibati Xətalar Məcəlləsinin 499.1-ci maddəsi ilə məhz gecikdirilmə müddətlərini müəyyənləşdirərək həmin müddətlər daxilində mallar və ya nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılması və ya bu əraziyə qaytarılmasının gecikdirilməsinə görə məsuliyyəti tənzimləmişdir. Bununla da qanunverici, müəyyən olunmuş gecikdirilmə müddətləri daxilində mallar və nəqliyyat vasitələrini gömrük ərazisindən kənara aparan və ya bu əraziyə qaytaran şəxslərin məsuliyyətini, bu müddətlər ötdükdən sonra da hərəkətsizlik nümayiş etdirən şəxslərlə müqayisədə yüngülləşdirərək məsuliyyəti diferensiallaşdırmışdır.

O da qeyd olunmalıdır ki, malların və ya nəqliyyat vasitələrinin ölkə ərazisinə qaytarılmasını və ya aparılmasını müəyyən olunmuş müddətlər pozulmaqla (gecikdirməklə) həyata keçirən şəxslər, belə gecikdirmənin nəticələrinə məruz qalmaqla İnzibati Xətalar Məcəlləsinin 499.1-ci maddəsində qeyd olunan müddətlərdən asılı olaraq məsuliyyət daşıyacaq, həmin müddətlər bitənə qədər qaytarılma və ya aparılma ilə bağlı öhdəliklər icra edilmədiyi halda isə daha ağır inzibati tənbeh müəyyən edən İnzibati Xətalar Məcəlləsinin 499.2-ci maddəsi ilə məsuliyyət daşıyacaqlar.

Göstərilən səbəblərdən Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, İnzibati Xətalar Məcəlləsinin 499.2-ci maddəsində nəzərdə tutulan inzibati xəta o halda törədilmiş hesab olunur ki, mallar və ya nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmasının və ya bu əraziyə qaytarılmasının gecikdirilməsi ilə bağlı həmin Məcəllənin 499.1-ci maddəsində göstərilən müddətlərin bitməsinədək mallar və ya nəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmamış və ya bu əraziyə qaytarılmamış olsun.

Əks yanaşma, yəni malların və ya nəqliyyat vasitələrinin gətirilməsi və ya aparılması üçün gömrük orqanları tərəfindən müəyyənləşdirilmiş müddətin bitdiyi an, onların Azərbaycan Respublikasının gömrük ərazisindən aparılmadığı və ya bu əraziyə gətirilmədiyi təqdirdə İnzibati Xətalar Məcəlləsinin 499.2-ci maddəsində təsbit olunmuş tərkibin yarandığının qəbul edilməsi, İnzibati Xətalar Məcəlləsinin 499.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta tərkiblərinin öz əhəmiyyətini itirməsi ilə nəticələnməklə, onların tətbiqini qeyri-mümkün edərdi. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 499.2-ci maddəsindəki inzibati xəta tərkibinin yaranması, eyni hüquqi faktla bağlı şəxsin həmin Məcəllənin 499.1-ci maddəsi ilə məsuliyyət daşımasını istisna edir.

Müraciətdə şərh edilməsi xahiş olunan məsələlərdən biri də İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsində göstərilən "bir ildən artıq müddətə gecikdirilməklə" müddəası ilə bağlıdır. Konstitusiya Məhkəməsinin Plenumu bununla əlaqədar qeyd etməyi vacib hesab edir ki, İnzibati Xətalar Məcəlləsinin 499.1-ci maddəsində göstərilən müddətlər bir-biri ilə əlaqəlidir və biri digərinin davamı kimi çıxış edir. Həmin müddətlərdə, yəni müəyyən zaman kəsiyində baş verən hüquqi faktlar hüquqi nəticəsinə görə bir-birindən fərqlənir və məsuliyyətin ağırlaşmasına səbəb olur. Eləcə də "bir ildən artıq müddətə gecikdirilməklə" müddəası həmin Məcəllənin 499.1.4-cü maddəsinin dispozisiyasında təsbit edilmiş "üç aydan bir ilədək müddətə gecikdirilməklə" müddəası ilə bağlı olmaqla, onun məntiqi davamı kimi çıxış edir.

O da vurğulanmalıdır ki, "bir ildən artıq müddətə gecikdirilməklə" müddəasına aydınlıq gətirilməsi İnzibati Xətalar Məcəlləsinin 499.2-ci maddəsində nəzərdə tutulmuş əməlin törədilməsi anının müəyyənləşdirilməsi baxımından da önəm kəsb edir. Belə ki, həmin Məcəllənin 499.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın törədilməsi anı 499.1-ci maddəsində göstərilən müddətlərin sonuncusunun (499.1.5-ci maddədəki müddətin) bitdiyi gündən növbəti gün hesab olunur.

Qeyd olunmalıdır ki, qanunların ümumiliyinin təmin edilməsi zərurəti hüquqi dövlətin vacib təzahürlərindən biri olan qanunun aydın və proqnozlaşdırıla bilən olması prinsipi ilə uzlaşmalıdır. Lakin eyni zamanda, qanunun mətninin mütləq aydınlığı (qanunvericinin bütün mümkün ola biləcək həyati halları qanunda nəzərdə tutması) qeyri-realdır.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi dəfələrlə qeyd etmişdir ki, istənilən hüquq sistemində norma nə qədər dəqiq tərtib olunsa da, məhkəmə şərhi qaçılmazdır. Anlaşılmayan məqamların izah olunmasına hər zaman ehtiyac olacaq. Müəyyənlik arzuedilən olsa da, bəzən lüzumsuz sərtliklə müşayiət oluna bilər, halbuki hüquq dəyişən şəraitlə addımlamaq xüsusiyyətinə malik olmalıdır. Müvafiq olaraq bir çox qanunlar qaçılmaz terminlərin istifadəsi ilə tərtib olunmuşlar ki, onlar az və ya çox dərəcədə qeyri-müəyyəndir, onların şərhi və tətbiqi təcrübədən asılıdır. Bir müddəanın müxtəlif cür təfsir olunması öz-özlüyündə öncədən görmə tələbinin pozulmasına gətirib çıxarmır. İşlərə baxılarkən məhkəmələrin üzərinə qoyulmuş rol ondan ibarətdir ki, onlar bu cür şübhələri təfsirlə aradan götürsünlər (Böyük Palatanın CentroEuropa 7S.R.L. və Di Stefano İtaliyaya qarşı iş üzrə 2012-ci il 7 iyun, §141; Gorzelik və digərləri Polşaya qarşı iş üzrə 2004-cü il 17 fevral, §65; Rekvenyi Macarıstana qarşı iş üzrə 1999-cu il 20 may, §34 tarixli Qərarları).

Konstitusiya Məhkəməsinin Plenumu R.Cəfərovun şikayəti üzrə 2012-ci il 18 may tarixli Qərarında qeyd etmişdir ki, hüquqi normaların bəzən qaçılmaz olan natamamlığı və ya qeyri-müəyyənliyi məhz məhkəmə təcrübəsi vasitəsilə aradan qaldırılır.

Nəzərə alınmalıdır ki, İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsində qeyd olunmuş "bir ildən artıq müddətə gecikdirilməklə" müddəasının hərfi mənada, bir ildən artıq olan istənilən müddəti nəzərdə tutması kimi təfsir edilməsi, faktiki olaraq malların və ya nəqliyyat vasitələrinin gömrük ərazisindən kənara aparılmasını və ya bu əraziyə qaytarılmasını qeyri-müəyyən müddətədək gecikdirən şəxslərin məsuliyyətdən kənarda qalmasına şərait yaradar.

Bundan əlavə, belə təfsir malları və ya nəqliyyat vasitələrini bir ildən daha az müddətə gecikdirməklə gömrük ərazisindən kənara aparan və ya bu əraziyə qaytaran şəxslərdən fərqli olaraq, həmin malların və ya nəqliyyat vasitələrinin aparılması və ya qaytarılması ilə bağlı hərəkətləri ümumiyyətlə icra etməyən şəxslərin məsuliyyətdən yayınmasına səbəb olmaqla, İnzibati Xətalar Məcəlləsinin 499.2-ci maddəsinin tətbiqini mümkünsüz edər. Belə hal isə qanun qarşısında bərabərlik, ədalət, hüquqi müəyyənlik prinsipləri ilə uyğunsuzluq təşkil etməklə yanaşı, İnzibati Xətalar Məcəlləsinin 2-ci maddəsi ilə müəyyən edilən Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin vəzifələrinin həyata keçirilməsinə də mane olur.

Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki qərarlarında qeyd etmişdir ki, normanın mümkün olan bütün təfsiri variantları sırasından məhkəmələr yalnız konstitusiyaya uyğun olana üstünlük verməlidirlər. Əgər normanın təfsiri konstitusion norma və prinsiplərin pozulmasına gətirib çıxarırsa, onun konkret işə tətbiq olunması yolverilməzdir. Məhkəmə təcrübəsi, yalnız normanın konstitusion tələblərə uyğun gələn məzmununun müəyyənləşdirilməsinə imkan verən, hamı tərəfindən qəbul edilmiş qaydalara uyğun aparılmış təfsirinə əsaslanmalıdır ( "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-cü maddəsinin Qeyd hissəsinin və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 38-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2022-ci il 9 mart tarixli Qərar).

İnzibati Xətalar Məcəlləsinin qeyri-müəyyən, fərqli yanaşmalara səbəb olan normalarının onların konstitusiya-hüquqi mənasına və hüquqi təyinatına uyğun şərhi vasitəsilə məzmununun birmənalı və aydın müəyyən edilməsi və vahid mövqeyin formalaşdırılması hüquq tətbiqedən orqanların fəaliyyətində qanunçuluq prinsipinin gözlənilməsinə imkan yaradaraq, inzibati xəta haqqında işin əsassız olaraq uzanmamasına, işlərə ağlabatan müddətlərdə baxılmasına və son nəticədə Konstitusiyanın 60-cı maddəsinin I hissəsi ilə qorunan ədalətli məhkəmə araşdırılması hüququnun təmin edilməsinə xidmət edir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 132.1.2 və 53-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2021-ci il 11 noyabr tarixli Qərarı).

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsində təsbit olunmuş "bir ildən artıq müddətə gecikdirilməklə" müddəası gecikdirilmənin yuxarı həddini müəyyən etməklə, malların və ya nəqliyyat vasitələrinin bir ildən artıq olan və həmin (ikinci) ilin sonunadək davam edən müddətdə gecikdirilməsini nəzərdə tutur. Həmin müddət bitənədək mallar və ya nəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmadıqda və ya bu əraziyə qaytarılmadıqda növbəti gün həmin Məcəllənin 499.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın törədildiyi gün hesab olunur.

Konstitusiya Məhkəməsinin Plenumu onu da vurğulamağı vacib hesab edir ki, İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsində təsbit olunmuş "bir ildən artıq müddətə gecikdirilməklə" müddəasının hansı müddəti əhatə etməsi baxımından qanunverici orqan tərəfindən təkmilləşdirilməsi məqsədəmüvafiqdir.

O da nəzərə alınmalıdır ki, İnzibati Xətalar Məcəlləsinin 38.1-ci maddəsinə müvafiq olaraq inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci dörd ay keçənədək verilə bilər. Dairəsi müəyyən edilmiş inzibati xətalar, o cümlədən gömrük qaydaları əleyhinə olan inzibati xətalara görə inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci bir il keçənədək verilə bilər.

Həmin Məcəllənin 38.2-ci maddəsi ilə bu Məcəllənin 38.1-ci maddəsində nəzərdə tutulan müddətlərin davam edən inzibati xətalara münasibətdə xətanın aşkara çıxarıldığı gündən hesablanması müəyyənləşdirilmiş, 23 fevral 2021-ci il tarixli 270-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə İnzibati Xətalar Məcəlləsinin 38.2-ci maddəsində "davam edən" sözləri "uzanan" sözü ilə əvəz edilmişdir.

Qeyd edilməlidir ki, uzanan və davam edən inzibati xətalar fərqli anlayışlar olmaqla, belə inzibati xətalara görə inzibati məsuliyyətə cəlb etmə müddətinin hesablanması digər inzibati xətalardan fərqlənir. İnzibati Xətalar Məcəlləsində uzanan inzibati xətalara görə məsuliyyətə cəlb edilmə müddətinin hesablanma qaydası müəyyənləşdirilsə də, uzanan və davam edən inzibati xətaların anlayışı verilməmişdir.

Bununla yanaşı hüquq nəzəriyyəsində formalaşmış anlayışa əsasən, davam edən inzibati xəta zaman baxımından ara verməklə bir sıra oxşar əməllərin bir neçə dəfə eyni məqsədlər, subyektlər, hərəkət üsulu ilə və məcmu halında vahid niyyətlə həyata keçirilməsidir.

Konstitusiya Məhkəməsinin Plenumu uzanan inzibati xətalarla bağlı əvvəlki qərarlarında da qeyd etmişdir ki, inzibati xətalar qanunvericiliyində uzanan inzibati xətaların təsnifatı və ya mahiyyəti açıqlanmasa da, nəzəri cəhətdən uzanan inzibati xəta bir müddət ərzində inzibati cəza təhdidi altında qanunverici tərəfindən müəyyən şəxsin üzərinə qoyulmuş öhdəliklərin hərəkət və ya hərəkətsizlik formasında yerinə yetirilməməsidir ("Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 110.1-ci maddəsinin şərh edilməsinə dair" 2021-ci il 17 mart tarixli Qərar).

Uzanan inzibati xətanın səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, o, əməlin törədilməsi ilə bitmir, əməl (hərəkət və ya hərəkətsizlik) törədildiyi andan başlayır və uzanaraq müəyyən müddət ərzində fasiləsiz törədilir. Uzanan inzibati xəta inzibati xətanı törədən şəxsin özünün xətanın dayandırılmasına yönəlmiş hərəkəti və ya inzibati xətanın kənardan müdaxilə nəticəsində dayandırılması məqamında başa çatır.

Belə ki, İnzibati Xətalar Məcəlləsinin 499.1-ci maddəsində göstərilmiş inzibati xəta mallar və ya nəqliyyat vasitələrinin müddətlər pozulmaqla Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılması və ya bu əraziyə qaytarılması ilə bağlı hərəkətin icra edil-

məsi anında törədildiyi və həmin anda bitdiyi üçün bu əməl uzanan inzibati xəta hesab edilə bilməz.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu bildirməyi vacib hesab edir ki, İnzibati Xətalar Məcəlləsinin 499.1.1-499.1.5-ci maddələrində təsbit edilmiş inzibati xətaların törədildiyi gün həmin xətanın obyektiv cəhətini təşkil edən hərəkətin icra edildiyi - əvvəllər müvəqqəti gətirilmiş və ya aparılmış mallar və ya nəqliyyat vasitələrinin müəyyən olunmuş müddətlər pozulmaqla Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparıldığı və ya bu əraziyə qaytarıldığı gün hesab edildiyindən, İnzibati Xətalar Məcəlləsinin 38.1-ci maddəsi ilə müəyyən edilən inzibati məsuliyyətə cəlb etmə müddətinin axımı da həmin tarixdən başlanır.

Qeyd olunanlara əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Konstitusiyanın 71-ci maddəsinin VIII və X hissələrinin, 80-ci maddəsinin konstitusion hüquqi mahiyyətindən və təyinatından irəli gələrək, İnzibati Xətalar Məcəlləsinin 499.1.1-499.1.5-ci maddələrində təsbit edilmiş inzibati xətalar əvvəllər müvəqqəti gətirilmiş və ya aparılmış mallar və ya nəqliyyat vasitələrinin müəyyən olunmuş müddətlər pozulmaqla Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparıldığı və ya bu əraziyə qaytarıldığı gün törədilmiş hesab edilir və İnzibati Xətalar Məcəlləsinin 38.1-ci maddəsi ilə müəyyən edilən inzibati məsuliyyətə cəlb etmə müddətinin axımı həmin tarixdən başlanır;

– İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsində təsbit olunmuş "bir ildən artıq müddətə gecikdirilməklə" müddəasının hansı müddəti əhatə etməsi baxımından təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunmalıdır.

Məsələ qanunvericilik qaydasında həll edilənədək İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsində təsbit olunmuş "bir ildən artıq müddətə gecikdirilməklə" müddəası Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılması və ya bu əraziyə qaytarılması məcburi olan, əvvəllər müvəqqəti gətirilmiş və ya aparılmış mallar və ya nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmasının və ya bu əraziyə qaytarılmasının bir ildən artıq və növbəti bir ilin sonunadək olan müddətə gecikdirilməsini nəzərdə tutur;

– Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılması və ya bu əraziyə qaytarılması məcburi olan, əvvəllər müvəqqəti gətirilmiş və ya aparılmış mallar və ya nəqliyyat vasitələri İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsində müəyyən edilən bir ildən artıq və bu Qərara müvafiq olaraq növbəti bir il bitənədək Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmadıqda və ya bu əraziyə qaytarılmadıqda, növbəti gün həmin Məcəllənin 499.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın törədildiyi gün kimi qəbul edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII və X hissələrinin, 80-ci maddəsinin konstitusion hüquqi mahiyyətindən və təyinatından irəli gələrək, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 499.1.1-499.1.5-ci maddələrində təsbit edilmiş inzibati xətalar əvvəllər müvəqqəti gətirilmiş və ya aparılmış mallar və ya nəqliyyat vasitələrinin müəyyən olunmuş müddətlər pozulmaqla Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparıldığı və ya bu əraziyə qaytarıldığı gün törədilmiş hesab edilir və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 38.1-ci maddəsi ilə müəyyən edilən inzibati məsuliyyətə cəlb etmə müddətinin axımı həmin tarixdən başlanır.

**2.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsində təsbit olunmuş "bir ildən artıq müddətə gecikdirilməklə" müddəasının hansı müddəti əhatə etməsi baxımından təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun.

Məsələ qanunvericilik qaydasında həll edilənədək Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsində təsbit olunmuş "bir ildən artıq müddətə gecikdirilməklə" müddəası Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılması və ya bu əraziyə qaytarılması məcburi olan, əvvəllər müvəqqəti gətirilmiş və ya aparılmış mallar və ya nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmasının və ya bu əraziyə qaytarılmasının bir ildən artıq və növbəti bir ilin sonunadək olan müddətə gecikdirilməsini nəzərdə tutur.

**3.** Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılması və ya bu əraziyə qaytarılması məcburi olan, əvvəllər müvəqqəti gətirilmiş və ya aparılmış mallar və ya nəqliyyat vasitələri Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 499.1.5-ci maddəsində müəyyən edilən bir ildən artıq və bu Qərara müvafiq olaraq növbəti bir il bitənədək Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmadıqda və ya bu əraziyə qaytarılmadıqda, növbəti gün həmin Məcəllənin 499.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın törədildiyi gün kimi qəbul edilməlidir.

**4.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**5.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**6.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr: Fərhad ABDULLAYEV**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**

**№ 150/48**

## Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun 2024-cü il üzrə İş Planının təsdiq edilməsi haqqında

Bakı şəhəri 1 fevral 2024-cü il

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.

Milli Fəaliyyət Planı aidiyyəti dövlət qurumları, nəzarət orqanları və özəl sektor tərəfindən risklərin başa düşülməsi, azaldılması və ya qarşısının alınması məqsədilə səmərəli tədbirlərin həyata keçirilməsinə, habelə qanunvericiliyin tətbiqi ilə bağlı fəaliyyətlərinin effektiv əlaqələndirilməsinə, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə qarşılıqlı əməkdaşlıq və məlumat mübadiləsi mexanizminin daha təkmil əsaslar üzərində formalaşdırılmasına, beynəlxalq əməkdaşlığın genişləndirilməsinə və nəhayət, müvafiq sahədə institusional potensialın gücləndirilməsinə xidmət edir. Milli Fəaliyyət Planının əsas məqsədi ölkəmizdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması və yeni keyfiyyət meyarları əsasında davam etdirilməsidir.

Sərəncamda Azərbaycan Respublikasının Baş Prokurorluğuna Milli Fəaliyyət Planının icrası üzrə illik iş planlarının təsdiq edilməsi, bu planların və nəzərdə tutulan tədbirlərin icrası barədə Koordinasiya Şurasına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabatların təqdim edilməsi tövsiyə olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın icrası çərçivəsində Azərbaycan Respublikası Baş prokurorunun 12.04.2023-cü il tarixli, 15/43 nömrəli əmri ilə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun 2023-cü il üzrə İş Planı təsdiq edilmiş və nəzərdə tutulan tədbirlər icra edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın 2024-cü il üçün icrasını təmin etmək məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun 2024-cü il üzrə İş Planı təsdiq edilsin (əlavə olunur).

**2.** İş Planının icrasına nəzarət Baş prokurorun birinci müavini, müavinləri və Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**3.** İş Planında nəzərdə tutulan tədbirlərin icrası barədə Koordinasiya Şurasına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına illik hesabatların verilməsi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsi tərəfindən təmin edilsin.

**4.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**

**№ 150/49**

**Baş Prokurorluq üzrə "Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitlərin prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi istiqaməti üzrə ayrılması meyarları haqqında" 15.09.2021-ci il tarixli 15/19 nömrəli əmrdə dəyişiklik edilməsi barədə**

Bakı şəhəri 6 fevral 2024-cü il

"Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1081-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə "Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 iyul tarixli 1402 nömrəli Fərmanında və həmin Fərmanla təsdiq edilmiş "Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nda müvafiq olaraq "prokurorluq işçilərinin" sözündən sonra "və prokurorluq orqanlarının digər əməkdaşlarının" sözləri əlavə edilmişdir.

Bununla əlaqədar, qeyd olunan normativ hüquqi aktlara uyğunlaşdırılması məqsədilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Baş Prokurorluq üzrə "Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitlərin prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi istiqaməti üzrə ayrılması meyarları haqqında" 15.09.2021-ci il tarixli 15/19 nömrəli əmrdə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** adına "işçilərinin" sözündən sonra "və prokurorluq orqanlarının digər əməkdaşlarının" sözləri əlavə edilsin.

**1.2.** Preambulası üzrə:

**1.2.1.** birinci abzasa "işçilərinin" sözündən sonra "və prokurorluq orqanlarının digər əməkdaşlarının" sözləri əlavə edilsin;

**1.2.2.** ikinci abzasa "işçilərinin" sözündən sonra "və prokurorluq orqanlarının digər əməkdaşlarının" sözləri əlavə edilsin və həmin abzasda (hər üç halda) "işçilərin" sözü ismin müvafiq hallarında "əməkdaşların" sözü ilə əvəz edilsin;

**1.2.3.** üçüncü abzasda "prokurorluq işçilərinin" sözləri "əməkdaşların" sözü ilə əvəz edilsin;

**1.3.** 1-ci (hər üç halda), 3.1-ci, 3.2-ci və 4-cü bəndlərdə "işçilərin" sözü "əməkdaşların" sözü ilə əvəz edilsin;

**1.4.** 1.1-ci bənddə "işçilər" sözü "əməkdaşlar" sözü ilə əvəz edilsin;

**1.5.** 1.1.6-cı yarımbənddə "işçiləri" sözü "əməkdaşları" sözü ilə əvəz edilsin;

**1.6.** 1.2-ci bənddə "prokurorluq işçiləri" sözləri "əməkdaşlar" sözü ilə əvəz edilsin;

**1.7.** 2-ci bənddə (hər iki halda) "işçinin" sözü "əməkdaşın" sözü ilə əvəz edilsin;

**1.8.** 6-cı bənddə "işçilərinin" sözü "əməkdaşlarının" sözü ilə əvəz edilsin.

**2.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**

**№ 2-2-100/118-k**

**Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə “Naxçıvan Muxtar Respublikasının prokuroruna əlavə səlahiyyətlərin verilməsi haqqında” 24 may 2002-ci il tarixli 09/6s-08/42 nömrəli əmrdə dəyişiklik edilməsi haqqında**

Bakı şəhəri 21 fevral 2024-cü il

Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kadr işinin daha da təkmilləşdirilməsi məqsədilə “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə “Naxçıvan Muxtar Respublikasının prokuroruna əlavə səlahiyyətlərin verilməsi haqqında” 24 may 2002-ci il tarixli 09/6s-08/42 nömrəli əmrdə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1-ci bəndin ikinci abzasında “edilməsi” sözündən sonra “Azərbaycan Respublikasının Baş prokuroru ilə razılaşdırılmaqla” sözləri əlavə edilsin.

**1.2.** 1-ci bəndin dördüncü abzası ləğv edilsin.

**2.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş Prokurorluğunun Təşkilat və icraya nəzarət və Kadrlar idarələrinə həvalə olunsun.

**3.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, “Azərbaycan Prokurorluğu” jurnalında dərc edilsin və “Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri”nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**

**№ 2-2-100/119-k**

**Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə “Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroruna əlavə səlahiyyətlərin verilməsi barədə” 30 mart 2009-cu il tarixli 10/15-11/59-k nömrəli əmrdə dəyişiklik edilməsi haqqında**

Bakı şəhəri 21 fevral 2024-cü il

Azərbaycan Respublikası Prokurorluğu orqanlarında kadr işinin daha da təkmilləşdirilməsi məqsədilə “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə “Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroruna əlavə səlahiyyətlərin verilməsi barədə” 30 mart 2009-cu il tarixli 10/15-11/59-k nömrəli əmrdə aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1-ci bənddə “, həmçinin” sözləri çıxarılsın və “vəzifədən azad edilməsi” sözlərindən sonra “Azərbaycan Respublikasının Baş prokuroru ilə razılaşdırılmaqla” sözləri əlavə edilsin.

**1.2.** 1.1 və 1.2-ci bəndlərdə “(Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun işçiləri istisna olmaqla)” sözləri çıxarılsın.

**2.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş Prokurorluğunun Təşkilat və icraya nəzarət və Kadrlar idarələrinə həvalə olunsun.

**3.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, “Azərbaycan Prokurorluğu” jurnalında dərc edilsin və “Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri”nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**

**№ 150/50**

**Azərbaycan Respublikası Baş prokurorunun 02 sentyabr 2023-cü il tarixli 15/45 nömrəli əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının icrası ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunun Tədbirlər Planı”nda dəyişiklik edilməsi haqqında**

Bakı şəhəri — 22 fevral 2024-cü il

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası” və bu Strategiyanın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilmişdir.

Həmin Tədbirlər Planının icrası çərçivəsində Azərbaycan Respublikası Baş prokurorunun 02.09.2023-cü il tarixli, 15/45 nömrəli əmri ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun 2023-2027-ci illər üzrə Tədbirlər Planı təsdiq edilmişdir. Baş Prokurorluğun Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin təklifləri nəzərə alınaraq Tədbirlər Planının təkmilləşdirilməsi məqsədilə müvafiq dəyişikliklər edilməsini nəzərdə tutan layihə hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası” və bu Strategiyanın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının icrasını təmin etmək məqsədilə, “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** “Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının icrası ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorunun 02 sentyabr 2023-cü il tarixli 15/45 nömrəli əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun Tədbirlər Planı”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1-ci bənd üzrə:

**1.1.1.** “sistemini formalaşdırmaq” sözləri “sisteminin formalaşdırılması” sözləri ilə əvəz edilsin;

**1.1.2.** “hazırlamaq” sözündən sonra “, “EPİS”də əlavə modul yaratmaqla “Kibercinayətlər” elektron informasiya sisteminə çıxışın təmin edilməsi ilə bağlı təkliflər hazırlamaq” sözləri əlavə edilsin.

**1.2.** Aşağıdakı məzmunda 1-1-ci bənd əlavə edilsin:

**"1-1.** EPİS"in insidentlər zamanı bərpa planını hazırlamaq". Əsas icraçı "Kriminalistika və informasiya texnologiyaları idarəsi", icra müddəti "mütəmadi", ilkin nəticələr "Təhdidlər və risklərin qiymətləndirilməsi", aralıq nəticə "Müvafiq bərpa planının hazırlanmasının təşkil olunması", yekun nəticə olaraq "Bərpa planının hazırlanması və təsdiq edilməsi" müəyyən edilsin.

**1.3.** Aşağıdakı məzmunda 1-2-ci bənd əlavə edilsin:

**"1-2.** İnformasiya təhlükəsizliyi mühafizə texnologiyalarını tətbiq etmək və inkişaf etdirmək". Əsas icraçı Kriminalistika və informasiya texnologiyaları idarəsi, digər icraçı Maddi-texniki təminat şöbəsi, icra müddəti "2024-2027", ilkin nəticələr "Sahə üzrə qabaqcıl təcrübənin öyrənilməsi", aralıq nəticə "Texniki imkanların tədqiqi və araşdırılması", yekun nəticə olaraq "İnformasiya təhlükəsizliyi üzrə mühafizə texnologiyalarının tətbiq edilməsi" müəyyən edilsin.

**1.4.** 2-ci bənd üzrə "Əsas icraçı" sütununda "Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi" sözləri "Kriminalistika və informasiya texnologiyaları idarəsi" sözləri ilə əvəz edilsin. "Digər icraçılar" sütununa "Kriminalistika və informasiya texnologiyaları idarəsi" sözləri "Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi" sözləri ilə əvəz edilsin.

**1.5.** 3-cü bənd üzrə "Əsas icraçı" sütunundan "2. Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi" sözləri çıxarılsın. "Digər icraçılar" sütununa "7. Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi" və "8. Maddi-texniki təminat şöbəsi" sözləri əlavə edilsin.

**1.6.** Aşağıdakı məzmunda 4-1-ci bənd əlavə edilsin:

**"4-1.** Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşlarının informasiya kommunikasiya texnologiyaları sahəsində biliklərinin artırılması, açıq internet məkanında və sosial şəbəkələrdə mümkün risklər barədə məlumatlandırılması üzrə təlimlərin keçirilməsini təşkil etmək". Əsas icraçı Elm-Tədris Mərkəzi, digər icraçılar Kriminalistika və informasiya texnologiyaları idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi müəyyən edilsin. İcra müddəti "mütəmadi", ilkin nəticələr "Sahə üzrə qabaqcıl təcrübənin öyrənilməsi", aralıq nəticə "Təlimçilər üçün təlimlərin təşkil edilməsi", yekun nəticə olaraq "Təlimçilər vasitəsilə təlimlərin keçirilməsi" müəyyən edilsin.

**1.7.** Aşağıdakı məzmunda 4-2-ci bənd əlavə edilsin:

**"4-2.** İnformasiya kommunikasiya texnologiyaları sahəsində çalışan əməkdaşların bilik və təcrübə səviyyəsinin artırılması". Əsas icraçı Kriminalistika və informasiya texnologiyaları idarəsi, icra müddəti "mütəmadi", ilkin nəticələr "Sahə üzrə qabaqcıl təcrübənin öyrənilməsi", aralıq nəticə "Təlimçilər üçün təlimlərin təşkil edilməsi", yekun nəticə olaraq "Təlimçilər vasitəsilə təlimlərin keçirilməsi" müəyyən edilsin.

**1.8.** Aşağıdakı məzmunda 6-cı bənd əlavə edilsin:

**"6.** Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində kibercinayətlərə dair istintaqı aparılmış cinayət işlərini ümumiləşdirmək və bu sahədə işin səmərəliliyinin artırılması üçün zəruri tədbirlərin görülməsini təmin etmək". Əsas icraçı Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, icra müddəti "mütəmadi", ilkin nəticələr "Kibercinayətlərlə bağlı cinayət işlərinin öyrənilməsi", aralıq nəticə "Ümumiləşdirmələrin aparılması", yekun nəticə olaraq "Müəyyən edilmiş əhəmiyyətli hallarla bağlı təkliflərin verilməsi, zəruri tədbirlərin görülməsi" müəyyən edilsin.

**1.9.** Aşağıdakı məzmunda 7-ci bənd əlavə edilsin:

**"7.** Daxili işlər orqanlarında kibercinayətlərə dair istintaqı aparılmış cinayət işlərini ümumiləşdirmək və bu sahədə işin səmərəliliyinin artırılması üçün zəruri tədbirlərin görülməsini təmin etmək". Əsas icraçı Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, icra müddəti "mütəmadi", ilkin nəticələr "Kibercinayətlərlə bağlı cinayət işlərinin öyrənilməsi", aralıq nəticə "Ümumiləşdirmələrin aparılması", yekun nəticə olaraq "Müəyyən edilmiş əhəmiyyətli hallarla bağlı təkliflərin verilməsi, zəruri tədbirlərin görülməsi" müəyyən edilsin.

**2.** Əmr elan və icra olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**